بسم الله الرحمن الرحيم

**İslam Araşdırmaları Elmi-Tədqiqat Jurnalı**
**İslam Araşdırmaları İnstitutu Azərbaycan Tələbələrinin Elmi Birliyi**

İslam Araşdırmaları

dördüncü il, altıncı sayı (payız-qış / 2024)

İslam Araşdırmaları İnstitutu, Azərbaycan bölümü

**İmtiyaz sahibi**: Əl-Mustafa Beynəlxalq Universiteti

Əl-Mustafa Virtual Universiteti İslam Araşdırmaları İnstitutu

və Əl-Mustafa Virtual Universiteti Elmi-Tədqiqat Departamentliyinin birgə əməkdaşlığı ilə

**Məsul müdir**: Höccətülislam Dr. Səid Ərcuməndfər

**Baş redaktor**: PhD. Tofiq Əsədov

**Elmi redaktor**: PhD. Tofiq Əsədov

**Texniki redaktor**: Cəlal Bənitalibi

**Ünvan**: Qum, Cənubi Sahil küçəsi, Mosalladan öncə, 6-cı və 4-cü küçələr arasında
**Poçt qutusu**: 3713913554
**Telefon və faks**: 32114185 - 32613875
**Nömrələr**: elektron çap
**Səhifələrin sayı**:353
**Veb**: www.mou.ir
**E-poçt**: tofiq.asadov@inbox.ru

Redaksiya heyəti

| | |
|---|---|
| PhD. Tofiq Əsədov | Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Sədri, Əl-Mustafa Beynəlxalq Universiteti Elmi Heyətinin Əsas Üzvü |
| PhD. Elman Ağamoğlanov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Firuz Niftiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Elman Rəsulov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Azər Quliyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Cəbrayıl Abiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |


***Lisenziya əsasında:***

***Əl-Mustafa Beynəlxalq Universitetinin Elmi-Tədqiqat Departamentliyi***

***Elmi-Tədqiqatların Təşkili və Dəstək Baş İdarəsi***

***(Tarix: 16/01/2022)***

***Bu jurnal elmi-tədqiqat jurnalı səviyyəsindədir***

***(Xüsusi olaraq tələbələrin elmi birlikləri üçün müəyyən edildi.)***

# Məqalə və təqdim şəkli

1.Məqalə aşağıdakı bölümlərə malik olmalıdır:
Ünvan, xülasə, açar kəlmələr, müqəddimə yaxud mövzuya giriş, məqalənin əsas mətni, nəticə, istifadə olunmu mənbələr.
2. Məqalələr əvvəllər çap olunmamış olmalı və müəllif məqaləni başqa nəşriyyəyə verməyə öhdədar olmamalıdır.
3.Elmi və hüquqi cəhətdən məqalənin doğruluğu üçün , müəllif məsuliyət daşıyır.
4.Məqalələrin qəbul edilib-edilməməsi jurnalın öhdəsindədir.
5.Elmi dəyərləndirmədən sonra məqalənin jurnalda çal olunması üçün son təsdiq, təhrir heyətini öhdəsindədir.
6.Məqalənin həcmi ən az 7 səhifə və ən çox 30 səhifə, hər səhifədə 250 kəlmə olmalıdır.
7.Jurnalın məqalələrindən istifadə, jurnala istinad verilmək şərtilə manesizdir.
8. Azərbaycan dilindəki məqalələr font 13 və Times New Roman xəttilə yazılmalıdır.
9.İstifadə olunmuş mənbələr əlifba sıraası ilə və aşağıdakı şəkildə olmalıdır:
İstifadə edilmiş kitab: Müəllifin familyası, adı, nəşr ili, kitabın ünvanı (bold şəklində), tərcüməçinin və yaxud düzəliş edən şəxsin adı, çap növbəsi, məkan, nəşriyyat.
10. İstifdə edilmiş məqalə: Müəllifin familyası, adı, nəşr ili, məqalnin ünvanı, tərcüməçinin adı, nəşriyyat (bold şəklində), çap dövrəsi, çap nömrəsi, məqalənin səhifələrinin sayı, nəşr ili.
11.Mətndə istiadə edilmiş mənbələrin haşiyədə qeyd olunma tərzi: Müəllifin adı, nəşr ili, səhifə.
Bununla birgə, ad, familya, elmi rütbə, ünvan, tel. nömrəsi və elektron-poçtunuzu (email) göndərin.

## Mündəricat

*Baş redaktordan ............................................................................7*

*İslam sülh və əminamanlıq dini .....................................................8*

**Ağamoğlan Cəfərov**

*Qadının zərafəti, qadının gücü .................................................... 45*

**Aynur Əzimova**

*Evlilikdə hədəf və ölçülər ............................................................ 80*

**Fariz Babayev**

*Övlad tərbiyəsində valideynlərin rolu .........................................107*

**İlahə Kərimova**

*İslamın yayıldığı ilkin çağlar ......................................................141*

**Şəmsi Məhərromov**

*Əxlaqi inhiraflardan bir-birini qorumaqda cütlərin rolu .................166*

**Məlahət Rəcəbova**

*Vəhyin mahiyyəti ......................................................................204*

**Meysam Javadnia**

*Quran elmləri ...........................................................................223*

**Azər Quliyev**

*Fəlsəfə ilə ümumi tanışlıq..........................................................245*

**Şamil Qarayev**

*İslamda məhəbbət mexanizmi ....................................................259*

**Vəfadar İsmayılov**

*Nəhcül-bəlağədə vəhdət prinsipi ...............................................279*

**Xədicə Babayeva**

*İslamda xoşbəxt ailə strukturu ...................................................291*

**Könül İmanova**

## Baş redaktordan

Maarifçi, hər hansısa elmi və yaxud mənalı fikri başqalarına çatdıran və düşündürən şəxsdir. Başqa sözlə desək, xalqa düzgün ideologiya və faydalı olan həyat tərzini öyrədən, həqiqəti və gözəlliyi sevdirən insandır, maarifçi!

Görəsən hər kəs maarifçi ola bilərmi? Yaxud hər şəxs öz bildiklərini başqaları ilə bölüşmək bacarığına malikdirmi? Əslində, cavab müsbətdir. Hətta ilkin yaranışdan bəri, nəinki təkcə insan övladında, ümumiyyətlə, instinktlə hərəkət edən digər canlılarda da, təhlükə və fayda zamanı bir-birlərini münasib səmtə yönəltmə üslubu var. Belə ki, təbiətdə hansısa bir canlı təhlükə hiss etdiyində, başqa canlıları həmin təhlükənin varlığından xəbərdar etdiyinin şahidi oluruq. Yaxud bir mənfəət əldə etdiyi zaman öz həmnövlərini birgə faydalanmağa səslədiyini görmək olur. Bu, təbiətdəki canlıların instinktinə xas olan xüsusiyyətdir. İnsan da canlıların ən şərəflisi olduğu üçün, həqiqətləri ən gözəl şəkildə öz aralarında paylaşmağa görəvlənmişdir. Bu görəv həm onun fitrətində qoyulmuş, həm də İlahi dinlər tərəfindən hər bir insan öz elmi qədər bu mənəvi işə əməl etməyə dəvət olunmuşdur.

Ümid edirəm ki, qarşınızdakı bu jurnal siz əziz oxuculara dəyərli yazar maarifçilərimiz tərəfindən gözəl ərməğan olsun. Gözəl mütaliələr diləyirəm.

Dr. Tofiq Əsədov

# İslam sülh və əminamanlıq dini

*Ağamoğlan Cəfərov1*

## Abstrakt

İslam baxımından insan həyatı toxunulmazdır. Müsəlman öz həyatını və digər insanların həyatını dəyərləndirməlidir. Heç bir səbəb olmadan insanı həyatdan məhrum etmək insanlığa qarşı qətl kimi qiymətləndirilir. Son illər Qərb ictimai şüurunda özünü və başqalarını partladan islam intiharçı terroristlərin cənnətə düşmək üçün bunu etdikləri deyilir. Mətbuat cihad, şəhid və s. islam terminlərini təkrar-təkrar yazaraq yayır, bu terminlərin mənasını düzgün şərh etmir, halbuki İslam aydın şəkildə terroru qəti şəkildə qadağan edir və əksinə, danışığa və sülhə dəvət edir. Son olaraq isə, mənəvi dəyərlər və vətən uğrunda mübarizəyə çağırır.

**Açar kəlmələr:** İslam, sülh, əminamanlıq, vəhdət

---

[1]- İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

**Giriş**

"Məni yad etməkdən üz döndərən kəs üçün isə (qeyb aləmindən qırıldığı, nəfsi qane olmadığı, gözü doymadığı, arxalandığı dayaqlar süst olduğu və hadisələrdən qorxduğu üçün, var-dövləti çox olsa belə) mütləq sıxıntılı həyat olacaqdır və Qiyamət günü onu Məhşərə kor gətirərik."1

Qurani-Kərim Allah-Taalanı yenilməz qüvvət sahibi bildirib deyir ki, yaxşı və xoşbəxt həyata can atan insan imandan üz döndərməklə, uğurlara və səadətə aparan yoldan və bütün bu faydalardan üz çevirmiş olur. Hər birimiz özü üçün indi nəyin vacib olduğunu müəyyənləşdirməli və gələcəkdə də nə qədər əhəmiyyətli olacağını fikirləşməlidir. Əgər insan qanuni üsullarla səadət yolunu seçibsə, bu işdə Allah-Taala ona kömək edər və o, qəlbində xoşbəxtlik və əminamanlıq tapar. Allah-Taala insanı həm yoxsulluq, həm də zənginliklə sınağa çəkə bilər və bu sınaqlardan hansının insana daha çətin olduğunu yalnız O bilir. Yalnız mömin insana Uca Yaradan yenilməz qüvvət verər və bu həyatda məruz qaldığı imtahana görə və Allah-Taaladan aldığı hər bir şey üçün Allaha şükür edər.

İslam dinc və sülhsevər din olaraq insanları xeyirxah işlər və yaxşı əməllər görməyə çağırır. Qurani-Kərimdə belə deyilir: "Şübhəsiz, Allah təqvalı olanlarla və yaxşı işlər görən kəslərlədir."2 "Və (kafirlərin casusları tərəfindən) təqvalılara deyilər: "Rəbbiniz nə nazil etmişdir?" Deyərlər: "(Başdan-başa) xeyir və yaxşılıq (gözəl hökmlər və gözəl savablar)!" (Bəli) yaxşılıq edənlər üçün bu dünyada gözəl mükafat (pak və gözəl həyat) vardır və şübhəsiz, (onlar üçün) axirət evi daha

---

[1]- Taha surəsi ayə124

[2]- Ən Nəhl surəsi ayə 128

yaxşıdır. Təqvalıların evi necə də gözəldir!"1 "Onların daxil olacaqları əbədi bağların (ağaclarının) altından çaylar axır. Orada onlar üçün istədikləri hər bir şey vardır. Allah təqvalıları belə mükafatlandırır."2 "O kəslər ki, mələklər, canlarını onlar (küfr və itaətsizlik çirkinliyindən) pak olan halda alarkən (onlara) "salam olsun sizə, etdiklərinizin mükafatı olaraq Cənnətə (hələlik Bərzəx aləmindəki Cənnətə, Qiyamətdən sonra isə əbədi Cənnətə) daxil olun" deyərlər."3

Həqiqi mömin üçün İslam dini dünyanın bilik sərhədlərini genişləndirir. İslam dini barədə şəriət qanunları 1400 il bundan əvvəl yaranmışdır. Əgər İslama xas olan bütün keyfiyyətləri cəmiyyət və insanlar düzgün anlayıb riayyət etsələr dinin rolunun aşağıdakı funksiyalara bölmək olar:

1.İslam dini insanlığı doğru yola istiqamətləndirən həyatın mənasını ifadə edən sülh və təqva yoludur.

2.İslam insanlar üçün hidayət və rahatlıq yolu, həyatlarına isə ümid və dayaqdır. İnsanlar həyatlarının çətin anlarında, kədər və narahatlıq üz verəndə dinə üz tutumaları təsadüfü deyil. Mömünin Peyğəmbəri Muhəmmədə (s) olan məhəbbəti onun daxilən dəyişilərək ədəb və davranışında idealı olan Peyğəmbərinə(s) oxşamağına can atmasıdır.

3.İslam dini biliklərini zənginləşdirən müsəlman öz dinini digər insanlara çatdırmağa (təbliğ etməyə) qadir olur, çətinliklərə, ona qarşı olan rişğənd və təhqirlərə baxmayaraq İslamın ədalətli, insanlara yalnız yaxşılıq gətirən bir din olduğunu bildirir. O təmiz qəlbli, yüksək əxlaqlı bir insana

[1] - Ən Nəhl surəsi ayə 30
[2] - Ən Nəhl surəsi ayə 31
[3] - Ən Nəhl surəsi ayə 32

çevrilir ki,digər insanlar da ona oxşamağa və ondan nümunə götürməyə çalışır.

4.İslam mənəvi dəyərlər, halal-haram məsələlərində dindarın hərəkətinə nəzarət edir. İslam - İslam qanunları ilə tamamilə və ya qismən yaşayan böyük icmalara və bütün dövlətlərə təsir göstərmək qüdrətinə malik bir dindir. Ancaq İslama aid olmaq insanın qınanmalı bir hərəkət etməməsinin, cəmiyyətin əxlaqsızlığa və qanunsuzluğa düşməsinin qarşısını həmişə ala bilmir. Bu kədərli vəziyyət insan ruhunun dünyada şeytani əməllərin qarşısında aldanmalarının nəticəsidir.

5.Əgər insanlar uca yaradanın "Parçalanmayın" sözünə əməl etsələr Islam dini xalqların, millətlərin birləşdirilməsinə, təhsilə və dövlətçiliyin güclənməsinə kömək edər.

6.İslam dini cəmiyyətin mənəvi həyatının əsas hissəsidir. İslam ədəbiyyatı və incəsənəti, memarlığı bu günə kimi bəşəriyyəti heyran etməkdə davam edir, elmlərin çoxu İslam yarandığı gündən etibarən inkişaf tapmışdır. Beləliklə İslamın yaradıcı din olduğunun nəticəsinə gəlirik.

7.İslam ictimai asayişi gücləndirməyə, ailə ənənələrinə və həyat qanunlarına kömək edən dindir. Din həmişə təməllərini, sabitliyi, qayda və qanunları qorumağa çalışır. Bu müasir zamanımıza, hər bir fərd, cəmiyyət və dövlətlərə vacibdir. İnsanlar fikirlərini dəyişib günah və haramlara müqavimət göstərsə, niyyəti onların xarakterinini yaxşılığa yönəldər, özlərini və cəmiyyəti dəyişdirə biləcəklər. Müsəlmanlar bir-birinə qarşı mərhəmətli olmalı, qayğı və məhəbbət göstərməli,

ətrafdakılara qarşı təmannasız xeyirxaq və diqqətli olmalı, bunun müqabilində minnətdarlıq gözləməməlidir.

Bir dinin adı altında ortaya çıxdığını bildirən insanlardan bir qismi o dini səhv anlamış və səhv tətbiq etmiş ola bilər. Bu səbəblə də həmin insanlara baxaraq o din haqqında fikir söyləmək yanlış olar. Müasir dövrdə gənclərimizin Allahın yoluna qayıtması hər kəsi sevindirmişdi. Bununla İslam Universitetləri, mədrəsələri, elm məclisləri çoxaldı, gənclərimiz İslam dininə yiyələnməyə başladılar. Lakin bəzi radikal qruplar İslam gənclərinin birliyini pozaraq onları terrora, çirkin əməllərə yönəltdilər.
Bütün bunlar göstərir ki, günahsız insanlara qarşı terror əməlləri hazırlamaq və onları həyata keçirmək İslama tamamilə zidd bir işdir və heç bir müsəlman belə bir günah edə bilməz. Əksinə, müsəlmanlar bu gün belə günah iş tutan insanların qarşısını almaqla yer üzündəki fitnə-fəsadı aradan qaldırmağa və bütün insanlara rahatlıq və əmin-amanlıq gətirməyə görə məsuliyyət daşıyırlar. Müsəlmançılıq terrorla bir yerdə ola, hətta birgə təsəvvür edilə bilməz, əksinə, İslam terrorun qarşısındakı ən böyük maneə və terror probleminin çözülməsi yoludur.

**Allah Təala buyurur**:
“Beləliklə, əgər sən(in dəvətin)ə cavab verməsələr, bil ki, onlar öz (nəfsi) istəklərinə uymuşlar. Allahın hidayəti olmadan, öz

(nəfsi) istəklərinə uyandan daha çox azğın kim ola bilər?! Həqiqətən, Allah zalım tayfanı doğru yola yönəltməz."[1]

Başqa bir ayədə Allah-Taala buyurur: "(Məbud, Allaha yaxınlaşdıran və şəfaətçi adlandırılan) bu bütlər sizin və atalarınızın (onlara) qoyduğunuz quru adlardan başqa bir şey deyildirlər. Allah onlar(ın haqq olmaların)a dair əsla bir dəlil-sübut nazil etməmişdir. (Bəli,) onlar yalnız gümana və nəfsi istəklərə tabe olurlar, halbuki Rəbbləri tərəfindən onlara hidayət vasitəsi (Qur'an və Peyğəmbər) gəlmişdir."2

Lakin yuxarıda qeyd edilən radikal qruplar və onların nadan başçıları İslam gənclərini dində həddini aşmağa və İslam dini ilə əlaqəsi olmayan çirkin əməllərə sövq etdilər.

**Allah-Təala buyurur:"De:**

«Ey kitab əhli, öz dininizdə haqsız yerə ifrata varmayın (bəşər övladını Allah və ya Allahın oğlu, yaxud üç Allahdan biri hesab etməyin) və həmçinin bundan qabaq (fitrətin düz yolundan) azmış, çoxlarını azdırmış və doğru yoldan (peyğəmbərlərin şəriətlərindən) sapmış dəstənin nəfsi istəklərinə tabe olmayın»."[3]

Əlbəttə ki, dində həddini aşaraq İslam gənclərini radikallığa və İslam dini tərəfindən lənətlənmiş terror hadisələrinə cəlb edənləri şeytan aldatmış, onları doğru yoldan uzaqlaşdıraraq onların çirkin əməllərini gözəl göstərmişdir. Uca Allah Qurani-Kərimdə belə insanlar

---

[1]- Əl-Qəsas surəsi ayə 50
[2]- Ən-Nəcm surəsi ayə23
[3]- Əl-Maidə surəsi ayə77

haqqında buyurur: “Pis əməlləri onun üçün zinətlənmiş olan və onları gözəl görən (bilən) bir kəs, (həqiqəti görən mömin kimidirmi? Əsla belə deyildir) çünki, Allah (bəşəri dəvət edib dəlilləri təqdim etdikdən sonra) istədiyini azğınlıqda buraxar və istədiyini doğru yola yönəldər, belə isə məbada onlara görə olan təəssüflər və kədərlər üzündən canın əldən gedə! Allah onların nə etdiklərini biləndir.”[1]

Başqa bir ayədə Allah-Taala buyurur: “Belə isə məgər (işləri) öz Rəbbi tərəfindən dəlil-sübut (təməli) üzərində olan kəslər (möminlər kimi ağıl və şəriətə əsaslananlar) pis əməlləri özlərinə gözəl göstərilən və öz nəfsi istəklərinə tabe olan kəslər kimidirlər?!”[2]

Uca Allah həmçinin buyurur: “Belə isə, məgər (yolun enişli-yoxuşlu olması üzündən) yıxılaraq və üzü üstə sürünərək yol gedən şəxs daha artıq hidayət tapmışdır, yoxsa dik qamətlə düzgün yolda gedən şəxs?! (Daim küfr və pozğunluq sapqınlığında həyat yolu gedən kafir, ya dinin düz yolunda imana söykənən bir mömin daha artıq hidayət olunmuşdur?!)”[3]

Məlum olduğu kimi İslam dini həmişə fitnə fəsadın əleyhinə olmuş və onunla mübarizə aparmışdır. Çünki İslam dini rəhmət və mərhəmət dinidir: Uca Allah Qurani-Kərimdə sonuncu Elçisi Muhəmmədi (s) insanlara rəhmət olaraq göndərdiyini bildirmişdir.

---

[1]- Fatir surəsi ayə8
[2]-Məhəmməd surəsi ayə 14
[3]-Əl-Mülk surəsi ayə22

**Allah-Taala buyurur:**

“Ramazan ayı insanların bələdçisi, aşkar hidayət dəlillərinə malik və (haqq ilə batili bir-birindən) ayıran Quranın nazil olduğu bir aydır. Buna görə də sizdən bu ayı görən (öz vətənində olan) kəs, onu (o ayı) oruc tutmalıdır.Xəstə, yaxud səfərdə olan kəs isə başqa günlərdə bir neçə gün (oruc tutmadığı günlərin sayı qədər oruc tutmalıdır).Allah sizin üçün asanlıq istəyir, sizin üçün çətinlik istəmir. Həmçinin (istəyir ki,) müəyyən olunmuş miqdarı (otuz günü) tamamlayasınız və sizi hidayət etməsinin şükrü olaraq "təkbir" deyərək Allahı əzəmətli sayasınız, bəlkə (Onun) şükrünü yerinə yetirə bildiniz.”[1]

Başqa bir ayədə Uca Allah buyurur: “Allah (müvəqqəti evlənmək, kənizi almaq və digər qanunlarla) sizə yüngüllük gətirmək istəyir. İnsan (nəfsinin istəkləri müqabilində) zəif və aciz yaradılmışdır.”[2]

Həmçinin İslam dini insanlara həmişə orta yolu seçməyi bildirmiş, şiddətli olmağı və həddini aşmağı qadağan etmişdir.

**Allah Təala buyurur:**

“(Sizin üçün müstəqil bir qiblə təyin etdiyimiz kimi) sizi orta (ifrat və onun ziddi arasında mötədil) bir ümmət etdik ki, (Qiyamət günü) siz insanlara şahid olasınız və bu Peyğəmbər də sizə şahid olsun. Biz sənin əvvələr üz tutduğun qibləni (Beytül-Müqəddəsi) Peyğəmbərə tabe olan

[1]-Əl-Bəqərə surəsi ayə185
[2]-Ən-Nisa surəsi ayə28

şəxsi geri dönən (və keçmiş qiblədə qalan) şəxsdən ayırd etməkdən (əzəli elmimizi xaricdə gerçəkləşdirməkdən) başqa bir şey üçün (qiblə) təyin etməmişdik. Hərçənd ki, bu hökm Allahın hidayət etdiyi şəxslərdən başqası üçün çətin və ağır idi. Allah sizin imanınızı (keçmiş etiqadlarınızın, yaxud əvvəlki qibləyə üz tutub etdiyiniz ibadətlərin savabını) zay etmək istəmir. Həqiqətən Allah insanlara qarşı olduqca şəfqətli və mehribandır."[1]

İslam ümmətinin əsas xüsusiyyəti də budur. Hətta Allah-Taala hər şeydə, hətta yemək-içməkdə belə həddini aşmağı qadağan etmişdir.

**Allah-Taala buyurur:**

"Ey Adəm övladları, hər namaz vaxtı və hər bir məsciddə (əməl və məkana uyğun olaraq) bəzək və zinətlərinizi götürün (gözəl geyinin), (Allahın halal buyurduğu bütün halal yeməklərdən) yeyin-için, lakin israf etməyin ki, O, israf edənləri sevmir."[2]

Başqa bir ayədə Allah-Taala buyurur:"Və əlini bağlayıb boynuna qoyma (vacibləri verməkdə xəsislik etmə) və onu tamamilə də açma (özün möhtac olacağın həddə qədər vermə) ki, qınanmış və aciz halda düşüb qalarsan."[3]

Şübhəsiz, bir dinin adı altında ortaya çıxdığını bildirən insanların bir qismi o dini səhv anlamış və səhv tətbiq etmiş ola bilər. Bu səbəblə də həmin insanlara baxaraq o din

---

[1]-Əl-Bəqərə surəsi ayə143
[2]-Əl-Əraf surəsi ayə31
[3]-Əl-İsra surəsi ayə 29

haqqında fikir söyləmək yanlış olar. Bir dini tanımağın ən doğru yolu o dinin müqəddəs qaynağını araşdırmaqdır. İslamın müqəddəs mənbəyi Qurani-Kərimdir. Quran əxlaqı sevgi, şəfqət, mərhəmət, ədalət, təvazökarlıq, fədakarlıq, xeyirxahlıq və sülh anlayışlarına əsaslanır. Bu əxlaqı həqiqi mənada yaşayan bir müsəlman son dərəcə kübar, gözütox, dərin düşüncəli, incə ruhlu, təvazökar, ədalətli, xoşniyyət, səmimi, etibarlı və hərtərəfli şəkildə kamil bir insan olur, ətrafındakılara da sevgi, sayğı, rahatlıq və həyat sevinci bəxş edir.

Lakin niyəsə bəzi qüvvələr İslamda olmayan, İslam dininə zidd olan xüsusiyyətləri dinə aid etməyə çalışırlar. Müasir zamanda yaşayan hər bir insan Qərbin İslam dinimiz ilə necə manipulyasiya etdiklərini çılpaq gözlə də görə bilər. Guya İslam digər dinlərə qarşı dözümsüzlük göstərir, İslam qanunları ilə yaşamaq istəməyənlərə qarşı zülm edir və qətlə yetirir.

Bədbəxtliyi İslam dini yox, bu dinin təfsilatını yanlış başa düşmək və səhv anlayışa riayət etməkdir. İş o yerə gəlib çatıb ki, bu insanlar getdikləri yanlış yolu (fanatiklər, ekstremistlər, terrorçular), özləri tək getmirlər. Həmçinin əxlaqi və mənəvi cəhətdən yetişməmiş insanlara, əsasən gənclərə dinin yanlış təbliği ilə məşğul olurlar. İslam dini insan həyatında əxlaq və ədəb qanunu olduğu halda dindən uzaq olan bu şəxslər Allahın adı ilə qanunsuzluq edir, insanları öldürür. Həqiqi möminlər isə insanları doğru yola yönəldənlərdir. Bu yol məhəbbət yoludur, Allahın qarşısında təvazökarlıq və səbr nümayiş etdirən bir yoldur.

Tez-tez insanlar din pərdəsi arxasında gizlənərək pislik və müsibətlər gətirirlər. Buna görə də dinə qarşı deyil, bu insanlara qarşı mübarizə aparmaq lazımdır. İnsanları öldürən, namuslarına toxunan, yaramazlıq və qanunsuzluq edənlərin Allah və dini sevdiklərini söyləməklərinə inanmaq olarmı? Digər insanları sevməyən Allahın qanunlarına riayət etməyən Allahı sevə bilməz! Uca Yaradandan razı müsəlmanlar isə başqa insanlara məhəbbətlə yanaşır.

Bəzi cərəyanının yaranması onların digır məzhəb və dinlərə qarşı qarşıdurması ilə nəticələndi. Bu qarşıdurma cəmiyyətimizdə indiyədək hiss olunur. Bu cərəyan yalnız öz qanunlarını tanıyır və öz imanlarının düzgünlüyünə inanırlar. Onlar haqlı olduqlarını mübahisələrlə deyil, terrorçu hərəkətlər və dinc insanların və uşaqların qətli ilə sübut edirlər. Dini ekstremizm dünya daxilində ictimai gərginliyin qaynağıdır və onun təzahürü dünyanın hər hansı bir yerində gözləmək olar. Yalnız Allah-Taala ona iman gətirən möminlərə mənfi hisslər və qorxulara qarşı mübarizə aparmağda kömək edəcəkdir. Dini biliklər, Quran-Kərimi, Muhəmməd Peyğəmbərin(s) və İmamların (ə) hədislərin öyrənmək dünya və axirət həyatının həqiqətlərini aşkar etməkdə, Cənnətə gedən yolda möminlərə kömək olacaq. Islam bu dünyada insanlara düzgün yol seçməkdə kömək edir. İnsanlara həyat çətinliklərini və ölüm qorxusunu aradan qaldırmaq üçün daha yaxşı yol seçimi etməkdə bilik verən və axirət aləminə onun nə gözlədiyini öyrədən dindir.

Nahaq yerə adam öldürməyin böyük (kəbirə) günah olmasının dəlili Peyğəmbər(s) və İmamlarımızdan (ə) nəql

olunan hədislərdir. Bundan əlavə nahaq yerə adam öldürmək Qurani-Kərimdə aşkar şəkildə əzab vədəsi verdiyi günahlardan biridir. Qurani-Kərim buyurur: "Kim bir mömini qəsdən öldürsə (və bu əməli halal hesab etsə), onun cəzası cəhənnəmdir ki, orada əbədi qalacaqdır. Həmçinin Allah ona qəzəb edər, onu Öz rəhmətindən uzaqlaşdırar və onun üçün böyük bir əzab hazırlayar".[1] Ayədə mömin şəxsi öldürənlər cəhənnəm, orada əbədi qalmaq, Allahın qəzəbi, lənət və böyük əzab gözləyir.

İslam şəriətinə görə müsəlmanın malı və qanı toxunulmazdır. Həccətül-vidada Peyğəmbərimiz(s) buyurdu: "Ey insanlar! Müsəlmanın qanını axıtmaq halal deyildir. Həmçinin malını da aparmaq caiz deyildir, yalnız o zaman caiz olar ki, özü razı olsun. Belə isə özünüzə zülm etməyin, məndən sonra küfrə, kafirliyə qayıtmayın."[2]

İslam dinində intihar qəti qadağandır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına əsasən, ən aşağı intihar səviyyəsi islam ölkələrində qeydə alınıb. İnsan həyatının dəyəri İslam baxışıdır. İslam nöqteyi nəzərindən həyat bir imtahandır və bu imtahandan keçən şəxs axirət dünyasının təməlini qoyur. Həyat yolunda baş verən imtahanlar müxtəlif ola bilər. Uca yaradan bəzi insanları yoxsulluq, aclıq, xəstəlik, yaxınlarının ölməsi ilə , digərlərini isə sərvət, dəbdəbəli həyat,hakimiyyət və s.ilə imtahana çəkir.

Təcavüzkarlara qarşı mübarizə apararkən özünü dinc insan kütləsinin olduğu yerdə partladmaq İslam tarixində rast

---

[1]- Ən-Nisa surəsi ayə 93
[2] Böyük günahlar cild 1 səh 171

gəlinməyib. İnsanın hər hansı formada intihar etməsi, həmçinin qətl etməsi İslamın ruhuna zidd və şəriət normalarına uyğun gəlmir. Buna görə Allaha inandığını və Quranı özünə rəhbər hesab edən bir insan başqa bir insanı ya da özünü qanunsuz olaraq həyatdan məhrum edə bilməz. İslam hər cür zorakılığı o cümlədən insanın özünə qarşı zorakılığı qəti olaraq qadağan edir.

Quran intiharın da qətl kimi İslama zidd olduğunu öyrədir. Müsəlman ənənələrində, Qurani-Kərim və Hədislərində intihar birmənalı olaraq pislənir. Allah-Taala Quranda buyurur: “Ey iman gətirənlər, qarşılıqlı razılıq əsasında olan ticarət istisna olmaqla öz aranızda bir-birinizin mallarını haqsız yerə (şəriət və qanuna zidd yollarla) yeməyin. intihar etməyin, bir-birinizi öldürməyin və özünüzü günah təhlükəsinə atmayın. Həqiqətən Allah sizə qarşı həmişə mehribandır.”[1]

İslam baxımından intihar edən şəxs böyük günah sahibidir. Şəriət intihar edəni cəhənnəmdə əbədi əzab olan bir cinayətkar kimi nəzərdən keçirir. İmam Baqir(ə) buyurur: "Mömin hər bəlaya giriftar olar və hər ölümlə ölər, ancaq intihar etməz".[2] İmamSadiq(ə) buyurur: "Kim bilərəkdən özünü öldürsə, həmişə cəhənnəm odunda olacaq".[3] Beləliklə İslam Allahın verdiyi taledən qaçaraq intihar etmək istəyənləri kəskin olaraq qınayır.

Bir çox hallarda müsəlmanların intihar etmək qərarının səbəbi adi bir cahillik olur. İslam dinin əsaslarını bilən şəxs

---

[1]-Ən-Nisa surəsi ayə 29
[2]- Mizanul hikmət səh723
[3] -Mizanul hikmət səh723

heç vaxt özünü öldürməyə cəsarət edə bilməz o, intiharın istədiyi rahatlığa gətirməyəcəyini yaxşı bilir, onu daha böyük və əbədi əzaba düçar edəcəyini bilir. Səbirli olub ,bu dünyanın sınaqlarından ləyaqətlə keçmiş olanların əbədi mükafat verildiyini də bilir.

Onu da qeyd etmək lazımdır ki bəzi dövlətlərdə müsəlman köklərinə, ad və soyadlarına baxmayaraq, özlərinin "etnik" müsəlman adlandıranlar imanlarının mahiyyətini, İslama uyğun yaşamaq qanunlarını bilmirlər

Həyatda doğru yol seçmək, əxlaqi və mənəvi sağlamlığa malik olmaq, haramlardan çəkinmək həyatda yaşanan təlaş və uğursuzluqlardan ən yaxşı müdafiədir. Buna görə də müsəlman yalnız dildə deyil, əməlləri ilə də imanını təsdiq etməlidir. İnsanın bəsirət gözünün daha artıq açılması üçün Həzrəti Əyyubun vəziyyətini, başına gələn əhvalatları mütaliə etmək kifayətdir. O Həzrət yeddi il (başqa rəvayətə görə isə on yeddi il) fəqirliyə və xəstəliyə düçar olduqdan sonra dedi: “Pərvərdigara, mənə zərər dəymişdir və Sən də rəhm edənlərin ən rəhimlisisən.” Allah onun duasını qəbul etdi, xəstəliklərinə şəfa verdi, mal-dövlətini yenidən özünə qaytardı. Quranda bu hadisə təfsilatı ilə qeyd olunmuşdur.[1]

Qurana və Muhəmməd Peyğəmbərin(s) sünnəsinə əməl edən müsəlman çox nadir hallarda depressiyyaya düşür, xəstəlik və yoxsulluğu asan keçirir, günaha batmaqdan xilas olur. Mömünin həyatda ağır duruma düşməsi onun üçün imtahan olur. O xöşbəxt günlərində Allaha şükür edər, kədərli günlərində səbr edər.

---

[1] -Böyük günahlar,c1səh.125

Allah kəlamı olan müqəddəs Quran-Kərim möminin səbirli olmasını və ümidsizliyə düşməməsini deyir. Quranda Rəbb mütləq həqiqi möminlərin ümidsizliyə deyil, səbirli olmasını söyləyir. “Ey iman gətirənlər, səbrli olun və başqalarını da səbrə sövq edin, düşmən qarşısında müqavimət göstərin, sərhəddin keşiyində durun və Allahdan qorxun, bəlkə nicat tapdınız.”[1] (Müsəlmanlar) “Həmin o kəslər ki, səbr etdilər və həmişə öz Rəbbinə təvəkkül edirlər.”[2] “Sizin yanınızda olan tükənir və puç olur, Allahın yanında olan isə daimi və əbədidir. Və (dini vəzifələri yerinə yetirməkdə) səbr etmiş kəslərin çox gözəl əməlləri müqabilindəki mükafatlarını verəcəyik.”[3]

Gerçək İslamdan uzaqlaşıb belə bir xürafə dininin mənimsənilməsi müsəlmanların bir hissəsini azadlıqdan, elm və sənətdən, ən əhəmiyyətlisi isə Quranı-Kərimin əslindən uzaqlaşdırdı, həm də radikallaşdırdı.

Sələfi-vəhabi cərəyanı dünyada milyonlarla insanın doğru zənn etdiyi yanlış dini təbliğ edir. Bu cərəyanın davamçıları onlara qarşı çıxa bilmir, çünki təməldə onların yanlış yolda olduğunu düşünmürlər. Odur ki, bu problemin həll edilməsi ancaq İslam aləminin xürafələrə əsaslanan qaynaqları tamamilə kənara qoyub Qurani-Kərimə, Peyğəmbər(s) sünnəsinə və Əhli-beyt(ə) hədislərinə yönəlməsi ilə mümkündür.

---

[1]-Ali-İmran surəsi ayə 200
[2] -Ən-Nəhlsurəsi ayə 42
[3] -Ən-Nəhl surəsi ayə 96

Bir insan heç tanımadığı ölkəyə ölmək və ya öldürmək məqsədilə gedirsə, bunun səbəbi yalnız onun inancıdır. Bu inanc yanlış olduğuna görə qarşımızda açıq və qəti nəticə verəcək həll yolu vardır: bu insanlara doğru inancı doğru qaynaqdan, yəni Qurani-Kərimdən öyrətmək.

Terrorçuların əsas məqsədi qeyri-hərbi, yəni mülki hədəflərə qarşı siyasi məqsədlə güc tətbiq etməkdir. Başqa sözlə desək, terrorun hədəfləri tamamilə günahsız dinc insanlardır. Bu insanların yeganə “günahı” onun terrorçunun gözündə qarşı tərəf, onlardan olmayan tərəf olmasıdır. Terror dinc insanlara qarşı güc tədbiq edilməsi mənasına gəlir ki, bunun da əxlaqi anlamı yoxdur. İman əhli olan möminlər üçün isə günahsız insanları qətlə yetirmək Allaha qarşı çıxmaqdır. Bu gün əsasən Qərb dövlətləri İslamı terrorla uyğunlaşdırmağa çalışırlar.

Onlar bu həqiqəti anlamalıdırlar ki, Qurani-Kərim Allahın insanlara yolgöstərən olaraq endirdiyi kitabdır və Allah-Taala Qurani-Kərimdə insanlara gözəl əxlaqı əmr edir. Bu əxlaqın əsasında isə sevgi, şəfqət, xeyirxahlıq, ədalət və mərhəmət kimi anlayışlar dayanır. Quran ayələrində insanlar İslam əxlaqına çağırılır. “Bəqərə” surəsinin 208-ci ayəsində belə buyurulur: “Ey iman gətirənlər, hamılıqla (Allaha) təslim və itaətə daxil olun və şeytanın addımlarına tabe olmayın ki, həqiqətən, o sizin aşkar düşməninizdir.”[1]Ayədən göründüyü kimi, Allah-Taala insanların əmin-amanlığını onların Quran əxlaqına uyğun yaşamasında görür. İslam əxlaqına görə, müsəlman bütün digər insanlara qarşı mehriban və ədalətli

---

[1]-Əl-Bəqərə surəsi ayə 208

olmalıdır. O zəif və günahsızları qorumağa və yer üzündə fitnə-fəsadın qarşısını almağa məsuliyyət daşıyır. Bir ayədə buyurulur ki, Allah-Taala fitnə-fəsadı sevməz: “Üz döndərən (və sənin yanından çıxıb gedən, yaxud iş başına keçən) zaman isə yer üzündə fəsad törətmək, əkin sahələrini və nəsli məhv etmək üçün yola düşər. Allah fəsadı sevmir.”[1] Bir insanın günahsız yerə öldürülməsi isə İslamda ən böyük günahlardan biridir. Allah-Taala musəvilərə vəhy etdiyi bu əmri Quranda belə bildirir: “Bu səbəbdən (belə bir faciə baş verdiyi üçün) İsrail övladlarına (və tarix boyu olacaq bütün millətlərə belə) yazdıq və qərara aldıq ki, kim can qisası (haqqına malik) olmadan və ya yer üzündə fitnə-fəsad törətməmiş bir insanı öldürsə (ya islamdan küfrə aparsa), sanki bütün insanları öldürmüşdür (və azdırmışdır və o, günahsızların qatillərinə məxsus cəhənnəmdə olacaqdır) və kim bir insana həyat bəxş etsə (ölümdən nicat versə, yaxud küfrdən islama gətirsə), sanki bütün insanları diriltmiş (və hidayət etmiş)dir. Doğrudan da bizim peyğəmbərlərimiz onlar (İsrail övladları) üçün aydın dəlillər gətirdilər, sonra onların çoxu onun ardınca yer üzündə həddən artıq fəsad və qan tökməyə başladılar.”[2]

Göründüyü kimi, günahsız bir insanı öldürən şəxs bütün insanları öldürmüş qədər günah qazanır. Bu halda terrorçuların törətdiyi cinayətin, soyqırımın, intihar hücumlarının nə qədər böyük günah olduğu açıq-aydındır. Allah terrorun axirətdəki “mükafatı”nın nə olacağını belə bildirir:“(Cəza və tənbeh) yol(u) yalnız insanlara zülm edən və yer üzündə haqsız yerə

---

[1]-Əl-Bəqərə surəsi ayə 205
[2]-Əl-Maidə surəsi ayə 32

hökmranlıq və fəsad axtaran kəslərə qarşıdır (belələrinə qarşı açıqdır). Onlar üçün ağırılı bir əzab vardır."[1]

Bütün bunlar onu göstərir ki, günahsız insanlara qarşı qətl planı hazırlayıb həyata keçirmək İslama tamamilə ziddir və heç bir müsəlman belə günahı edə bilməz. Əksinə, müsəlmanlar günah iş tutan insanların qarşısını almağa və bütün insanlara əmin-amanlıq gətirməyə görə məsuliyyət daşıyırlar. İslam terrorla birgə təsəvvür edilə bilməz, əksinə İslam terrorun qarşısındakı ən böyük maneədir. Sülh İslamın təməli, ruhudur, lakin İslamı Qurana və Peyğəmbər(s) sünnəsinə deyil, vəhabi-sələfi əqidəsinə əsaslandıran xurafatçı məntiq isə bunun tam əksini təbliğ və tətbiq edir.

Vəhabilərin problemi sələfi məzhəbini din olaraq qəbul etmələridir. Bəzən sələfilərin əqidəsini tənqid edənlər onların doğru yol tutduqlarını zənn edib radikal olurlar. Qurandan dəlil gətirildikdə onlar da sələfilərdən dəlil gətirməyə çalışırlar. Elə ən böyük xətanı da burda edirlər. Əgər gerçək İslamı tanıyıb haqq yolunu tapmaq istəyirlərsə, Quranda bildirilən həqiqi dinə yönəlməlidirlər. Təkfirçilik və İslam arasındakı fərq ortaya çıxarılmadıqca radikalizm böyük bəla olaraq dünyanı bürüməyə davam edəcək. Buna görə insanlar arasında Qurandakı gözəl əxlaq, yəni gerçək İslam insanlara tanıdılmalıdır və xurafatla İslam arasındakı fərq ortaya çıxarılmalıdır. Allahın fitnə-fəsadı qadağan etdiyi, gözəl əxlaqı təşviq etdiyi və düşüncə azadlığının ən gözəlinin Quranda olduğu açıqlanmalıdır.

---

[1]-Əş-Şura surəsi ayə 42

“Hər bir itaətsiz batil qüvvədən və Allahdan qeyri məbuddan ona ibadət etməmək üçün çəkinmiş və Allaha tərəf qayıtmış kəslərə müjdə olsun! Buna görə də müjdə ver Mənim bəndələrimə! Sözlərə qulaq asıb onların ən yaxşısına tabe olan kəslərə! Allahın hidayət etdiyi kəslər onlardır və onlardır əsl ağıl sahibləri!”[1]

İslam ağıl və məntiq dinidir. İslam dini öz ardıcıllarını da doğru yola və həqiqətə qovuşmaq üçün həmişə sevgiyə, düşüncə və təfəkkürə dəvət edir, insaniyyətə qarşı olan hərəkətlərdən çəkindirir. Bütün tarix boyunca bəşəriyyət istər fərdi, istərsə də ictimai formada mübarizəsi insan nəslinin qırılmasına, maddi-mənəvi dəyərlərin tapdalanmasına gətirib çıxartmış, insanın kamala yetişməsinə sədd çəkmişdir. Qurani-Kərimin bir çox ayələrində bu həqiqət açıqlanmışdır.

"İnsanlar (xilqətin əvvəlində uzun müddət) yalnız vahid (və ixtilafsız) bir millət idilər. Beləliklə (dünya işlərində ictimai münasibətlərə görə, kitab nazil olduqdan sonra isə ixtilaflarını aradan qaldırmaq üçün kitabın özü ilə bağlı) ixtilafa düşdülər. Əgər (əzəli elmində və Lövhi-Məhfuzda) Rəbbindən (bütün dəlil-sübutlar təqdim edilməmişdən əzab verməmək və dəlil-sübutlar təqdim edildikdən sonra da tələsməmək barəsində) bir kəlam keçməsəydi, onların arasında mütləq ixtilaf etdikləri şey barəsində (əməli surətdə) hökm edilərdi."[2]

Şübhəsiz ki, bu ixtilafların kökündə müxtəlif amillər dayanıb və bunların bəzilərinə Qurani-Kərim ayələrinin dili ilə

---

[1]-Əz-Zumər surəsi ayə 17-18
[2] -Yunus surəsi ayə 19

işarə olunur: Qövm, xalq, millət və qrupların öz fikrinin həqiqətinə etiqad, əxlaq və rəftarlarının doğruluğuna, digər düşüncə tərzinin batil və yollarının haqsız olduğuna inam, insanlar arasında ixtilaf və toqquşmalara səbəb olmuşdur. Qurani-Kərim qısa bir cümlə ilə bu mühüm və köklü məqam barədə xəbərdarlıq edir: "O kəslərdən ki, öz dinlərini parçaladılar, bölük-bölük oldular və hər bir dəstə özündə olana sevinər."[1] Həvayi nəfsə itaət həmişə fərdi və ictimai ixtilaflara gətirib çıxarmış, insanlığın doğru yoldan çıxmasının əsas səbəblərindən biri olmuşdur. Necə ki, Qurani-Kərimdə bu çox gözəl ifadə olunmuşdur.

"Allah göyləri və yeri haqq (düzgün) olaraq (uca və ağılın qəbul etdiyi bir məqsədlə) yaratdı (ki, hər bir istedad sahibi özünün layiqli kamalına çatsın) və hər bir nəfs qazandığının müqabilində (digər aləmdə) cəzalandırılsın. Onlara əsla zülm edilməyəcək və haqları kəsilməyəcəkdir"[2] İnsanın nəfsinin qurbanına çevrilməsi onun haqqdan üz döndərməsinə səbəb olur və bu haqsızlıq insanın zülmətə doğru yuvarlanmasının başlanğıcıdır. İslam dini insan cəmiyyətlərinin bu mövcud reallığının müqabilində, ilk növbədə dialoq və fikir mübadiləsi təklif edir. Dialoq nəticəsində doğru qərar əldə olunur, haqq-ədalətin üstündən qəflət və cəhalət pərdələri götürülür. Buna görə də Qurani-Kərim Peyğəmbərə (s) insanları hikmət, moizə və xoş danışıqla haqqa və Allah-Taalanın yoluna dəvət etməyi göstəriş verir: "(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə

---

[1] -Ər-Rum surəsi ayə 32
[2] -Əl-Casiyə surəsi ayə 22

dəvət et və onlarla (müxaliflərlə) ən gözəl tərzdə mübahisə et. (Sənin vəzifən budur. Onlara gəldikdə isə) əlbəttə, sənin Rəbbin Özü Onun yolundan azanları daha yaxşı bilir və doğru yolda olanları daha yaxşı tanıyır."[1] Başqa bir ayədə isə müşrikləri və kafirləri elmi mübahisəyə dəvət edib, onlardan dəlil sübut istəyərək buyurur: "Və dedilər: "Cənnətə yəhudi, ya xristiandan başqa əsla heç kəs daxil olmayacaqdır." Bu, onların xam xəyallarıdır. De: "Əgər doğruçusunuzsa dəlil sübutunuzu gətirin."[2] Bu ayə İslam dininn haqq olmasına və İslam məntiqinin qüdrətinə aydın sübutdur. İslam elm, məntiq, düşüncə və təfəkkür dini olduğundan haqqı ortaya çıxarmaq üçün heç vaxt dialoq meydanına girməkdən çəkinmir. Qurani-Kərim əql və məntiqdən uzaq olanları naqis insan sayır və onları kar və lala bənzədərək buyurur: "Həqiqətən Allah yanında, tərpənən canlıların ən pisi düşünməyən (haqqı eşitməkdə) kar və (haqqı deməkdə) lal (olan) insanlardır."[3]

İslam dininə görə fərqli fikirlərlə üzləşdikləri zaman qan tökməkdən vaz keçməli ağıl və məntiqi rəhbər fikir mübadiləsi ilə doğru yolu təsdiq etməli və haqqı batildən ayırmalıdır.

Əmiəlmömünin Həzrət Əli (ə) bu məqamı çox aydın müəyyən etmişdir: “Bəzi düşüncələri başqa fikirlərlə tutuşdurun ki, ondan düzgün fikir ortaya çıxsın”.Buna görə də İslam Peyğəmbəri(s) və İmamlarımız(ə) öz müxalifləri ilə dialoqa üstünlük vermişlər. Peyğəmbərin(s) müşrik, kafir və digər müxalifləri ilə çoxsaylı dialoqları və ondan sonra İslamın

---

[1] -Ən-Nəhl surısi ayə 125
[2] -Əl-Bəqərə surəsi ayə 111
[3] -Əl-Ənfal surəsi ayə 22

əziz rəhbərlərinin ardıcıl dialoqları bu həqiqətə parlaq misaldır. Sünni və şiə təfsirlərində, eləcə də, bəzi hədis və tarix kitablarında qeyd olunur ki, hicrətin 10-cu ilində bir neçə nəfər Rəsuli-Əkrəmin (s) tərəfindən Yəmənin Nəcran məntəqəsində İslamı yaymağa, təbliğ etməyə təyin olundular. Nəcran məsihiləri Peyğəmbəri-Əkrəmlə (s) danışıq aparmaq üçün bir nümayəndə heyətini Mədinəyə göndərdilər. Danışıqlardan sonra onlar bəhanə axtararaq şəkdə olduqlarını deyir, heç bir məntiq və dəlilə əsaslanmadan Həzrət İsanın (ə) Allahlıq məqamında şərik olduğunu iddia edirlər. Bu ayə nazil olaraq buyurur: “Buna görə də sənə elm gəldikdən sonra, onun barəsində (İsa Məsih-əleyhissəlam haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: «Gəlin biz öz oğullarımızı, siz öz oğullarınızı, biz öz qadınlarımızı, siz öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü (bizim canımız kimi olan kəsləri) çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə Allahın lənətini yalançılara yağdıraq. (Peyğəmbər bu hadisədə İmam Həsənlə İmam Hüseyni oğulları, Fatiməni qadın və Əlini canı kimi "mübahilə"yə, yəni ayədə işarə olunan qarşılıqlı nifrin etmə mərasiminə apardı və kafirlər təslim oldular.)”[1] Yəni bu qarğış hər kəsi tutsa, onun batil yolda olması məlum olacaq və bununla da mübahisəni sona yetirərik.

Bu ayə nazil olandan sonra Peyğəmbəri-Əkrəm (s) Nəcran xristianlarını mübahiləyə çağırdı. Onlar o Həzrətdən fikirləşmək üçün bir gün möhlət istədilər. Xristianların başçısı dedi: “Əgər sabah Muhəmməd(s) öz ailəsi və övladları ilə birgə mübahiləyə gəlsə, onunla mübahilə etmədən geri

[1]-Ali-İmran surəsi ayə 61

qayıdarıq, amma hay-küylə, təm-təraqla və öz tərəfdarları ilə gəldiyini görsək, onunla mübahilə edərik.”

Ertəsi gün Peyğəmbər (s) Əli (ə), Fatimə (ə.s), Həsən (ə) və Hüseynlə (ə) birlikdə xristianların qarşısına çıxdı. Xristianların başçısı ətrafındakılardan soruşdu: “Bunlar kimdir?” Ona dedilər: “Biri əmisi oğlu və kürəkəni, o iki oğlan uşağı qız nəvələri və o qadın da hamıdan əziz bildiyi qızıdır!” Xristianların yepiskopu dedi: “Mənim gördüyüm kişi öz qərarında möhkəmdir, mübahiləyə şücaət və cürətlə gəlmişdir. Qorxuram ki, haqq olsa, ağır bəlaya düçar olaq!” Sonra üzünü Peyğəmbərə tutub dedi: “Ey Muhəmməd! Biz qərara gəldik ki, səninlə mübahilə yox, sülh edək!” Bəzi rəvayətlərdə isə onun belə dediyi nəql olunur: “Ey xristianlar! Mən elə nurlu simalar görürəm ki, əgər onlar Allahdan istəsələr, dağ yerindən qopar! Onlarla mübahilə etməyin, yoxsa həlak olarsınız!”

“Mübahilə” hadisəsi İslam Peyğəmbərinin (s) risalətinin doğru və haqq olduğunu göstərən aydın bir nişanə və dəlildir. Çünki Allahla qəti və mənəvi əlaqəsi olmayan şəxsin belə təhlükəli işə razı olması mümkün deyildir. Peyğəmbəri-Əkrəm (s) çəkinmədən müxaliflərinə deyir ki, gəlin, birlikdə dua edib Allahdan yalançıları rüsvay etməsini diləyək.

Şübhəsiz, belə bir meydana girmək asan iş deyil; Heç bir ağıllı insan qarşı tərəfin məğlub olacağına inanmadan belə bir işə əl atmaz. Məhz bu səbəbdən də, rəvayətlərdə deyildiyi kimi, mübahilədən söz düşdükdə, Nəcran xristianları Peyğəmbəri-Əkrəmdən (s) bir qədər fikirləşmək üçün möhlət istədilər. Onlar Peyğəmbərin (s) özü ilə gətirdiyi şəxslərin yalnız dörd nəfərdən ibarət olduğunu, səs-küy salmadan, qəti

inam və xatircəmliklə vəd edilmiş yerə gəldiyini gördükdə, dəhşətə gələrək mübahilədən boyun qaçırdılar və o Həzrətin(s) haqq olduğuna inanmaqla əzabdan amanda qaldılar.

Digər tərəfdən, bu ayə Peyğəmbərin (s) Əhli-beytinin(ə) yüksək məqama malik olduğunu göstərən ən aydın və möhkəm sübutdur.

Sual oluna bilər ki,əgər İslam elm, məntiq və dialoq dinidirsə, onda İslam tarixi boyunca qanlı müharibələrə səbəb nə olub? Bu suala cəsarətlə belə cavab vermək olar ki, İslam müharibələri ümumiyyətlə müdafiə xarakteri daşımışdır. İslamın zəfər yürüşlərinə səbəb qılınc deyil, ağıl, güclü məntiq, yüksək düşüncələr, İslamın möhtəşəm nuru olmuşdur. İslam qeyri-qanuni və mühakiməsiz icra olunan qətlləri məhkum edir. İslam şəriət və qanuni prinsiplərə məhəl qoymadan qətl və qarət törədənlərin kimliyindən asılı olmayaraq, hətta dünyada ən böyük güc sahiblərinin də cəzalandırılmalarını tələb edir. İslam mənbələrində oxuyuruq: Quran və Əhli-beytin (ə) düşmənlərindən 13 nəfəri öldürmüş Abdullah ibn Nəcaşi adlı müsəlman İmam Sadiqin (ə) yanına gəlib bu qətl hadisəsini xəbər verdi. İmam (ə) buyurdu: "Bu qətllər dini hakimin icazəsi iləmi olub?" Dedi: "Xeyir". İmam (ə) buyurdu: "Belə olan təqdirdə siz özünüz mühakimə edilib, cəzalandırılmalısınız". Bu misal onu göstərir ki, İslam qanuni məhkəmə olmadan törədilən qətl və qarətləri terror sayır. Terrorun dini, milliyyəti, vətəni, irqi olmur. Terrorçu istər dövlət olsun, istər ayrı-ayrı fərdlər olsun, terrorun obyekti dünyanın hər hansı bir şəhəri olsun, fərqi yoxdur, terror elə terrordur. İslamın nəzərində terrorun bütün formaları insanlığa

xəyanətdir və terrorist mühakimə edilib, cəzalandırılmalıdır. İslamın mövqeyi onu göstərir ki, kim dünyada baş verən müxtəlif terror hadisələrinə görə İslam dünyasını ittiham edirsə bu onun cahillik və ya qərəzlik mövqeyindən irəli gəlir.

İslam insan cəmiyyətini əxlaqi və mədəni cəhətdən ədalətə dəvət etmişdir. Digərlərinin haqq və hüquqlarını pozmağı da kəskin şəkildə qadağan etmişdir. Digər tərəfdən də insana düzgün şəkildə işlənən faydalı elm və təlim- tərbiyəni öyrənməyi tövsiyə etmişdir. Belə ki, heç bir əxlaqi yaxud zəruri yaxud da faydalı elm yoxdur ki, din onu vacib yaxud da müstəhəb etməsin.

İslam həyat yoldaşı, övlad, ata və ananı kişinin onların yaşayışını təmin etməyi vacib hesab edilir. Bəzən də İslam cəmiyyətində ehtiyaclı insanların ehtiyacını təmin etmək bəzi imkanı və qüdrəti olan şəxslərə vacib hesab edilir. Əgər bir şəxs ehtiyaclı insan barəsində məlumatı varsa və digərləri ondan bixəbərdirlərsə, onun ehtiyacını ödəmək həmin şəxs üçün vacibdir. Əgər bir neçə imkanlı şəxs bundan xəbərdardırsa onun ehtiyacının ödənilməsi həmin şəxs üçün vacib olacaqdır. Həzrət Peyğəmbər (s.a.s) buyurur: "Əgər bir şəxs sübhü açdı və iradəsi ehtiyaclı müsəlmanların ehtiyaclarını təmin etməyə sərf etmək olmadısa, həmin şəxs müsəlman deyil."[1] Əgər bir şəxs imkanlıdırsa və hər hansı bir yerdə ehtiyaclı müsəlmanlardan xəbərləri vardırsa onlara kömək etmək vacib olur.

Əgər bir qeyri- müsəlman müsəlmanlardan kömək istəyirsə imkanlı müsəlmana vacibdir ki, ona kömək etsin. Allahın

---

[1] -Üsuli kafi, cild 2, səh 163

Rəsulu (s) buyurur: "Əgər yaxında və yaxud dünyanın ən uzaq nöqtəsində məzlum və məhrum bir şəxs müsəlmanları köməyə çağırırsa və İslam cəmiyyəti ona kömək etməyə tələsmirsə belə cəmiyyət İslam ruhuna sahib deyil."[1]

İslam dini hətta əgər bir maneəçilik törətməyən heyvan ac və susuz olarsa onun ehtiyacını ödəməyi lazım bilir. İmam Baqir (ə) buyurur: "Allah təala susuz və yanıqlı ciyəri soyutmaq və rahatlaşdırmağı çox sevir."[2] İmam Sadiq (ə) da buyurmuşdur: "Ən fəzilətli sədəqə susuz ciyəri rahatlaşdırmaqdır."[3] Deməli bir din ki, heyvanın istər haram ətli olsun istər halal susuzluğunu təmin etməyi vacib və mükafatlı hesab edirsə, bu onun fövqəladə genişliyindən xəbər verir.

İslam dinin hökmündən belə anlaşılır ki, hər bir canlı əgər İslam və ümmətə maneəçilik törətmirsə ona kömək etmək və onların ehtiyacını ödəmək ümum müsəlmanların öhdəsindədir. Əgər hətta dünyanın ən uzaq nöqtəsində olsa belə. Bu da bütün ehtiyacları istər siyasi, fikri, mədəni, istərsə də iqtisadi və hərbi ehtiyaclaı əhatə edir.

İslamda başqalarına yardım etmək, ətrafdakılara qayğı göstərmək, çətinliyə düşənlərin əlindən tutmaq nə qədər təkid olunmuşsa da, bunu minnət qoyaraq etmək də bir o qədər günah sayılıb. Insan yaxşılığı Allahın razılığını qazanmaq üçün etməlidir. Allah-Taala hamının əməlinin əvəzini

[1] -Üsuli kafi, cild 2, səh 164
[2] -Fru kafi, cild 4, səh 58.
[3] -Fru kafi, cild 4, səh 57

niyyətinə görə verir və yalnız xalis niyyətli insanların əməlini qəbul edib mükafatlandırır.

İnsan nəfslə əlaqədar olan fəzilət və qəbahətləri öyrədən əxlaq elmini öyrənmək hər bir şəxsə vacibdir. Allah-taala buyurur: "Nəfsini (etiqad və əxlaq kamallarında) təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) onu təmizləyən kəs şübhəsiz, nicat tapmışdır!"[1] "Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz, ziyana uğramışdır!"[2] Həzrəti Mühəmmədin(s) də Peyğəmbər göndərilməsində əsas məqsəd məhz insanın gözəl əxlaqa yiyələnməsi olmuşdur. O Həzrət(s) özü buyurur: "Mən gözəl əxlaqı kamilləşdirmək üçün peyğəmbər seçilmişəm." Bunun üçün insan əxlaq barədə hədislərdə deyilənlərə və tövsiyyələrə əməl etməlidir.

Mümkün olduğunca uşaqlarınıza erkən vaxtlarından bu dünyanın Allah tərəfindən yaradıldığını izah etməyə başlayın. Aləmi yaradan yeganə Allahın olduğunu və onun nöqsansız olduğunu başa salın, O, biləndir, qüdrət sahibidir. Bizdə olan hər şey Allah tərəfindən verilib və Yaradana minnətdar olmağımızı, Onu sevmək və təqdir etməmiz lazımdır.

Uşaqlara dini bilikləri öyrətmək, Allahı, Onun Elçilərini tanıtmaq, halal və haram, dini vəzifələr və digər vacib məsələlər barədə olan təhsili uşaqlara vermək valideynlərin vəzifəsidir! Uşaq bunları yaxşı öyrənirsə, onda digər insanlar onu yolundan azdıra bilməz.

---

[1] -Əş-Şəms surəsi ayə 9
[2] -Əş-Şəms surəsi ayə 10

Uşaqlara öz dininin İslam olduğunu qürur və sevinc hissi keçirməyə tərbiyələndirin. Peyğəmbərlərə olan sevgisini inkişaf etdirmək üçün onların həyatlarını, nəcibliyini və gözəl davranışlarını izah etmək lazımdır. Həm də uşaqlara Əhli-Beyt(ə), səhabələr, alimlər, möminlər barədə, müsəlman ənənələri və yüksək İslam mədəniyyəti haqqında məlumat verin. Yaxşı və pis arasındakı fərqi uşağın zehnində möhkəmləndirmək lazımdır ki, valideynlərə itaətsizlik, insanları alçaltmaq, oğurluq, aldatma və s. kimi pis əməllərə gətirib çıxardığını başa düşsün. Uşaqlar gözəl hafizəyə malik olduqlarından onlara Quran-Kərimi oxumaq və surələri əzbərləməyi öyrətmək lazımdır. Uşaqlara namaz qılmaq, dua və zikrlər etməyi başa salmaq Əhlibeyt(ə) və onların yolunu tutanlara qarşı məhəbbət göstərmələrini aşılamaq lazımdır. Uşaqlarda pis əməllərə qarşı niftət hissi öyrətmək, pis əməllərdən özünü saxlamaq, günah etməməyi, başqalarını da günahdan da çəkindirməyi tərbiyə etmək lazımdır. Uşaqlar dinimizi müdafiə etməyi qəhrəmanlıq saymalı yəni həqiqəti, ədaləti müdafiə etməlidirlər. Təcrübə göstərir ki, düzgün tərbiyə almayan uşaqlar eqoist böyüyür hətta öz valideynlərinə belə laqeyid yanaşır. Uşaqlıqdan işləmək və özünü idarə etmək üçün vərdiş edənlər layiqli insan yetişdirir və valideynlərini daha çox dəyərləndirirlər.

Kiçik yaşlarında uşaqlarda Qurani-Kərimə məhəbbət aşılanmalıdır. Onları dərk edə biləcəkləri ayələrlə tanış edib, əzbərləyə biləcəkləri ayələri öyrətmək yaxşı olardı. Bu yolla uşaq Qurani-Kərimə məhəbbətlə böyüyər.

Uşaq əgər ata və ananın sözünə qulaq asmağı adət etməsə, məktəbdə də özünü bu cür aparacaq və həm valideynləri, həm də cəmiyyət üçün problem yaradacaqdır.

Ona görə də valideyn səy etməlidir ki, övladı onun sözünü, nəsihətini eşitsin və qəbul etsin. Çünki bu mərhələdə uşağın şəxsiyyəti formalaşır. Ona görə də valideynin daha çox səy və çalışmasına ehtiyac duyur. Uşağın söz eşidən kimi böyüməsində eşq və məhəbbət hissləri böyük rol oynayır.

Beləliklə, əgər uşaq ata və anası tərəfdən dostluq və məhəbbət hiss edərsə, çalışacaq ki, onların razılığını qazansın və onların xoşladığı işləri görsün. Burada ən mühüm amil məhəbbətdir ki, itaətə gətirib çıxarır.

O uşaq ki, valideynlərinin məhəbbəti əhatəsindədir, ata və anasının göstərişlərini yerinə yetirməkdə xarlıq və alçaqlıq hissi keçirtməyəcəkdir. Bu məhəbbət nəticəsində valideynlərinə təqlid kökləri inkişaf edər. Nəticədə onların rəftarlarını inikas etdirər. Onların istəklərinə müsbət cavab verər.

Əqidə prinsipləri sayılan ilahiyyat elmini öyrənmək hərbir şəxsə vacibdir. Bu elmi öyrənməməkdə heç kəs özünü üzürlü hesab edə bilməz. Bu elmin öyrənilməsinin vacibliyi deyildikdə hamı bilməlidir ki, bu dünyanın bir yaradanı var, Onun heç bir şəriki yoxdur əzəli və əbədidir, O hər şeyə qadirdir,istədiyini yaradır,istədiyini edir, verdiyi hökm ədalətli bütün kamal sifətlərinə malikdir. Həmçinin onu da bilməlidir ki, Həzrəti Mühəmməd(s) Onun göndərdiyi haqq və sonuncu Peyğəmbərdir, Qurani-Kərim Onun kitabıdır, Peyğəmbərin(s) gətirdiyi şəriət, axirət, Cənnət və Cəhənnəm, özündən sonrakı

məsum imamlar(ə), Qiyamət, hesab-kitab və s.haqqında buyurduqlarının hamısı haqdır. İnsanın səadətə çatması üçün ilahiyyat elmi haqqında bunları bilməsi kifayətdir. Bunları dildə etiraf etməklə yanaşı qəlbən inam və iman da olmalıdır.

Bir şəxsin Allaha və ölümdən sonrakı həyata imanı olmasa Allaha xatir iş görə bilməz. Buna görə də burada iman mühüm rol oynayır. Əməl ilə iman arasındakı əlaqə o qədər köklüdür ki, riyakarlıqla iş görən şəxslərin, əslində, Allaha və qiyamətə imanlarının çox zəif olmasını iddia etmək mümkündür: "Ey iman gətirənlər, sədəqələrinizi malını riyakarlıq və camaata göstərmək məqsədi ilə xərcləyən və Allaha və axirət gününə imanı olmayan şəxs kimi minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. O, üzərinə (azacıq) torpaq oturmuş və sonra leysan yağışın yağıb onu təmiz (torpaq və bitkisiz) bir daş halına saldığı möhkəm və hamar daşa bənzəyir (onun sədəqəsi leysanın yuyub apardığı həmin torpaq kimidir). Onlar (riyakarlar) kəsb etdiklərindən heç bir şey əldə etməyəcəklər. Allah kafir qövmü hidayət etmir."[1] Uşaqlar yaxşı ilə pisi ayırd etməyə başlayanda dəlilsiz-sübutsuz onlara əqidə prinsiplərini öyrətmək lazımdır, qoy bunlar uşaqlıqdan onun beyninə həkk olunsun. Tədricən onların mənasını anlamağa başlayacaq, böyüdükcə qəlbində həmin prinsipıərə möhkəm iman yaranacaq.

[1] Əl-Bəqərə surəsi ayə264

**Nəticə**

İslam hər kəsin canını, namusunu, şərəfini, haqqını, azadlığını, malını və evini qorumuş və bunların toxunulmazlığını bəyan etmişdir. İslam da həm fərdin, həm də cəmiyyətin asayiş və toxunulmazlığı mühüm sayılır. Bunu təmin etmək üçün İslam insanların bir-birinə sevgi və hörmət göstərmələrini istəyir.

İslamı ümumbəşəri din edən xüsusiyyətlərdən biri də onun Peyğəmbərinin(s) bütün aləmlərə, bütün bəşəriyyətə mərhəmət olaraq göndərilməsidir. Qurani-Kərimdə Muhəmməd(s) Peyğəmbərin bəşəriyyətə mərhəmət olaraq göndərildiyi və peyğəmbərlərin sonuncusu olduğu bildirilir.

İslam demokratiya, hüquq, ədalət, bərabərlik və azadlıq ideyalarını tərənnüm etmiş, din, vicdan, inanc və əqidə məsələlərində müsəlmanlarla qeyri-müsəlmanlar arasında bərabərliyin təminatçısı olmuşdur.

İslam əxlaqı sistemi elə həyat tərzi təbliğ edir ki, müsəlmanı yaxşılıq etməyə və pislikdən çəkindirməyə çalışsın.

İslam dini bəşəriyyəti bir-birinə hörmətlə davranmağa inandırmağa çalışır. İslam insanların biri-birinə hörmət və tolerantlığ dindir. İslamın elan etdiyi hüquq və vəzifələr insan hüquqlarının bir bəyanatıdır. İslamın vacib prinsiplərindən biri Allahın insanlara əməlləri üçün tam məsuliyyət daşıdığını göstərməkdir. Hər bir şəxs müəyyən hüquq və vəzifələrə malikdir və bir şəxsin başqa bir şəxsin azadlığını məhdudlaşdırmaq hüququ yoxdur. Allahın insana verdiyi və İslamda təsvir edilmiş hüquqlarını pozmağa cəsarət edəni

günahkar və zülmkar hesab edilir. Allah möminləri məzlumların hüquqlarını qorumağa çağırır:

“Sizə nə olub ki, Allah yolunda və (o günlərdə müşriklərin hakimiyyəti altında olan Məkkə müsəlmanlarının, eləcə də bütün əsrlərdə zəmanə imperiyalarının hakimiyyəti altında olan) kişi, qadın və uşaqlardan ibarət müstəzəflərin (zəif hala salınıb həmin halda saxlanılan təbəqənin) həmişə "ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə Öz tərəfindən bir başçı ver və bizə Öz tərəfindən bir köməkçi təyin et" deyən kəslərin (nicatı) uğrunda vuruşmursunuz?!"[1]

İslamda milli vəhdət və birlik İlahi vəhyin ən gözəl gətirdiyi məsələlərdəndir. Qurani- Kərim vəhdətin isbat olunması və ona hamının əməl etməsindən savayı bölünmənin ziyanları və mənfi təsirləri barəsində də sözlər söyləmişdir.

Milli birlik barəsində Allah-Taalanın kəlamı belədir: "Və hamılıqla Allahın ipindən (dindən, kitabdan və vəhyi gətirənlərdən) möhkəm yapışın və parçalanmayın. Allahın sizin barənizdə bir-birinizlə düşmən ikən qəlbləriniz arasında ülfət yaratdığı zamandakı nemətini xatırlayın ki, Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Həmçinin siz od uçurumunun astanasında idiniz, sizi ondan xilas etdi. Allah Öz (tovhid, qüdrət və hikmət) nişanələrini sizin üçün bu cür bəyan edir ki, bəlkə hidayət olasınız."[2]

Həzrət Əli (ə) Qurani-Kərimin ədalətinə sahib olduğundan o da milli birlik və ittifaqı ağlın, ixtilafları isə nəfsin məhsulu

---

[1]Ən-Nisa surəsi ayə 75
[2] Ali-İmran surəsi ayə 103

olduğunu hesab edir. Necə ki, Qurani-Kərim ağılsızlığın nəticəsini bölünmələr olduğunu hesab edir. Əmirəlmöminin Əli (ə) də ağlın və qəlbin çirkinliyini bölünmənin əsası olduğunu qəbul edərək, buyurur: "Siz "Həqiqətən, möminlər qardaşdırlar" ayəsi olan Allahın kəlamına söykənsəniz heç bir çirkinlik sizin ixtilafınıza səbəb ola bilməz. Yəni, yadlar sizin aranızda parçalanma yaradır və sizə hakim olurlarsa yalnız öz aranızda olan fəsadlardan istifadə edirlər. Qəlbləriniz güclü və möhkəm olarsa İslam qurluşunda bölünməyə heç bir zaman şərait yarana bilməz."[1].

İslam nöqteyi nəzərində təhlükəsizlik, sağlam həyat üçün ən birinci və əsas şərtdir. Bunun üçün də, Həzrəti İbrahim (ə), Kəbəni tikərkən Allahdan istədiyi ilk şey, təhlükəsizlik neməti idi: "Və (yada sal) o zaman(ı) ki, İbrahim dedi: "Ey Rəbbim, (sonralar Məkkə adlandırılacaq) bu şəhəri təhlükəsiz hərəm et və məni və oğlanlarımı bütlərə ibadət etməkdən uzaq saxla!"[2] Məhz bu dəlilə əsasən, İslam dini ən ağır cəzaları ictimai təhlükəsizliyi pozanlar üçün nəzərdə tutmuşdur: "Həqiqətən Allahla və Onun peyğəmbəri ilə vuruşan və yer üzündə fitnə-fəsad törətmək istiqamətində çalışan (insanları qorxutmaq, asayişi pozmaq və onların haqlarına təcavüz etmək məqsədi ilə soyuq və ya isti silahla zahir olan) kəslərin cəzası yalnız öldürülmək və ya dar ağacından asılmaq, yaxud əlləri və ayaqlarının (bir əlin dörd barmağı ilə bir ayağın dörd barmağının) çarpazvari kəsilməsi və ya həmin yerdən sürgün olunmaqdır. Bu, onlar üçün dünyada həqirlik və xarlıqdır və

---

[1] Nəhcül bəlağə, məktub 113,bənd 7
[2] İbrahim surəsi ,ayə35

onlar üçün axirətdə böyük bir əzab vardır."[1] Qurani Kərimə görə xoşbəxt və firavan cəmiyyət, təhlükəsizlik, həyata ümid və iqtisadi inkişaf olmaqla üç xüsusiyyət əsasında formalaşır ki, bunların da bir birinə səbəb və nəticə bağlılıqları vardır: "Və ona dünyada gözəl həyat (bütün ümmətlər tərəfindən qəbul olunmaq xüsusiyyəti, uzun ömür, saleh övladlar və çoxlu sərvət) verdik və əlbəttə o, axirətdə salehlərdən olacaqdır."[2] Belə ki, təhlükəsizlik olmasa, heç kəs həyatın davamına ümid bəsləməz, beləliklə də əmniyyət və yaşam ümidi itərsə, istehsala və iqtisadi inkişafa maraq olmayacaqdır.

İnsan, qorunması və himayə olunması lazım olan dörd sərmayəyə malikdir. Can,mal, namus və heysiyyət. Quran və hədislərə əsasən, insan abırı və heysiyyəti, bəzi cəhətlərdə onun malından və canından da üstündür. İslam, hər bir islami cəmiyyətdə təhlükəsizliyin bütövlükdə cəmiyyətə hakim olmasını, insanların nəinki dildə, hətta zehində belə barəsində bədgüman olaraq heysiyyətinə toxunmamasını istəyir.

Ev, yaşayış yeri, fərdlərin və ailələrin rahatlığı üçün məskəndir. Bu məkan, hər bir xoşagəlməz müdaxilədən amanda qalmalıdır. Qurani Kərimin bu barədə tövsüyə edir: "Ey iman gətirənlər, öz evinizdən başqa heç bir evə icazə almayınca və həmin evin adamlarına salam verməyincə daxil olmayın. Bu sizin üçün daha yaxşıdır. Bəlkə ibrət götürdünüz." [3]

[1] Əl-Maidə surəsi ,ayə33
[2] Ən-Nəhl surəsi ,ayə122
[3] Ən-Nur surəsi, ayə27

1400 il bundan əvvəl İslam köləlik (qul) məsələsinə də toxundu. Quranda və Peyğəmbər (s) hədislərində qulların saxlanılması üçün çağırış yoxdur, lakin azadlığa buraxılması barədə sonsuz sayda çağırış var. İslam bütün insanları azad hesab edir və onların təhqir olunmalarına qarşı çıxır.

İslam nöqteyi nəzərində insanın mənəvi həyatı düzəlməsə maddi faktorlar sülh və sosial təminatın qorunmasında mühüm rol oynaya bilməz.

## Ədəbiyyat


1. "Qurani-Kərim"-A. Mehdiyevin tərcüməsi Bakı 2009
2. Şeyx Əhməd Nəraqi "Meracus-Səadə" (sədət zirvəsində) Baki 2012
3. Ayətullah Seyyid Əbdülhüseyn Dəstğeyb "Böyük günahlar" 1-ci cild Dinin fəxri nəşriyyatı 2000
4. Ayətullah Cavad Amoli"İnsanın dindən intizarı" M.O.U
5. Əıiəkbər Babazadə "İslamda evlənmə və ailə hüququ"
6. Məhəmmədi Reyşəhri "Mizanul-hikmət"(xülasəsi) Bakı 2009
7. Əllamə Misbah Yəzdi "Quranda əxlaq" Bakı 2011
8. Əbdülhəkim Süleymani "İslamda insan haqlari" M.O.U
9. İnternet materialları

# Qadının zərafəti, qadının gücü

*Aynur Əzimova1*

## Abstrakt

Müasir dövrdə aparılan geniş mədəni-maariflənmə işlərinə baxmayaraq, hələ də qadın, eləcə də kişinin hüquq və məsuliyyətləri düzgün və aydın şəkildə açıqlanmamışdır. Bunun başlıca səbəbi kimi bəşəriyyətin düçar olduğu və bu vaxta qədər öz həllini tapmamış bir sıra problemlər, o cümlədən, qadın-kişi münasibətlərinin hüdudlarının müəyyənləşdirilməməsi, psixoloji problemlər, təcavüzkarlıqlar və s. hesab oluna bilər. Uzun illər boyu Avropa və Amerika ictimaiyyətində qadınların təbii hüquqları tapdalanmış, bunun ardınca isə onları "qadınlara dəyər və azadlıq vermək" adı altında heç bir çərçivəyə sığmayan cinsi münasibətlərə sövq etdirmişlər. Bu problemin həllində isə bizə ən doğru yolu göstərən ilahi vəhy və göstərişlərdir.

**Açar sözlər:** İslam, qadın, dəyər, məqam, hüquq

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

Quran öyüd-nəsihətlə yanaşı, qadınların mənəvi yüksəlişini təmin etmək məqsədilə onlara nümunəvi və ideal qadın simaları da təqdim edir. Əziz İslam Peyğəmbəri (s. ə. s) qızı Fatimeyi-Zəhranın (s. ə) əllərindən öpürdü. Əsla bunu duyğulardan irəli gələn bir hərəkət kimi dəyərləndirməyin. Xanım Fatimeyi-Zəhra (s .ə) kamil bir insan olduğu üçün o Həzrət (s. ə. s) ona belə ehtiram göstərir. İslamda qadının dəyəri onun mənəvi yüksəlişi və kamilliyi ilə ölçülür.

Qadınlar elmin müxtəlif sahələrində öz istedadlarını çiçəkləndirməlidirlər. Onlar savadlanmalı və yüksək elmi dərəcələrə nail olmaq üçün səy göstərməlidirlər. Qadınların əxlaqsızlığa sürüklənməsi isə onların savadlanmasına əngəl olan ən başlıca amildir.

Ailə bütöv bir cəmiyyəti təşkil edən kiçik cəmiyyətlərdir. Qadın bu kiçik cəmiyyətin əsas sütununu təşkil edir və onun aparıcı qüvvələrindən sayılır. Ailə mühiti istedadların çiçəklənməsi üçün əlverişli bir mühitdir və belə bir mühitdə qadın ixtisasından asılı olmayaraq, öz evdarlıq vəzifələrinin öhdəsindən layiqincə gəlməlidir. Qadınlar Uca Allahın bizə əmanətidir. Buna görə bu əmanəti qorumaq və himayə etmək vəzifəsi də kişinin borcudur. Əziz Peyğəmbərimiz (s. ə. s) Vida Xütbəsində “Qadınlar sizə Allahın bir əmanətidir” buyuraraq bizə yüklənən məsuliyyəti bir daha xatırlatmışdır.

## Tarixdə qadına verilən dəyər

İslamiyyət ana olduğuna görə qadına ən yüksək və çox möhtərəm bir məqam qazandırmışdır. Tarixin fərqli dövrlərində zillət və həqarət içində yaşayan qadın layiq olduğu ən yüksək şərəfi İslam dini gəldikdən sonra qazanmışdır. İslamiyyət gəlmədən əvvəl qadınların vəziyyətinə nəzər salarıqsa, görərik ki, istər Ərəbistanda, istərsə də digər başqa ölkələrdə qadınların vəziyyəti çox ağır idi. Qadına insan gözü ilə baxılmır, öz hüquqlarından məhrum, heç bir haqqa sahib olmayan dəyərsiz bir əşya kimi tanınır, kişinin şəhvətinə məhkum bir əsir, adi bir xidmətçi kimi qiymətləndirilir və bütün günahların başı hesab olunurdu. İslamiyyətdən əvvəl qadın o qədər dəyərsiz sayılırdı ki, hətta ölən ərinin mülkü arasında bir miras əyşası kimi bölünürdü. Qadınla öncə atasının, evləndikdən sonra ərinin, əri öldükdən sonra da oğlunun əsiri kimi rəftar edilirdi. Qız uşaqları vəhşicəsinə diri-diri torpağa basdırılır, qız övladı olanlar bunu özünə bir rəzillik sayırdı. İranda və Zərdüştlükdə qadın o qədər alçaldılmışdı ki, hətta ana və bacı ilə evlənmək kimi iyrənc əxlaqsızlığa icazə verilmişdi. Bir çox başqa ölkələrdə və millətlərdə də qadın eyni haqsızlıqlara məruz qalmışdı. Bir sözlə qadın kişinin malı hesab olunur və onun üzərində istədiyi ixtiyara sahib idi.

Bu gün isə qadın haqları dırnaqarası qorunduğu halda, yenə də qadınlar istismar edilməkdə, maşın, sabun, şampun, dərman və s. kimi əşyaların tanıdılmasında açıq-saçıqlıqla reklam vasitəsi kimi istifadə olunmaqdadırlar. “İslam qadını

əzir" deyərək dinimizə iftira atan Avropa və avropasayağı düşünən insanlar cavab versin! Bəs bunun harası qadın haqqıdır?! Bəs bu necə qadın haqqını qormaqdır?!

Qadına ən layiq olduğu yeri və dəyəri yalnız İslam dini vermişdir. İslam dini qadının cəmiyyətdəki yerini çox gözəl və layiqli bir şəkildə təyin edib, çirkinliklərdən qurtararaq aşağılardan yüksəklərə qaldırmışdır. Həzrət Peyğəmbər "Cənnət anaların ayaqları altındadır" buyuraraq qadına verilən ən böyük qiyməti və mərtəbəni dilə gətirmişdir. Qadın insanı dünyaya gətirən və yetişdirən möhtərəm bir varlıqdır. İslamda qadın ərinin həyat yoldaşı, onun hüzur qaynağı və dayağıdır. İslam nəzərində qadın şəfqət, mərhəmət, hörmət duyulmalı olan və nəzakət tələb edən nəcib və təmiz bir varlıqdır. Peyğəmbərimiz (s. ə. s) qadınların incə, zərif və kübar varlıqlar olduqlarına işarə edərək onların heç vaxt incidilməməsini və qırılmamasını şiddətlə tövsiyə etmişdir: "Sizin ən xeyirliniz qadınlarına qarşı ən yaxşı və nəzakətli davrananınızdır". Qadına qarşı kobud davranmaq, əziyyət etmək, haqqını tapdamaq müsəlmana yaraşmaz.

## Qadının gücü

Qadın vəfanın, fədakarlığın, comərdliyin, qarşılıqsız əsirgəmək[1] və sevməyin simvoludur. Bugünün qadını sabah bir anadır. Ona görə uca dinimiz qadına və ana sevgisinə xüsusi bir yer verərək, cənnəti anaların ayaqları altına sərmiş, vaxtında qılınan namazdan sonra ən gözəl işin anaya yaxşılıq

---

[1]- Burada: Rəhmi gəlib qorumaq, saxlamaq, hifz etmək, himayə etmək.

etmək olduğunu, Allahın rizasını qazanmağın, cənnətə qovuşmağın ən rahat yolunun anaya xidmətdən və ananı lazımınca sevməkdən ibarət olduğunu bildirmişdir. İslamiyyət qadını qorumaq məqsədilə əgər evlidirsə əri, evli deyilsə atasının ona baxmaq və ehtiyaclarını təmin etmək məsuliyyətini yükləmişdir.

İslam inancında qadınlar ilin sadəcə bir günündə sevilib, digər zamanlarda ehmal ediləcək varlıqlar deyil. Qadın ilin hər günü, ömür boyu qorunmağa, sevgiyə, hörmətə, himayə edilməyə, hədiyyə alınmağa və xidmət göstərilməyə layiq ən incə və zərif varlıqdır. Qadınlar və analar baş tacıdır. Dinimiz qız uşaqlarının gələcəyin anaları olmaları yönündən onlara qarşı davranışlarımız və onların tərbiyələri üzərində ciddi bir həssaslıqla durmuşdur. Qız uşaqlarını böyüdüb gözəl şəkildə tərbiyə edənə cənnət, həm də cənnətdə ən gözəl məqam; Peyğəmbərimizə qonşu olma məqamı vəd edilmişdir. Dinimizin qadına verdiyi yüksək qiyməti yenə Peyğəmbərimizin bu hədisi-şərifi ilə daha aydın görürük. Buyurulur ki: “Möminlərin iman yönündən ən kamilləri əxlaqca ən gözəl olanlarıdır. Sizin ən xeyirliniz qadınlarına qarşı ən yaxşı və nəzakətli davrananlarınızdır.” “Qadınlar xüsusunda Allahdan çəkinin. Çünki onlar sizə Allahın bir əmanəti olaraq verilmişdir.” “Qadınlar haqqında bir-birinizə xeyir tövsiyə edin.”

**Uca Rəbbimiz Qurani-Kərimdə buyurur:**

“Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız...”[1]

“(Kişilərin) qadınlar üzərində (şəriətə) müvafiq haqları olduğu kimi onların da (kişilər üzərində) haqları vardır. ...”[2]

Həqiqi səadətə şübhəsiz ki, ancaq və ancaq Allah və Rəsulunun əmr və tövsiyələrinə tabe olmaqla qovuşmaq mümkündür. Analarını, həyat yoldaşlarını layiqi ilə sevənlər, onları hər gün və hər zaman xatırlayıb, anaların xeyir-dualarını alıb, dünya və axirət xoşbəxtliyinə nail olanlar nə xoşbəxtdirlər?! [3]

**Sual:**

Kişinin ailə məsələlərində qadının üzərində hakim olmasını Qurani-Kərim necə başa salır? Quranın bu barədə olan nəzərini açıqlayın.

Ailə məsələlərində kişinin hakim olması haqda Quranda belə buyurulmuşdur:

“kişilər qadınlar üzərində himayəçidirlər.”[4]

Amma ayənin həqiqi mənası bu deyil ki, kişilər qadınların üzərində hakimdirlər və hər nə istəsələr edə bilərlər. Əksinə

[1]- Quran: əl-Bəqərə surəsi, ayə: 187
[2]- Quran: əl-Bəqərə surəsi, ayə: 228
[3]- İrfan Jurnalı
[4]- Quran: ən-Nisa surəsi, ayə: 34

təfsirçilərin və lüğətşünasların nəzərlərinə əsasən "qivam" kəlməsinin mənası başçı, ailənin işinə yardımçı və bu kimi sinonimlərdir. Amma əgər ailəyə kiçik bir dövlət kimi baxsaq və onu kiçik bir ictimaiyyət kimi qiymətləndirsək, təbii ki, bu kiçik dövlətə böyük bir dövlət kimi başçı və arxalana biləcəyi kimsə lazımdır. Bu başçılıq hər tərəfdən bu ağır məsuliyyətə qabiliyyəti və gücü çatan bir nəfərə həvalə edilməlidir. Təbii ki, bu işin öhdəsindən hər cəhətdə qadından qüdrətli olan kişi gələ bilər, çünki:

1-Kişi çətinliklər müqabilində dözümlü və səbirli, qadın isə atifəli (emosianal xüsusiyyətə malik), hissiyyata qapılan incə və kövrək bir məxluqdur.

2-Həmçinin fiziki cəhətdən də qadın kişidən olduqca zəif və incədir.

3-Bundan əlavə ailənin gəliri və mənfəəti, habelə gündəlik tələbatı kişinin öhdəsində olduğu üçün başçılıq da onun əsas məsuliyyətlərindən biridir.

Qurani- Kərimin nəzərində kişinin ailədə olan hakimliyi və başçılığı yalnız Allahın razılığı, icazəsi və ədaləti çərçivəsində olmalıdır. Amma məqam baxımından yalnız iman və təqva sahibləri Allah-Taalanın hüzurunda fəzilətlidirlər. Yəni insanların üstünlüyü onların hansı cinsdən olmasında deyil, əksinə onların nə qədər təqvalı olmasındadır. Qurani-Kərimin nəzərində kişinin ailədə olan başçılığı və hakimiyyəti ona heç bir üstünlük vermir. Yəni kişinin bu işi heç də onun uca məqam sahibi olmasını çatdırmır. Yuxarıda qeyd etdiyimiz

ayədən də kimsə üstünlük və hakimlik başa düşürsə, məlumdur ki, ayədə olan "qivam" kəlməsini düzgün təfsir edə və mənalandıra bilməmişdir.

Mövzunun əsli mətləblərini araşdırmazdan öncə, (qəvvamiyyət sözünün mənasına) qadının İslam dinində hansı məqam və şəxsiyyətə malik olmasını araşdırmağı vacib bildik.

**1)Qadın evin əsas rüknü1 kimi:**

Məlumdur ki, qadın ailənin əsasını təşkil edən iki nəfərdən biri olmaqla yanaşı dünya ictimaiyyətinin də (demək olar ki,) yarıdan çoxunu təşkil edən bir varlıqdır. Əgər tarixin səhifələrinə baxsaq qadına qarşı bir çox amansız məhkəmələrin şahidi olarıq. Yəni tarix boyunca qadın ictimai səhnələrdən təcrid edilmiş və bir sıra məhrumiyyətlərə məruz qalmışdır. Düzdür ki, bəzi vaxtlar müxtəlif ölkələrdə və ya tayfalarda qadına azadlıq verilmişdir. Amma onların zəif məxluq olduqları üçün daim zülmə məruz qalmaları inkar olunmazdır. Məsələn: Qadınların cahil ərəb tayfalarında qul kimi işlədilməsi, qız uşaqlarının diri- diri basdırılması, öldürülməsi, bazarlarda satılması və sair kimi misallar göstərmək olar.[2] Bütün bu saydıqlarımız qadının tarix səhifələrində olan acı xatirələridir. Həmçinin qadınlara qarşı olan radikal fikirli kişiləri və ailədə qolunun gücündən istifadə edən ailə başçılarını bu gün də ictimai səhnələrdə müşahidə edirik.

---

[1]-1-Bir şeyin ən sağlam və möhkəm tərəfi; təməl, dirək, istinadgah. 2. Bir cəmiyyətin əhəmiyyətli, ən qüvvətli və etibarlı şəxsiyyətlərindən hər biri.
[2]-Quranda Pəjuheşlər, səhifə 25- 26, yay. Bahar, 1380

Sadəcə bu bir neçə misalı burada qeyd etməklə İslam dininin qadına qarşı olan hüsnü- rəğbətini açıqlamaq istəyirik.

**2) Ərəb yarımadasında İslam günəşinin doğması İslam dünyasında qadının qədir- qiymətini bəyan etdi.**

Böyük İslam dininin, Peyğəmbər sünnətinin və Əhli-beytin təlimlərində qadın öz məqamını, həmçinin ictimai şəxsiyyətini tapdı. Mərhum Ayətullah Xomeyni bu barədə deyir: "İslam dini kişinin və qadının inkişafı üçün çalışır. İslam dini gəldikdən sonra qadına nə qədər xidmət etdiyini Allah bilir. İslam dini təlimlərində qadına verilən hüquq və xidmət kişiyə olunmayıb."[1] İslam dini qadınları kişilərin müqabilində bərabər qərar verməklə onların hüququnu ucaltdı. Amma bir sıra əhkam məsələləri vardır ki, onların bəzisi kişilərə və bəzisi də qadınlara aiddir. Bu o demək deyil ki, İslam dini qadınla kişinin arasında fərq qoyur.[2]

**3) Birlikdə yaradılış:**

Qurani-Kərimin bəyanına əsasən, qadın və kişi insan olaraq iki dəstəyə ayrılsalar da, onların insanlıqda və fəzilətdə heç bir fərqləri yoxdur. Qurani- Kərim bu barədə buyurur:

“Allah sizi tək bir nəfərdən yaratdı. Sonra onun özündə həmtayını yaratdı...”[3]

**4) Eyni zamanda qadınla kişinin ağıl və dərrakə baxımından da heç bir fərqləri yoxdur:**

---

[1]-Nur səhifəsi, cild 3, səhifə 82
[2]-Nur səhifəsi, cild 3, səhifə 82
[3]-Quran: Zümər surəsi, ayə: 6

“ Sizi tək bir candan xəlq edən, ünsiyyət bağlayıb rahatlıq tapsın deyə ondan onun zövcəsini yaradan Odur...”[1]

"De! O elə bir kəsdir ki, sizi yaradıb və sizə göz, qulaq və qəlb verib.”[2]

Təfsirçilər və alimlər yuxarıdakı ayəni belə təfsir edirlər ki, "ayənin əsil mənası bunu çatdırır ki, insan başqa yaranmışlardan ağıl və təfəkkür baxımından üstündür."[3]

**5) Ailə həyatında qadınla kişinin eyni hüquqa malik olmaları:**

Qurani-Kərimin bəyanına əsasən qadına ailə həyatında verilmiş hüquq kişinin xeyri üçündür. Baxmayaraq ki, bəzi məsələlərdə az da olsa fərq nəzərə çarpır. Misal üçün: Nəfəqə[4] (qadının və uşaqların gündəlik təminatı) kişinin öhdəsindədir və ya qadının yaşaması üçün yeri kişi hazırlamalıdır və sair. Qurani-Kərim bu barədə buyurur:

"Şəriət qanunlarına əsasən kişilərin qadınlar üzərində hüquqları olduğu kimi, qadınların da kişilərin üzərində hüquqları vardır."[5]

---

[1]- Quran: Əraf surəsi, ayə:189
[2]-Quran: əl-Mülk surəsi, ayə: 23
[3]. İbn Xaldun, Əbdürrəhman, “İbn Xaldun müqəddiməsi”, cild 2, səhifə 60.
[4]. Nəfəqə - ehtiyacı olanlara göstərilən təmənnasız yardım deməkdir. Sədəqə də infaqa aiddir. Şəriətdə ailə başçısının öz ailə üzvləri üçün xərclədiyi pula, eləcə də, yardıma ehtiyacı olan şəxslər üçün bunu verməyə borclu olan adamlardan alınan məbləğə (alimentə) də nəfəqə deyirlər. Öz həyat yoldaşının nəfəqəsini təmin etmək kişinin borcudur. Yetikinlik yaşına çatmamış övladların da nəfəqəsini ata verməlidir. Həzrət Mühəmməd Peyğəmbər (s. ə. s) insanın öz yaxınlarına (ailə üzvlərinə, valideynə, yaxın qohumlara, qonşulara) etdıyi nəfəqənin ən üstün nəfəqə olduğunu bildirmişdir.
[5]. Quran: Bəqərə surəsi, ayə: 228

Təfsirçilərimiz bu ayəyə istinad edərək qadınla kişinin hüququnun bir olduğunu bəyan edirlər:

**6) "Qivam" sözünün lüğətdəki mənası başçı, gözətçi və mühafizəkar"dır.**

Bu söz bəzən islah və qorumaq mənalarında da işlədilə bilir. Qurani-Kərim buyurur: "Kişilər qadınların başçısıdır (mühafizəkarıdır)."[1]

Bir çox Quran təfsirçiləri "qivam" sözünü başçı və qoruyucu kimi mənalandırmışlar. Misal üçün "qivam" bir isimdir ki, öz işində ciddiyyətli olan şəxsə deyərlər, belə ki, kimsə desə ki, bu kişi o qadının "qəyyumudur" , yəni onun gündəlik tələbatını ödəyən və mühafizəkarıdır.[2]

**7) "Qivam" sözünün bu :**

«الرجال قوامون على النساء» və digər ayələrdə olan mənalarına diqqət yetirsək, belə nəticə ala bilərik ki, ayənin əsas hədəfi kişinin ailəyə başçılıq etməsi və ailədə olan nizam- intizamın ciddiyyətini qorumalı olmasını çatdırmaqdır, nəinki, kişinin ailəyə zülm etməsini və ya padşahlıq etməsini dəstəkləmək. Əksinə kişiyə ailəyə rəhbərlik etmək və vahid tərbiyəli nizamı yaratmaq vəzifəsini verməklə onun məsuliyyətini artırır.[3] Çünki hər bir ailəni kiçik bir cəmiyyət və icma şəklində qəbul etsək, təbiidir ki, böyük cəmiyyətlər kimi burada da rəhbərin və ya təşkilatçının olması vacibdir. Bundan əlavə kişinin cismi

---

[1]. Fəxri Razi, "Kəbir təfsiri", cild 10, səhifə 88
[2]. "Nümunə təfsiri", cild 3, səhifə 411- 116
[3]. Feyz Kaşani, "Safi təfsiri", cild 1, səhifə 448

və ruhi qabiliyyəti nəzərə alınaraq ailənin gündəlik tələbatı İslam qanunlarına əsasən onun üzərinə qoyulub. Kişinin fiziki gücü və iradəsi, ona pul qazanmaq və ailənin tələbatını ödəmək kimi məsuliyyətli işlərə kömək etmək üçün ailənin başçılığı və məsuliyyəti də onun üzərinə qoyulmuşdur.

Əlbəttə bunu da qeyd edək ki, mümkündür qeyd etdiyimiz qüdrət və qabiliyyət hər hansı bir qadında da olsun. Lakin nəzərə almaq lazımdır ki, hər hansı bir qanun yazıldıqda orada azlıqlar deyil, ümumi toplum nəzərdə tutulur. Bu səbəbdən də kişilər bu məsələlərdə qadınlardan daha üstün olduqları üçün bu vəzifələr kişinin öhdəsinə qoyulmuşdur.

Əziz Peyğəmbərimizdən (s. ə. s) kişinin qadından üstün olmasının səbəbini soruşduqda, o Həzrət (s. ə. s) belə cavab verdi:

"Kişinin qadından üstün olan fəziləti, suyun yerdən üstün olan fəziləti kimidir. Çünki suyun vasitəsi ilə torpaq dirilir ( beləliklə, torpağın üzərindəkilər də dirilir). Kişilər qadınların həyatını dirildir, onlara şadlıq bəxş edir və onların artmasında əsas rol ifa edir. Sonra isə Peyğəmbər " الرجال قوامون علی النساء" ayəsini zikr edir.[1]

İmam Sadiq (ə) bu barədə buyurur: "Kişinin ailədə olan başçılığı, onun üçün böyük səadətdir."[2] Bu iki rəvayətdən belə nəticə alırıq ki, kişinin ailədə olan rəhbərliyi, onun və ailənin səadətinə xidmətdən başqa bir şey deyildir.

---

1. Şeyx Hürr Amili, “Vəsailuş-Şiə”, cild 15, səhifə 251
[2]. Nasir Məkarim Şirazi, “Nümunə təfsiri”, cild 3, səhifə 370- 371

**8) Ailədə rəhbərlik məsələsində kişilər qadınlardan iki nəzərə görə fərqlənir:**

A- Əgər kişini cinsi və fiziki baxımdan təhlil etsək bu məsələ özü-özlüyündə aydınlaşacaq. Bundan əlavə hər bir icmanın və ya ailənin gözəl və səadət içində yaşaması üçün ümdə lazım olan budur ki, hər kəs öz qabiliyyətinin əhatəsində hərəkət etsin. Yəni ailədə hər kəs öz atifi və fiziki gücünə uyğun özünə vəzifə seçsin və onu səmimi yerinə yetirsin. Belə olan halda ailənin rəhbərliyi yenə də kişinin öhdəsinə düşəcəkdir[1].

Allah-Taala bütün insanları müxtəlif qüdrətə və istedada malik olaraq yaratmışdır. Əgər bütün insanlar eyni gücə və istedada malik olsa idilər , bütün yaradılış sistemi aradan gedərdi. Bundan əlavə dünyada olan bütün işlər bir- birindən fərqli olaraq özünü büruzə verir. Bu səbəbdən də, fərqli işlər üçün fərqli istedada malik olan insanlar lazımdır. Nəticə budur ki, dünyada hər bir şeyin seçilməsi və fərqli olması istedadların inkişafına xidmət edir.

Kişi və qadın arasında olan fərq də bu qanun əsasındadır. Bunu da qeyd edək ki, bu fərqlilik, bunların heç biri üçün fəzilət və üstünlük deyil, çünki kişi və qadın iki müxtəlif sinif olaraq müqayisə olunursa burada heç bir fəzilətdən danışmağa dəyməz. Başqa sözlə desək, üstünlük fərq və fərq üstünlük sayılmaz. Deməli, Nisa surəsinin 34-cü ayəsinə əsasən kişiyə

---

[1]. Cavadi Amuli, “Zən dər ayineye cəlal və camal”, səhifə 364- 369

verilən vəzifə onun üçün heç bir fəzilət meyarı və ölçüsü ola bilməz[1].

B - Bu mövzuda ikinci bir fikir də budur ki, kişi və qadın sinifləri arasında olan fərq, ərlə- arvad qanunlarına əsaslanmır. Əksinə ümumi bir qayda olaraq kişi və qadın mövzusunda öz əksini tapır. Dünya insanları arasında olan bu qanun, dünyada mövcud olan hakimiyyət və məhkəmə prinsiplərinə bənzəyir. Çünki bütün dünya insanları bu prinsip əsasında öz həyatlarını tənzimləyirlər. Əlbəttə bu qanunlarda da kişilər yaradılış qanunlarına əsasən qadınlardan üstündürlər. Bunu da qeyd edək ki, kişinin bu vəzifədə olması qadının ictimai və fərdi azadlıqdan məhrum olması demək deyil, yəni bu məsələlərin heç bir fərdi və ictimai azadlığa dəxli yoxdur.

**9) Nəticə**

Mətndə danışılan "qəvvamiyyət" sözündən belə nəticə alırıq ki, deməli, kişinin ailədə olan bu məsuliyyəti heç də, onun (şəxsiyyət baxımından) qadından üstün olması demək deyil. Əksinə kişinin ailədə olan bu vəzifəsi onun ruhi və fiziki baxımdan daha da layiq olduğu üzündəndir. Həmçinin kişinin ailə üzərində olan məsuliyyəti ona ailə qanunları çərçivəsi xaricində hər hansı bir işi görməyə imkan vermir, çünki o ailənin zalım padşahı deyil. Sadəcə ailənin gündəlik tələbatları və qadın-kişi münasibətlərinə düzgün riayət etmək onun öhdəsindədir, beləliklə, kişiyə bu vəzifənin tapşırılması o demək deyil ki, kişilər qadınlardan "üstündür" və ya "axirətdə

---

[1]. Əllamə Təba-Təbai, "Əl mizan təfsiri", cild 4, ayə:34

üstün olacaqlar”. Buna əsas səbəbdə budur ki, islam dini qanunları insanın təkamülə çatması üçün kişi və qadının arasında heç bir fərq qoymamışdır. Başqa sözlə desək təkamülə çatmaqda heç bir cinsiyyətin rolu yoxdur. İnsanlar yalnız əməli saleh olmaqla, Allaha yaxınlaşmaqla, təqvalı olub pis işlərdən çəkinməklə və aqil olaraq iman gətirməklə əldə edə bilərlər. Allah-Taala yanında heç bir cinsiyyətin üstünlüyü yoxdur, tənha üstün bəndələr təqva sahibləridir.

**Qurani-Kərim qadınla kişinin hüquqları əsasında necə davranmaları haqqında bir neçə qanuna işarə edib:**

**1. Ədalət əsasında rəftar etmək:**

İslamda əsl qanunvericilik ədalət üzərində qurulubdur: “Ey iman gətirənlər! (Şahidliyiniz) özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun.”[1]. İslam dini bütün sahələrdə, hökumət işlərində yaxud ictimai işlərdə insanları ədalətə riayət etməyə çağırıbdır: “De: “Rəbbim ədalətli olmağı əmr etdi. ””[2]. Kişinin ailədə müdürlüyü də geniş cəmiyyətdə hakimiyyətin kiçik miqyasda olan bir hissəsidir və həmin əsasda qurulubdur.

Yəni kişi ailədə müxtəlif cəhətlərdə nəzm intizamı yaratmaqdan əlavə, ədaləti də icra etməlidir. Həqiqətdə kişinin hökumətçilik haqqı var, amma təhəkküm (zorakılıq) haqqı yoxdur. İslamda hökumətçilik, yəni ədalət əsasında işləri idarə etmək, təhəkküm isə yəni zorakılıq etmək. İslam kişiyə

[1]. Quran: Nisa surəsi, ayə: 135
[2]. Quran: Əraf surəsi, ayə: 29

zorakılıq haqqı verməyibdir. Bəlkə hökumətçilik hüququnu ona tapşırıbdır ki, ailənin işlərini o vəzifənin əsasında icra etsin, yəni bu, vəzifədən artıq bir şey deyil. O, ailənin rəisidir, yəni haqqı var ailə işlərində əmr etsin və çəkindirsin. Amma zorakılıq haqqı yoxdur, yəni haqqı yoxdur ki, ailənin məsləhətinin ziddinə rəftar etsin[1].

Buna əsasən, ədalət əsasında və Allah razılığıyla kişinin başçılığına icazə verilir. Bir çox ayələrdə cahiliyyət adətlərinə əsasən, qadınlara qarşı zülmdən və onların hüquqlarını tapdalamaqdan çəkindirilibdir: "... Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! "[2].

## 2. Məruf (yaxşılıq) qanununa riayət etmək:

Qurani- Kərim müxtəlif ayələrdə və müxtəlif münasibətlərdə məruf məsələni yada salıb və hər bir qadın və kişinin bu qanuna riayət etməyə dəvət edibdir. Qurani-Kərimdə məruf qanunuyla əlaqədar ayələrin axtarışında olarkən bir sıra ayələrlə üzləşirik ki, onlarda qadınla kişinin həyatın müxtəlif sahələrində necə davranmaları barədə söhbət açılıbdır. O cümlədən evlənmək, boşanmaq: "Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti sona yetişdiyi zaman onları ya (şəriətə) müvafiq qayda üzrə saxlayın, ya da müvafiq qayda üzrə buraxın. Zərər vurmaq və təcavüz etmək məqsədilə onları saxlamayın."[3], davranış: " ... Onlarla xoş rəftar edin... "[4] , məhriyyə: "Yaxınlıq etmədiyiniz (toxunmadığınız) və

---

[1]. Mütəhhəri Murtəza, "Əsərlər toplusu", cild 21, səhifə 117.
[2]. Quran: Nisa surəsi, ayə: 19
[3]. Quran: Bəqərə surəsi, ayə: 231
[4]. Quran: Nisa surəsi, ayə: 19

mehrini (kəbin haqqını, başlığını) təyin etmədiyiniz qadınları boşamaq sizə günah sayılmaz ”[1], süd vermək: “Analar öz övladlarını tam iki il əmizdirməlidirlər.”[2] və sair kimi iqtisadi hüquqlarını ödəmək, habelə kişilərə yaxşı davranmaq və zülm etməmək tapşırılıbdır. Bunlara əsasən, kişi bu çərçivədən xaric öz nəzərləri əsasında qadınla davrana bilməz. “Məruf” sözü hər hansı işdir, belə ki, camaat onu tanısın və inkar etməsin və Allah qadınlarla davranmağı “məruf” sözü ilə qeyd edib[3].

Əlbəttə məruf kəlməsinin mənası ədalətçilikdən və qanunvericilikdən daha genişdir, belə ki, ədalət və qanuni hüquqlara şamil olmaqla yanaşı, habelə əxlaqi və dəyərli işləri də əhatə edir. Yəni Allah ailəyə rəhbərliyi kişiyə tapşırmaqla, ədalətli davranmaqdan əlavə, əxlaqi və dəyərli rəftarları da tövsiyə edir.

Buna əsasən, qadınlarla məruf əsasında davranmaq onlarla ədalətli və insaflı rəftar etmək deməkdir.[4] Digər sözlə desək, yəni Allahın fərmanına uyğun olaraq qadınların hüquqlarını qoruyaraq yaşamaq.

**3. Məhəbbət və rəhmət qanunu:** Kişinin hakimiyyəti hər cür zorakarlıqdan uzaq olaraq məhəbbət və rəhmət əsasında olmalıdır. Quran bu barədə buyurur: "Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması,

---

[1]. Quran: Bəqərə surəsi, ayə: 236
[2]. Quran: Bəqərə surəsi, ayə: 233
[3]. Təba- Təbayi Muhəmməd Hüseyn, Təfsirul- Mizan, Musəvi Həmədani, Seyyid Muhəmməd Baqir, cild 4, səh 405, Dəftəre intişarate İslami, hoze elmiyyeye Qum, beşinci çap, 1374 hicri şəmsi.
[4]. Feyz Kaşani, Molla Möhsin, Təfsir Safi, cild 1, səhifə 434, Əsədr nəşriyyatı, Tehran, ikinci çap, 1415-ci hicri qəməri ili.

aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır."[1] Kişinin mərhəmət əsasında olan gözəl əxlaqı və bəyənilən rəftarı yoldaşının təsirlənməsində ən əsas amildir. Deyilənlərə əsasən qadir Allah hər bir qadın və kişiyə bir sıra bacarıqlar veribdir və bunların əsasında qadınla kişinin qarşılıqlı vəzifələrini və hüquqlarını müəyyən edibdir.

Allah öz hikmətinə əsasən, kişilərə çox bacarıq və qüdrət veribdir, bu üstünlüyün əvəzində ailə məsuliyyətini ona tapşırıbdır. Əgər diqqətlə nəzər salsaq görəcəyik ki, bu üstünlük kişi üçün vəzifə və ya məsuliyyət yaradıbdır ki, onun vasitəsi ilə ailəyə rəhbərlik edə bilsin, nəinki bu üstünlüyə görə kimi isə məhkum etsin və ya fəxr etsin.

## Cənnətlə Müjdələnən Qadın!

"Cənnət qadınlarının ən üstünləri Xədicə bint Xuveylid, Fatimə bint Məhəmməd, Məryəm bint İmran, Fironun zövcəsi Asiyə bint Məzahimdir."

Dini və milli mənsubiyyətindən asılı olmayaraq hər kəs bu müqəddəs qadın haqqında böyük hörmətlə danışır!

İnsanların neçə əsrlərdir hörmətlə yad etdiyi Həzrət Asiyə kim idi və nə üçün o bu gün də hörmət və məhəbbətlə yad edilir?

Asiyə Allahın lənətlədiyi Fironun sarayında Həzrət Musanı yetişdirən, onu göz bəbəyi kimi qoruyaraq, zalımların şahı olan ərinin (Fironun) bəlalarından mühafizə edən bir sevimli Allah bəndəsi idi. Həzrət Musaya peyğəmbərlik verilən kimi, ona iman edən ilk insan da o oldu, Peyğəmbərə gizlicə iman

---

[1]. Quran: Rum surəsi, ayə: 21

etdi və Fironu qəlbində lənətlədi, iman etdiyi aşkar olanda isə canından keçdi, ancaq imanından dönmədi!... O, İslam Peyğəmbərinin - Allahın sonuncu elçisinin Cənnətlə müjdələdiyi, "Quran" da təriflənən, ismət və səbir timsalı olan çox dəyərli qadındır! O adı, cəsarəti, iman eşqi min illərin o üzündən günümüzə gələn, Sabaha gedən Həzrət Asiyədir!...

O, bir Peyğəmbəri qorudu, bir Peyğəmbər tərəfindən isə müjdələndi!

Asiyə, öz qövmünün seçilmiş və ən ləyaqətli qadınlarından biri idi. Yusif əleyhissalamın vaxtında Misir Sultanı olan və Həzrət Yusifə iman edən Reyyan ibn Vəlidin nəslindən idi.

Yaşadığı dövrdə Misirin ən məşhur qadını olan Həzrət Asiyə bu tarixi ölkənin zalım və qan içən imperatoru, zülm və ədalətsizlikləri bü günə qədər də lənətlənən Fironun həyat yoldaşı idi. Firon da Babil hökmdarı Nəmrud kimi Tanrılıq iddiasında idi. Fironun mənfur, xeyirsiz və yaramaz adam olmasının əksinə Həzrət Asiyə təmizlik, dürüstlük, iffət və əsillik timsalı idi.

Dinlər tarixi baxımından böyük önəm daşıyan Həzrət Asiyənin həyatının ilk dövrləri haqqında kifayət qədər yazılı qaynaq yoxdur. Buna baxmayaraq, müqəddəs mətnləri tədqiq edərkən, bu dəyərli qadının həyatı haqqında bəzi məlumatlar əldə etmək mümkün olmuşdur.

"Quran"da "Fironun zövcəsi" kimi yad edilən Həzrət Asiyənin adı hədislərdə açıqca bildirilmişdir. Tarix və təfsir qaynaqlarında isə onun adı "Asiyə bint Məzahim ibni-Übeyd ibni-Reyyan ibni-Vəlid" kimi çəkilir. Asiyənin ulu babalarından olan Vəlid həzrət Yusifin dövründə Misir sultanı idi.

Misir zalım Fironun zülmü altında əzilərkən, Asiyənin qismətinə Fironun zövcəsi olmaq kimi bir bəxtsizlik düşmüşdü. Firon özündən əvvəlki zalımlar kimi, tanrı

olduğunu iddia edir və bütpərəstliyi himayə edirdi. "Quran"da bu həqiqətə belə işarə edilir: "Dedi ki: Həqiqətən, mən sizin ən uca Rəbbinizəm!" ("Naziat" surəsi, ayə: 24). Bunun müqabilində Asiyə, əsaləti və mərhəməti ilə diqqəti cəlb edirdi. Əri insanlara zülm edərkən, Asiyə ürəklərə su səpirdi. O, heç zaman ərinin etdiyi zülm və haqsızlıqları müdafiə etmir, onun tərəfində dayanmırdı. Xalq tərəfindən "Nil Kraliçası" adlandırılan Asiyə, ərinin pisliklərinə baxmayaraq, iman etmiş bir qadın idi.

Firon xüsusən İsrail oğullarına çox əziyyət verirdi. Allah onları bu zülmdən xilas etmək üçün Həzrət Musanı göndərəcəkdi - Firon bunu yuxuda görmüşdü. Yuxuda görmüşdü ki, Qüds istiqamətindən gələn alovlar Misirə çatır və Fironun sarayını yandırıb külə döndərir. Fəqət bu alovlar ancaq Fironun soyundan olan qibtilərə zərər verirdi, İsrail oğulları isə xilas olurdular. Qan-tər içində yuxudan oyanan Firon, münəccimləri çağırıb əmr edir ki, onun yuxusunu yozsunlar. Yuxunun yozumu Firon üçün çox qorxunc idi: "Yaxın zamanda İsrail oğullarından bir uşaq doğulacaq. O uşaq misirlilərin həlak olmasına, sənin taxt-tacının da yerlə yeksan olmasına səbəb olacaq."

Bunu eşidən Fironun gözünə yuxu getmir. O, qorxu və hiddət içində ağlasığmaz bir qərara gəlir: əmr edir ki, İsrail oğullarının soyundan doğulan bütün oğlan uşaqları öldürülsün. Bu hadisə "Quran"da belə ifadə olunur: "Həqiqətən, Firon yer üzündə baş qaldırıb onun əhalisini zümrələrə bölmüşdü. Onların arasından olan bir tayfanı gücsüz görüb onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. O, həqiqətən, fitnə-fəsad törədənlərdən idi!" ("əl-Qəsəs" surəsi, 4).

Ancaq Həzrət Asiyə həyat yoldaşının bu vəhşiliklərinə biganə qalmır və onu dəstəkləmirdi. Musa bax belə bir şəraitdə

doğulmuşdu. Oğlunun, Fironun qurbanı olacağından qorxan ana nə edəcəyini bilmirdi. Fəqət Allah, onun qəlbinə rahatlıq verdi, vəhy vasitəsilə, onu qorxudan uzaqlaşdırdı. Bu hadisə "Quran"da belə nəql edilir: "Biz Musanın anasına 'Onu əmizdir; elə ki ondan ötrü qorxdun, onu dəryaya (Nil çayına) at. Qorxma və kədərlənmə. Biz onu sənə qaytaracaq, özünü də peyğəmbərlərdən edəcəyik!' - deyə bildirdik." ("əl-Qəsəs" surəsi, ayə: 7).

Qadın deyiləni elədi. Ərinin zalımlığına daxilən lənətlər yağdıran Asiyə tam o aralarda sarayda öz otağında oturub Nili seyr edirdi. Nil çayının ortasında batıb-çıxaraq özbaşına üzən sandığa oxşar bir əşya onun diqqətini cəlb edir. Asiyə keşikçilərinə və qulluqçularına əmr edir ki, sandığı tutub onun yanına gətirsinlər. Sandıqdan çox şirin bir oğlan uşağı çıxır. Bu uşaq, gələcəkdə peyğəmbərliklə şərəflənəcək və Fironun zülm imperiyasını yerlə-yeksan edəcək Musa idi...

Uşağı Asiyənin yanına gətirirlər. Asiyə bunun, övladını Fironun cəlladlarından xilas etməyə çalışan bir ananın işi olduğunu başa düşür. O, uşağı himayə etmək qərarına gəlir və bunun üçün bütün çətinliklərlə üzləşməyi göz önündə tutur. Firon hiddətdən dəli olmaq həddinə gəlib, uşağı öldürməyi əmr etsə də, Həzrət Asiyə var gücü ilə ona qarşı çıxıb, onu fikrindən daşındırmağa nail olur.

"Bu uşaq həm mənim, həm də sənin üçün gözaydınlığıdır. Onu öldürməyin. Ola bilsin ki, bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik!" ("əl-Qəsəs" surəsi, ayə: 9) deyən Həzrət Asiyə, ərini razı salır.

Beləliklə, Asiyə səhrada bir qızılgül yetişdirməyə başladı. Digər tərəfdən, Musanın böyük bacısı Məryəm, sahil boyunca sandığı izləmiş və hər şeyə şahid olmuşdu. O, gördüklərini anasına danışdı. Uşağın həyatı xilas olmuşdu, ancaq indi də ona bir süd anası tapmaq lazım idi. Çünki uşaq

heç kimin südünü əmmirdi. Məryəm Asiyənin hüzuruna çıxaraq belə dedi: "Sizin üçün o uşağa süd verməyi təmin edəcək, həm də ona qarşı xeyirxah olacaq bir ailəni nişan verimmi?" ("əl-Qəsəs" surəsi, ayə: 2). Beləliklə, Məryəm qardaşının anasının südünü əmərək, onun yanında böyüməsinə nail oldu. Bu da bir möcüzə idi. Həzrət Musa Asiyənin himayəsində, öz anasının südünü əmərək böyüdü, gücləndi.

Həzrət Asiyə özünü "tanrıların tanrısı" elan edən Fironun zövcəsi olsa da, bir olan Allaha iman edirdi. Bir peyğəmbəri (Həzrət Musanı) qoruyub saxlayan Asiyə, başqa bir peyğəmbər (İslam Peyğəmbəri) tərəfindən təriflənmiş, sonuncu müqəddəs kitabda ("Quran"da) isə mədh edilmişdir.

**Cəsarət simvolu**

Artıq yuxarıda qeyd etdiyimiz kimi, Həzrət Musaya peyğəmbərlik veriləndə, ona iman edən ilk şəxs şərəfli qadın Həzrət Asiyə oldu. İman etdi, ancaq imanını qəlbində saxladı, ərindən gizlətdi. Fəqət elə bir vaxt gəlib çatdı ki, onun qəlbində saxladığı imanı gizlətmək artıq mümkün olmadı. Bir dəfə Firon iman edənlərə necə işgəncələr verdiyini böyük zövqlə danışarkən, Asiyənin verdiyi mənfi reaksiyadan hər şeyi başa düşdü. O, Fironun qarşısında durub qətiyyətlə dedi: "Ey Firon! Nə vaxta qədər qəflət yuxusunda qalacaq və Allahın həqiqi bəndələrini yandıracaqsan?" Firon dedi: "Mənim allahlığıma səndəmi şəkk edirsən?!"

Asiyə dedi: "Bəyəm mənim sənin allahlığına etiqadım var idi ki, bu gün də şəkk edəm? Mən Musanı Nil çayından götürdüyüm gündən onun peyğəmbərliyinə etiqadlı olmuşam. Buna görə də, bacardığım qədər onu qorudum".

Firon Asiyənin ağır cavabından elə narahat oldu ki, qəzəblə qışqırdı: "Ey Asiyə! Səni elə öldürəcəm ki, indiyə kimi heç kəsi belə öldürməmişəm." Firon qəzəbdən

titrəyirdi. O özü "tanrılar tanrısı" "ola-ola", arvadının Allaha iman etməsini qəbul eləyə bilmirdi! Asiyəni yolundan döndərmək üçün dil tökdü, müxtəlif hiylələrə əl atdı, təhdid etdi. Ancaq bunların heç bir təsiri olmadı. Asiyə bütün varlığı ilə Allaha inanmışdı!

Asiyənin varlığında kainatı yaradan, dağları, ovaları, dənizləri, dərələri, təpələri, ormanları... bir sözlə, hər şeyi yoxdan var edən, yerin və göyün sahibi Allaha iman və Musanın söylədiklərinə tam inamdan başqa bir şey yox idi. Nə Firondan zərrə qədər qorxurdu, nə də bir cəllad ruhlu dinsiz qatilin həyat yoldaşı olduğuna görə, böyük Nilin yeganə kraliçası olmasına sevinirdi...

Onun düşüncəsi sadəcə bir şeylə məşğul idi: Fironun da onun kimi Allah-Taalaya inanması və xalqa zülm, işgəncə verməkdən əl çəkməsi. Ancaq Firon artıq dönüşü olmayan yolda idi...

İlahilik iddiasında olan və özündən üstün heç bir varlığı, ünvanı qəbul etməyən Firon isə təhdidlərini daha da artırırdı. Buna baxmayaraq, Asiyə Firona güzəştə getmir, əksinə, ərinin təzyiqləri qarşısında Allaha imanı daha da artır; oğulluğa götürdüyü Həzrət Musanın arxasınca getmək arzusu daha da qüvvətlənirdi.

Asiyə üçün son qərar anı gəlib çatmışdı. Firon, bütün Misir xalqını özünə tapınmağa məcbur etdiyi halda, arvadının "başqa birinə" tapınmasına dözə bilmirdi. O, Asiyənin qarşısına belə bir şərt qoydu: "Ya ərinə tapınaraq öncəki kimi ‘Nil kraliçası’ olacaq, dəbdəbəli həyat sürəcəksən, ya da Allaha iman etməyin cəzasını görəcəksən."

Asiyə heç tərəddüd eləmədi. O, çoxdan öz qərarını müəyyənləşdirmişdi. Onun gözəl qəlbində ancaq Allaha və Allahın müqəddəs peyğəmbəri Həzrət Musaya yer var idi.

## Qadın incə bir varlıq, yoxsa zəif bir insandır?

Quran nəzərində qadının çox yüksək məqamı vardır. Qurani-Kərim qadınla kişini xilqət baxımından bir insani gövhərdən və bir cinsdən yarandığını bəyan edir.

Bu asimani kitab xüsusi ilahi mərhəmətə layiq görülən, rübubi məqamın vəhyini əldə edən, mələklərlə danışan qadınlardan xəbər verir. Onlar Allah yolunda müqavimət və iman ünvanı ilə bütün insanlara nümunə kimi təqdim edilmişdir. Bu barədə həzrət Məryəm (ə) və Fironun arvadından söhbət açan ayələri qeyd etmək olar.

Kişinin bəzi bacarıq və xüsusiyyətlərdə qadından üstün və eləcə də, qadının bəzi xislətlərdə kişidən üstün və güclü olması heç birinin ümumi şəkildə güclü, digərinin isə zəif olmasına dəlil ola bilməz. Ümumiyyətlə, bu cəhətdən kişi və qadın arasında müqayisə aparmaq düzgün deyildir. Çünki ailənin yaşayış və məişət xərclərini təmin etməkdə atanın məsul olması onun qadınla müqayisədə daha artıq fiziki qüvvəyə malik olmasını tələb edir. Eləcə də, ana uşağın tərbiyəsində və inkişafında məsul olduğuna görə ata ilə müqayisədə daha artıq atifə[1] və insani duyğulara sahib olmasını tələb edir. Bu da hər bir şeyin öz yerində qərar tutmasını tələb edən ədalətdir.

İncə və zəif olmaq müxtəlif mərhələlərə malik olan nisbi işlərdəndir. Yəni bir şey başqa şeylə müqayisədə kobud və güclü hesab oluna bilər. Amma həmin şey üçüncü bir şeylə müqayisədə zəif və incə ola bilər. Nümunə üçün: Quran məntiqində insan zəif bir varlıq hesab edilmişdir*:* **“Allah istəyir ki, sizin yükünüzü yüngülləşdirsin, çünki insan zəif**

---

[1]. 1) meyil; 2) duyğu, hiss; 3) rəğbət mənalarını ifadə edir.

**xəlq edilmişdir.”**[1] Amma həmin insan ətrafda mövcud olan bir çox varlıqlardan güclü hesab olunur. Deməli, mühakimə yürüdən zaman meyarlar bəyan edilməlidir: müəyyən bir meyara əsasən fiziki qüdrət kimi bir şey bir varlıqda zəif ola bilər, amma başqa bir meyara əsasən, o cümlədən elmi qüdrət və s. daha güclü hesab edilə bilər.

Hər bir halda qadınla kişi insaniyyətin iki sinfidir və hər birinin də müxtəlif fərqləri və üstünlükləri vardır. Onlar fiziki nəzərdən və fizioloji şərtlər baxımından fərqlənirlər. Buna görə də, hər biri özünə məxsus vəzifəni əncam vermək üçün xəlq edilmişdir. Bu fərqlər (nəinki ayrı-seçkilik) eynilə hikmətdir və insan nəslinin davam edilməsi üçün qoyulmuşdur. Bunun mənası kamal yolunun qadınların üzünə bağlanmış və ya məhdud edilmiş olması deyildir. Qadınların əsas ruhi xüsusiyyətlərindən biri insani duyğular və atifələr müqabilində tez bir zamanda təsirlənmələridir. Buna görə də şadlıq, nigaranlıq, ağlamaq və gülmək kimi şeylərdə kişilərdən daha tez təsirlənirlər.

Allah-Taala qadının öhdəsində olan vəzifələrə və təbiətinin tələbinə əsasən onun varlığında elə incəliklər və zərif cəhətlər qoymuşdur ki, öz məsuliyyətlərini yerinə yetirə bilsin. Buna görə də, kişi ilə müqayisədə qadın daha incə və zəif məxluq sayılır.

Cavabda bir neçə məsələni diqqət mərkəzində saxlamaq lazımdır:

1. Quran nəzərindən qadının çox yüksək məqamı vardır. Qurani-Kərim qadınla kişini xilqət baxımından bir insani

---

[1]. Quran: Ənfal surəsi, ayə: 66

gövhər və cinsdən yarandığını bəyan edir: **"Ey insanlar! O Allah qarşısında təqvalı olub qorxun ki, sizi vahid bir nəfsdən xəlq etdi, həyat yoldaşını da ondan yaratdı, onlardan çoxlu kişilər və qadınlar vücuda gətirdi."**[1]

Fəzilətə, yüksək insani dəyərlərə və mənəvi məqamlara yiyələnmək, ali insani sifətləri kəsb etməyə qadir olmaq nəzərindən Quran təbirlərində qadınla kişi arasında heç bir fərq qoyulmur. Bu barədə Quranda çoxlu ayələr mövcuddur. Bu ayələrin bəzilərində bu məzmun gözə dəyir: **"Hər kəs – istər qadın olsun, istərsə də kişi, imanlı olduğu halda saleh əməl görərsə, pak-pakizə həyata malik olar, behiştə daxil olar və Allahın dərgahına yaxınlaşar."**[2]

Quranda kişi "ata" və qadın "ana" ünvanı ilə daim bir yerdə zikr olunmuşdur. Övladlara da vəzifə verilmişdir ki, ata-anaya ehtiram qoysunlar, onlara heç vaxt, hətta müşrik olsalar belə, hörmətsizlik etməsinlər. Onların şirkə dair tövsiyələrini qəbul etmək olmaz, amma eyni halda onlarla gözəl rəftar edilməlidir. Ata və ana hər yerdə eyni səviyyədə və bir yerdə təriflənmişdir.

Qadın və kişi barəsində yüksək insani dəyərlərlə əlaqədar aşağıdakı halları qeyd edirik: **"Müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, itaət edən kişilər və itaət edən qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbir edən kişilər və səbir edən qadınlar, təvazökar kişilər və təvazökar qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar..."**[3]

---

[1]. Quran: Nisa surəsi, ayə: 1
[2]. Quran: Nəhl surəsi, ayə: 97
[3]. Quran: "Əhqaf" surəsi, ayə: 150

Qurani-Kərim elə qadınların adını çəkir ki, Allah tərəfindən xüsusi mərhəmətə layiq görülmüş, rübubi məqamdan vəhyin nazil olduğu yer olmuş, mələklər onlarla danışmışdır. Bu qadınlar Allah yolunda iman və müqavimətin nümunəsi kimi qeyd edilmişlər. Burada həzrət Məryəm (ə), Musanın anası və Fironun həyat yoldaşının[1] adını qeyd edən ayələri göstərmək olar: **"Pərvərdigarı onu (Məryəmi) gözəl şəkildə qəbul etdi, onu gözəl tərbiyələndirdi və Zəkəriyyəni onun kəfili (başçısı) qərar verdi. Zəkəriyyə hər vaxt məbəddə onun yanına gəlirdisə, Məryəmin yanında xüsusi meyvələrin olduğunu görüb soruşurdu: "Bunlar haradan gəlmişdir?" O deyirdi: "Bunlar Allahın yanından gəlmişlər, Allah istədiyi şəxslərə hesabsız ruzi verir."**[2]

Sonra buyurur: **"Mələklər dedilər: (Ey Məryəm!) Allah səni seçmiş, paklamış və (sənin dövründəki qadınlardan) seçib üstün etmişdir."**[3]

2. İncə və zəif mənalarının nisbi olması

Qeyd etmək lazımdır ki, incə və zəif kəlmələri heç vaxt biri digərini lazım tutmur. Yəni elə də deyildir ki, bu ikisindən biri harada olsa digəri də onunla yanaşı olsun. Bəzən bir varlıq kobud və zəif, bəzən isə bunun əksinə olaraq incə və güclü ola bilər. Onların bir varlıqda cəm olması da mümkündür, yəni bir varlıq eyni zamanda həm incə, həm də zəif ola bilər.

---

[1]. Quran: Təhrim surəsi, ayə: 11: **"Allah möminlər üçün Fironun həyat yoldaşını məsəl çəkir, o zaman ki, demişdi: "Pərvərdigara! Öz yanında, behiştdə mənim üçün bir ev düzəlt və məni Fironun özündən və onun işlərindən xilas et, mənə zalım qruplardan nicat ver!"**

[2]. Quran: Ali-İmran surəsi, ayə: 37

[3]. Quran: Ali-İmran surəsi, ayə: 42

Bu iki sifət müxtəlif mərhələlərə malik olan nisbi işlərdəndir. Yəni bir şey başqa şeylə müqayisədə kobud və güclü sayıla bilər, amma həmin şey üçüncü bir şeylə müqayisədə lətif, incə və zəif ola bilər. Misal üçün, Quran məntiqində insan zəif varlıq hesab olunur: **“Allah istəyir ki, sizin yükünüzü yüngülləşdirsin, çünki insan zəif xəlq edilmişdir.”**[1]Amma bir çox varlıqlarla müqayisədə həmin insan çox güclü hesab olunur. O elə işlər görür ki, güclü varlıqlardan çoxu o işləri görməkdə acizdir. Quran yenə buyurur: **“Kitab elmindən cüzi bir elmi olan kəs (Asəf) dedi: “Mən onun (Bilqeyisin) taxtını bir göz qırpımında (Yəməndən) sənin yanına (Fələstinə) gətirərəm.”**[2]

Deməli, bir şey barəsində mühakimə yürüdən zaman meyarları bəyan etmək lazımdır. Çünki müəyyən bir meyara əsasən bir varlığın fiziki qüdrəti və bacarığı zəifdirsə, başqa bir meyara əsasən onun elmi və s. kimi bacarıqları çox güclü ola bilər...

3. Qadın və kişi bir növdən yaranmışlar və bir şəxs üçün insan olması cəhətindən nə qədər təbii və şəri hüquqlar sübuta

---

[1].Quran: Nisa surəsi, ayə: 28

[2].Quran: Nəml surəsi, ayə: 40

**Məkarim Şirazi, “Təfsiri-nümunə”, 15-ci cild, səhifə 469: O şəxs saleh bir insan idi və ilahi kitabdan nəzərə çarpacaq dərəcədə agahlığı var idi. Quran onun barəsində buyurur:** “Kitab elmindən cüzi bir elmi olan kəs (Asəf) dedi: “Mən onun (Bilqeyisin) taxtını bir göz qırpımında (Yəməndən) sənin yanına (Fələstinə) gətirərəm.” **Həzrət Süleyman (ə) onun sözü ilə razılaşdığı zaman o, özünün mənəvi qüdrətindən istifadə edərək Səba məlikəsinin taxtını bir göz qırpımında onun yanında hazır etdi:** “Süleyman taxtı öz yanında qərarlaşmış halda gördükdə Allaha həmd-səna etməyə başladı və dedi: “Bu mənim Pərvərdigarımın mərhəmətidir ki, məni yoxlasın: Onun şükürünü yerinə yetirəcəyəmmi, yoxsa nankorluq edəcəyəm?!”

**Bu şəxs həzrət Süleymanın ən yaxın iman dostlarından və xüsusi adamlarından idi. Əksər hallarda tarixdə onun adı Asəf ibni Bərxiya olduğu deyilir. O Süleymanın vəziri və onun bacısı oğlu idi.**

yetsə həm qadın, həm də kişi üçün qüvvədədir. Amma diqqət yetirmək lazımdır ki, bu iki sinfin bir-biri ilə müqayisədə çoxlu fərqləri və fəzilətləri vardır. Onlar fiziki baxımdan və fizioloji şərait cəhətindən fərqlidirlər. Buna görə də hər biri özünəməxsus vəzifələri yerinə yetirmək üçün xəlq edilmişdir. Bu fərqlər (nəinki ayrı-seçkilik) eynilə hikmətdir və bəşər nəslinin davam etməsinə səbəb olur. Bu mənaya deyildir ki, kamal yolu qadının üzünə bağlanmış, yaxud bu yolda ona məhdudiyyət qoyulmuş olsun. Qadınların xilqətində qoyulmuş ruhi xüsusiyyətlər – insani duyğular və hislərin çox tez təsiri altına düşməkdir. Buna görə də şadlıq, nigaranlıq, ağlamaq və gülmək kimi ruhi və mənəvi hislərə kişilərdən daha tez qapılırlar.

Başqa sözlə: Qadının təbiəti və xilqəti mehr-məhəbbət ocağıdır. Bunun özü də, qadının məqamı barədə bir növ dəyərli və müsbət nəzərdir. Qadının ülvi və atifi yönləri onun əqli və fikri qüvvələrinin normal hala düşməsinə onsuz da, mane olmur, qadın da kişi kimi normal nəzəri ağıldan bəhrələnə, ağlın əsas tutulması ilə emosional hislərə qapılmaya bilər. Əlbəttə, mümkündür, emosional duyğularının normal hala salınması üçün qadınlar kişilərdən daha çox məşqə ehtiyaclı olsunlar.[1] Qadınlar və qızlar çox incə varlıq olduqlarından (və həzrət Əlinin (ə) buyurduğu kimi: **"Qadın ətirli bir güldür"**[2] daha həssas varlıq hesab olunur və bir nəsim küləyi ilə bu gülün pərən-pərən olması mümkündür. Ona gör də, gərək özünə xüsusi nəzarət etsin.

---

[1]. Məkarim Şirazi, "Təfsiri-nümunə", 15-ci cild, səhifə : 353

[2]."Üsuli kafi", 5-ci cild, səhifə 510, "İkramuz-zövcə" bölməsi

Kişi bəzi xüsusiyyətlərdə və bacarıqlarda qadından üstün olsa da, qadın da bəzi sifətlərdə kişidən güclüdür. Deməli, heç biri mütləq şəkildə güclü və ya zəif deyildir və ümumiyyətlə, bu cəhətdən qadınla kişi arasında müqayisə aparmaq düzgün deyildir. Çünki atanın ailənin məişət xərclərini təmin etmək məsuliyyəti olduğundan qadınla müqayisədə daha artıq fiziki qüvvəyə malikdir. Qadın da ana ünvanı ilə övladın tərbiyə edilib böyüdülməsi məsuliyyətini öhdəsinə aldığına görə kişi ilə müqayisədə daha artıq ülvi duyğulara və emosional xislətlərə malik olmalıdır. Bu da elə “hər şeyi öz yerində qərar verməkˮ dən ibarət olan ədalətdir.

Amma qadının öhdəsinə qoyulan vəzifələrə və təbiətinin tələbinə görə Allah-Taala onun vücudunda elə incəliklər və zəif cəhətlər qoymuşdur ki, öz məsuliyyətlərini yerinə yetirə bilsin.

Qeyd olunanlara diqqət yetirməklə əgər bir şəxs bu iki varlıq arasında müqayisə aparmaq istəsə, belə nəticəyə çatacaqdır ki, kişi ilə müqayisədə qadın daha artıq incəliyə və zəifliyə malikdir.

## Nəticə

Deyildiyi kimi həm tövhid, həm də qeyri-tövhid dinlərində qadının mövqeyi və məqamı müxtəlifdir. Buddizmdə qadın, şikarını ovlamaq üçün pusquda oturan qorxunc timsah və akulaya bənzədilir. Təhrif olunmuş yəhudi dinində qadın heç bir şəxsiyyət və məqam sahibi deyil. Əlbəttə, sübhəsiz bütün Peyğəmbərlər (ə) qadının dəyər və məqamının müdafiəçiləri və onlara qarşı törədilən zülmün isə əleyhinə olmuşlar. Lakin müqəddəs kitabların təhrif olunmuş qanunlarına əsasən, yəhudi dinində də qadın, qız abırsızlıq və rüsvayçılıq mənbəyi hesab olunur. Atəşpərəstlik dinində isə qadın insan yox, əşya hesab olunur. Qadın o qədər dəyərsiz idi ki, hətta danışmaqda, fikirləşməkdə və hərəkətlərində belə heç bir ixtiyar sahibi deyildi. Xristianlıq başdan-başa rəhmət və mehribanlıq dini olsa da, qadınla ehtiram və nəzakətlə rəftar etmək tapşırılsa da, bu din də təhrif olunduqdan sonra qadına verilən dəyər həddən artıq azalıb. Qadın zəruri şər, təbiətən azmışdır. Qadın Adəmi yuxarıdakı Cənnətdən məhrum edən, hələ də şeytanın əlindəki silah olan Həvvanın təmsili, təcəssümüdür.

Amma İslam dininin zühuru ilə qadına münasibət dəyişildi. İslam dinində qadına xüsusi bir dəyər əta olundu.

İslam Peyğəmbəri (s) qadınlara hörmət etməklə, xüsusilə də qızı Fatiməyə (ə) ehtiram göstərməklə cahiliyyət dövrünün xurafi adət-ənənələrini məhv etmişdir. Peyğəmbər (s) buyurur: «Öz qızlarınızı yaramaz (xoşa gəlməz) saymayın! Həqiqətən, qızlar insanın ən gözəl və qiymətli ünsiyyət simvoludur».

İslamın əziz Peyğəmbəri (s) qızı Fatiməyə (ə) ehtiram etməklə başqalarına nümunə olmuşdur. O, başqa bir yerdə də buyurur: “Övladlarınıza hədiyyə verərkən ədalətə riayət edin! Oğlanlara, yaxud qızlara hədiyyə verməkdə tərəddüd edərsinizsə, bu zaman qızları tərcih edin!”[1]

Qadını əşya hesab edən və ona heç bir dəyər verməyənlərin əksinə olaraq, əziz Peyğəmbərimiz (s) belə buyurub: “Sizlərdən ən üstününüz həyat yoldaşına və qızına mehriban olanınızdır.”[2]

Peyğəmbərdən (s) sonra onun canişinləri olan məsum İmamlar (ə) da qadına ehtiram göstərməkdə və onu dəyərləndirməkdə xüsusi təkid nümayiş etmişlər. İmam Sadiq (ə) buyurub: “Qadınların ən yaxşısı nemətlərin qarşısında şükür edən, kasıbçılıq zamanı isə buna dözənlərdir.” O həmçinin buyurur: “Qadınlara daha artıq ehtiram edən kişinin imanı da çox olar.”[3]

Bu qadına verilən şəxsi və insani dəyərin ən yüksək zirvəsidir.

Müqəddəs İslam dininin peyğəmbəri Həzrət Muhəmməd (s) özünəməxsus rəftarı ilə kişilər kimi, qadınlara da dəyər vermişdir. Belə ki, beyət məsələsində kişilərlə birlikdə qadınlar da iştirak edib və səs vermək hüququna malik olublar. Bəzi rəvayətlərə əsasən, dünya xilaskarının zühuru və

---

[1]. "Kənzul-ummal”, hədis 43546
[2]."Mustədərəkul-vəsail”, Muhəddis Nuri, cild 14, səhifə 55
[3]. "Vəsailuş-şiə”, cild 12, səhifə 9

qiyamında kişilərlə birlikdə 50 nəfərə yaxın qadın da İmamla (ə.f) çiyin-çiyinə döyüşəcək. Qurani-Kərimdə dəfələrlə qadınların kişilərlə bərabər hüquqlu olduğu xatırladılır. Quranda buyrulur: "Həqiqətən, Allah məhz müsəlman kişilər və qadınlar, mömin kişilər və qadınlar, (Allaha) müti kişilər və qadınlar, doğru danışan kişilər və qadınlar, səbirli kişilər və qadınlar, təvazökar (yalnız Allah qarşısında kiçilən) kişilər və qadınlar, sədəqə verən, oruc tutan kişilər və qadınlar, ayıb yerlərini (zinadan) qoruyub saxlayan kişilər və qadınlar və Allahı çox zikr edən kişilər və qadınlar üçün (axirətdə) məğfirət (bağışlanma) və böyük bir mükafat (Cənnət) hazırlamışdır!"[1]

Qısa olaraq bunu deyə bilərik ki, müqəddəs İslam dinində qadınlarla kişilər arasında olan bütün xüsusiyyətlər, üstünlüklər, o cümlədən səbr, təvazökarlıq, iman və sədaqət kimi sifətlər də bərabərhüquqludur. Bu isə qadınların da İlahi məqam və kamillik dərəcəsinə çatmaqda qüdrət və istedad sahibi olduğunun göstəricisidir.

---

[1]. Quran: Əhzab surəsi, ayə 35

# Ədəbiyyat

- Qurani-Kərim
2- Nəhcül-bəlağə
3- Üsuli-kafi, Əbu Cəfər, Kuleyni, Qahirə, 1401 q.
4- Vəsailüş-şiə, Məhəmməd ibn Həsən, Hürr Amoli
5- əl-Möcəmul-kəbir, Süleyman İbn Əhməd, Təbrani
6- Biharül-ənvar, Məhəmməd Bair, Məclisi, Qum, 1382
7- Qürərül-hikəm, Amodi, Tehran, 1394
8- əl-Xisal, İbn Babəveyh, Şeyx Səduq
9 - Nəhcüs-səadə, Məhəmməd Bair Məhmudi
10- Kənzül-ümmal, Cəlaləddin Süyuti, Beyrut, əl-hikmə, 1422 q.
11- Təfsire-Nümunə, Məkarim Şirazi, Qum, tarix 1392 ş.

## Evlilikdə hədəf və ölçülər

*Fariz Babayev1*


## Abstrakt

Evlilik cahanşümul bir nəsnədir; bütün zamanlarda, bütün məkanlarda bir formasına rast gəlmək olur. Bu cahanşümul olmaq xüsusiyyəti evliliyin insanların fərdi və ictimai həyatındakı nə qədər önəmli rol oynadığından xəbər verir. Evlilik və ailə təşkili fitri, ilahi bir ənənədir.2 Hansı ki, bütün dinlərdə xüsusi müqəddəslik daşıyır. Evlilik insanlıq əlaqələrinin təməlini, əsasını təşkil edir. Ailə təşkili çox vaxt kişilər və qadınlar üçün ağır məsuliyyətlər və vəzifələr gətirir, ailə quranlar da evliliyin gətirdiyi ağır vəzifələr haqqında yetərincə məlumatlıdırlar.


**Açar kəlmələr:** İslam, evlilik, hədəf, ölçü

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

[2] Fəthi Aştiyani və Əhmədi, 2004.

## Giriş

Evlilikdə kişi və qadın instinktlər, ayinlər, simvollar və məhəbbətdən doğan simvolik bir güclə bir-birinə cəlb olunur və ailə ünvanında dinamik bir vahid yaratmaqdan ötrü könüllü surətdə bir-birlərinə tam təslim olurlar.1

Hələ evli olmayan bir kişi yalnız özünü və ehtiyaclarını düşünür, bir halda ki, evləndikdən sonra həyat yoldaşının və uşaqlarının müxtəlif ehtiyaclarını ödəmək məsuliyyətini də daşıyır. O, ailə ocağının isinməsi və səmərəli bir ailəyə çevrilməsindən ötrü ailə üzvlərinin maddi və mənəvi ehtiyaclarını ödəmək məsuliyyətini yerinə yetirməyə çalışmalıdır.

Ayrıca, ata evində yaşayan subay bir qızın subay həyatı boyunca yalnız məhdud vəzifələri və məsuliyyətləri var, ancaq ailə qurduqdan sonra qısa müddətdə həyat yoldaşı, ardınca da ana olmağın mühüm və böyük məsuliyyətini öhdələnəcək və ana səmərəli bir həyat yoldaşı, faydalı ana sayılması üçün şəxsi ehtiyaclarından əlavə, digər ailə üzvlərinin də ehtiyaclarını qarşılamalı, bu minvalla öz ailəsini səmərəli bir ailəyə, müsbət göstəriciləri olan bir ailəyə çevirməyi bacarmalıdır.

[1] Landis 1975, Əhmədi, Mərzabadi və Molla Zəmaninin nəqlinə əsasən, 2005.

## Evlilkdə ehtiyac faktoru

Burada belə bir sual yaranır ki, niyə kişi və qadınlar ailə qurmağın özü ilə gətirdiyi ağır vəzifələrin fərqində olduğu halda, niyə yenə də sevgi və məhəbbətlə, nisbətən yüksək xərc hesabına evlənirlər? Başqa sözlə, insanların evlənməkdə hədəfi və marağı nədir?

## Cinsi ehtiyacların ödənməsi

İslamda evliliyin əsas məqsədlərindən biri cinsi ehtiyacları ödəməkdir. İnsanda güclü cinsi meylin mövcudluğunu nəzərə alsaq, onun ödənilməsindən ötrü təbii olaraq əks cinsə yönələcək. Belə ki, bu ehtiyacların üzə çıxması və kəskinləşməsi fərdi ən qısa müddətdə evlənməyə sövq edir. Yeniyetməlik dövründən cinsi ehtiyaclar insanda üzə çıxır və tədricən güclənir, bu halda evlilik o ehtiyacları ödəməkdən ötrü qanuni bir yoldur. İnsanlar həmişə cinsi münasibətlərini evlilik yolu ilə tənzimləmiş, qaydaya salmış və anarxiyanın (nizamsızlığın) qarşısını almışlar. Əksinə, bu təbii ehtiyacın boğulması, özünü sıxmaq və rahibsayağı yaşamaq insan fitrətinə ziddir, İslam təlimləri tərəfindən də qəbul edilmir.1 Hidayət imamları (ə) evlənməyi rədd edənləri ciddi şəkildə qınayıblar.2 İslam hökmlərində nigah müstəhəb sayılır, evlənməmək səbəbindən günah işləyən şəxsə isə vacibdir.3

---

[1] Hürr Amuli, Vəsail əş-şiə, c. 4, s. 74, (لم يرسلنى الله بالرهبانية و لكن بعثنى بالحنيفة السمحة، اصوم و اصلى و اُلمَس اهلى فمن احبّ فطرتى فليتسنّ بسنتى و من سنتى النكاح).

[2] Nuri Təbərsi Hüseyn, Müstədrək əl-vəsail, c. 14, s. 155-156, (شراركم عذابكم و العذاب اخوان الشياطين، شرار امتى عذابها، تزوج و الا فانت من اخوان الشياطين); Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 7, (رذال موتاكم العذاب).

[3] Subaylığından dolayı günaha düşən şəxsin artıq evlənməsi vacibdir (Xomeyni, Ruhullah, Risaleyi-tozihil-məsail, 2002).

## Emosional ehtiyacların ödənilməsi

Evliliyin məqsədlərindən biri də duyğusal ehtiyaclarını ödəmək və bu sahədəki böhranlarla mübarizə aparmaqdır.

İnsanların emosional ehtiyaclarının qarşılanması məhz dostluq və məhəbbət sayəsində olur. Bir-biri ilə evlənən bir kişi və bir qadın, bir-birlərini sevərək, hər biri digərinin sirlərinin sirdaşına və başqa bir duyğu sığınacağına çevrilir. Cütlüklərin dinc və sakit şəraitdə yaşaması ailənin emosional sığınacağından irəli gəlir.1 Əksər insan cəmiyyətlərində fərdlər gəncliklərinin ilk illərində evlənirlər. İslam təlimləri də insanları gənc yaşda evlənməyə də təşviq etmişdir.2

Yeniyetmə dövründə, insanın hər dövrdən daha çox sakitliyə, dincliyə və qarşılıqlı dostluğa ehtiyacı var. Çünki gənclik dövrü dostluqların və güclü emosional münasibətlərin zirvəsidir, digər tərəfdən bu dövr bir çox böhranın və psixoloji və sosial problemlərin ortaya çıxma dönəmidir.3

Belə bir dövrdə və şəraitdə insanın həyat yoldaşı, emosional ehtiyacların ödənməsinə səbəb olan ən yaxşı şəxsdir və onun dəstəyi yeniyetməlik dövrünün problemləri ilə üzləşməkdə və onların həllində fərdə güc verir.

## Cinsi iffətin qorunması

İffətin qorunması, fərdi və sosial cinsi etik normalara riayət İslam təlimləri ilə tərəfindən xüsusi vurğulanmışdır.[4] Evlilik və ailə təşkili fərdi və sosial cinsi iffəti qorumaq üçün

---

[1] Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır. Rum, ayə 21.

[2] Hürr Amuli, Vəsail əş-şiə, c. 4, s. 74, (يا معشر الشباب عليكم بالباه).

[3] Əhmədi, 1999.

[4] Kuleyni, Kafi, c. 2, s. 80, (افضل العبادة عفة البطن و الفرج).

ən yaxşı platformadır və onun əsas hədəflərindən biri hesab olunur. Təbii və instinktiv olan cinsi təzyiqlər yeniyetməlik dövründə yayğındır, gənclər bu ehtiyacı idarə etməkdə çox vaxt ciddi problemlərlə üzləşirlər, habelə əxlaqsız davranışların və şəriət xaricində olan rəftarların baş verməsinə münbit şərait onları incidir. İslam təlimləri güclü cinsi ehtiyacı və günaha düşmək ehtimalı olan fərdlərə evliliyi vacib etmiş[1] və boşanmanın arzuolunmaz nəticələrini fərdin, evlənməkdə səhlənkarlıq edənlərin və ya onun reallaşmasına mane olanların diqqətinə çatdırmışdır. İslam təlimlərində açıq şəkildə əxlaqsız davranışların qarşısını almaq, iffəti gözləmək və fərdi, sosial cinsi əxlaqı qorumaq, evlilik və ailə təşkilinin məqsəd və nəticələrindən biri olaraq göstərilmişdir.[2]

## Nəslın davamlılığının təmin edilməsi

Bəşər cəmiyyətinin yaranması və yaşamının davam etməsi evlilik və ailə təşkilinin vacib hədəflərindən biridir. İnsan, bütün heyvanlar kimi, nəslinin davamlılığına maraqlıdır və uşaq sahibi olmaqdan, onları böyütməkdən zövq alır. Uşaq sahibi olmaq ailə ocağının istiliyinə, dinamikliyinə və səfasına, həyatı davam etdirmək marağına və hətta ər-arvad arasındakı ziddiyyətlərin azalmasına səbəb olur. Saleh bir övlad sahibi olmaq valideynlər üçün yaxşı bir iş sayılır, belə ki, dünya və axirət səadətində təsirli olacaq.

---

[1] Nuri, Mustədrək əl-vəsail, 1-ci fəsil, (تزوج و الا فانت من المذنبين); Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 52, (اذا جائكم من ترضون خلقة و دينه فزوجه و الا تفعلوه تكن فتنة فى الأرض و فساد كبير).

[2] Nuri, Mustədrək əl-vəsail, 1-ci fəsil, (من احب ان يلقى الله طاهرًآ مطهرا فليلقه بزوجة).

Buna görə, əksər cütlüklər evləndikdən sonra uşaq sahibi olmağı gözləyirlər və bu səbəbdən bir çox cəmiyyətlərdə əgər qadın sonsuzdursa, kişi yenidən evlənir və bəzən boşanmağa səbəb olur. Bəzi qəbilə cəmiyyətlərində qadının evlənmədən öncə ən azı bir uşaq sahibi olma qabiliyyətini sübut etməsi tələb olunur və bu ibtidai cəmiyyətlərin bəzilərində, qadın sonsuz olduğu təqdirdə, evlilik öz-özünə xitam verilir və hətta boşanmaya gərək olmur.[1]

Ayrıca, kişi sonsuzdursa, qadın yaşamağa davam etmək istəmir və həyat onun üçün çətinləşir, bəziləri övladdan ötrü ərlərindən ayrılmağa və nəslinin davamlılığını təmin etmək naminə başqası ilə evlənməyə üstünlük verirlər. Ayrılmağın və yenidən evlənməyin mənfi nəticələri var və bir çox ailə, uşağı böyütmək sevincindən məhrum olmamaq üçün körpəni övladlığa götürür. Bəzi vəziyyətlərdə, bir çox ailə, bir sıra mövcud məsləhətlərdən, habelə ayrılmağın və yenidən evlənməyin mənfi nəticələrindən dolayı övlad böyütmək sevincindən məhrum qalmasın deyə bir uşağı övladlığa götürür.

Qadın şəxsiyyətinin universal sistemi ailə funksiyasını da yerinə yetirdikdə formalaşır və kamilləşir. Qız ailə qurana qədər yalnız öz qız rolunu oynayır, ancaq hələ inkişaf etməyib və universal şəxsiyyət sisteminin çatışmazlıqları var. Ancaq ailə mərkəzində olub "həyat yoldaşı rolunu" qəbul etdikdən sonra universal şəxsiyyət sisteminin başqa bir hissəsi formalaşır və bu sistem "ana sistemi" olan şəxsiyyətin üçüncü

[1] Bəstan, 2004.

alt sisteminin formalaşması ilə tamamlanır.[1] Qadın kimi universal kişi şəxsiyyət sistemi də, ana və atanın alt sistemləri meydana gəlməyincə, kişi bu xüsusda rolunu və funksiyasını yerinə yetirməyincə tamamlanmayacaqdır.

Dini təlimlərdə sonsuz olmayan birisi ilə evlənməyə tövsiyə olunur və hətta fərdləri çoxlu uşaq dünyaya gətirə bilən qadınlarla evlənməyə təşviq edir.[2] Hər halda, övlad sahibi olmaq istəyi, uşaq tərbiyəsi, nəsillərin davamlılığı və şəxsiyyət inkişafı, bəşər həyatının tarixi boyunca onun diqqət mərkəzində olan evlilik və ailə təşkilinin ən vacib motiv və hədəflərindəndir.

## Münasibətləri genişləndirmə və təcrübə toplama

Evlilik başqaları ilə qohumluq əlaqəsi yaratmaqdan ötrü bir vasitədir. Evlilik və ailə təşkili yolu ilə fərdlər başqaları ilə münasibətlərini genişləndirir və övladları vasitəsilə bir nəslin üzvləri arasında köklü əlaqə yaradırlar. Evliliyin başlanğıcında, kişilər və qadınlar həyatın idarəsində və ailənin səmərəliliyini qorumaqda elə də təcrübəli deyillər, bəzən də həyatın kiçik və böyük stresləri ilə qarşılaşırlar. Həyatın kontrolunda və streslə mübarizə təcrübəsi qazanmaqda qohumların dəstəyi mühüm rol oynayır. İşlərlə bağlı məşvərət və məsləhət, təcrübələrdən yararlanmaq və ailə həyatına dair vacib bilgilər əldə etmək evliliyin və qohumluq əlaqələrinin genişlənməsinin faydalarındandır. İslam qohumluq əlaqələrinə

---

[1] Sübhani, 2003.

[2] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. ٣٣, ( تزوجوا بكرًا ولودلاً و لا تزوجوا حسناء، جميلة عقراً فانما اباهى بكم الامم يوم القيامة); Nuri, Mustədrək əl-vəsail, s. 178, (و تزوجوا الودود الولود).

mənəvi və ilahi dəyər vermişdir, belə ki, Allah ilahi vəzifələri yerinə yetirmək məsuliyyəti ilə qohumlarla münasibətlərin məsuliyyətini bir sırada qərar vermişdir.[1] İslam Peyğəmbəri (ə) də, yaxınlarla münasibət qurmağı, Allaha imandan sonra ən yüksək məqam saymışdır.[2]

### 1. Şəxsiyyətin təkamülü və inkişafı

Heç bir insan təkbaşına mükəmməl deyil, buna görə daima çatışmazlıqlarını aradan qaldırmağa çalışır. Yetkinlik və gənclik dövründən sonra gənc qızlar və oğlanlar, düşüncə müstəqilliyə can atarkən, çatışmazlıqlarını kompensasiya etmək və bir çox ehtiyaclarını ödəmək üçün evliliyə yönəldilir, onlar da uyğun bir həyat yoldaşı seçməklə təkamül və inkişaf amillərini təmin edirlər. Fərd ortaq həyatın mərkəzində olduğu zaman, sevgi və ünsiyyət sayəsində yaxın, səmimi münasibətlərdə özünü daha da məsuliyyətli sayır, müstəqil olur və həyatını hədəfli edir. Ortaq ailə həyatında kişi və qadın bir-birinin təşviqindən, dəstəyindən, rəhbərliyindən və yardımından faydalanır, həyat problemləri ilə üzləşdikdə həyat yoldaşından həmkarlığından kömək umur. Bu səbəbdən sadiq, ləyaqətli həyat yoldaşına sahib olmaq dünya və axirətə faydalı olan ən böyük ilahi nemətlərdən biridir.[3]

---

[1] Nisa, ayə 1: Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.

[2] Məclisi, Bihar əl-ənvar, c. 71, s. 97, ( جاء رجل الی رسول الله ص قال له اخبرنی ما افضل الاسلام؟ فقال: صلة الرحم).

[3] Nəvvabi Nejad, 2001.

Cütlüyün mənəvi inkişafı və axirət xoşbəxtliyinə qovuşması evliliyin ən vacib hədəflərindən biridir. Dini mənbələrdə bir insanın dininin yarısını evliliklə tamamladığı ifadə edilməsi, evliliyin bir inkişaf faktoru olduğunu göstərir. Mənəvi kamillik isə insan həyatının, ələlxüsus da ailə təşkilinin ən vacib və ən ali hədəfidir.

“Ailənin formalaşmasında başqa bir şeyin əvəz edə bilməyəcəyi bir inkişaf var, ailə təşkili məktəbi xaricində insanların əldə edə bilmədiyi bir əxlaqi keyfiyyət var ... Bu dövrü keçməyən əxlaq və irfan ardıcılları ömürlərinin sonuna qədər daxillərində bir növ xamlıq, bir növ uşaqlıq keçirmişlər. İslamda evliliyin müqəddəs bir iş, bir ibadət sayılmasının bir səbəbi də budur... Evlilik insanın təbii mənliyindən çıxışının və şəxsiyyətinin böyüməsinin ilk etapıdır”.[1]

Bir yetkinlik var ki, bu yetkinlik evlilik və ailə təşkili xaricində tapılmır, məktəbdə tapılmır, nəfslə cihadda tapılmır, gecə namazında tapılmır, salehlərə məhəbbətdə tapılmır; "Buna yalnız burada [evlilik və ailə təşkilində] nail olmaq lazımdır”.[2]

Kişi və qadın evlənərək əxlaqlarını, iffətlərini daha yaxşı qoruyurlar.[3] Əxlaqi pozğunluq və cinsi aludəlik digər bir çox əxlaqi pozğunluğun kökündə durur, həm də insanların mənəvi təkamülündə uğursuzluq səbəbidir. Evlilik və cinsi ehtiyacların lazımi şəkildə qarşılanması bu pozğunluqların qarşısını alır.

[1] Mütəhhəri, 2003.
[2] Mütəhhəri, 2003.
[3] Nuri, Mustədrək əl-vəsail, c. 14, s. 154, (هو اغض للبصر واعف للفرج و اكف و اشرف).

İnsanın mənəviyyatını yüksəldən və kamilliyini artıran da bu davranışlardır. İmam Əli (ə) bir hədisdə buyurur: "Səhabələrdən hansı evlənərdisə Peyğəmbər (s) belə buyurardı: İndi dini tamamlandı".[1] Başqa yerdə buyurur: Allah gənc cütlüyün olduğu evləri (evliliyə kinayədir) sevir.[2] Allahı və kainatı yaradanı bəyənən bir ailənin üzvlərini sevməsi, onun qayğısına qalması və Allah onların daha da böyüməsi və mükəmməl olması üçün onlara kömək etməsi təbiidir.

## Doğru həyat yoldaşı seçimi və ailənin səmərəliliyi

Heç bir sistem birdən ortaya çıxmaz; daha doğrusu, bir sistem qurmaq üçün addımlar atılır, mərhələlər keçilir və nəhayət, detalları, alt sistemləri və qarşılıqlı təsirlərini bir araya gətirərək, əlaqəli, nizamlı bir bütövün yaradıldığını söyləmək olar. Ailə də bir sistem adı altında, bir bütöv olmaq üçün bir neçə mərhələdən keçir. Ailə təşkilinin ilk addımı doğru həyat yoldaşı seçmək mərhələsidir. Bu mərhələ hər bir insanın həyatındakı ən vacib mərhələlərdən biridir və kifayət qədər diqqətlə həyata keçirilməlidir; çünki insan öz seçiminin nəticələrini demək olar ki, ömrü boyu qəbul etməlidir və ailənin səmərəliliyinin böyük bir hissəsi düzgün seçimdən asılıdır. Eyni zamanda həyat yoldaşı seçmək prosesi gəncliyin ən həssas və stresli hadisələrindən biridir. Ümumiyyətlə etibarlı və zəruri meyarları təyin etməkdə və sözügedən şəxsə tətbiq edərək son qərarı verməkdə fərdi bir növ böhrana, ziddiyyətə salır. Bu səbəbdən İmam Sadiq (ə) buyurur:

---

[1] Nuri, Mustədrək əl-vəsail, c. 14, s. 150, ( لم یکم احد من اصحاب الرسول یتزوج الا قال رسول الله صلی الله علیه و آله کمل دینه).

[2] Hürr Amuli, Vəsail əş-şiə, c. 2, s. 250, (ان الله یحب البیت الذی فیه العرص).

Evlənmək və ailə qurmaq niyyətində olan bir şəxs Allaha sığınmalı, iki rükət namaz qılmalı, Allaha həmd-səna etdikdən sonra belə dua etməlidir: “İlahi, evlənməyə və ailə qurmağa qərar vermişəm. Bədən və əxlaq baxımından ən yaxşısı olan, iffətini gözləyən, öz ləyaqətini və malımı qoruyan bir xanım nəsib et. Ruzi baxımından geniş ruzili, bərəkət baxımından daha bərəkətli olsun. İlahi, ondan mənə elə pak övlad yetir ki, həyatım boyunca və ölümümdən sonra layiqli davamçım olsun”.[1]

Məsumların (ə) belə bir duaya tövsiyələri həyat yoldaşı seçimi mərhələsinin o qədər də sadə olmadığını, bunun yaxşı aparılması və səmərəli bir ailənin təməlinin qoyulması üçün Uca Allahın köməyinə ehtiyac olduğunu göstərir. Habelə gəncin diqqətini həyat yoldaşı seçimində hərtərəfli olmağın vacibliyinə də yönəldir. Belə ki, fərdin dünya və axirət xoşbəxtliyinə zəmin yaranması üçün bu prosesin maddi və mənəvi cəhətləri nəzərə alınmalıdır.

İslam təlimlərində optimal seçim üçün lazım olan praktiki məsləhətlərin ən vaciblərinə işarə edilmişdir. Həyat yoldaşını seçərkən nəzərə alınmalı olan meyarlar və xüsusiyyətlər iki qisimdir:

a) Xoşbəxt həyatın və səmərəli ailənin sütunlarından olan, habelə mütləq, zəruri və toxunulmaz şərt kimi qəbul edilən

[1] Məclisi, 2001.

meyarlar. İman və düzgün inanc meyarı həyat yoldaşı seçiminin vacib və toxunulmaz şərtidir.

b) Mükəmməlliyin şərtləri olan, daha yaxşı və daha dolğun bir həyatın və səmərəli ailənin qurulması üçün düşünülən meyarlar. Bu xüsusiyyətlər nisbi xarakter daşıyır, əsasən də insanların zövqünə və mövqeyinə bağlıdır. Gözəllik, elm, savadlılıq, ailə ləyaqəti, mədəni, iqtisadi və dini mütənasiblik kimi xüsusiyyətlər bu qəbildəndir.

Üzərində durulması və diqqət edilməsi vacib olan məqam, inanclı toplumun dəyərlər və düşüncə qaynaqları ünvanında diqqət mərkəzində saxladığı dəyərlərin yaranmasında bu meyarların rolu, bu meyarlardan daha çox yararlanmağın ideal ailəyə yaxınlaşmağa kömək etməsidir. Əslində, ayələrdə və hədislərdə həyat yoldaşı seçimi ilə bağlı bəhs edilən dualar və meyarlar İslam cəmiyyətində xüsusi bir mədəniyyət meydana gətirir, nəticədə qüsursuz həyat yoldaşının və ideal ailənin formalaşmasında səmərəli meyarları və ideallığı təsvir edir və asanlaşdırır. Bu kimi meyarların ümumi olmadığı cəmiyyətlərdə ailələr müəyyən bir istiqamətə istiqamətlənmir və müəyyən bir yolda inkişaf etmir. Buna görə də istər övlad böyüdərkən, istər övladlar valideynlər tərəfindən ailə qurmağa hazırlaşdırılarkən, istərsə də evlənmək və ailə qurmaq qəsdində olanlar tərəfindən bu dəyərli irsə, inanclı cəmiyyətin sosial sərvəti və ailənin belə meyarlara doğru şəkil verici və sövq edici amili və stimulu kimi baxmaq böyük əhəmiyyət kəsb edir.

## Optimal həyat yoldaşının meyarları

Meyarlar məcmusu zehinə ideal həyat yoldaşı və səmərəli ailənin təsvirinin verilməsində, habelə xarici aləmdə ailənin formalaşmasına praktiki təsirində, müxtəlif cəmiyyətlərdə səmərəli ailənin formalaşması üçün ümumi göstərici sayıla bilər. Buna görə, fərdlərin və alt mədəniyyətlərin ümumi İslam mədəniyyəti daxilində bu meyarlara diqqəti səmərəli ailəyə doğru yönəlməkdə təsirli bir bələdçi və ailənin səmərəliliyinə zəmanətçi ola bilər. İslam təlimləri optimal həyat yoldaşı seçmində bir sıra meyarlar təqdim edir. Burada onların ən vaciblərinə işarə edilir:

### 1. İman və doğru inanclar

İman[1] və dini inanclar əsas və mehvər görüş olaraq, birbaşa və dolayı şəkildə fərdin şəxsiyyətinin bütün boyutlarına; həyatın hədəfi, yaşamın sosial, mədəni və iqtisadi aspektlərinə, habelə fərdin həyatındakı iş, evlilik, təhsil və hətta əyləncələr, maraqlar və davranış tərcihləri kimi daha xırda cəhətlərinə təsirlidir (Azərbaycani, 2003). Bu səbəbdən, iman və düzgün dini inanclar optimal həyat yoldaşının ən vacib və təməl xüsusiyyətlərindən sayılır. Bu xüsusiyyət mütləq[2] və dəyişməz bir meyardır və hər şəraitdə, zamanda və

---

[1] İman, nəfsin qəbul etdiyi şeyin xüsusi qəbul edilməsidir; nəfsin onun bərabərində idrakın və təsirlərinin tələbinə təslim olmasına bais olan qəbul. Bu təslim və qəbulun əlaməti insanın digər qüvvələrinin və əzalarının onun ehtiyacını qəbul etməsi və nəfsin özü kimi ona təslim olmasıdır. Bu iman Allaha aid edilərsə, "Allaha iman" deyirlər. Qəlbdə inanmaq və saleh əməllər etməklə eynilik daşıyan Allaha iman, mömininin ruhunda başqa xüsusiyyətlər yaradır və imanın güclü və zəif olması əsasən, xüsusiyyətlər də güclənir və ya zəifləyir. Bu xüsusiyyətlər fərdi və ictimai, maddi və mənəvi həyatda insan davranışlarının təyinedicisidir (Təbatəbayi, 2001).

[2] Nur, ayə 26: ... eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər.

məkanda lazımdır. Odur ki, fərd münasib həddə imana və dini inanclara sahib olmadığı təqdirdə, bu, evlənmək üçün optimal seçim deyil və şəraitin yoxluğu kimi qəbul edilir.

Bəqərə surəsinin 221-ci ayəsinə[1] əsasən, imansız fərdlərlə evlilik, insanı axirət səadətindən məhrum edir və belə bir evlilik baş verməməlidir.

Uca Allah bu ayədə buyurur: “Müşrik qadınlar iman gətirməyincə onlarla evlənməyin. Əlbəttə, iman gətirmiş bir kəniz, sizi heyran edən müşrik bir qadından daha xeyirlidir. Müşrik kişilər iman gətirməyincə mömin qadınları onlara ərə verməyin. Əlbəttə, iman gətirmiş bir kölə, sizi heyran edən müşrik bir kişidən daha xeyirlidir. Onlar Oda çağırırlar. Allah isə Öz izni ilə Cənnətə və bağışlanmağa dəvət edir.. ”.[2]

Bu ayənin məzmununa və təfsirinə, habelə məsumların (ə) hədislərinə[3] görə evlilik və həyat yoldaşı seçimində iman şərti mütləqdir. Nəzərdə tutulan şəxs bütün arzu olunan və müsbət xüsusiyyətlərə sahib olmasına rəğmən, imanı yoxdursa, şərt də yoxdur və onunla evlənmək olmaz. Dinə sadiq qalmayan birinin, həyat yoldaşının hüquqlarına və müştərək yaşamın tələblərinə riayət edəcəyinə zəmanət yoxdur, bu xüsusiyyət təkcə İslam dininə xas deyil, bütün dünyada dini inanclar həyat yoldaşı seçimində vacib amillərdən biridir. Belə ki, Yəhudilər arasındakı evliliyin 98%-dən çoxu, Katoliklər arasındakı

---

[1] Bəqərə, ayə 221: ( وَلَا تَنْكِحُوا الْمُشْرِكَاتِ حَتَّىٰ يُؤْمِنَّ ۚ وَلَأَمَةٌ مُؤْمِنَةٌ خَيْرٌ مِنْ مُشْرِكَةٍ وَلَوْ أَعْجَبَتْكُمْ ۗ وَلَا تُنْكِحُوا الْمُشْرِكِينَ حَتَّىٰ يُؤْمِنُوا ۚ وَلَعَبْدٌ مُؤْمِنٌ خَيْرٌ مِنْ مُشْرِكٍ وَلَوْ أَعْجَبَكُمْ ۗ أُولَٰئِكَ يَدْعُونَ إِلَى النَّارِ ۖ وَاللَّهُ يَدْعُو إِلَى الْجَنَّةِ وَالْمَغْفِرَةِ بِإِذْنِهِ ۖ وَيُبَيِّنُ آيَاتِهِ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ).

[2] Bəqərə, ayə 221.

[3] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 31, (عليكم بذات الدين).

nikahların 93%-i  və Protestantlar arasında 74%-dən çoxu din daxilidir.[1]

Əlbətdə, dinsiz və ya dini qanunlara etinasız cütlüklər, inancsızlıqlarına və yanlış inanclarına əsaslanaraq bir-birlərinə dözə və birlikdə yaşaya bilərlər, lakin həyatları xoşbəxt və Allahın razılığı əsasında olmayacaq. Çünki Allahı və onun əmrlərini unutmaq, Allahın da insanı görməzdən gəlməsinə səbəb olur.

## 2. Təqva

Təqvanın həqiqəti günahlardan, Allaha asi olmaqdan çəkinmək və ilahi əmrləri yerinə yetirməkdir.[2] İmam Sadiq (ə) təqvanın təfsirində buyurur: Təqva insanı Allahın qadağan etdiyi işlərdən çəkindirir və Allahın ona əmr etdiyi şeyləri yerinə yetirməyə sövq edir.[3]

Təqvalı olmayan və açıq şəkildə qanunsuz cinsi əlaqə və içki içmək kimi günahlar edən bir insanı, həyat yoldaşı olaraq seçmək yanlışdır və belə bir insan səmərəli ailənin təməlini qoya bilməz. Təqva cütlüklər və uşaqlar arasında əlverişli münasibətlər yaratmağa ciddi təsir göstərir. Məsələn, dini təlimlərdə oxuyuruq ki, təqvalı bir şəxs ailədə uyğunsuzluq olsa da arvadına zülm etməz.[4] Bu xüsusiyyət dini təlimlərdə ciddi şəkildə nəzərdən keçirilmişdir və möminlərə tövsiyə

---

[1] Saruxani, 2004.
[2] Məkarim Şirazi, 1998.
[3] Məclisi, Bihar əl-ənvar, c. 1, səh. 177, (قال الصادق علیه السلام فی تفسیر التقوی: ان لا یفقدک الله حیث امرک ولا یراک حیث نهاک).
[4] Fərid Tənkaboni, əl-Hədis, c. 1, səh. 177, (زوجها ممن یتقی الله فان احبها اکرمها و ان ابغضها لم یظلمها).

olunmuşdur ki, fərdin təqvası olmadığı təqdirdə, onu həyat yoldaşı olaraq seçməsinlər.[1]

Təqva müxtəlif səviyyələrə malikdir və möminlər səylərinə görə bir səviyyəyə çatırlar; vacibləri yerinə yetirmək və ilahi qadağalardan çəkinmək təqvanın ən aşağı səviyyəsidir və hamıya vacibdir. Ümumi camaatdan olan optimal həyat yoldaşının seçimində də təqvanın bu həddi vacib və seçim şəraitinin tərkib hissəsidir.

### 3. Gözəl əxlaq

Həyatın güclü təməli uyğunluq, anlaşma və əməkdaşlıq, bir-birinə düzgün qarşılıqlı təsir və yola getməyə[2] əsaslanır[3] və bu davranışlar yalnız gözəl əxlaq özəlliyi sayəsində formalaşır və davam edir. Bir hədisdə İmam Sadiqdən (ə) gözəl əxlaqlı şəxsin tərifi barədə soruşdular. Həzrət (ə) də buyurdu ki, gözəl əxlaqlı şəxs:

“Sizinlə mülayim, mehriban, xoş sözlü və xoş gülərüz olun”.[4]

İslam təlimlərində, gözəl əxlaqı olmayan birinin arzuolunan həyat yoldaşı olmadığı bildirilir və bu səbəbdən məsum imamlar (ə) pis əxlaqlı insanlarla evlənməyi bizə açıq şəkildə qadağan etmişlər.[5] Həmçinin İslam hədislərində gözəl

---

[1] Məclisi, Bihar əl-ənvar, c. 100, səh. 372, ( لا يتزوج شارب الخمر فان من فعلها فكانما قادها الى الزنا).

[2] Məclisi, Bihar əl-ənvar, c. 71, səh. 171, (حسن خلق یداری به الناس).

[3] Məclisi, Bihar əl-ənvar, c. 69, səh. 404, (حسن خلق یعیش به الناس).

[4] Məclisi, Bihar əl-ənvar, c. 71, səh. 171, (تلين جانبک و تطيب كلاكم و تلقى اخاک ببشر حسن).

[5] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 54, ( ... قال کتبت الی ابی الحسن الرضا علیه السلام: انّ لی قرابة قد خطب الیّ و فی خلقه سوء، قال لا تزوجّه ان کان سیّئ الخلق).

əxlaq imanın əsas təməllərindən və kamillik vasitələrindən biri sayılmışdır.[1] Pis əxlaq isə imanın zəifliyindən xəbər verir. Qeyri-münasib əxlaq insanın iman keyfiyyətlərini də aşağı salır, və eyni zamanda iman şərtinin yoxluğuna səbəb olur. İslam Peyğəmbəri (ə) də imanı, dindarlığı və gözəl əxlaqı bir araya gətirərək bu iki şərti olan biri ilə evlənməyə təkid etmişdir: "Əxlaqı və dini bəyənilən bir insanla evlənin".[2]

Buna görə də, bir insan gözəl əxlaq keyfiyyətlərinə malik deyilsə, ailənin səmərəliliyinə zəmanət verə bilməz, bu halda ailə üzvləri kamal və tərəqqi yolunda zəif və qüsurlu olacaq və nəticədə arzu olunan təkamülə və tərəqqiyə çata bilməyəcək. Pis əxlaqın bariz nümunələri olaraq acı dillik, qısqanclıq, bədgümanlıq, inadkarlıq, təkəbbürlük, qürur, yalan və tamaha işarə etmək olar.

### 4. Fiziki və zehni sağlamlıq

Fiziki və zehni sağlamlığa sahib olmaq optimal həyat yoldaşının vacib şərtlərindəndir. Əgər fərd sağalmaz fiziki xəstəlikdən və ya ağır ruhi pozğunluqdan əziyyət çəkirsə, onun həyat yoldaşı ünvanında seçilməsi doğru deyil; dərin və sağalmaz fiziki və ya ruhi xəstəlik ömür boyu insanla yanaşı olduğu üçün həyat yoldaşı və ana rolunu tam şəkildə yerinə yetirməyə mane olur və ailənin səmərəliliyini ciddi şəkildə pozur. Bu səbəbdən İslam hökmlərində bir çox fiziki və zehni qüsurların olduğu təqdirdə evliliyi pozmağa icazə verilir. Əgər

---

[1] Məclisi, Bihar əl-ənvar, c. 71, səh. 373, ( اربع من كنّ فيه كمل اسلامه ... و حسن خلقه مع اهله، و ان اكمل المومنين ايماناً احسنهم خلقًا).
[2] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 59, (اذا جائكم من ترضونَ خُلقه و دينه فزوجه).

fərd aldadılarsa, yaxud nigahdan sonra aşkar edilərsə, heç bir öhdəliyi olmadan evliliyi birtərəfli poza bilər. Dini təlimlərdə müsəlmanlara xəstə və dəlilərlə evlənmək qəti qadağandır. Əmirəlmöminin Əli (ə) bu mövzuda buyurur: “Bir axmaqla evlənməkdən çəkinin, çünki onunla yaşamaq bir fəlakətdir və övladları məhv olacaq”.[1] Axmaq həyat yoldaşı ailənin səmərəliliyinə zəmanət verə bilməz və ailəni təkamül və tərəqqi yolundan çıxarar.

### 5. Nəcabətli olmaq

Həyat ortağı seçərkən ailə nəcabətliliyi, mötədilliyi və şərəfi onun üçün bir imtiyazdır, habelə təkamül, yetkinlik və səmərəlilik şərti sayılır. Bir ailənin övladı eyni ailənin bir parçasıdır və eyni ağacın bir qoludur və bu nəcib və şərafətli ağacın kökündən qidalanmışdır.

Ailənin bir çox davranış, etik, personal, sosial və s. xüsusiyyətləri irsiyyət, tərbiyə və ətraf mühit yolu ilə uşağa keçmişdir və insanın gələcək həyatında təsirli olacaq. İslam Peyğəmbəri (s) bu xüsusda buyurur: Ləyaqətli bir ailədən arvad alın, çünki nütfə (sperma) və genlər təsirlidirlər.[2] O həzrətin başqa bir hədisinin məzmunu belədir: Yaxşı baxın, uşağınızın anası və ya atası olaraq kimləri seçirsiniz? Çünki irsi xüsusiyyətlər gizli şəkildə ötürülür və övladlarınızda təsir qoyur.[3]

---

[1] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 56, (ايّاكم و تزويج الحمقاء فانّ صحبتها بلاء و ولدها ضياء).
[2] Təbərsi, Məkarim əl-əxlaq, s. 198, (تزوجو فى الحجر الصالح، فانّ العرق دساس).
[3] Əlaəddin Hindi, Kənz əl-ummal, c. 16, s. 295, (انظر فى اىّ شىء تصنع ولدک، فانّ العرق دساس).

Buna görə də, səmərəli və firavan bir ailə qurmaq istəyənlər, İslam Peyğəmbərinin (s) qadağasına tuş gəlməməkdən ötrü üzvləri bədnam, rəzil və alçaq olmayan bir ailədən həyat yoldaşını seçmək lazımdır. Yenə Həzrət (s) buyurur: “Ey insanlar, zibillikdə bitən bitkilərdən çəkinin. Soruşuldu ki, zibililkdə bitən bitki dedikdə nəyi nəzərdə tutursunuz? Həzrət cavab verdi: Bədnam və xar ailədə böyümüş gözəl bir qadın”.[1]

## 6. Xarici gözəllik, meyil və istək

Həyat yoldaşındakı gözəllik və cazibədarlıq gözardı edilə bilməyəcək həqiqi üstünlükdür. Bu xüsusiyyət evlilik bağının və davamlılığının vacib meyarlarından biridir. Kişi təbii olaraq gözəl bir qadınla evlənmək istər, eyni zamanda qadın da yaraşıqlı və çəkici bir kişi ilə ailə qurmağı arzu edər. Gözəlliyin cəlbediciliyi və çəkiciliyi dini mətnlərdə lehinə çoxlu dəlillərin olduğu, ona qarşı çıxılmadığı, əksinə təşviq edildiyi təbii bir xüsusiyyətdir. Allahın Rəsulu (s) buyurur: “Yaxşı insanlarda yaxşılıq axtar; çünki onların əməlləri və rəftarları yaxşılığa daha çox layiqdir”.[2] Bu səbəbdən İslam dini, kişiyə evlənmək istədiyi qadını nigahdan öncə yaxşı görməsinə və bəyəndiyi təqdirdə ona evlilik təklifinə icazə vermişdir.

“Kişinin evlənmək istədiyi qadınla nigahında şəri maneə yoxdursa və qadının bu evliliyi qəbul edəcəyinə, habelə kişi

---

[1] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 29, ( ايها الناس اياكم و خضراء الدمن قيل يا رسول الله و ما خضراء الدمن؟ قال المراة الحسناء فی منبت السوء).

[2] Məclisi, Bihar əl-ənvar, c. 74, səh. 178, ( اطلبو الخير عند حسان الوجوه فان افعالهم احری ان يكون حسناً).

qadına baxmaqla yeni bilgilər alacağına ehtimal verirsə, bu halda kişi o qadının üzünə baxa bilər. Bu şərtlər altında yalnız kişinin qadına baxması icazəlidir; hətta bir neçə dəfə olsa belə. Dahası belə bir baxış müstəhəb nigahdan sonrakı söz-söhbəti önləmək üçün də lazımdır. Bunun üçün qanın icazəsi tələb olunmur. Zahirə əsasən qadının saçına və bəzi digər yerlərinə baxmaq eyni şərtlər altında icazəlidir. Qeyd edilən şərtlər altında qadının evlənmək istədiyi kişiyə baxması üçün bir yol var”.[1]

Evlənmək istəyi və marağı yoxdursa, bu, ailə təşkilinin əvvəlindən öz narazılığını biruzə verir. Bu səbəbdən evlənmək niyyətində olan şəxsin maraq və istəyi çox önəmlidir, hətta valideynlərin istəyi və rəyindən belə önə keçir.[2] Dini təlimlərin bu psixoloji fenomeni, yəni evlilik astanasında kişi və qadının[3] qarşı tərəfə emosional meylini xüsusi vurğulaması, evliliyin vacib məqsədinə, yəni cütlüklər arasında əlaqə, sevgi və psixoloji rahatlığın yaranmasına nail olmaqdan ötrüdür. Bu səbəbdən bir meyar olaraq gözəlliyə və fiziki cazibədarlığa diqqət yetirmək, hər iki tərəfin bir-birinə olan meyl və marağının əsasını təmin edir və ər -arvad arasında müsbət emosiyaların davam etməsinə zəmin yaradır.

[1] Behcət, 2004.
[2] Məclisi, Bihar əl-ənvar, c. 100, səh. 235, (تزوج التی هویت و دع التی یجوی ابواک).
[3] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 13, (خیر الجواری ما کان لک فیجا هوی و کان لجا عقل و ادب).

## 7. Savadlı olmaq

Elm, bilik və savad insan üçün əsl kamillikdir, onların insan xoşbəxtliyinə böyük təsiri var. Bundan əlavə elm öyrənmək hər bir müsəlman kişi və qadına vacibdir.[1] Bu xüsusiyyət həyat yoldaşı seçimində də nəzərə alınır və həyat yoldaşı üçün bir üstünlük sayılır; həyat yoldaşının vəzifələrini inkişaf etdirmək, yerinə yetirmək, habelə uşaq tərbiyəsi üçün lazımdır. Kifayət qədər elmi olan həyat yoldaşı ilə ortaq məxrəcə gəlmək daha asandır. Belə bir həyat yoldaşı ailənin maraqlarını daha yaxşı bilir və anlayır, uşaqların tərbiyəsində daha bacarıqlıdır. Onunla ünsiyyət qurmaq olduqca zövq vericidir.

Əlbəttə qeyd etmək lazımdır ki, həyat yoldaşı seçərkən təhsil və savadlılıq təkbaşına üstünlük sayıla bilməz. Əksinə, biliyin tətbiqi biliyin mahiyyətindən daha vacibdir. Üstəlik, belə bir şəxsin iman və dindarlıq, ağıl və əxlaq, iffət və ailə namusu kimi başqa keyfiyyətləri yoxdursa, ailənin indiki və gələcəkdəki səmərəliliyinə zəmanət verə bilməz. Buna görə də həyat yoldaşı seçimində bütün şəraitə tam diqqət yetirmək və sonra evlənmək lazımdır.

---

[1] Kuleyni, Usul əl-kafi, c. 1, fəzlul-ilm fəsli, h. 1, (طلب العلم فريض، على كل مسلم).

**Cütlüyün uyğunluğu**

Evliliklə ailə adlı yeni bir sistem təşkil olunur və ortaya çıxır; bu sistemin əsas komponentləri kişi və qadındır. Bu iki komponent və elementlər arasında nə qədər harmoniya, yekdillik, uzlaşma və uyğunluq olarsa, bu sistem daha sabit, daha güclü, daha məhsuldar, daha şirin, daha xoşbəxt və daha davamlı olacaq. ailə sistemi daha zəif, daha acı, daha az məhsuldar və daha qeyri -sabit olacaq və belə bir sistemin səmərəliliyinə heç bir ümid yoxdur. Birlikdə olan və bir ömür boyu birlikdə yaşamaq istəyən, işlərini paylaşaraq və uşaqlarını böyütmək və özlərinin və övladlarının xoşbəxtliyi üçün zəmin yaratmaq üçün ortaq qərarlar qəbul etməklə, harmoniyada olmalı və arzu olunan nisbətlərə sahib olmalıdırlar. Digər tərəfdən elementlər arasındakı uyğunluq nə qədər az olarsa, ortaq həyat və ailə sisteminin komponentləri arasında münasibət daha zəif, daha acı, daha az məhsuldar və daha qeyri-sabit olacaq, bu halda belə bir sistemin səmərəliliyinə heç bir ümid yoxdur. Bir-birinin kənarında qərarlaşan, bir ömür boyu birlikdə yaşamaq, işlərini paylaşmaq və ortaq qərarlar verməklə uşaqlarını böyütmək arzusunda olan, özlərinin, övladlarının xoşbəxtliyinə zəmin yaratmaq istəyən iki insan, bir-biri ilə uzlaşmalı, aralarında harmoniya yaratmalı və arzu olunan mütənasibliyə sahib olmalıdırlar.[1]

İslam təlimləri də uyğunluq prinsipi olaraq həyat yoldaşı seçərkən oğlan və qızlar arasında mütənasiblik, bənzərlik və həmtaylıq prinsipinə təkid edir, evliliyin uyğun

[1] Məzahiri, 2004.

xüsusiyyətlərində kişi və qadının bənzərlik və həmtaylığının daha yaxşı variant olduğuna diqqət çəkir.[1]

Din böyüklərinin sözlərində də təkid olunan bu şərt, ailə sosiologiyasındakı cütlüklərin bərabərliyi qaydasına tətbiq edilə bilər. Təbii ki, bu bərabərlik daha çox iman xüsusunda vurğulanır, kişi və qadın iman səbəbi ilə bir-birinə bərabər sayılır.[2] Kişi ilə qadının iman və dini inanclar prinsiplərində bənzərliyindən sonra iman, təqva və əxlaq xüsusiyyətlərinin oxşarlığı da nəzərə alınmalıdır.[3]

İmam Əli (ə) olmasaydı, insanlar arasında Həzrət Zəhra (ə) ilə evlənməyə bir tay tapılmazdı[4] - ifadəsi iman dərəcələrində və əxlaq xüsusiyyətlərindəki bənzərliyə işarə edir.

Quranın açıq-aşkar şəkildə pak[5] və təqvalı insanların pak insanlara aid olduğunu irəli sürməsi, təqva, günahdan çəkinmək və dindarlıqda kişi-qadın bərabərliyinin başqa bir sübutudur.[6]

Şagirdlər arasında keçirilən bir sorğuda əxlaqi anlayış və dini inanclardakı oxşarlıq ideal həyat yoldaşının meyarlardan biri sayılmışdır.[7]

---

[1] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 18, (انكحوا االكفاء و انكحوا فيجم و اختارو لنطفكم).
[2] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 44, (المؤمن كفو المؤمن، والمسلم كفو المسلم،).
[3] Salarifər, 2006.
[4] Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 49, ( لولا اَنّ الله خلق فاطم، لعلى ما كان لها على وجه الارض كفو، آدم فمن دونه).
[5] Nur, ayə 26: (والطيبات للطيبين و الطيبون للطيبات).
[6] Təbatəbayi, 1995.
[7] Haqdust, 1995, Salarifərin nəqlinə əsasən, 2006.

İslam hədislərində vurğulanan iman, əxlaq, dini inanclar və təqvada uyğunluqdan əlavə, digər tələb olunan və nisbi uyğunluqları da qeyd etmək olar.

Həmin uyğunluqlar bunlardır: 1.mədəni və intellektual həmrəylik və harmoniya, 2. təhsil səviyyəsində uyğunluq, 3. fiziki və cinsi bərabərlik, 4. estetik uyğunluq, 5. yaş nisbəti, 6. iqtisadi uyğunluq, 7. ailə münasibliyi, 8. siyasi uyğunluq, 9. sosial uyğunluq, 10. mental və psixoloji koordinasiya, 11. həmrəylik və 12. zəka və emosiyalar kimi psixoloji məsələlərdə bənzərliklər.

Cütlüyün həmtay və bənzərliyinin böyük əhəmiyyəti olsa da, nisbi xüsusiyyət olduğunu nəzərdən qaçırmamaq lazımdır. Tay olmaq anlayışı nisbi həqiqətdir, yəni bir neçə səviyyəyə malikdir və iki insanın həmtaylığı bütün meyarları birləşdirdikdə nəzərə alınmalıdır. Bir kişi həyat yoldaşı ünvanında seçdiyi qadından müəyyən cəhətlərdən üstün ola bilər, habelə qadın da başqa cəhətlərdən ərindən üstün ola bilər. Din böyüklərinin kəlamlarında deyilir: Həmtay və layiqli bu mənadadır ki, şəxs iffətli və onunla yaşamaq rahat olsun.[1] Başqa yerdə İmam Rza (ə) buyurur: Ailə üzvlərimizi bizə həmtay, bərabər olan şəxslərə ərə vermək istəsəydik, ərsiz qalardılar...[2] Bütün bu hədislərdən aydın olur ki, evlilikdə öz tayını tapmaq nisbi bir şeydir, hətta bəzi zaman və məkan şəraitlərində ondan imtina etmək lazımdır.[3]

---

[1] Məclisi, Bihar əl-ənvar, c. 10, səh. 372, (الكفو أن يكون عفيفاً و عنده يسار).
[2] Məclisi, Bihar əl-ənvar, c. 75, səh. 367.
[3] Salarifər, 2006.

Ancaq bunu da unutmamaq lazımdır ki, ər-arvad arasındakı böyük fərqlər və uyğunsuzluq onların müxtəlif rəftarlarındakı fərqliliklərə gətirib çıxaracaq və ailə böhranına yol açacaq.[1] Buna görə uyğunluq meyarı optimal həyat yoldaşının meyarlarını birləşdirdikdə nəzərə çarpacaq ağırlığa malikdir.

## Qızın xüsusi göstəriciləri

İslam təlimlərinə əsasən, bir qadının seçilməsi üçün bu cinsin spesifik xüsusiyyətləri də nəzərə alınmışdır və bu, qadının imtiyazlarından və evliliyin kamillik şərtlərindən biri hesab olunur. Onlardan bəzilərinə işarə edirik:

Məhsuldarlıq,[2] bakirəlik,[3] üz gözəlliyi,[4] ərə itaətkarlıq,[5] mülayimlik və keçərlilik,[6] əmanətcil,[7] həyat yoldaşına minnətdarlıq,[8] övladlara sevgi və məhəbbət,[9] evdə qulluq bacarığı, mehriyyənin azlığı,[10] toy xərclərinin və digər şəxsi xərclərin azlığı[11] hədislərdə açıq şəkildə qeyd edilən kriteriyalardır.

---

1 Saruxani, 1991.
2 Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 14, (ان خير نسالكم الولود).
3 Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 20, (تزوجوا االبكار فانجن اطيب شيئاً افواها).
4 Nuri, Mustədrək əl-vəsail, c. 14, s. 169, (خير نساء امتى اصبحجن وججا).
5 Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 13, (الذليل مع بعلجا).
6 Kuleyni, Usul əl-kafi, c. 5, s. 325, (الهينة اليّنة المواتية).
7 Kuleyni, Usul əl-kafi, c. 5, s. 22, (اذا غاب منها حفظته فى نفسه و ماله ...).
8 Siyuti, Cəlaləddin, Durr əl-mənsur, c. 1, s. 152, ( خير النساء اذا اعطيت شكرت و اذا حرمت صبرت).
9 Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 20, (الطفجن بازواجن و ارحمجن باوالدهن).
10 Hürr Amuli, Vəsail əş-şiə, c. 14, s. 13, (الطيب الطبيخ المقتصدة القليل، المهر).
11 Məclisi, Bihar əl-ənvar, c. 100, səh. 231, (من بركة المراة قلة مونتها).

**Ədəbiyyat:**

1- Qurani-Kərim

2- Bəstan, Hüseyn (2004), İslam və cameşinasi xanevadə, Qum: Hövzə və Daneşgah instutu.

3- Bəni Haşimi, Seyid Məhəmməd Hüseyn (2004), Tozihil-məsail mərace, Qum: Hövzə və Daneşgah instutu.

4- Dehxuda, Əli Əkbər (1998), Lüğətnameyi-dehxuda, Tehran: Tehran Universitetinin nəşrləri.

5- Əhmədi, Seyid Əhməd (2005), Usul və rəveşhayi-tərbiyət dər İslam, İsfahan, İsfahan Universitetinin nəşrləri.

6- Əhmədi, Məhəmmədrza (2001), Nəqşi-sileyi-rəhm dər behdaşti-rəvani, Mərifət, onuncu il, №46.

7- Əfruz, Qulaməli (2004), Rəvanşinasi-rabitəha, Tehran: Tehran Universitetinin nəşrləri.

8- Əskəri, Hüseyn (2001), Nəqş behdaşt rəvan dər izdivac, Tehran: Goftgu nəşri.

9- Fəthi Aştiyani, Əli və Xudabəxş Əhmədi (2004), Tələbələr arasında uğurlu və uğursuz evliliklərin araşdırılması, Daneşvəri-rəftar jurnalı, 11-ci il, №7.

10- Hürr Amuli, Məhəmməd ibn Həsən (1991), Vəsail əş-şiə, Əbdürrəhman Rəbbani

# Övlad tərbiyəsində valideynlərin rolu

*İlahə Kərimova*

## Abstrakt

Bir qadın ailə qurmaq istədiyi insanın ilk öncə ailəsinə, haradan gəldiyinə, nə işlə məşğul olduğuna, hansı yolla dolanışığını təmin etdiyinə, dini inancına , danışıq tərzinə və davranışına diqqət yetirməli, əgər normal dəyərlərə malik olarsa ailə qurmalıdır. Kor-koranə yalnız duyğularına aldanıb araşdırmadan, xasiyyət və əxlaqına yaxşı bdüşələd olmadan biri ilə ailə qurmaq məyusluğa, peşmançılığa və əxlaqi normalara cavab verməyən nəslin artırılmasına gətirib çıxarır. Dünyaya bir övlad gətirməyə hazırlaşan qadın, qidalanmasından tutmuş, həyat tərzinə kimi hər şeyə diqqət yetirməlidir. Necə deyərlər, südü halal olanın özü də harama əl uzatmaz. Yəni bir bağa əkilən toxum pak və halal olarsa, verəcəyi məhsul da keyfiyyətli və dəyərli olar. Halal qidalanan, ibadətini vaxtında və düzgün yerinə yetirən, səbrlə və şükür edərək hamiləliliyini başa çatdıran ana namizədi mütləq gözəl, əxlaqlı və sağlam övlada sahib olacaq. Əlbəttə, bütün bunlarla yanaşı bir az öncə qeyd etdiyim kimi genetik faktorların da təsiri böyükdür. Lakin, Allah mərhəmətli, hər şeyi bilən, hər gözəl əməli dəyərləndirən, qüdrət sahibidir. O, ol desə hər şey olur.

**Açar kəlmələr:** İslam, ailə, valideyn, ana, ata, övlad, hüquq, tərbiyə

## Giriş

Allah insanı kamil, şüurlu, nitq qabiliyyətinə malik olaraq yaradib. Bu yaradılış da insanı digər canlılardan üstün və fərqli edib. İlk insan Adəm peyğəmbər (s) olub. Allah insana rahat və nöqsansız bir həyat tərzini bəxş etsə də, dünyaya hələ insandan öncə gələn, 1000 ilini Allaha ibadətlə keçirən, lakin təkəbbürü ucbatından insana (torpaqdan yaradılan varlığa) səcdə etməkdən boyun qaçıran şeytanın sayəsində harama əl uzadaraq cənnətdən qovulmuş, məsuliyyət və çətinlik ilə əhatəli yer üzünə göndərilmişdir. Peşmançılıq və məyusluq duyğusu ilə Adəm peyğəmbər Allah qarşısında öz günahını dərk edərək tövbə etmiş, tövbəsi qəbul olaraq bağışlanmışdır. Adəm ilk peyğəmbər olmuş, yer üzündə var olan bütün məxluqata Allahın tək və bir olduğunu, ondan  başqa ilah olmadığını tanıtmaq üçün göndərilmişdir. Ümumiyyətlə Allah Rəsulunun (elçisinin) əsas vəzifəsi insanlara haqq və kamil olan yeganə və əzəli olan Allahı tanıtmaq, insanları doğru yola dəvət etmək, ona ibadət və itaət etməyə səsləməkdir. Lakin o ilk insan olaraq şeytana da ilk uyan biri olmuş, təəssüflər olsun ki, şeytanın ilk toxumlarını nəfs vasitəsilə yer üzünə səpmişdir. Bildiyimiz kimi, Adəm peyğəmbərdən sonra da minlərlə peyğəmbər gələrək öz dövründə yaşayan insanları hidayət olmağa dəvət etmiş, tək və yenilməz qüdrət sahibi olan Allahı tanıtmış, onları günah və çirkin işlərdən uzaq durmağa səsləmişdir. Lakin, insanların bir çoxu aldadıcı  nəfsi və iradə zəiflyi sayəsində şeytana asanlıqla aldanmış Allahın yerinə ibadət amili olaraq dəyərsiz və zəif varlıqları , o cümlədən bütləri, əqli və şüuru olmayan yaradana və insana möhtac olan heyvanları, göy cisimlərini (ayı, günəşi, işığı və s.), Allahın yaratdığı və ölümə məhkum olan insanı Allah olaraq tanımış və ona ibadət etmişdir. Əlbəttə ki, düşüncə tərzi düzgün formalaşan və haqqdan gələn dəvətə müsbət cavab verənlər isə

hidayət olaraq Allaha tərəf yönəlmiş və imtahandan üzuağ cıxmışdır.

**Ailə qurmağın əhəmiyyəti**

Hər bir insan müəyyən yaşa gəldikdə ailə qurmalı, halal və düzgün yolla nəslini artırmalı, cəmiyyətdə özünəməxsus bir yer qazanmalıdır. Ailə özü ən kiçik cəmiyyətdir. Insan ilk öncə ailədə tərbiyə olaraq öz şəxsiyyətini formalaşdırmağa başlayır, valideynlərinin köməyi ilə doğrunu yalnışdan ayıra bilir, özünəməxsus dünyagörüşünü yaratmağa başlayır.

Mənim nəzərinizə çatdıracağım mövzu isə “Övladın tərbiyəsində valideynlərin rolu” məsələsidir. Övlad tərbiyəsi olduqca mühüm və əvəzsiz bir vəzifədir ki, bunun da öhdəsindən təəssüf ki, hər valideyn gələ bilmir. Valideynin öz övladını düzgün şəkildə yetisdirməsi üçün əlbbətə ilk əvvəl onun özünün düzgün əxlaqi dəyərlərə sahib olması lazimdır. Ailə qurduqdan sonra qadın və kişi həyatlarını daha da rəngli və mənalı etmək üçün uşaq dünyaya gətirməyi planlaşdırırlar. Bu məqsədə çatdıqdan sonra uşağın yetişməsi üçün qayğı və diqqət tələb olunur. Ana öz övladını yedizdirir, ona qulluq edir, onun sağlam böyüməsi üçün əlindən gələni edir, xəstələndikdə təlaş və narahatçılıq keçirərək analıq duyğusunu daha da inkişaf etdirir. Valideyn övladı üçün əsas nə istəyə bilər ki? Qoy balam yaxşı olsun, üzü gülsun, canı sağ olsun, heç bir xəstəlik keçirməsin, ömrü uzun və xeyirli olsun. Bu istəklərin içərisinə “mənim balam həm sağlam olsun, həm də düzgün tərbiyə və əxlaqla yetişsin, Allahı düzgün tanıyan və ona kamil ibadət və itaət edən biri olsun” fikirlərini əlavə edən valideynlərin sayı mənə elə gəlir ki çox deyil. Ana və ata övladının tək cismi sağlamlığını deyil, həm də ruhi sağlamlığını düşünməlidir. Ruhu düzgün tərbiyə olmayan, mənəviyyatı pak yolla qidalanmayan insanın cismi necə aram

ola bilər ki? Valideynin tək vəzifəsi onun doyurmaq, geyindirmək, xəstələnən zaman sağaltmaq deyil, onu müəyyən yaşa çatdıqda məktəbə göndərmək deyil axı... Valideynin ən əsas vəzifəsi onu cəmiyyətə təqdim etməmişdən əvvəl həm cismi, həm ruhi cəhətdən hazırlamaqdır. Məhəmməd peyğəmbərimizin (s) gözəl bir kəlamı var: " Övladın tərbiyəsinə ana bətnindən başlamaq lazımdır".

**İlk adımlar**

Yenicə dünyaya gələn körpə, ilk öncə anasından qayğı və diqqət tələb edir. Onun tərtəmiz dünyasında ac olanda yeyib doymaq, natəmiz olanda paklanmaq, yuxusu gələndə isə şirin yuxuya getmək kimi sadə və onun üçün çox əhəmiyyətli dəyərlər var. Aylar keçdikcə ətraf mühiti yavaş-yavaş dərk edərək, yuxu saatını azaltmağa başlayır, anasının, atasının və digər yaxınlarının sevgisini, qayğısını hiss etməyə başlayır, müxtəlif səslərlə onlara reaksiya verməyəy başlayır, istəklərini nitq qabiliyyəti hələ formalaşmadığı üçün ağlayaraq ifadə etməyə çalışır. Artıq 7-8 ayına çatmış körpə isə hərəkətlərində bir qədər irəliləyiş əldə edərək sərbəst oturmağa (anasının köməyi və nəvazişi sayəsində) cəhd edir, bir-iki söz deməyə başlayır (ana, ata nənə, baba və s.), əgər tam sağlam fiziki quruluşa sahibdirsə iməkləməyə də başlayır. Əlbəttə, bu proses bəzi uşaqlarda müxtəlif səbəblərdən dolayı ləngiyə də bilər. Heç də hər uşaqda inkişaf mərhələsi eyni vaxtda baş vermir.

Bütün bu müddət ərzində körpənin ana südü ilə qidalandırılması, həmçinin 6 ayından sonra yavaş-yavaş əlavə qidalara oyrəşməsi, nitq qabiliyyətinin təməlinin formalaşması valideynlərin zəhmətindən və səbrindən asılıdır.

Artıq 1 yaşını tamamlayan uşaq, (bir neçə ay gecikə də bilər) ilk addımlarını ataraq ana-atasının böyük sevincinə səbəb olur, müxtəlif sözlər deyərək ailə üzvlərinin ürəyində

dərin fərəhə səbəb olur. 2 yaşına kimi bütün dişlərini müəyyən çətinliklərə baxmayaraq (bəzi uşaqlarda qızdırma, ishal, yuxusuzluq kimi hallar) çıxardan uşaq yavaş-yavaş nitq vərdişlərinə yiyələnməyə başlayır, qisa-qısa cümlələr deyərək özünü ifadə etməyə, yaxınları ilə ünsiyyət qurmağa başlayır. Bu zaman valideynlər nəzərə almalıdır ki, uşaqlar daima onları eşidir və eşitdiklərini də dilə gətirməyə çalışır. ən azı hafizəsinə həkk olunur və danışmağa başlayanda o sözlərdən istifadə edir. Ona görə də valideynlər nitq üslubundakı əxlaqi dəyərləri gözəl tənzimləməlidir. İndi isə mən insanları, ələlxüsusda valideynləri yaxından maraqlandıran bir mövzunu nəzərinizə çatdırmaq istəyirəm.

**Övlad tərbiyəsinin forması**

Uşaqları necə böyüdək ki, vicdanlı, əməlisaleh, cəmiyyət üçün xeyirli olsunlar? Necə edək ki, uşaqlarımız böyüyəndə onlardan ötrü xəcalət çəkməyək, onlar bizə başıucalıq və şərəf gətirsinlər?

Bu sualın cavabını tapmaq üçün indiyə kimi minlərlə əxlaq kitabı yazılıb, tövsiyələr edilib. Övlad tərbiyəsinin ən mühüm cəhətlərini hər alim fərqli şəkildə görüb. Amma hamının razılaşdığı bir fikir var. O da bundan ibarətdir ki, övlad tərbiyəsində ən mühüm rolu valideynin şəxsi nümunəsi oynayır. Hamımız buna şahidik ki, ailədəki uşaqlar öz ata-analarını təqlid etməyi xoşlayırlar. Dəfələrlə öz uşaqlarımızın dilindən eşitmişik ki, onlar da böyüyəndə bizə oxşamaq istəyirlər. Məsum körpənin qəlbindən süzülən bu fikir, yəni valideynə bənzəmək arzusu həm də valideynə öz məsuliyyətini xatırlatmaq üçün bir xəbərdarlıqdır.

Ata və ya ana öz övladını nə cür görmək istəyirsə, onun gözləri qarşısında özü də o cür görünməlidir. Valideyn bir

güzgüdür; amma elə güzgüdür ki, ona baxan və ondan öyrənən uşağı dəyişdirmək, özü kimi etmək gücünə malikdir.

Valideynin mütləq riayət etməli olduğu bir neçə cəhət vardır. Amma onların hər biri barəsində ayrı-ayrılıqda söhbət açmağa məqalənin həcmi imkan vermədiyi üçün yalnız bir məqam üzərində durmaqla kifayətlənirik. Valideyn heç zaman uşağa yalan danışmamalıdır, heç zaman özü tərsinə etdiyi bir işi ondan tələb etməməlidir. Hətta uşağa hər hansı mükafat vədəsi verərkən belə, diqqətli olmaq lazımdır ki, bu vədəyə xilaf çıxmayasan. Uşaq ata-anadan yalan görərsə, əvvəla, qəlbi onlardan sınar. Ikincisi, onun özündə də yalançılıq xasiyyəti yaranar; axı yalan danışmaq pis iş olsaydı, onun nümunə kimi qəbul etdiyi valdieynlər bunu etməzdilər.

Səhabələrdən Abdullah ibn Amir rəvayət edir ki, bir gün Peyğəmbər bizim evimizdə oturmuşdu. Bu zaman anam məni çağırıb dedi: “Tez yanıma gəl, gör cənə nə verəcəyəm”. Peyğəmbər anamın sözlərini eşidəndə soruşdu: “Uşaq gələndən sonra ona nə verəcəksən?”. Anam cavab verdi: “Bir xurma verməyi düşünürdüm”. Peyğəmbər buyurdu: “Əgər ona heç nə verməsəydin, əməl dəftərinə yalan cəzası yazılacaqdı”.

Valideyn öz övladına hər hansı əməlin pis olduğunu söyləyirsə, özü də bu əməli etməməlidir. Əks halda, onun nəsihətlərinin heç bir kəsəri olmayacaq. Əgər ana ataya hörmət göstərməyi uşaqdan tələb edirsə, amma özü evdə əri ilə kobud davranırsa, təbii ki, onun dediklərinin uşağa heç bir təsiri olmayacaq. Ata halal-haramı gözləmək barədə uşağa hər gün nəsihət verirsə, amma özü küçədə rastına çıxan pul qabını onun gözü qarşısında götürüb mənimsəyirsə, uşaq bu barədə nə düşünəcək? Yalnız valideyn deyil, uşağın tərbiyəsi və təlimi ilə məşğul olan hər kəs öz davaranışına diqqət yetirməli, uşaq tərəfindən izləndiyini unutmamalıdır. Bu rəvayətdən yəqin ki, çoxlarının xəbəri var: Bir gün bir ana uşağını Peyğəmbərin

yanına gətirib o həzrətdən xahiş edir: “Mənim oğlum xurma yeməyi çox xoşlayır. Amma görürəm ki, xurma onun sağlamlığına mənfi təsir göstərir. Sizdən xahiş edirəm, oğluma tapşırın ki, xurma yeməsin. O, Sizi çox sevir, əgər Siz ona tapşırsanız, sözünüzdən çıxmaz”. Amma ananın təəccübünə rəğmən Peyğəmbər uşağa heç nə demir, anadan xahiş edir ki, uşağı da götürüb getsin, sabah yenə gəlsinlər. Ertəsi gün gələndə isə Peyəmbər sadəcə olaraq üzünü uşağa tutub buyurur: “Xurma sənin üçün ziyandır. Bundan sonra xurma yemə”. Hadisəni təəccüblə seyr edən ana soruşur: “Ey Allahın Rəsulu! Əgər məsələ bununla bitirsə, niyə bu sözləri dünən demədiniz, işi bu günə saxladınız?”. Peyğəmbər mehribanlıqla cavab verir: “Dünən mən özüm də xurma yemişdim, fikirləşdim ki, bu halda sözümün təsiri olmayacaq. Bu gün isə xurma yemədim ki, uşaqdan bunu istəməyə haqqım olsun”.

Bəzən kiçik saydığımız, düşüncələrinə əhəmiyyət vermədiyimiz övladlar bizim nöqsanlarımızı özümüzdən də yaxşı görürlər. Və bunun əsasında onların zehnində bizim haqqımızda təsəvvür yaranır. Ayıq-sayıq olmalıyıq ki, öz səhv hərəkətlərimiz və yalanlarımızla uşağın yanındakı etibarımızı itirməyək. Eynilə aşağıdakı əhvalatda olduğu kimi: Bir gün padşah bir alimi saraya dəvət edir. Nahar vaxtı çatanda alim həmişəkndən az yemək yeyir ki, onun təqvasına şübhə etməsinlər. Namaz vaxtı çatanda isə həmişəkindən daha artıq ibadət edib, namazın vaxtını uzadır. Saraydan evə qayıtdıqdan sonra alim ailəsinə bildirir ki, acdır və yemək istəyir. Bu zaman oğlu soruşur: “Ata, məgər sarayda yemədinmi?”. Alim cavab verir: “Yedim, amma az yedim ki, padşah mənim haqqım¬da pis fikrə düşməsin”. Oğlu deyir: “Onda dur, sarayda qıldığın namazı da təzədən qıl. Çünki yeməkdə olduğu kimi, namazda da riya etmisən!”.

## Ananın övladın təlim-tərbiyəsindəki rolu

Ananın təlim-tərbiyədə oynadığı rol danılmazdır. Ana bu baxımdan rəhbərlik və bələdçilik məsuliyyətini daşıyır. O, övladının maddi ehtiyaclarını təmin etməklə yanaşı onu aydın düşüncəyə, saf əqidəyə və ədəb-ərkana yiyələndirməli, bu yolla da onun gələcəyini, habelə gələcək cəmiyyəti qurmalıdır.

Yaradılışın əbəs olmadığını düşünmək və həyata qarşı ümidvar olmaq təlim-tərbiyə və maariflənmənin ən böyük səmərələrindəndir.

Aydındır ki, bu ağır məsuliyyətin öhdəsindən gəlmək üçün ana özü də maariflənməli və başqalarının təcrübələrindən istifadə etməlidir. Bu işdə islam dininin əxlaq, ədəb-ərkan (etika-estetika) və müxtəlif yaş dövrünə müvafiq təlim-tərbiyə üsulları bəyan edən mötəbər kitablardan faydalanmaq siz analara böyük kömək göstərər.

Gələcək nəslin formalaşmasında ana, əsas aparıcı qüvvədir. Ailə və cəmiyyətdə davranışın ilkin təlimlərini uşaq anadan öyrənir. Habelə, cəmiyyətdə qarşılıqlı anlaşma və fikirlər mübadiləsi üçün yaranan danışıq dilini hər bir uşaq öz anasından öyrənir. Ananın ağuşunda boya-başa çatan uşaq, özünəxas düşüncəyə yiyələnir və təbii ki, gələcəkdə bu düşüncələri müdafiə etməyə səy göstərir. Uşağın bütün bu sadalananlarada müvəffəqiyyət əldə etməsi isə düzgün təlim-tərbiyəyə bağlıdır. Başqa sözlə, ananın düzgün təlim-tərbiyəsi övladının səadətinə, yanlış təlim-tərbiyə isə sonrakı peşmançılığa bais olur. Dünyaya yeni göz açan körpəyə hamıdan yaxın və daim onunla ünsiyyətdə olan onun anasıdır. Ana uşağın maddi ehtiyaclarını təmin etməklə yanaşı onun ruhuna və hissiyyatlarına da birbaşa təsir göstərir.

Həqiqətdə uşağın həm cisminin, həm də ruhunun sağlam inkişafı ananın varlığına bağlıdır. Yəni ananın uşaqla daim

təmasda olması onun inkişaf və kamilliyinin ilk amilidir. Bu ünsiyyət sayəsindədir ki, gələcəkdə cəmiyyətə ayaq basan uşaq həmtayları ilə ünsiyyət yaratmağı bacarır. Uşağın cəmiyyətlə tanışlığında da ilk vasitəçi anadır. Bir çox qərb psixiatorları, o cümlədən Spirts ana qayğısının uşağın həm cismi, həm də zehni inkişafindakı əhəmiyyətini vurğulamışdır. O, ananın ağuşunda böyüyən və ana qayğısından uzaq düşən uşaqlar üzərində apardığı müşahidələrdən sonra belə qənaətə gəlib ki, birinci dəstədən olan uşaqlarda cismi və zehni inkişaf, o cümlədən fərdi və ictimai şəxsiyyət kimi formalaşmaq, ikinci dəstədəki uşaqlardan daha üstündür.

Əziz İslam peyğəmbəri Həzrəti Məhəmmədin (s) hədislərindən də aydın olur ki, ana övladına olan məhəbbətini atadan daha çox büruzə verir və o, uşağını boya-başa çatdırmaq üçün daha çox fədakarlıq göstərir.

İmam Zeynül-abidin (ə) da ananın övladı üçün çəkdiyi bir çox zəhmətləri sadalayaraq buyurur: «Allah tofiq verməsə, heç kim ananın çəkdiyi zəhmətlərin əvəzini qaytara bilməz».

Ailə uşaqların təlim-tərbiyə ocağıdır və bu məqsədə çatmaq üçün ata və ana ailədə əlverişli şərait yaratmalıdırlar. Uşağın şəxsiyyəti ailədə formalaşır. Bir-birilə əlaqədar olan amillər, o cümlədən irsiyyət, xarici görkəmindən əlavə, onun şəxsiyyət və xasiyyətində də böyük təsirlər qoyur. Şəraitdən asılı olaraq irsiyyətin fərd üzərində qoyduğu təsirlər müxtəlif formalarda təzahür olur. Məsələn, bəzən irsiyyətin bəxş etdiyi müəyyən istedadlar şərait nəticəsində ya çiçəklənir, ya da məhv olub aradan gedir.

Müqəddəs İslam dinində ata-ananın boynuna düşən bu ağır məsuliyyət, yəni övladın təlim-tərbiyəsi, təkidlə bəyan olunmuş və bu sahədə lazımi tövsiyələr kitablarda qeyd edilmişdir. İmam Səccad (ə) buyurub: «Övladın valideyn üzərindəki haqqı bunlardır: (Ey valideyn,) bil ki, bu uşaq sənin

vücudundan yaranıb və onun həm yaxşı, həm də yaramaz əməlləri səndən asılıdır. Həmçinin bil ki, atalıq məsuliyyəti və hökmranlığına görə səndən hesabat alınacaq. Sən övladını gözəl əxlaq və ədəb ərkana yiyələndirməli, böyük Allahı ona tanıtdırmalı və Allaha itaət və ibadət etməkdə ona yol göstərməlisən!

(Ey valideyn,) övladına tərbiyə verdikdə özünü də unutma; vəzifəsini tanıyan bir ata ol! Bil ki, övladına xidmət göstərsən, Allah-taala dərgahında savab qazanacaqsan. Amma əgər öz köməyini ondan əsirgəsən, əzaba düçar olacaqsan!» (Məhəmməd Təqi Fəlsəfinin nitqi, 18-ci çapı, Tehran, İslam maarifi nəşriyyatı heyətı, 1367-cı hicri-şəmsi ili, «Uşaq irsiyyət və tərbiyə baxımından», 2-ci hissə, 3-cü səh.)

Təlim-tərbiyə elə uşaqlıq çağlarından başlanır. Azyaşlı uşaq valideynlərinin, həmçinin ailədə yaşca özündən böyük bacı-qardaşının rəftarlarını təkrarlayır. Uşağın şəxsi rəftarları isə tabe olduğu dinin buyruqları və milli adət-ənənənin təsiri altinda formalaşır. Sözsüz ki, hər bir millətin və məntəqənin özünəxas milli adət-ənənəsi və tərzi-təfəkkürü var və bunlar nəsildən nəslə ötürülür. Ata-ana da millətin bir nümayəndəsi kimi bu adət-ənənəni mənimsəyir və övladlarına ötürür. Məsələn, böyüklərlə davranış qaydaları, toy və yas mərasimləri, xöşbəxtlik və bədbəxtlik, həyat və ölüm anlayışlarını təhlil etmək və s. bu kimi göstəricilər müəyyən bir mədəniyyəti təşkil edir. Bir qədər öncə irsiyyətin uşağın şəxsiyyətinə böyük təsir etdiyini vurğuladıq. Milli adət-ənənə isə uşaq şəxsiyyətinin formalaşmasında başqa bir amildir.

Əsassız inanclar və xurafatlar, ətrafdakılara qarşı laqeydlik, cəmiyyətdə nizam-intizamsızlıq və qanunsuzluq, əhalinin ölkə ərazisində düzgün paylanmaması, dinə qarşı inamsızlıq ictimai mədəniyyətə mənfi təsir qoyan amillərdir. Bu mənfi amilləri cəmiyyətə qoşulan gəncə mütləq xatırlatmaq

lazımdır. Şübhəsiz ki, ictimaiyyət ayrı-ayrı ailələrdən, ailə isə ayrı-ayrı fərdlərdən təşkil olur və ictimaiyyətdə mövcud olan problemlər də ailələrdən qaynaqlanır. Sizcə nizam-intizamsız, ayrıseçkiliklərə yol verilən, daim ailə üzvləri arasında çəkişmələr baş verən bir ailənin yetirdiyi uşaq hansi tərbiyənin və mədəniyyətin sahibi ola bilər?! Yəqin ki, göz açıb gördüyü tərbiyənin!

Xülasə, təlim-tərbiyənin təməli ailədə qoyulur.

Təlim-tərbiyəyə təsir göstərən amillərdən biri də ailənin mənsub olduğu ictimai kütlə və həmçinin yaşadığı məntəqədir. Müşahidə etdiyiniz kimi ali təhsilli ailələrlə savadsız ailələr, varlı ailələrlə yoxsul ailələr və şəhərdə yaşayan ailələrlə kənddə yaşayan ailələr arasında təlim-tərbiyə və etika-estetika baxımından bir çox fərqlər mövcuddur.

**Uşağın cəmiyyətdə fəal olmasında ananın təsiri**

Tanınmış sosioloq Parsonzun nəzərincə ictimailəşmək, yaşadığı mühitə hakim olan mədəniyyətə yiyələnməkdir. Başqa bir tərifə əsasən isə ictimailəşmək ictimaiyyətdə mövqe tutmaq üçün bir sıra rəftarlar və məharətlərə yiyələnməkdir.

Uşağın ictimai bir fərd kimi yetişməsində ana hansı təsirləri qoya bilər?

Hər bir millətin danışıq dili onun mədəniyyətini, etika-estetikasını və psixologiyasını nümayiş etdirir. Uşaq ana dilini anasından öyrənir və bu vasitə ilə öz istəklərini və digər məsələləri bəyan edir. Bu səbəbdən də danışıqda ara sözləri və təhqiramiz ifadələrdən, kinayələrdən istifadə etmək olmaz.

Ana uşağı ətraf aləmlə tanış etmək üçün bu barədə məlumat verən kitablardan, şəkillərdən, sənədli filimlərdən istifadə edə bilər. Uşağın yad mədəniyyətə meyilli olduğunu müşahidə edən ana təmkinli olmalı, bir mədəniyyətin mənfi və

müsbət cəhətlərini araşdırmadan dərhal onu təsdiq və ya inkar etməməlidir.

Uşağa verilən təlimlər tamamilə aydın olmalıdır ki, uşaqda tərəddüd yaratmasın. Yəni, uşağa verilən hər bir təlimin səbəbini və faydasını ona izah etmək lazımdır. Həmçinin uşağın zehninə həkk olan təlimləri alt-üst edib, onları yeniləmək olduqca çətin işdir. Unutmayın ki, həmişə mülayimliklə uşağı tərbiyələndirmək təsirli olmur. Bəzən lazımi cəza tədbirlərindən istifadə etmək, bəzən isə uşağı müəyyən bilikləri öyrənməyə vadar etmək lazımdır. Uşağı maraqlandıran suallara onun düşüncə səviyyəsinə uyğun cavab verilməlidir. Ananın vəzifəsi böyükdür. Ümumi anlayışları və yenilikləri övladına izah etmək, adət-ənənələri qoruyub saxlamaq və onların icrasına nəzarət etmək, televiziya və internet kimi kütləvi informasiya vasitələrindən istifadəni çərçivəyə salmaq və s. kimi məsuliyyətlər ananın öhdəsinə düşür. Xatırladaq ki, televiziya verilişləri uşaqlara böyük təsir göstərir. Demək olar ki, bütün uşaqlar elə kiçik yaşlarından televiziya verilişlərini izləməyə həvəs göstərir və orada gördüklərini heç bir qeyd və şərtsiz qəbul edirlər. Nəticədə də onların əksər rəftar və düşüncələri televiziya tamaşalarının məhsuludur. Əgər uşağı tərbiyələndirməkdə müsbət nəticələr əldə etmək istəyirsinizsə, ona özünə uyğun televiziya verilişlərini seyr etmə icazəsini verməli və eyni zamanda ona nəzarəti unutmamalısınız.

Eyni zamanda, ana uşağına gündəlik vəzifələrini tanıtdırmalı, onu dünya ölkələri və şəhərləri ilə tanış etməli, ona qəzet və jurnallar, həmçinin müasir yazıçıların əsərləri və s. haqqında məlumatlar verməlidir. Xüsusilə də ana övladına hər bir şeydə müşahidə edilən «səbəb və nəticə» qanununu izah etməlidir.

Təlim-tərbiyə və şəxsiyyətin formalaşmasında mühüm rol oynayan amillərdən biri təhsildir. Əgər ana uşağın təhsilinə ciddi yanaşmasa, sözsüz ki, cəmiyyətə savadsız bir insan təhvil verəcəkdir. Uşaqlar günün yarı hissəsini təhsil ocaqlarında, yəni məktəblərdə keçirirlər. Başqa sözlə desək, onlar cəmiyyətə qoşulurlar. Məktəblərdə tədrislə yanaşı uşaqlara cəmiyyətdə davranış qaydalarını və milli adət-ənənələri də öyrədirlər.

Uşaq ən çox ana ilə ünsiyyətdə olduğu üçün onun rəftarlarını və danışıqlarını təkrar edir. Deməli, cəmiyyətdə mədəniyyətin böyük hissəsi ana əməyinin məhsuludur.

Bir sözlə ana uşaq üzərindəki nüfuzu ilə onun formalaşmasında böyük rol oynayır. Ana övladını xeyirxahlığa və bədxahlığa sövq etdirir. O, bəyənilən və ya yaramaz əməllərin toxumunu uşağın qəlbinə səpir.

**Ana övladı üçün örnəkdir**

Uşaq anasını hər bir cəhətdən özünə örnək hesab edir. Yəni, ana övladına bir davranış və şəxsiyyət nümunəsidir. Ailəyə qarşı laqeyd, bədrəftar, hər xırdalığa görə özündən çıxan və bir sözlə dözülməz xasiyyətdə olan ana sizcə ədəb-ərkanlı və dolğun şəxsiyyətli bir övlad yetişdirə bilərmi? Ananın bütün rəftarları – evin idarəçiliyi, səbr və hövsələsi, gözlənilməz hadisələrlə üzləşməyi, Allaha inam və ibadəti, hətta geyimi və s. uşaq üçün nümunədir. Məsələn, ana, əgər Allaha ibadətdə ciddiyət göstərib, onu vaxtında, bəyənilən məkanlarda, dəqiqliklə icra edərsə, şübhəsiz ki, övladı da bu mədəniyyəti mənimsəyəcəkdir.

Dost və həmsöhbətin yoxluğu uşaq və yeniyetmələr üçün böyük bir müsibət sayılır. Amma övladımızın ədəbsizliyi və ya əcnəbilərə məxsus mədəniyyəti yamsılayan uşaqlarla ünsiyyətdə olması daha böyük müsibətdir. Yenə də

valideynlərin, xüsusilə də ananın nəzarətinə ehtiyac duyulur. Övladları yaramaz uşaqlarla dostlaşdığı vaxt valideynlər onların dostluğuna tənə vurmaqla yox, onların mənfi cəhətlərini izah etməklə, uşaqlarını onlardan uzaqlaşdırmalıdırlar. Eyni zamanda valideynlər övladlarına əsl dostun da sifətlərini bəyan etməlidirlər. Xülasə, dost seçməkdə uşağa yol göstərib, kömək etmək ananın üzərinə düşən məsuliyyətlərdəndir. Bir daha qeyd edirik ki, bu iş, çox mülayimliklə həyata keçirilməlidir. Dostluq əlaqələri qurulduqdan sonra bu dostluğa nəzarət etmək də önəmlidir. Dostlar adətən yaxın olmaq üçün bir-birinin rəftarlarını təkrar edir, bildiklərini – istər faydalı, istərsə də, zərərli məlumatları – bir-birinə çatdırmağa səy göstərirlər.

Müqəddəs İslam dinində bildirilir ki, təhsil almaq üçün uşaqları etibarlı və ləyaqətli müəllimlərə tapşırmaq övladın valideyn boynunda olan haqqıdır. Nizam-intizama xüsusi diqqət yetirən və təhsilə ciddi yanaşan məktəbin məsul işçiləri və müəllimləri, uşaqların taleyində müsbət iz qoya bilərlər. Odur ki, valideynlər, xüsusilə də ana – çünki əvvəla ana, uşağa atadan daha çox yaxın olur, ikincisi, əksər analar evdar olduqları üçün, uşaqlara daha çox vaxt ayırmaq imkanına malikdir – övladını hansı məktəbə yolladığını və hansı müəllimlərin əlinə tapşırdığını araşdırmalıdırlar. Məktəbin məsul işçiləri, müəllimləri, hətta xadimələri nümunəvi xüsusiyyətlərə malik olmalıdırlar; çünki məktəb uşaqların ikinci evidir. Onlar, məktəbdə doğruluğu, həmçinin yaxşını pisdən, düzü əyridən seçməyi, həqiqi və faydalı azadlığı, həyata hakim olan bir sıra qanunları və şərəfli və dəyanətli həyat yolunu seçməyi öyrənməlidirlər. Həmçinin təhsil ocaqlarında uşaq və yeniyetmələrə ətrafdakı insanlarla – ata, ana, dostlar, həmyaşıdlar və s. – davranış və etika-estetika qaydaları da təlim olunur.

## Ananın övladı üzərində qoyduğu təsirlər

Ananın uşaq üzərində qoyduğu təsirləri bu üç sahədə görmək mümkündür:

1. Ana öz nümunəvi xüsusiyyətləri və rəftarları ilə övladının təlim-tərbiyəsi və kamilləşməsi üçün münasib şərait yaradır.

2. Ana övladı üçün örnəkdir və övladı onun hər bir hərəkətini eynilə təkrar edir.

3. Ana müəyyən rəftarları təkrar-təkrar yerinə yetirməklə övladını bu rəftarları mənimsəməyə yönəldir.

Əvvəldə qeyd etdiyimiz kimi uşağı tərbiyələndirmək və maarifləndirmək üçün ana da bir çox bilgiləri əldə etməli və davranışında əxlaqi normalara riayət etməlidir. Aşağıdakı tövsiyələr bu işdə anaya kömək göstərə bilər:

1. Ana övladının həm evdə, həm də evdən kənardakı davranışına göz qoymalıdır. Onun dostlarını tanımalı, onlarla olan söhbətindən və rəftarlarından müəyyən qədər agah olmalıdır.

2. Ana uşağının yol verdiyi səhvləri nəzərə almalı və onların islahı üçün səy göstərməlidir.

3. Ana uşağının rəftarlarındakı məqsəd və istəyi müəyyənləşdirməklə onları sabitləşdirə və ya islah edə bilər.

4. Ana bəzən uşaqla həmfikir, həmdərd olmaq və ümumiyyətlə mülayim davranmaqla onunla dostlaşa bilər. Bu yolla da övladının hər bir işindən xəbərdar olub, kənardan olan mənfi təsirləri zərərsizləşdirə bilər.

## Ailədə səmimiyyət olmalıdır

Oğlan və qız tərbiyəsində elə də ciddi fərq qoyulmamalıdır. Onun sözlərinə görə, uşaqlara qarşı ümumi davranışlar müəyyən yaş dövrünə qədər eyni olmalıdır.

Böyüyəndən sonra cinsi tərbiyədə müxtəlif formada yanaşılmalıdır. Bizim ailələrdə qız və oğlan tərbiyəsində qəribə bir yanaşma var, oğlana hər şey olar, amma qıza yox. Nəticədə qızlar çəkingən, olur, oğlanlar isə istədiyini edə, istədiyi formada davranırlar. Bundan əvvəlki nəsli təhlil edərkən görürük ki, qızlar analarından, oğlanlar isə atalarından çəkinir. Ünsiyyət var, amma səmimiyyət yoxdur. Nə qədər ki, səmimiyyət, dostluq yoxdur, onlar arasında həmişə problem oalcaq. Nəticədə uşaq dərdini danışacağı başqa birini tapacaq və kim təminat ver bilər ki, həmin insan kifayət qədər güvənilirdir. Valideynlə dost olmayanlar xarici mühitə can atır, ailədən uzaqlaşır. Ev onlar üçün yalnız yemək, yatmaq, pul götürmək yeri olur. Biz bununla bağlı valideynlərə tövsiyə verəndə isə xüsusilə atalar deyir ki, mən övladımla dost ola bilmərəm, çünki bu zaman o mənə hörmət etməz".

Ekspert vurğulayıb ki, istər qız, istər oğlan övladı olmasına baxmayaraq, valideynlər hər iki uşağa yetərincə diqqət ayırmalıdırlar: "Bəzi vərdişləri uşaqlara kiçik yaşlarından aşılamaq lazımdır. Tutaq ki, onlara tapşırıq verin. O da dərk etsin ki, ona nəsə tapşırılıb və bunu mütləq etməlidir və əvəzində o mükafat və ya alqış alacaq. Bağçaya getməyən uşaqlarda məsuliyyət hissi də az olur. Çünki ən azından orada uşağa tapşırıqlar verilir. Hətta hədiyyə alarkən də diqqətli olmalı və yenə də məsuliyyət unudulmamalıdır. Eyni zamanda, uşaqlara hər gün yeni hədiyyə almaq doğru deyil. Bir gəlincik, maşın alanda bir neçə ay ona imkan yaradın ki, o, oyuncağı dərk etsin".

Azərbaycan ailələrində ata işə gedən, pul qazanan, fikirlərinə qarşı heç bir söz deyilməyən, övladın birbaşa ünsiyyət qurmadığı bir şəxs kimi tanınır: "Yəni, ailə üzvləri nə düşünür-düşünsün yalnız onun qərarı əsasdır. Övladın tərbiyəsinə birbaşa qarışmır, bütün məsuliyyət də ananın

üzərinə düşür. Hansısa problem yaşananda o, sadəcə, günahı başqalarında axtarır, özü nə qədər məsuliyyət daşıyır bunu düşünmür. Bir sözlə, bizdə atalar məsuliyyətdən qaçır. Təkcə ana tərbiyəsi yetərli deyil. Hər bir valideyn bir psixoloq qədər bilikli olmalıdır.

**Hər bir uşağın fərqli fərdi xüsusiyyətləri var**

Həm oğlan, həm də qız uşaqları ilə səmimi ünsiyyət yaratması vacibdir. Onun sözlərinə görə, ailədə münasibətləri düzgün quramağı bacaran valideynlər gələcəkdə övladlarının davranışları ilə bağlı ciddi problem yaşamırlar. Məlum məsələdir ki, uşağın tərbiyəsində ətraf mühit, təhsil müəssisələri informasiya vasitələri ilə yanaşı əsas missiya ailənin üzərinə düşür.Valideynlər arasında uşaqların tərbiyəsi ilə bağlı həmrəylik olmalıdır. Valideynlər aralarında yaranan fikir ayrılığını uşağa hiss etdirməməlidir. Lakin təəssüflər olsun ki, bu gün Azərbaycanda ənənəvi ailə modeli dağılmaq üzrədir. Bu vəziyyət öz mənfi təsirini uşaqların tərbiyəsində də biruzə verir. Şəxsiyyətlərarası və şəxsiyyətdaxili ziddiyyətlər valideyn-övlad münasibətlərində uçurumlar yaradır. Hansı ailədə ata, ana və digər ailə böyükləri (baba, nənə) uşağın tərbiyəsində müsbət şəxsi nümunə göstərirsə o ailədə sağlam düşüncəli və cəmiyyətimiz üçün yararlı şəxsiyyətlər yetişir.

Ekspert vurğulayıb ki, həm ailədə, həm də məktəbdə uşağa şəxsiyyət kimi yanaşmaq lazımdır. Tünzalə Verdiyevanın fikrincə, hər bir uşağın fərqli fərdi xüsusiyyətləri var. O bildirir ki, temperament tipinə və xarakterinə görə bir-birindən fərqlənən uşaqların tərbiyəsində fərdiliyi tapmaq yüksək valideynlik bacarığı tələb edir: "Hələ ana bətnindəyikən uşağın fiziki və fizioloji tərbiyəsi, lap kiçik yaşlarından estetik tərbiyyəsi, maraq və meyilləri formalaşır. Artıq 2 yaşından etibarən uşaqları maraqlandıran sualları yaşlarına uyğun olaraq

düzgün cavablandırmaq lazımdır. Bundan başqa əmək tərbiyəsi hər bir yaşda ardıcıl və mütəmadi aparılmalı, həyati bacarıqlar, özünəxidmət vərdişləri formalaşdırılmalıdır".

Uşaqların tərbiyəsində hər iki valideynin rolu mütləqdir. Bəzən valideynlər övladları ilə bağlı hansısa neqativ hal baş verəndə bir-birini təqsirləndirir. Atalar "mənim vəzifəm pul qazanmaq, çörək dalınca qaçmaqdır, uşağı tərbiyə etmək anasının işidir" deyib məsuliyyətdən kənarda qalmaq istəyirlər. Uşağın fiziki, fizioloji və psixi inkişafında, düzgün tərbiyə olunmasında ata qayğısı və ana nəvazişi mütləqdir. Hər iki valideynin diqqət və qayğısı ilə əhatə olunmuş uşaq özünü dəyərli hiss edir, daha inamlı böyüyür".

Tünzalə Verdiyeva həmçinin bildirib ki, müasir dövrdə uşaqları düzgün tərbiyyə etmək üçün valideynlərin üzərinə daha böyük məsuliyyət düşür: "Bu gün uşaqların formalaşmasında ailə dəyərləri, məktəbdə təhsil, təlim-tərbiyə ilə yanaşı cəmiyyətin, ətraf mühitin və yaşıdlarının təsiri vardır. Ucqar kəndlərdən, kiçik qəsəbələrdən fərqli olaraq şəhərdə, xüsusilə də paytaxtda yaşayan uşaq və yeniyetmələr daha çox internetdən təsirlənir. Əlbətdə müasir dövrü komputer və mobil rabitəsiz təsəvvür etmək mümkün deyil. Uşaqlar dərslərini hazırlayarkən hər hansı bir məlumatı, informasiyanı internet resurslarından asanlıqla əldə edirlər. İKT-dən istifadə vaxt itkisinin qarşısını alır. Digər tərəfdən isə internetdən istifadə uşaqların tərbiyəsində mənfi rol oynayır. Onlar sosial şəbəkələrdə saatlarla vaxt keçirir, məkrli insanların təsiri altına düşür. Elə onların təkidi ilə də evdən qaçır, zərərli vərdişlərə meyil göstərirlər. Müxtəlif saytlara daxil olub, yaşlarına uyğun olmayan informasiya alırlar. Bu baxımdan valideynlər övladlarına qarşı maksimum diqqətli olmalı və onlarla daha çox vaxt keçirməyə çalışmalıdırlar.

## Valideyn-Övlad münasibətləri

Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəz¬edil¬məz¬dir. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından biri¬dir, valideynlərin isə ən mühüm vəzifələrindəndir.Lakin ailədə valideynlərin xeyirxah arzularından asılı ol¬ma¬ya-raq, həm yaxşı, həm də pis uşaq böyüyə bilir. Bunu nə ilə izah etmək olar? Ailədə hansı şəraitdə yaxşı, və ya pis uşaq forma¬la¬şır? Vali¬deynlər gənc nəslin tərbiyəsində nəyə xüsusi diqqət yetir-məli¬dirlər? Heç bir ailədə uşaq kortəbii şəkildə tərbiyə edilmir. Hər bir vali¬deyn uşaqlarının tərbiyəsində mütləq müəyyən pedaqoji məq-sədi rəhbər tutur. Həmin məqsəd nə dərəcədə doğrudur və ya səhv¬dir? Valideyn öz məqsədini necə həyata keçirir? Valideynlərin bir qisminin pedaqoji məqsədləri çox vaxt aydın xarakter daşımır, yəni dəqiq olmur. Bu uşaqların ailə tərbiyəsi işinə böyük ziyan vurur. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, valideynlərin – ata-ananın böyük əksəriyyətinin öz qarşısına qoyduqları pedaqoji məqsədlər dəqiqliyi ilə seçilir. Şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş mənada danışanda məhz bu cəhəti – ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri siste¬minin uşaq şəxsiyyətinə təsiri nəzərdə tutulur. Ailədə uşaqların sosial inkişaf şəraiti müxtəlif amillərlə şərt¬lənir, onlardan ikisini ayrıca qeyd etmək gərəkdir. Birinci tip amil¬lərə ailə münasibətləri – ata ilə ana, valideynlərlə uşaqlar, bacı ilə qardaş, və s. arasındakı münasibətlər daxildir. Ailənin maddi və¬ziy¬yəti, mənzil şəraiti, quruluşu ikinci tip amillər sırasına daxil edilir. İkinci tip amillər uşaqların tərbiyəsinə bu və ya digər dərəcə¬də təsir göstərir. Lakin psixoloji tədqiqatlardan görünür ki, onları gənc nəslin tərbiyəsində həlledici hesab etmək olmaz.Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diq¬qət

yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prose¬sində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz. Ailə münasibətləri, hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Yaş artdıqca uşaqlar həmin münasibətləri mə¬nimsəyir, nəticədə bu zəmində də oğlan və qızların xarakter əla- mətləri formalaşır. Valideynlər uşaqlardan söhbət düşəndə bir səslə deyirlər: "Əzi¬zim əzizdir, tərbiyəsi ondan da əzizdir”. Atalar sözünün hik¬məti aydındır. Uşaqların tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.

**Bu məsələyə hədislərdə də geniş yer verilmişdir.**

Əhalinin təhsil – mədəni səviyyəsinin köklü surətdə yüksəl¬məsi valideynlərin pedaqoji mədəniyyətinə də mühüm təsir gös¬tər¬miş¬dir. İxtisasından asılı olmayaraq onların böyük əksəriyyəti ailə tərbiyəsi problemləri üzrə qəzet və jurnallarda ardıcıl surətdə dərc olunan məqalələri maraqla oxuyur, televiziya və radio verilişlərində ölkəmizin, o cümlədən, respublikamızın tanınmış psixoloq, pedaqoq və həkimlərin söhbətlərinə diqqətlə qulaq asırlar.Son zamanlar ailə tərbiyəsi problemlərinə dair kitab və kitab¬ça¬lara da maraq artmışdır. Lakin bir çox ailələrdə, xüsusilə, gənc ailə¬lərdə uşaqların tərbiyəsi sahəsində ciddi nöqsanlara rast gəlirik. On¬lar, əlbəttə, təsadüfi xarakter daşıyır və müəyyən səbəblərlə bağlıdır.Son illər valideynlərin pedaqoji mədəniyyəti məsələlərini öy-rən¬mək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır. Alimlər müəy¬yən etmişlər ki, ata-anaların bir çoxunun ailə tərbiyəsi haqqındakı bilikləri çox ümumi, hətta bəzən səthi xarakter daşıyır.Belə valideynlər ailə tərbiyəsinin ən sadə məsələlərini həll et¬məkdə çətinlik çəkir, buna görə də uşaqla "ağlı necə kəsirsə, elə də rəftar edir”. Bu

zaman onlar "tərbiyə üsullarının" nəticələrini gör¬mür, özlərinin atalıq və analıq borcunu pedaqoji baxımdan düzgün qiymətləndirə bilmirlər. Onlara ailə pedaqogikasını kim öyrədir? Demək olar ki, heç kim. Ailə tərbiyəsi məsələlərini biz özümüz başqalarına–uşaq vaxtı ata və anamıza, sonralar isə qonum–qonşuya baxa-baxa çox vaxt onların səhvlərini təkrar edə-edə öyrənirik.Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri uyğun gəlmir. Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi, hətta bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Bəzən ata uşağa bir tərzdə, ana başqa cür, nənə isə tamamilə fərqli şəkildə təsir edir. Tərbiyəvi təsirlərin vəhdətdə olmaması uşaqların münasi¬bətlər sisteminin və qiymət meyarlarının formalaşması pro¬sesini çətinləşdirir.Ailənin tərbiyə vəzifələri və imkanları haqqında da yanlış tə¬səv¬vürlərə də az təsadüf olunmur. Bir çox ailələrdə əmək tərbi¬yə¬sinin əhəmiyyətsiz yer tutması, oyunlardan və birgə inkişafetdirici məş¬ğələlərin digər formalarından az istifadə edilməsi bununla bağlıdır. Gənc nəslin yaş, fərdi və cins xüsusiyyətlərinin, tələbat və imkanlarının hesaba alınması sahəsində də ciddi nöqsanlar vardır. Məsələn, psixoloqlar müəyyənləşdirmişlər ki, 5-6 yaşında uşaqlar dil öyrənməyə çox həssas olurlar, onlar ana dili ilə yanaşı, rus dilini, hətta üçüncü bir dili, tutaq ki, ingilis dilini öyrənə bilərlər. Lakin təəssüflə bildirməliyik ki, ailələr çox zaman bu imkandan səmərəli istifadə etmirlər.Valideynlər uşaqların təbii imkan və qabiliyyətlərinin vaxtın¬da üzə çıxarılması sahəsində də ciddi nöqsanlara yol verirlər. Onlar

çox zaman uşağı heç bir əsas olmadan incəsənət sahələrinə təhrik edir, texnika sahəsinə isə maraq yaratmırlar.

Bəzi ailələrdə özünü göstərən əşya xəstəliyi uşaqların mənəvi tərbiyəsinə xüsusilə mənfi təsir edir. Bəzi ata–analar, hətta uşaqlar üçün "peşə seçəndə” belə onun "maddi cəhətdən sərfəli” olmasına diq¬qət yetirirlər. Valideynlərin özlərinin maraqlarının məhdud ol¬ma¬sı uşaqların dünya, ailə, insan haqqında təsəvvürlərində əks olu¬nur. Ailə tərbiyəsinə quru nəsihətçilik halları da az ziyan vurmur. Uşaqlarda ünsiyyətin az və yeksənək olması da diqqəti cəlb edir. Bir çox hallarda isə valideynlərin uşaqlarla ünsiyyəti sadəcə olaraq adi güzəran söhbətinə çevrilir, səthi və məhdud xarakter daşıyır. Ailədə asudə vaxtın planlaşdırılması gün rejiminin düzgün təşkilindən çox asılıdır. Bu bəzi hallarda valideynin iradəsindən də asılı olmur. Həmin işdə məktəb, ictimai təşkilatlar ailəyə kömək et¬mə¬yə borcludurlar.

Müşahidələr göstərir ki, uşaqlar daha çox sərbəst olduqları-məktəbdən və ailədən kənar gəzib dolandıqları vaxt pozulurlar. Ya¬şa¬dığı məhəllənin, küçənin, yerləşdiyi ərazinin yaxınlığı, dostluq, yoldaşlıq etdiyi uşaqların əxlaqı həddi-buluğa çatmamışlara güclü təsir edir. Məhəllə uşaqları arasında nüfuzluları daha yüksək olur. Digər uşaqlar onun ətrafında toplaşır, onlarla məsləhətləşirlər. Hə¬min yeniyetmənin şəxsiyyətini müəyyənləşdirmək, sonra əməli təd¬bir görmək valideyn üçün zəruridir. Ailədə yeniyetmələrin hədsiz dərəcədə əzizlənməsi, onların hər cür tələblərinə güzəştə gedilməsi, bəzi hərəkət və dav¬ra¬nış¬larında onlara sərbəstik verilməsi çox vaxt pis nəticələnir. Belə ki, yeniyetmə məktəbdən yayınır, siqarət çəkməyə, içki içməyə, yaşlı¬lara məxsus oyunlara oynamağa, evə gec gəlməyə başlayır.

Ailə tərbiyəsinin çox mühüm bir xüsusiyyəti vardır: valideyn¬lərlə uşaqlar arasında münasibətlər şəxsi–emosional

xarakter daşı¬yır. Ana uşaqla "şirin” dillə danışır. Ata məhəbbəti də şirindir, öv¬ladların qəlbini riqqətə gətirir. Ailə tərbiyəsinin üstünlüyü və zərifliyi də məhz bundadır. Fiziki və psixoloji cəhətdən yaxşı inkişaf etmək üçün uşağa (ye¬ni¬yetmə və gəncə) hər şeydən əvvəl, valideyn məhəbbəti gə¬rək¬dir. O şərtlə ki, ata-ananın məhəbbəti uşağı inkişaf etdirməlidir. Onun nəinki bu günkü, həm də sabahkı xoşbəxtliyinin rəhni olma¬lıdır.

Müasir ailələrdə uşaqların əzizlənməsi müxtəlif formalarda özünü göstərir: onlar uşağı əmək qayğılarından azad edirlər, hamı onun canına and içir, adi sözünə belə əməl edir, gənci salmırlar, adi çətinlikləri belə onun üçün ata və ya ana aradan qaldırır... Vali- deynlər o zaman xəbər tuturlar ki, gəncin iddiası günü-gündən artır. O, ailənin işləri ilə maraqlanmır, yalnız özü haqda fikirləşir.

Tutduğu xoşagəlməz hərəkətlərə görə evdə heç bir cəza al¬ma¬yan, hətta valideynlərdən biri tərəfindən müdafiə edilən övladlar da vardır. Onlarda belə bir fikir yaranır: ” Madam ki, ona hər şeyə icazə verilir, mane olan, xətrinə dəyən yoxdur, o, nə istəsə edə, hətta qanunu da poza bilər”. Belə halda yeniyetməyə bəslənən qayğının həddi gözlənil- məlidir. Çox zaman uşaq həddindən artıq əzizləndiyi zaman "çətin” olur. Uşağı tez-tez, özü də yersiz tərifləmək, onun pis əməllərini alqışlamaq pedaqoji baxımdan düzgün deyil. Təəccüblü odur ki, bəzi valideynlər bu mətləbi başa düşsələr də, yenə də uşağı həd- dindən artıq qayğı ilə böyüdürlər, çünki bu çox asan yoldur. Uşağı əzizləməyə asandır, lakin onunla hər hansı bir əsəri müzakirə etmək, ona dil öyrətmək və s. isə çox çətindir.

Çünki bu valideyndən təkcə vaxt deyil, həm də bilik, baca- rıq, pedaqoji səriştə tələb edir. Biz hər hansı bir qayğıdan uşağı azad etməklə onu həyata hazırlamırıq, bahalı şey almaqla onun

başını qatırıq, əslində isə onu öz ümidinə buraxırıq, yəni tərbiyəsi qayğı- sına qalmırıq. Bir çox ailələrdə isə uşaqlara qarşı həddindən ziyadə tələb- karlıq göstərilir. Cəzanın ədalətli olmasına fikir verilmir. Bir çox hallarda cəza müstəsna dərəcədə sərt xarakter daşıyır. Uşağı qorxu- durlar, onda inamsızlıq hissi yaradırlar. Bəzi ailələrdə isə uşaq nadinclik etdikdə, sözə baxmadıqda, dərslərini öyrənmədikdə, xoşa- gəlməz iş tutduqda valideyn yerli-yersiz onu döyür, fiziki cəhətdən ona ziyanlıq yetirir. Bu isə uşağın düzgün tərbiyəsinə son dərəcə mənfi təsir göstərir, eyni zamanda, valideynlər uşağın gözündə nüfuzdan düşür. Fiziki cəzanı tətbiq edən valideyn uşağa təkcə fiziki deyil, həm də psixi zədə yetirir. Psixoloji tədqiqatlar göstərir ki, artıq yeniyetməlik dövründə uşaqların mənlik şüuru inkişaf edir, onlar özlərini bir şəxsiyyət kimi yüksək qiymətləndirir, öz ləyaqət və şərəflərini bütün aydınlığı ilə başa düşürlər. Buna görə də uşaqları qətiyyən döymək olmaz.

Uşağı döymək, onu təhqir etmək, ləyaqətini alçaltmaq onun şəxsiyyətini tapdalamaq deməkdir. Lakin bu o demək deyil ki, uşağı cəzalandırmaq olmaz. Cəzanın müxtəlif növləri vardır. Onların bir çoxundan ailə tərbiyəsində bu və ya digər dərəcədə istifadə olunur. Lakin cəza məqsəd deyil, vasitə olmalıdır. Həm də uşağı mütəmadi olaraq danlamaq, utandırmaq və ya hədələmək qadağandır.

Ailədə tez-tez bədən cəzasına məruz qalan uşaq özgələşir, kobud və qəzəbli olur. Fiziki cəza uşağın qəlbində zərifliyi və həs¬saslığı məhv edir. Düzgün tərbiyə xoş rəftar və tələbkarlıqla yanaşı gedir. Tələbkarlıq uşağın şəxsiyyətinə və ləyaqətinə təzyiq kimi deyil, ona etibar və hörmət zəminində olmalıdır.

Valideynlər ilk gündən öz uşaqlarında düzgün adət və vər- dişlər formalaşdıra biliblərsə, uşaqlar bircə sərt baxışdan

səhvlərini anlayacaq, yaxşı işi ilə "günahlarını" yumağa çalışacaqlar. Tutduğu əməllərə görə uşaqlarla elə söhbətlər aparılmalı, onlara elə təsir göstərilməlidir ki, o həmin pis hərəkətin onun üzvü olduğu, kollek- tivə, valideynlərə, ailənin şərəfinə, nüfuzuna, ümumiyyətlə, cəmiy- yətə nə kimi zərər vurduğunu şüurlu surətdə dərk etsin, öz hərəkət və davranışına düşüncəli nəzarət etsin, yaşlıların xeyirxah məslə- hətlərinə qulaq assın. Bunun üçün isə valideynlər, ilk növbədə, tərbiyənin məqsədini aydın təsəvvür etməlidirlər.

A.S.Makarenko göstərirdi ki, bəzi ailələrdə bu məsələyə daim etinasızlıqla yanaşırlar: valideynlər və uşaqlar sadəcə bir yerdə yaşayırlar, onlar ümid edirlər ki, hər şey öz-özünə qaydaya düşə¬cək¬dir. Belə valideynlərin nə aydın məqsədi, nə də müəyyən proqramı olur. Əlbəttə, belə hallarda tərbiyənin nəticəsi də həmişə təsadüfi olur və çox vaxt valideynlər sonra təəccüb edirlər ki, nə üçün onların maraqları korlanmışdır.

Tərbiyənin məqsədi müxtəlif formalarda – ideya-siyasi, əmək, əqli, mənəvi, estetik, ekoloji, hüquq və fiziki tərbiyə kimi həyata keçirilir. Bu sahədə ailənin öz imkanları, uşaq bağçalarının və məktəbin özünəməxsus xüsusiyyətləri vardır. Lakin buna baxmayaraq onlar vəhdət təşkil etməlidir.

Əmək, mənəvi və əqli tərbiyənin ayrı-ayrılıqda özünəməx¬sus məz¬munu, vəzifələri və üsulları vardır. Ailədə ata və ana onları yax¬şı bilməlidir. Lakin nəzərə alınmalıdır ki, şəxsiyyət hissə-hissə tər¬biyə olunmur. Onun formalaşması sistemli xarakter daşıyır. Tər¬bi¬¬yə¬nin yuxarıda göstərdiyimiz tərkib hissələri hamısı bir məqsədə-şəx¬siyyətin formalaşdırılması məqsədinə xidmət edir. Buna görə də ailə tərbiyəsində onların qarşılıqlı əlaqəsinə ciddi diqqət yetiril¬mə¬li¬dir.

Uşaqlarda ictimai mülkiyyətə, ətraf aləmə, təbiətə, insanlara qarşı münasibətdə özünü büruzə verən mənfi, sərt

münasibətlər vaxtında valideyni ciddi düşündürməlidir. Evdəki mebellərə qayğı göstərən uşaq avtobusdakı oturacaqları kəsir, məktəbdə pəncərə şüşəsini sındırır, ictimai yerdə tum çırtlayıb yeri zibilləyir və s.

Ana onun uşağının hərəkətlərinə irad tutan vətəndaşların, icti¬maiy¬yətin "acığına” oğluna tapşırır ki, onların dediklərinə qulaq as¬ma¬sın. Yaşlı adamın ayaq üstündə durduğu halda, uşağın avto- bus¬da və qatarda əyləşməsi, özünü görməzliyə vurması bizi narahat edir. Lakin valideyn özü buna şərait yaratdıqda vəziyyət daha dö¬zül¬¬məz olur. Burada valideyn, ilk növbədə, pedaqoji cəhətdən düz¬gün hərəkət etmir. İkincisi, o, öz övladına etinasızlıq, saymazlıq və la¬qeydlik kimi mənfi keyfiyyətlər aşılayır. İnsan anadan olduğu gün¬¬dən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşa¬yır.

Bunun üçün valideynlər uşağı ilk gündən elə tərbiyə etməlidir ki, onun hansı yaşındasa yenidən tərbiyəsinə ehtiyac qalmasın. O, cəmiyyət üçün faydalı adam kimi böyüsün, ailə, kollektiv, ümu¬miyyətlə, xalq üçün ağır yükə çevrilməsin. Böyüməkdə olan nəslin tələbat – motivasiya sahəsinin, əxlaqi şüurun formalaşmasına xüsusi diqqət yetirilməlidir. Uşaqda özü haqqında aydın təsəvvür yaradıl¬ma¬lıdır. Belə ki, o, özünün müsbət və mənfi keyfiyyətlərini düzgün qiymətləndirməyi öyrənməli və vaxtında özünütərbiyə ilə məşğul olmalıdır.

İndi isə uşaqlar barədə bəzi aforizmləri qeyd edərək qisaca izah etməyə çalışacam.

Övladlarınız arasında oğlanla qıza fərq qoymayın;fərq qoymaq lazım gəlsəydi,mən qızları üstün tutardım (Hz.Muhəmməd s.ə.v.) Təəssüflər olsun ki, keçmiş zamanlardan indiyə kimi ailədə oğlan övladına üstünlük verilir, qız uşaqlarının dünyaya gəlməsini istəmirlər.

Bildiyimiz kimi ərəblər öz dövründə qız uşaqlarını dünyaya gələr-gəlməz diri-diri torpağa gömərdilər. Məhəmməd Peyğəmbərimiz(s.ə.s) onların bu insanlıqdan kənar adət-ənənələrini aradan qaldırmağa başladı. Ona görə də, bu gözəl kəlamı dilə gətirdi ki, bəlkə insanlar öyüd nəsihət ala. Qadın anadır, analar səbəbkardır nəsillərin çoxalmasına. Qadın evdardır, ev işlərinin həyat yoldaşları işdə olarkən görən, övladlarının təlim-tərbiyəsi ilə məşğul olan odur, isti yemək hazırlayıb süfrəyə gətirən, evinin uşaqlarının təmizliyini təmin edən, həyat yoldaşının istirahət etməsi üçün xidmət göstərən odur. Bütün çətinliklərə baxmayaraq övladını 9 ay bətnində səbr və sevgiylə daşıyan, böyük əzabla (doğuş ağrısı) dünyaya gətirən odur. Bu gözəl müqəddəs vəzifələri yerinə yetirən qadını yaradan Allahdır. Allahın yaratdığına sırf cinsiyyət ayrı-seçkiliyinə görə zərər vurmaq isə ən böyük günahlardandır.

Namaz qılarkən onu uzatmaq istəyirəm;lakin kiçik bir uşağın ağlamasını eşidəndə namazımı uzatmıram,çünki onun ağlar səsini eşidən ananın nə hala düşdüyünü yaxşı bilirəm (Hz.Muhəmməd s.ə.v.)

## Ailədə ana prinsiplər

### Halal ruzi

Dinimizdə təmiz nəsillər yetişdirə bilmək üçün öhdəmizə düşən vəzifələrdən biri də halal ruzidir. Müsəlman bir kəs özünü haram loxmadan qorumalı olduğu kimi, ailəsinin də halal dolanışığını təmin etməli, həyat yoldaşı və övladlarının boğazından haram tikə keçməsinə imkan verməməli, bir sözlə onları qidalandırdığı ruzinin halal olmasına diqqət yetirməlidir. Haram yeyib-içən ananın südi ilə qidalanan uşaq gələcəkdə harama, xəbis əməllərə yol verə bilər.

### Gözəl ad

Adların insanın taleyinə, həyatına, onun aqibətinin necə olacağına tam bir şəkildə heç bir təsiri olmasa da, övladların gözəl adlarla adlandırmaq onların üzərimizdə olan haqqlarından biridir. Peyğəmbər (Allahın ona salavat və salamı olsun) buyurmuşdur: "Uşağa gözəl ad vermək, dinini öyrətmək və vaxtı gələndə evləndirmək, övladın atası üzərindəki haqlarındandır" (Əbu Nuaym). Həmçinin bir hədisində Allah Rəsulu (Allahın ona salavat və salamı olsun) uşaqlarımıza gözəl adlar verməyi bizə tövsiyyə edir:

"Qiyamət günündə atalarınızın adı ilə çağırılacaqsınız. Bu baxımdan uşaqlarınıza gözəl adlar qoymağınız məsləhətdir" (Əbu Davud, Ədəb, 61; İbn Hənbəl, V, 194).

## Uşaqlara sevgi

Uşaqların mayası sevgi ilə yoğrulmalı və onlar sevgi və hörmət dolu bir mühitdə tərbiyə edilməlidirlər. Bu, onların qəlbinin yumşaq qalmasına, cəmiyyətin digər üzvlərinə qarşı da hörmət və sevgi ilə yanaşmalarına və böyüdükdə bunu öz övladlarına da təlqin etmələrinə səbəb olar. Hörmət edilməyən uşaqdan hörmət, sevgi göstərilməyən uşaqdan da sevgi gözləmək qəlizdir. Sevgi, mərhəmət və şəfqət dini olan İslamda övlada sevgi rəhmətdən sayılır. Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın ona salavat və salamı olsun) Həsən ibn Əlini (Allah ondan razı olsun) öpdü. Bu vaxt Əqra ibn Habis (Allah ondan razı olsun) onun yanında otur¬muş¬du. Əqra (Allah ondan razı olsun) dedi: “Mənim on övladım var, onlardan heç birini öp¬məmişəm”. Peyğəmbər (Allahın ona salavat və salamı olsun) ona baxıb dedi: “Rəhm etməyən kimsəyə rəhm edilməz”.

Səhih mənbələrə görə, Muhamməd Peyğəmbər (Allahın ona salavat və salamı olsun) uşaqların əlindən tutduqda, uşaqlar özləri onun əlini buraxmadıqca onların əlini buraxmaz

Yalan danışmaq islamda böyük günahlardan sayılır. Bəzi valideynlər uşaqlarını yola gətirmək üçün müxtəlif üsullara, o cümlədən yalana əl atır və bunu “günahsız” yalan hesab edirlər. Lakin, kiçik yaşlardan uşaqları aldatmaq və onlara yalanı təlqin etmək onların yalançı və riyakar olmasına gətirib çıxara bilər. Çünki, övlad üçün ən gözəl nümunə valideynlərdir. Uşaq evin aynası olduğu üçün, yalanları da əks etdirir. Abdullah ibn Amrın (Allah ondan razı olsun) rəvayət etdiyi bir hədisdə deyilir: “Hələ mən uşaq ikən Peyğəmbər (Allahın ona salavat və salamı olsun) bizim evimizə gəlmişdi. Mən bayırda oynayırdım və anam məni səsləyərək “Ay Abdullah, bura gəl sənə bir şey verəcəm” – dedi. Allahın

Rəsulu (Allahın ona salavat və salamı olsun) soruşdu: "Ona nə vermək istəyirsən ki? Anam dedi: "Xurma." O (Allahın ona salavat və salamı olsun), dedi: "Əgər ona bir şey vermək niyyətin olmasa idi, bu əməlin sənin əleyhinə bir yalan kimi yazılacaq idi" (Əhməd, Əbi Davud rəvayət etmişdir).

Bəzən özümüz də bunun fərqinə varmadan səbəbli-səbəbsiz uşaqlarımızı hər şeydə qınayır, hər xırda məsələ ucbatından onlara irad tutur, yerli-yersiz danlayırıq. Bu cür davranışımızın nəticəsi olaraq övladlarımız çoxsaylı komplekslərdən əziyyət çəkə, özünəinam hissləri zəifləyə bilər. Ənəs (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullaha (Allahın ona salavat və salamı olsun) 10 il xidmət etdim. Bir dəfə də olsun mənə "uf" demədi, üstümə qışqırmadı. Etdiyim bir işdən ötrü "nə üçün onu etdin", etmədiyim bir işdən ötrü də "nə üçün bu işi etmədin" deyə demədi (Başqa rəvayətdə: Əgər xanımlarından biri məni qınamış olsaydı ona: "Onu buraxın. Çünkü nə təqdir edilmişsə o, da olur" deyərdi" (Buxari, Müslim, Əbu Davud,Beyhəqi).

Ailə kiçik bir cəmiyyətdir. Bu kiçik cəmiyyətin kiçik üzvləri arasında bərabərliyə riayət etmək, onların qəlbində paxıllıq və qısqanclıq kimi hisslərin meydana gəlməsinin qarşısını alar. Haqqları qorunmuş uşaq başqalarının haqqını qoruyar, paylaşmağı və yardımlaşmağı sevər.

Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) səhabələrindən olan Numan ibn Bəşir deyir ki, "Atam öz malının bir hissəsini mənə bağışladı. Anam Amrə bint Rəvahə isə dedi: Sən bu işdə Peyğəmbərdən (Allahın ona salavat və salamı olsun) məsləhət almasan mən razılıq verən deyiləm! Atam mənə verdiyi sədəqəyə Peyğəmbəri (Ona və ailəsinə Allahın salavatı və salamı olsun) şahid tutmaq üçün onun yanına getdi. Peyğəmbər (Allahın ona salavat və salamı olsun) ona dedi: "Sən bütün övladlarına belə hədiyyə etmisənmi?"

Atam dedi: Xeyr. O dedi: "Allahdan qorxun və övladlarınız arasında ədalətli (mövqedə) olun". Atam qayıdıb həmin sədəqəni geri götürdü. Digər rəvayətdə isə onun belə cavab verdiyi deyilir: "Elə isə məni bu işdə şahid tutma. Çünki mən haqsızlığa şahidlik etmirəm". Digər rəvayətdə isə belə cavab verdiyi nəql olunur: "Sən istərdinmi ki, onlar sənə qarşı xoş münasibətdə bərabər olsunlar?" Atam dedi: Bəli. O dedi: "Elə isə belə etmə" (Buxari, Müslim, Əbu Davud). Bu məqalədə, insan əxlaqını kamilliyə doğru aparan İslam dinində tərbiyə mövzusunda mövcud olan çoxsaylı ibrətlərdən sadəcə bəziləri qeyd olunub. Uca Allah bizə əməlisaleh, əxlaqlı övladlar yetişdirməyi nəsib etsin! İmam Sadiq (ə) buyurur: Uşaqlar dərketmə həddinə çatan kimi onlara hədislər öyrət. Həzrəti Əli (ə)-ın məhəbbətini onların qəlbinə salmaq, onlara Quran öyrətmək, onlarla ədəb-ərkanla rəftar etmək və onları yaxşı adlarla çağırmaq lazımdır. (Kafi, 6-cı cild, səh.47)

**Nəticə:**

Hədislərdə də deyildiyi kimi, "nə qədər ki, müxaliflər və əcnəbilər övladlarınızı yollarından azdırmayıb, onlara İslami məsələləri öyrədin."

Uşaqlıq çağlarında övladın şuluq və şıltaq olması böyüyəndə onun səbirli və bilikli olacağının əlamətidir. Uşaqla kobut rəftar etmək və ağır işləri uşağa tapşırmaq düzgün deyil. Hər vaxt övladına bir şey vədə verdin, ona əməl etməlisən. Bunları da İmam Sadiq buyurur.

Həmişə uşağı mehribanlıqla öpmək savab işlərdəndir. Rəvayətdə nəql olunub ki, hər kəs öz övladını əzizləyib öpərsə, Allah ona savab yazar. Övladını sevindir, ki Qiyamət günü Allah-təala səni sevindirsin. Uşaqla uşaqlar kimi oyna. Heç vaxt övladlar arasında fərq qoymayın. Yalnız o vaxt bu işi evdə edə bilərsiniz ki, o uşaq elmi, əməli və əxlaqi ilə fərqlənsin. Imam Sadiq (ə) buyurur: "Elə ki, uşaq üç yaşına çatdı, ona yeddi dəfə " La ilahə illəllah" kəlməsini öyrədərlər. Uşağın üç yaş yeddi ay iyirmi günlüyündə ona yeddi dəfə "Muhəmmədin Rəsulullah" deməyi təlim verərlər. Dörd yaşı tamam olanda isə ona yeddi dəfə "Səlləllahu əla Muhəmmədin və alihi" kəlməsini öyrətmək lazımdır. Beş yaşı tamam olanda onu Allaha səcdə etməyə vadar edərlər. Altı yaşı tamam olanda ona namaz öyrədib namaza vadar edərlər. Yeddi yaşında ona dəstəmaz almaq və namaz qılmağı təlim edərlər. Doqquz yaşında isə bunların hamısını ona kamil şəkildə öyrətmək lazımdır. Əgər görsən dəstəmaz və namazı tərk edir, onu orta səviyyədə cəzalandırmaq lazımdır. O, bu işləri öyrənsə Allah-təala onun ata və anasını bağışlar." (Məkarimül-əxlaq. 1-ci cild, səh.447)

Əgər uşağın əl və üzü yatmazdan qabaq çirkli olarsa, onu yumalısan, çünki şeytan yuxu əsnasında onları iyləyib qorxuda bilər, əməlləri yazan mələklər də əziyyət çəkərlər.

## Ədəbiyyat

1. Qurani-kərim
2. Məhəmməd Təqi Fəlsəfi, «Uşaq irsiyyət və tərbiyə baxımından», 18-ci çap, 1367-cı hicri-şəmsi ili, Tehran, İslam maarifi nəşriyyatı heyəti
3. Məhəmməd Məhəmmədi Reyşəhri, «Mizanül-hikmət», Darül-hikmə, Qum, 1388
4. Möhsin Feyz Kaşaninin «Məhəccətül-bəyza», Naşiriz, Tarixsiz
5. Səhihi-Buxari, Məhəmməd ibn İsmayıl Buxari, tədqiq: Mustafa Dib əl-Bəğa, Beyrut, Dari-ibn Kəsir, 1410 hicri-qəməri, dördünçü çap.
6. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
7. Məkarimül-əxlaq və məaliha, Fəzl ibn Həsən Təbresi, tədqiq: Əla Ali Cəfər, Qum, Nəşrül-islami müəssisəsi, 1414 hicri-qəməri, birinci çap.

# İslamın yayıldığı ilkin çağlar

*Şəmsi Məhərromov*[1]

## Abstrakt

Peyğəmbərin (s) doğum ili dəqiq mə’lum deyildir. İbni Hişamın və başqalarının yazdığına görə o, Amul-fildə (fil ilində) yə’ni Əbrəhə fillərlə Kə’bəni viran etməyə gələn ildə anadan olmuşdur. O hadisəni öz gözləri ilə görənlərə əgər bu tarix aydın olsa da belə, başqaları üçün mə’lum deyildir, çünki hələ də o hadisənin hansı ildə baş verməsi müəyyən edilməmişdir. Tarixçilər Peyğəmbərin vəfatını 632-ci miladi ilinə aid edirlər. Peyğəmbər dünyadan köçəndə 63 yaşı varmış, deməli onun anadan olma tarixi 569-570-ci illərə təsadüf edir.

Tarixçilər onun həyatı barəsində müxtəlif hekayələr nəql etmişlər. Atası Abdullah bəni Zöhrə tayfasının başçısı Vəhəbin qızı Aminə ilə ailə həyatı qurduqdan bir neçə ay sonra, ticarət səfərlərinin birində, Şamdan geri dönərkən Yəsrib şəhərində vəfat etmişdir. Bə’zi tarixçilər isə onun, Həzrətin (s) dünyaya gəlişindən bir neçə ay sonra vəfat etdiyini yazmışlar. Həzrət Peyğəmbər (s) hələ körpə ikən (südəmər vaxtı) bəni Sə’d qəbiləsindən olan Həlimə adlı qadının yanında olan zaman anası dünyadan köçmüş və babası Əbdül Müttəlib onun himayəsini öz üzərinə götürmüşdür. Səkkiz yaşında isə Əbdül Müttəlib dünyadan köçür və ondan sonra əmisi Əbu Talibin qəyyumluğu altına düşür.

**Açar kəlmələr:** İslam, tarix, zühur, təbliğ

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## XƏDİCƏ İLƏ EVLƏNMƏSİ

Həzrət Məhəmmməd (s) iyirmi beş yaşında ikən əmisi Əbu Talib ona belə dedi: "Qüreyş qəbiləsinin Şama gedən ticarət karvanı hazırdır. Xuvəylidin qızı Xədicə sənin qohumlarına pul verib ki, ticarət etsinlər və gəlirə də şərik olsunlar. Əgər istəsən səni də qəbul edər." Sonradan o Həzrət, Xədicə ilə bu barədə söhbət etdi və o da bu təklifi qəbul etdi. İbni İshaqın yazdığına görə Xədicə Həzrət Məhəmmədin (s) əmanətdar və şərəfli bir insan olduğunu bilərək ona xəbər göndərir ki, əgər bu ticarət səfərində iştirak etməyə razılıq versən, sənə düşən payı artıqlaması ilə verəcəyəm.

Bu ticarət səfərindən Xədicə çoxlu sayda gəlir əldə etdi, çünki şərəfli, əmanətdar, düz danışan və düzgünlükdə məşhur olan bir şəxsi bu ticarətə yollamışdı. Elə bu ticarət səfərindən sonra da Xədicə Həzrət Məhəmmədlə (s) ailə həyatı qurdu. Bu zaman Həzrət Məhəmmədin (s) iyirmi beş yaşı, deyilənlərə görə isə Xədicənin 40 yaşı varmış. Ancaq onun dünyaya gətirdiyi övladlara nəzər saldıqda isə, təxminən demək olar ki, onun yaşı qırxdan aşağı olmuşdur. Ərəb tarixçiləri bəlkə də 40 rəqəmini mükəmməl rəqəm olduğundan seçiblər.

## "QARA DAŞ"IN YERİNƏ QOYULMASI

Peyğəmbərliyə yetişməzdən əvvəl Həzrət Məhəmmədi (s) Məkkə əhalisinin gözündə uca edən mühüm hadisələrdən biri də qara daşın yerinə qoyulması hadisəsi olmuşdur. Bildiyiniz kimi, Kə'bə evi cahiliyyət dövründə də ərəblər tərəfindən möhtərəm sayılırdı. Bir dəfə sel Kə'bə evinin içərisinə axaraq divarlarını uçurmuşdu. Qüreyş qəbiləsi divarları yenidən tikdikdən sonra qara daşın yerinə qoyulması məsələsində

qəbilələr arasında ixtilaf düşür. Hər qəbilənin rəisi bu şərafətli işi öz üzərinə götürmək istəyir. Nəhayətdə ixtilaf özünün ən yüksək zirvəsinə çatır. Belə ki, hər qəbilənin rəisi içi qanla dolu olan bir qab gətirərək onun içinə əllərini salırlar. Bu and içmənin mə’nası o deməkdir ki, onlar qalib müəyyən edilənə qədər vuruşmalıdırlar. Ən nəhayətdə razılıq əldə etdilər ki, hər kim Bəni Şəybə qapısından məscidə daxil olsa onu hakim tə’yin etsinlər və o, nə hökm etsə ona əməl etsinlər. Məscidə birincə daxil olan şəxs Həzrət Məhəmməd (s) oldu. Qüreyş qəbiləsinin ağsaqqalları dedilər ki, o əmanətdar (əmin) adamdır, hər nə desə qəbul edəcəyik. Sonradan əhvalatı ona söylədilər. Həzrət Məhəmməd (s) buyurdu: Yerə parça sərin. Onlar bu işi gördükdən sonra Həzrət qara daşı parçanın ortasına qoyub yenidən dedi: Hər qəbilənin rəisi parçanın bir ucundan yapışaraq qaldırsın. Bunu etdikdən sonra özü qara daşı yerinə yerləşdirdi. Bu hakimliyi ilə o, böyük bir qan tökülməsinin qarşısını almış oldu.

## PEYĞƏMBƏRLİK

Həzrət Məhəmməd (s) hələ peyğəmbərliyə yetişməzdən əvvəl Ərəbistan əhalisinin dağınıq və pis olan vəziyyətindən narahatlıq hissi keçirirdi. Xüsusilə onların bütpərəst olması başqa şeylərə nisbətdə onu daha çox narahat edirdi. Çünki qabaqda da qeyd etdik ki, xristian rahibi Bəhira onu Lat və Uzzaya and verərkən Həzrət Məhəmməd (s) ona deyir ki, onların adını çəkmə, çünki mənim xoşuma gəlməyən ən pis şeylər bu bütlərdir. Bəhira onu sonradan Allaha and vermişdi.

Həzrət Məhəmməd (s) peyğəmbərliyə yetişməzdən bir az əvvəl əhalidən uzaq gəzərək yeganə Allaha ibadət edərdi. İldə bir ay Həra dağına çəkilərək ibadətlə məşğul olardı. Bu müddət ərzində onun yanına gələn ac-yalavacları yedirdərdi.

İbadət müddəti başa çatdıqdan sonra Məkkəyə dönər, Kə'bə evini yeddi dəfə təvaf edib sonradan evə gedərdi. Həra dağına çəkildiyi illərdən birində peyğəmbərliyə çatır. Həzrət Məhəmməd (s) belə deyir: Cəbrayıl mənim yanıma gəlib dedi: Oxu! Dedim oxumaq bilmirəm. Yenidən dedi: Oxu! Dedim nə oxuyum?

Dedi:

(Ya Peyğəmbər! Qur'ani-kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbin adı ilə (bismillah deyərək) oxu!

O Həzrət peyğəmbərliyə yetişən dövrdə 40 yaşı varmış.

Peyğəmbər (s) ilk dəfə ona nazil olan “Ələq” surəsinin əvvəl ayələrini aldıqdan sonra öz sığınacağını tərk edərək Məkkəyə gəldi. O gecə bənzəri olmayan bir hadisədən sonra təbiidir ki, Peyğəmbər hər işdən qabaq bir başa evə getmişdi. Bu zaman onun evində üç nəfər yaşayırdı; şərəfli həyat yoldaşı olan Xədicə, əmisi oğlu Əli ibni Əbi Talib və Zeyd ibni Haris. Təbiidir ki, kişilər arasında Əli (ə), qadınlar arasında isə Xədicə ilk əvvəl Peyğəmbərə iman gətirmişlər. Nəzərə çarpacaq dərəcədə aydındır ki, bu mövzuda hansısa mübahisə və rəvayətlərin tədqiqinə lüzum görünmür. Bunda əlavə Əliyə (ə) bir çox xütbələrində bu mövzuya açıq-aydın işarə edərək deyir: “Peyğəmbərə (s) ilk iman gətirən şəxs mən olmuşam.” Bunlardan sonra kimin ilk növbədə müsəlman olması barədə Peyğəmbərin (s) həyatı barədə yazan tarixçilər arasında ixtilaf mövcuddur. Və təbiidir ki, bu ixtilaf səhabə dövründən sonra, yə'ni tabein dövrünün ilk başlanğıcında meydana çıxmışdı. Hər bir ailə çalışırdı ki, öz müsəlmanlığını İslamın ilk çağları ilə əlaqələndirərək bu mə'nəvi məziyyətdən istifadə etsin. Bundan əlavə, başqa hədəflər də güdülürdü ki, tarixlə tanışılığı

olanlara bu məsələ aydındır. Yazılana görə Həzrət Məhəmməd (s) peyğəmbərliyə yetişdikdən sonra, üç il müddətində onun haqqa də’vəti gizlin olmuşdur. Ancaq bə’ziləri Qur’an ayələrini sıra qayadası ilə nazil olmasına əsaslanaraq ümumi də’vətin az müddətdə olduğunu qeyd etmişlər.

İlk əvvəl Peyğəmbər (s) xalqı bütlərə ibadət etməkdən çəkindirib, yeganə Allaha ibadət etməyə də’vət edərdi. İlk başlanğıcda namazlar iki rəkət olub. Sonralar isə səfərdə olmayanlar üçün dörd rəkət, səfərdə olanlar üçün isə iki rəkət namaz qılmaq vacib olmuşdur. Müsəlmanlar Allaha ibadət etmək və namaz qılmaq üçün camaatın gözündən uzaq yerlərə – məsələn dağlara və ya camaatın çox az gəlib-getdiyi yerlərə çəkilərdilər. Get-gedə müsəlmançılıq Məkkədə yayılmağa başladı.

Peyğəmbərlik dövrünün üç ili başa çatdıqdan sonra Allah-təala ona əmr edir ki, xalqı aşkar şəkildə yeganə Allaha tərəf də’vət etsin.

Və ən yaxın adamlarını qorxut! (İlk növbədə ən yaxın qohumların olan Haşim və Müttəlib oğullarını yalnız Allaha ibadət etməyə çağır və əks təqdirdə müdhiş bir əzaba düçar olacaqlarını xatırlat!)

Sənə tabe olan mö’minləri qanadın altına al! (Onlarla mehriban davran, nəzakətlə rəftar et, köməklərinə çat!)

Əgər (yaxın qohumların) sənə qarşı çıxsalar, onlara belə de: “Şübhəsiz ki, mən sizin əməllərinizdən uzağam!”

İbni İshaqın yazdığına görə bu ayələr nazil olduqdan sonra Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Ey Əli, Allah mənə buyurub ki, öz yaxın qohumlarımı Ona ibadət etməyə də’vət edəm; bir

qoyun kəs, bir qədər çörək və bir kasa süd hazırla. Əli (ə) bütün deyilənləri hazırladı. Həmin gün Əbdül-Müttəlib övladlarından qırx nəfəri məclisə toplaşdılar. Hamısı yeyib doyduqdan sonra sevimli Peyğəmbər (s) söhbətə başlamaq istədi. Əbu Ləhəb dedi: "O, sizi sehirləmişdir." Bu minvalla məclis dağıldı. Peyğəmbər (s) səhəri gün onları yenidən toplayaraq dedi: "Ey Əbdül-Müttəlib övladları güman etmirəm ərəblərdən biri mənim sizə gətirdiyim şeydən gözəl bir şey öz qəbiləsi üçün gətirmiş olsun. Mən sizə həm dünyanı, həm də axirəti gətirmişəm.

İbni İshaqdan nəql edən Yunis ibni Bəkir (bilmirəm) bilərəkdən, ya bilməyərəkdən Peyğəmbərin sözlərini ancaq buracan nəql etmiş və ardını yazmamışdır. Bukai vasitəsi ilə ibni İshaqdan nəql edən ibni Hişam yalnız ayəni yazmaqla kifayətlənmiş və başqa bir şey artırmamışdır.

Məşhur tarixçi və mö'təbər kitab sahibi olan Təbəri belə yazır: Peyğəmbər (s) öz də'vətini yaxın qohumlarına çatdırdıqdan sonra belə dedi: "İndi kimdir mənə bu işdə yardımçı olan, belə ki, mənim qardaşım, vəsim və məndən sonra sizin aranızda xəlifəm olsun?" Hamı susdu və Əli (ə) dedi: "Ey Allahın elçisi, o şəxs mənəm." Peyğəmbər (s) buyurdu: "Bu sizin aranızda mənim vəsim və xəlifəmdir, onu eşidin və əmrinə tabe olun."

Bu rəvayəti başqa tarixçilər və yazarlar da həmin məzmunda nəql etmişlər və bu İslami mənbələrdə məşhur hədislərdən sayılır.

Həmçinin Təbəri ibni Abbasdan rəvayət edir ki, bir gün Peyğəmbər (s) Səfa dağına gedərək qüreyşliləri yanına çağıraraq belə demişdir: "Əgər mən sizə desəm ki, düşmən

sizə basqın edəcək, mənim sözümə inanarsınızmı?" Dedilər: "Bəli." Dedi: "Mən sizi böyük bir əzabdan xəbərdar etmək istəyirəm." Əbu Ləhəb dedi: "Elə buna görə bizi bura çağırıbsan." "Təbbət" surəsi də Əbu Ləhəbi məzəmmət etmək üçün nazil olmuşdur.

İbni Hişam yazır: Peyğəmbər (s) qüreyşliləri Allaha ibadət etməyə də'vət etdikdə ona e'tiraz etmədilər. Onların bütlərinə tə'nə etdikdən sonra düşmənçilik meydana çıxdı.

Qur'ani-kərim bu düşmənçiliyə işarə edərək buyurur:

(Ya Məhəmməd!) Kafir olanlar səni gördükləri zaman ancaq məsxərəyə qoyaraq (bir-birinə); "Sizin tanrılarınızı tə'nə edən budurmu?" – deyərlər. Halbuki onlar, məhz Rəhman Allahın öyüd-nəsihətini (Qur'anı) inkar edirlər. (Ənbiya 36).

Müsəlmanların sayı günbəgün artıqca Qüreyş başçılarının nigarançılığı daha da çoxalırdı. Onlar Əbu Talibin yanına gedərək, ondan qardaşı oğlunun başladığı bu də'vətin qarşısını almağı istədilər.

Bir gün ona dedilər ki, sən Həzrət Məhəmmədi (s) bizə təslim et, biz də onun əvəzində Əmmarə ibni Vəlidi sizə verək (onların nəzərində bu şəxs ağıllı bir cavan idi). Əbu Talib dedi: Oğlumu sizə verim ki, öldürəsiniz, əvəzində sizin övladınızı böyüdüm? Çox ağır təklifdir.

Diqqət yetirmək lazımdır görəsən camaat nəyə görə Peyğəmbərin (s) əleyhinə idilər? Demək olar ki, Əmr ibni Hişam (Əbu Cəhl), Əbu Süfyan ibni Hərb, Vəlid ibni Müğəyrə ərəblərin bütlərinə və onları düzəldən sənətkarlara ehtiram bəsləyirdilər. Peyğəmbərin (s) rəis olmasından da qorxuları yox idi, çünki onlar o Həzrətin rəhbərliyini qəbul etməyə razı

idilər. Sevimli Peyğəmbərin təbliği ondan ibarət idi ki, bütlərə ibadət edib onları müqəddəs cilvələndirməkdən əl çəksinlər. Yeri, göyü, sizi və bütün aləmi yaradan yeganə Allaha tərəf üz döndərmələrini istəyirdi. Özü barəsində belə deyirdi: Mən Allah tərəfindən göndərilmişəm ki, sizi zülmətdən, nadanlıqdan düzgün və aydın dinə tərəf çıxaram. Nə böyüklük, nə də hakimiyyət iddiasında idi; əgər belə bir şey istəsəydi, onun istəyini dərhal yerinə yetirər və bütün əmrlərinə itaət edərdilər. Ancaq o deyirdi: "Əgər günəşi sağ əlimə, ayı isə sol ovcuma qoysanız belə, öz risalətimdən əl çəkən deyiləm. Mən sizdən bir kəlmənin deyilməsini istəyirəm – "Allah təkdir" və bu bütlər sizin əlinizin məhsuludur və heç bir bacarığa malik deyillər." Burada mühüm bir sual meydana çıxır; Nəyə görə onlar Peyğəmbərin də'vətini qəbul etmirdilər? Mümkündür deyək, onlar ulu əcdadlarının dinindən əl çəkib yeni dini qəbul etməkdə çətinlik çəkirdilər.

Belə bir fərziyyəni qapalı mühitdə yaşayan və elə oradaca dünyadan köçən, xarici mühitlə heç bir əlaqəsi olmayan əhaliyə bəlkə də şamil etmək olar, ancaq dünya görmüş, Ərəbistan yarımadasından xaric olan mühitlə əlaqəli olan adam barəsində necə?!

Hədəfi mal-dövlət toplamaq olan və bu yolda hər bir şeyə hazır olan şəxs üçün heç bir fərqi yoxdur ki, xalq günəşə ibadət etsin ya aya, yaxud Allaha və ya istər Kə'bə evinin başına dolansınlar və ya Lat və Uzzaya ehtiram etsinlər.

Deməli bu lovğalar bütlərin və bütxanaların dağılmasından qorxmurdular, çünki onların əslində heç bütə də etiqadları yox idi. Bütpərəstlik onların əlində nadan xalqa hakimiyyət etmək üçün bir alətə çevrilmişdi. Bəs nədən qorxurdular? Əgər Peyğəmbərin də'vəti yalnız "La ilahə illəllah" kəlməsini

deməklə sona yetirdisə, bunlar nədən qorxurdular. Məkkənin fəthindən sonra onların sonrakı nəsilləri gördüyü işi niyə yerinə yetirmirdilər? Dildə deyirdilər ki, Allah təkdir, sən də Onun Peyğəmbərisən, ancaq gizlində yeni dindən öz mənfəətləri üçün istifadə edirdilər. Burada gərək çox tələsməyək. Düzdür, ilk günlərdə Peyğəmbər onlardan Allahın təkliyini təsdiq etmələrini istəyirdi, ancaq bunun ardınca digər ayələr nazil olurdu. Lovğaları qorxudan və gələcəkləri barəsində onları təşvişə salan o ayələr idi. Şübhəsiz ki, siz Qur’ani-kərimin 29-30-cu cüz’ündə yerləşmiş Məkkədə nazil olan o ayələri dəfələrlə oxumusunuz. İcazə verin yenidən o ayələrin bə’zisini nəzərinizə çatdırıb, onların əsl mahiyyətinə diqqət yetirək:

O kimsə mal yığıb onu dönə-dönə sayar (çoxaldar).

Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır.

Xeyr! (heç də onun güman etdiyi kimi deyildir). O, mütləq (Cəhənnəmin alt mərtəbələrindən biri olan) Hütəməyə atılacaqdır!

Bilirsənmi Hütəmə nədir?

O, Allahın yanar odudur.

Elə bir od ki, ürəkləri yandırıb, yaxar.

(Əl-Huməzə 2-7).

Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslər ki, özləri xalqdan bir şey aldıqları zaman onu tam ölçüb alar.

Xalq üçün bir şey ölçdükdə və ya çəkdikdə isə onu əskildələr.

Məgər onlar (öləndən sonra) diriləcəklərini düşünmürlər?

Özü də dəhşətli bir gündə?!

(Ya Peyğəmbər!) Məni öz yaratdığım kimsə ilə tək burax! (Vəlid ibni Müğeyrə kimi kafirin cəzasını yalnız Mənə tapşır!)

Mən ona bollu mal-dövlət əta etdim;

Yanında hazır duran oğullar (verdim);

Ona (hər şeyi) artıqlaması ilə müyəssər etdim.

(Sərvət və mənsəbi ayağının altına döşədim).

(Bütün bunlardan) sonra yenə də (var-dövlətini) artırmağımı istəyir.

Xeyr, (bu ola bilməz). Çünki o, ayələrimizə qarşı inadkar oldu. (Muddəssir, 11-16).

(Allah dərgahından belə bir nida gələcəkdir:)

“Onu tutub qandallayın!

Sonra da Cəhənnəmə atın!

Daha sonra onu yetmiş arşın uzunluğunda zəncirlə bağlayın!

Çünki o, böyük olan Allaha inanmırdı.

O (özü zəkat vermir, acizə, kimsəsizə kömək etmir, xalqda da) yoxsulu yedirtməyə rəğbət oyatmırdı. (Haqqə, 30-34).

Lakin o, əqəbəni (sərt yoxuşu, maneəni) keçə bilmədi (özünə verilən bu qədər ne’mətlərə şükr etmədi).

(Ya Peyğəmbər!) Bilirsənmi, əqəbə nədir?!

O bir kölə azad etməkdir;

Yaxud ağalıq zamanı (günündə) yemək verməkdir – qohumluq əlaqəsi çatan bir yetimə.

Və ya (taqətsizlikdən) torpağa sərilmiş bir miskinə! (Əl-Bələd, 11-16).

Elə isə yetimə zülm etmə!

Dilənçini də (qapından) qovma! (Əz-Zuha, 9-10)

(Ey insanlar!) Mən sizi alovlanan bir atəşlə qorxutdum.

Ora ancaq azqın kafir daxil olar.

O kimsə ki, (haqqı) yalan sayar, (imandan) üz döndərər!

Allahdan qorxub pis əməllərdən çəkinərsə, ondan uzaqlaşdırarlar (nicat tapar).

O kimsə ki, malını (Allah yolunda) verib (günahlardan) təmizlənər. (Əl-Leyl, 14-18).

Qüreyşin dövlətliləri və sələmlə pul verənləri bu hədələyici və ürək titrədən sözləri asanlıqla qəbul edə bilmirdilər. Sələmdən əldə olunan gəlirdən əl çəkmək, qul azad etmək,

yetim malına toxunmamaq, əlsiz-ayaqsız (zəif) qohumları nəvaziş etmək, başqaları müqabilində lovğalıq etməmək, özündən aşağı təbəqə ilə bir yerdə əyləşmək və sair bu kimi dünyəvi məziyyətlərdən əl çəkmək onlar üçün çox ağır idi. Bu ayələri eşitdikdə onların ürəkləri parçalanırdı və o ayələri nə özləri, nə də başqalarının eşitməsini istəmirdilər. Ancaq zəif təbəqənin nümayəndələri ürəklənir, imanları isə möhkəmlənirdi. İndi isə ikinci dəstəyə nəzər salaq. Əgər müsəlmanların əsas özəyini yalnız qullar, fəhlələr və muzdurlar təşkil etsəydi, birinci dəstə üçün elə baha başa gəlməzdi. Onları işdən qovmaq və əzab verməklə susdurmaq olardı, lakin İslam yalnız bu üç dəstə ilə məhdudlaşmırdı. Müsəlmançılıq təkəbbürlü ailələrə sirayət edərək günbəgün çoxalmaqda idi. Beləliklə, lovğalar dəstəsi iki qorxu ilə üzləşmişdilər; var-dövlətin əldən çıxması, bir də yaxın qohum və qonşularla üzləşmə qorxusu.

Məkkə əhalisinin ictimai tərkibini tədqiq etdikdə mə'lum olur ki, İslam Qüreyşin bir çox tayfasına nüfuz etmişdi. Həbəşəyə hicrət etmişlərin siyahısını oxuduqda – İbni Hişam onları "Sirə" də toplamışdır. Bəni Haşimdən başqa aşağıdakı sülalələrin də adına rast gəlirik: Bəni Əbd Şəms, bəni Nofəl, bəni Əsəd ibni Əbdül-Üzza, bəni Əbdüd-dar, bəni Qusəyy, bəni Zuhrə, Huzeyl, Bəhra, bəni Təyyim ibni Murrə, bəni Məxzum, bəni Cuməh, bəni Səhm ibni Əmr, bəni Ədiy ibni Kə'b, bəni Amir ibni Luvəyy və bəni Haris ibni Fihr.

Bunların çoxu öz həyat yoldaşları ilə birlikdə getmişdilər. Əgər bir nəfərlə müqavilə (əhd-peyman) bağlamış başqa bir şəxs müsəlman olardısa, qəbilə adət-ən'ənəsinə görə onu qoşunların təcavüzündən qorumalı idi. Bə'zən bir qəbilə bir neçə qəbilə ilə əhd-peyman bağlayırdı ki, belə olan halda bir

nəfərlə düşmənçilik yüzlərlə adamla düşmənçiliyə səbəb olurdu.

Beləliklə, Qüreyş başçılarını təkcə var-dövlətin və ticarət meydanının əldən çıxması deyil, günbəgün çoxalan müsəlman şəxsiyyətləri daha çox narahat edirdi. İndi isə bu dəstənin tərkibinə nəzər salaq.

Peyğəmbərin (s) də'vətinin ilk çağlarında müsəlmanlığı qəbul edənlərin adları ən mö'təbər sənədlərdən – o cümlədən İbni İshaqın "Sirə"sində, (Yunis ibni Bəkir ondan rəvayət etmişdir). İbni Hişam (Abdullah ibni Tufeyl Bəkai ondan nəql edib) - nəzərə çarpır. Onlar 19-28 yaş arasında olan kişi və qadınlardan ibarətdirlər. Allaha dolğun şəkildə imanı olan, qəbilə adət-ənənələrinə və Məkkədəki mövcud olan qurluşa e'tinasız olan şəxslər idi. İctimai nöqteyi-nəzərdən onlar aşağıdakı xüsusiyyətlərə malik idilər:

1.Qəbilə qurluşu silsiləsində ikinci və ya üçüncü sırada duranlar;

2.Kiçik ticarətlə məşğul olanlar; onlar pulun azlığından dövlətlilərlə rəqabət apara bilmirdilər;

3.Fəhlələr, muzdurlar, qullar və zalımların zülmündən təngə gəlmiş xalq.

Bunlar düşüncə qabiliyyəti başqalarından üstün olan, xalqın dini və ictimai pozğunluğundan narazı olan insanlar idilər. Doğru, düzgün müsəlman, sınanmış mö'minlər idilər ki, Qur'an bir çox yerdə onları tərifləmişdir.

Qüreyşlilər qəbilə müqaviləsinə görə Peyğəmbərə aşkar şəkildə zərər yetirə bilmirdilər. Belə olan surətdə Bəni Haşimlə

münaqişə meydana gələr və başqa tayfalar da bu münaqişəyə qoşularaq ixtilafı daha da kəskinləşdirə bilərdilər. Buna görə də onlar Peyğəmbərə qarşı müxalifətçilik edib nalayiq sözlər deməkdən və cüzi zərərlər yetirməkdən başqa heç bir iş görə bilmirdilər. Lakin yeni müsəlman olmuş pənahsızlara əllərindən gələni edirdilər. Yavaş-yavaş münaqişələr üzə çıxırdı. Qüreyşlilər yenidən Əbu Talibin yanına gedərək qardaşı oğlunu tutduğu yoldan çəkindirməsini istədilər. Əbu Talib onların dediklərini qardaşı oğluna çatdırdıqda Peyğəmbər (s) cavabında belə buyurdu: “And olsun Allaha, əgər günəşi sağ ovcuma, ayı isə sol ovcuma qoysalar belə, mən öz də’vətimdən əl çəkən deyiləm.” Əbu Talib isə dedi: “Belə isə sən öz işini davam etdir, mən sənə zərər yetirməyə icazə verməyəcəm.”

Qüreyşlilər Peyğəmbərin (s) öz də’vətindən əl çəkməsini, Əbu Talibin də onu himayət etməsini gördükdən sonra, onun özünə və tabelərinə zərər yetirmək üçün fəaliyyət dairələrini genişləndirməyə başladılar.

## HƏMZƏNİN İSLAMI QƏBUL ETMƏSİ

Günlərin bir günündə Əbu Cəhl Səfa dağının yaxınlığında Peyğəmbər (s)-la üzləşərək ona nalayiq sözlər deyir, lakin Peyğəmbər (s) ona çavab qaytarmır. Abdullah ibni Cuda’nın kənizi bu hadisənin şahidi olur. Çox keçmədən Həmzə ovdan Məkkəyə qayıdır. Həmzə adəti üzrə ovdan qayıdanda Kə’bə evini təvaf edər, sonra isə qüreyşlilərin yığıncaqlarına gedib onlarla söhbət edərdi. Qüreyşlilər Həmzəni səxavətli olduğuna görə çox sevərdilər. Bu dəfə də adəti üzrə tanışları ilə söhbət etməklə məşğul olan zaman bir kəniz onun yanına gedərək dedi: “Kaş burada olaydın, görəydin ki, Əbu Cəhl qardaşın

oğluna nələr dedi." Həmzə Əbu Cəhlin ardınca gedib onu məsciddə camaatın arasında gördü. Kamanını onun başına elə vurdu ki, başı ağır yaralandı. Sonradan dedi: "Sən Həzrət Məhəmmədi (s) söyürsən, bilmirsən ki, mən onun dinini qəbul etmişəm. O deyən şeyi mən də təsdiq edirəm." Bəni Məxzum Əbu Cəhli müdafiə etmək üçün ayağa qalxmaq istədikdə o, dedi: "Həmzəyə əl vurmayın! Çünki mən onun qardaşı oğluna yaramaz sözlər demişəm." Bu hadisədən sonra Həmzə də müsəlmanların sırasına daxil oldu. Qüreyşlilər bundan belə Həzrət Məhəmmədi (s) zərərdən qoruya biləcək Həmzə kimi müdafiəçisi olduğunu gördükdən sonra ona çox mane olmadılar.

## MANEƏLƏRİN UĞURSUZLUĞU

Qüreyş başçıları yeni dinin qarşısını almaq üçün hiyləyə əl atırdılar. O cümlədən Peyğəmbəri incitmək, arxasınca yaramaz sözlər demək, ona tabe olanlara zərər yetirmək, "şairdir, dəlidir, sehrbazdır" sözləri ilə təhqir etmək. Lakin bu atılan addımların heç birinin faydası olmadı. Bəni Əbud-Mənaf tayfasından olan Nəzr ibni Hərs bir müddət Hiyrə də yaşayaraq orada İran şahlarının və pəhləvanlarının qəhrəmanlıq dastanlarını öyrənmişdi. O yeni bir üslubdan istifadə edirdi. Belə ki, Peyğəmbər (s) bir məclisdə əyləşib xalqa keçmiş ümmətlərin talelərini xatırladaraq onları nəsihət edər, Fir'on, Saleh və Səmud qövmünün hekayələrini onlara danışar, sonra isə durub gedərdi. Bunun ardınca Nəzr onun yerinə əyləşib deyərdi ki, ey qüreyşlilər and olsun Allaha mən sizə Həzrət Məhəmmədin (s) söylədiyi dastanlardan yaxşı dastanlar danışacam, gəlin mənim söylədiklərimə qulaq asın. Bə'zi təfsirçilər yazırlar ki, Nəzr o kəsdir ki, Qur'an onun barəsində belə buyurub:

"Allaha iftira yaxan, özünə heç bir vəhy olunmadığı halda: "Mənə də vəhy olunmuşdur, mən də Allahın nazil etdiyi (Qur'an) kimi bir kitab endirəcəyəm", - deyən şəxsdən daha zalim kim ola bilər?"

Ancaq Qüreyş kafirlərinin və Nəzrin təsəvvürünün əksinə olaraq, xalqın ürəyini cəlb edən və müsəlmanlığa rəğbət yaradan keçmiş ümmətlərin hekayələri deyildi; sadəcə olaraq bu dastanlar müqəddimə xarakteri daşıyırdı, onun ardınca isə nəsihətlər, ürəkyananlıq və ən başlıcası isə gözəl və insani həyat və'dəsi verilirdi. Dastanlar qullar və zəif təbəqənin nümayəndələrinə müjdə verirdi ki, bu günün zülmkarları da keçmiş dövrün zalimləri tək məhv olacaqlar və hakimiyyət onların əlinə keçəcək.

İbni İshaq yazır ki, Qüreyş başçılarından olan Əbu Süfyan, Əbu Cəhl və başqaları gecələr gizlincə Həzrət Məhəmmədin (s) xalqı nəsihət etdiyi evə gedərək onun sözlərinə və Qur'an ayələrinə qulaq asardılar. Sübh çağı oradan qayıtdıqdan sonra bir-birlərinə deyərdilər ki, daha belə iş görməyək. Bizim rəftarımız səbəb olar ki, qəbilənin nadanları da Həzrət Məhəmmədin (s) sözlərinə uysunlar. Bununla belə onlar bir neçə axşam ardıcıl olaraq o evə gedirdilər. Nəhayət nə edəcəkləri barədə əyləşib məşvərət etdilər. Bəni Məxzum tayfasından olan Əbu Cəhl dedi: "Biz Əbd Mənaf övladları ilə hakimiyyət uğrunda daim mübarizə apardıq və bu mübarizədən bir addım belə geri çəkilmədik; sonda dedilər ki, göydən bizə vəhy gəlir. And olsun Allaha mən heç vaxt ona iman gətirməyəcəm."

## HƏBƏŞƏYƏ HİCRƏT

Müsəlmanların sayının artması ilə bərabər Qüreyşin Həzrət Məhəmmədə (s) qarşı düşmənçiliyi də çoxalırdı. Lakin qeyd

etdiyimiz kimi, Peyğəmbəri (s) Əbu Talib himayət etdiyinə görə və qəbilələr arasında bağlanmış əhd-peymana əsasən şəxsən Peyğəmbərə (s) zərər yetirə bilmirdilər. Ancaq onun ardıcıllarına, xüsusilə də köməksiz olanlara əllərindən gələni edirdilər. Yeni müsəlmanlara işgəncə verilməsi Peyğəmbəri (s) daha çox narahat edirdi. Nəhayət onlara əmr edir ki, Həbəşəyə getsinlər. Onlara belə dedi: “O ölkənin padşahından heç kəs zülmə mə’ruz qalmayıb, oraya gedin ki, Allah sizləri bu müsibətdən qurtarsın.” Qüreyş başçıları müsəlmanların Həbəşəyə getməsindən xəbərdar olduqdan sonra Əmr ibni A’s və Abdullah ibni Əbi Rəbiə’ni Həbəş padşahı Nəcaşinin yanına göndərdilər ki, onları geri qaytarsın. Nəcaşinin hüzurunda Qüreyşin nümayəndələri dedilər: “Bizim bir neçə düşüncəsiz nökərlərimiz öz atalarının dinindən üz döndərib sizin və bizim tanımadığımız bir əqidəni qəbul ediblər. Bizim əhalinin başçıları sizdən onların geri qaytarılmasını istəyirlər.” Nəcaşi dedi: “Gərək onları da dinləyəm.” Müsəlmanlardan sual edən zaman Cə’fər ibni Əbu Talib onların nümayəndəsi kimi dedi: “Biz bütpərəst idik, ölü heyvan yeyər, çirkin işlər görərdik. Allah, tanıdığımız sadiq olan bir şəxsi bizim içərimizdən peyğəmbər göndərdi. O bizi tək allahlığa, düzgün danışmağa, əmanətdar olmağa, qohumların hüququnu qorumağa, yaramaz işlərdən çəkinib namaz qılmağa, zəkat verməyə də’vət etdi. Biz də ona iman gətirdik. Ancaq bizim bu yaxın adamlarımız bizi incidir və yenidən bütpərəstliyə də’vət edirlər. Biz qəbul etmədik və işgəncələrə dözməyərək sizin yanınıza gəldik.” Qüreyş nümayəndələri onlardan İsa (ə) barəsində nə deyəcəklərini soruşmasını istədilər. Cə’fər “Məryəm” surəsinin ayələrini oxudu. Nəcaşi əsasını əlinə götürərək dedi: “Bunların dedikləri ilə İsanın (ə) dedikləri arasında əlimdəki əsa qədər fasilə vardır. Gedin! Mən bunları sizə verən deyiləm.” Müsəlmanlar elə oradaca qaldılar. Bir

müddətdən sonra onların bir neçəsi Məkkəyə döndü, lakin onların böyük əksəriyyəti Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra oraya getdi.

## HƏZRƏT ƏBU TALİB VƏ XƏDİCƏNİN VƏFATI

Xədicə ilə Əbu Talibin vəfatı (hicrətdən üç il əvvəl) bir ildə baş verdi. Peyğəmbər (s) hər ikisinin ölümündən çox mütəəssir oldu. Əbu Talib onun arxası idi və onun sayəsində Qüreyş başçıları Həzrətə zərər yetirə bilmirdilər. Onun vəfatından sonra Peyğəmbərə (s) qarşı təzyiqlər şiddətləndi və hətta iş o yerə çatdı ki, Həzrət yolla gedəndə başına toz-torpaq belə tökürdülər. Lakin Xədicə onu sakitləşdirər, rəqibləri təhqir edib söydüyü zaman ona ürək-dirək verərdi.

Əbu Talibin vəfatı ilə hakimiyyət bəni Haşimdən Əbu Ləhəbin əlinə düşdü. Əbu Ləhəb Peyğəmbərin (s) kəskin düşmənlərindən idi, artıq onu Qüreyşin işgəncəsindən qoruya biləcək bir adamı yox idi. Çarəsizlikdən bu günlərdə Taifə səfər etdi ki, o şəhərdə yaşayan Səqifə qəbiləsini İslama də’vət etsin. Orada şəhərin böyüklərindən olan üç nəfəri (Əmr ibni Uməyrin oğulları) dinə də’vət etdi. Ancaq onlar onu soyuqqanlıqla qarşıladılar. Biri dedi: “Mən Kə’bə evinin örtüyünü cıraram ki, sən peyğəmbər deyilsən!” O birisi dedi: “Allah səndən başqa bir adam tapmadımı peyğəmbər göndərsin?” Üçüncüsü isə dedi: “Mən sənə cavab verməyəcəyəm, çünki əgər həqiqətən peyğəmbər olsan, sənin dediklərinin əleyhinə çıxa bilmərəm, yox əgər yalan demiş olsan, səninlə söhbət etməyə dəyməz.” Sonra əxlaqsız və nadan əhalini ona qarşı qaldıraraq o həzrəti oradan çıxardılar.

Həzrət Məhəmməd (s) bir üzüm bağına sığındı. Orada Allaha dua edərək özünün zəif və çarəsiz olduğundan

şikayətləndi: "İlahi öz acizliyimdən sənə şikayət edirəm. Xalq məni xar etmişdir, çarə tapa bilmirəm. Ey hər kəsə mərhəmətli olan! Məni kimə tapşırırsan? Mənə əhəmiyyət verməyən yadlaramı? Məni düşmənlərəmi tapşırırsan? Belə halda mənə qəzəblənməsən qorxum olmaz! Sənin mənə təqdim etdiyin azadlıq necə də əhatəlidir! Səni qaranlıqları işıqlandıran, bu dünyanı və o biri dünyanı nizamlayan zatının nuruna and verirəm ki, mənə qəzəblənib məndən narazı qalma! Səndən üzr istəyirəm ki, məndən razı qalasan." Rəbiənin oğlanları Utbə və Şeybə bu sözləri eşitdikdə ona ürəkləri yandı və bir qab üzümü xristian qula verərək onun yanına göndərdilər. Peyğəmbər (s) üzümü yeyərkən "Bismillah" dedi. Qul təəccüblə ona nəzər salaraq dedi: "And olsun Allaha, bu şəhərin əhalisi belə sözlər danışmaz." Peyğəmbər (s) ondan soruşdu: "Sən hansı dindənsən?" Dedi: "Məsihiyəm, özü də Neynəva əhalisindənəm." Həzrət Məhəmməd (s) buyurdu: "Təqvalı bir şəxs olan Yunis ibni Mətanın şəhərindənmi?" Dedi: "Sən Yunisi haradan tanıyırsan?" Dedi: "O Peyğəmbər idi, mən də Allah peyğəmbəriyəm." Bu söhbətlərdən sonra Əddas adlanan o qul müsəlman oldu və Peyğəmbər (s) Taifədən Məkkəyə döndü.

## İSLAM MƏDİNƏDƏ

Qüreyş, xalqın İslamı qəbul etməsinin qarşısını ciddi şəkildə aldığı və Məkkə əhalisi müsəlmanlara işgəncə verdikləri bir halda Məkkənin beş yüz kilometrliyində yerləşən Yəsrib şəhərində başqa hadisələr baş verməkdə idi. Orada müsəlmanların gələcəyini aydınlaşdıran və "də'vətin" Məkkədən köçərək o şəhərdə mərkəzləşməsinə səbəb olacaq hadislər baş verirdi.

Yəsrib böyük və abad bir kənd idi. Əkinə yararlı olduğu üçün qədim zamandan cənubdan bir dəstə əhali oraya gedib məskunlaşmışdılar. Bu, Peyğəmbərin (s) hicrətindən sonra, "Mədinətun-nəbi" (yə'ni peyğəmbər şəhəri), sonralar isə sadəcə olaraq Mədinə adlanan şəhərdir. Yəsrib Məkkədən fərqli olaraq özünəməxsus ictimai duruma malik idi. Məkkədə mövcud olan təbəqələrin müxtəlifliyi bu şəhərdə gözə çarpmırdı, çünki bu şəhərin təcrübəli tacirləri yox idi, onlar əkinçiliklə məşğul olurdular. Alverlə məşğul olanlar və sənətkarlar da əhalinin az bir hissəsini təşkil etdiyindən, belə bir mühitin yaranmasına lüzum yox idi.

Yəhudilər əkinçilik sahəsində təcrübə əldə etdiklərinə görə, Xeybər kəndinin əkinə yararlı olan torpaqlarını və şəhərin ətrafındakı əkin sahələrini ələ keçirmişdilər. Tarixçilərin yazdığına görə onlarla şəhərin bütpərəst ərəbləri arasında ara-sıra münaqişələr baş verirdi. Yəhudilər onlara deyirdilər ki, tezliklə İsrail nəslidən bir peyğəmbər gəlib bizə başçılıq edəcək və o zaman biz sizə hakim olacağıq. Beləliklə, Yəsrib əhalisinin təfəkküründə peyğəmbərin zühuru üçün zəmin yaranmışdı. Digər tərəfdən isə şəhərdə məskunlaşmış pərakəndə qəbilələr arasında toqquşmalar da baş verirdi.

Hicrətə yaxın illərdə Ous və Xəzrəc qəbilələri arasında böyük bir müharibə baş verdi. O müharibə "Yövmi Buas" adı ilə məşhurdur. Bu müharibədə hər iki qəbilə kəskin mübarizələrdən təngə gəlmişdi və artıq onlar barışıq istəyirdilər. Lakin qəbilə adət-ən'ənələrinə görə münaqişəyə son qoyub barışıq əldə etmək üçün ölənlərin sahiblərinə qan pulu ödənilməli idi. Bu ödənişin miqdarını isə hamının razılığı ilə seçilmiş hakim tə'yin etməli idi. Bundan əlavə o şəxs heç bir dəstəyə qoşulmayan və münaqişələrdə iştirak etməyən bir

adam olmalıydı. Yəsribdə belə bir şəxsi tapmaq mümkün deyildi. Birincisi, qəbilələrin başçılarının bir çoxu müharibəyə qarışmış, ikincisi isə heç bir qəbilənin başçısı özünü başqasından aşağı səviyyədə görmək istəmirdi.

Deyilənlərə görə, Yəsrib əhalisi qəbilələr arasında baş vermiş müharibələrdə bitərəf mövqe tutmuş, nisbətən qüdrətli olan Abdullah ibni Ubəyy Əbi Səlulu şəhərə hakim seçmək istəyirdilər. Hətta deyilənlərə görə, onun üçün bir tac da hazırlamışdılar. Lakin bu dövrdə Məkkədə başqa hadisə baş verdi.

Peyğəmbər (s) adəti üzrə həcc mövsümündə ziyarətə gəlmiş qəbilələrin yanına gedər, onları İslama də’vət edərdi. Bir dəfə Xəzrəc qəbiləsindən altı nəfər onu gördükdə Həzrət Məhəmməd (s) özünün peyğəmbər olmasını onlara çatdırdı. Onlar Peyğəmbərin (s) söylədiklərini dinlədilər, onun də’vətini təqva, saflıq və barışıq müjdəsi verdiyindən səmimi qarşılayaraq dedilər: “Biz öz xalqımızın yanına dönüb sənin gətirdiyin din barəsində onları xəbərdar edəcəyik, bəlkə də sənin gəlişinlə müharibənin kökü bizim şəhərdən kəsilə. Sən əgər bizləri birləşdirə bilsən, bizim nəzərimizdə ən alicənab şəxsə çevriləcəksən.”

Bu altı nəfər Yəsribə dönərək Həzrət Məhəmmədin (s) də’vətini xalqa yetirdilər. Şəhər əhalisinin böyük əksəriyyəti bu xəbəri eşitcək sevindilər. Bir tərəfdən peyğəmbər zühur edəcəyi xəbəri ilə tanış olanlar istəyirdilər ki, Həzrət Məhəmmədi (s) öz şəhərlərinə də’vət etməklə böyük şərəfə nail olub, yəhudiləri də qabaqlayalar. Digər tərəfdən isə qəbilə tərəfindən deyil Allah tərəfindən seçilmiş bir kəsin hakimiyyətini qəbul edərdilər. Bundan əlavə o, bu şəhərin

sakini olmamış və heç bir müharibə və toqquşmalarda iştirak etməmişdi.

Bir il sonra isə həcc mövsümündə Mədinə əhalisindən on iki nəfər Əqəbədə O həzrətlə bey'ət etdilər. Onların bey'əti aşağıdakılardan ibarətdir: Allaha şərik qoşmamaq, oğurluq etməmək, zina etməmək (qeyri-qanuni cinsi əlaqədə olmamaq), övladlarını öldürməmək, heç bir kəsə töhmət vurmamaq, Həzrət Məhəmmədin (s) onlara tövsiyə etdiyi xeyir işləri yerinə yetirmək. Peyğəmbər (s) Musa ibni Uməyri onlarla Yəsribə yola saldı ki, əhaliyə Qur'an öyrədib əhalinin İslam dininə olan rəğbəti barədə mə'lumat əldə etsin.

Bir il sonra isə (peyğəmbərliyin 13-cü ili) həcc mövsümü sona çatdıqdan sonra yetmiş üç kişi və iki qadın yenidən Əqəbədə toplaşdılar. Peyğəmbər əmisi Abbas ibni Əbdül-Müttəliblə birlikdə onların yanına getdi. Yazırlar ki, ilk olaraq Abbas çıxış edib dedi: "Ey Xəzrəc əhalisi! Həzrət Məhəmməd (s) bizdəndir, qüdrətimiz çatana qədər onu əhalinin əzab-əziyyətindən qoruduq, indi o sizin yanınıza gəlmək istəyir. Əgər onu himayə edib müxaliflərin işgəncəsindən qorumaq gücünə malik olsanız çox gözəl, belə olmayan surətdə isə indidən ondan əl çəkin." Onlar Abbasın cavabında belə dedilər: "Səni dinlədik; Ey Allahın elçisi indi Allah və sənin nəzərində bəyənilmiş işləri bizə de!" Peyğəmbər bir neçə Qur'an ayəsi oxuduqdan sonra dedi: "Sizinlə bey'ət edirəm ki, məni öz yaxın adamınız kimi himayə edəsiniz. Mədinə əhalisinin nümayəndələri onunla bey'ət etdilər ki, sənin düşməninlə düşmən, dostunla dost olacaq, səninlə müharibə edənə qarşı vuruşacağıq. Elə bu səbəbə görə də bu, "Bey'ətul-hərb" (savaş bey'əti) adlanmışdır. Bu bey'ətdən sonra Peyğəmbər (s) müsəlmanlara Yəsribə getmək üçün icazə verdi.

Onlar Yəsribə getdikdə isə şəhər əhalisi onları çox gözəl qarşıladılar. İslam tarixində Məkkədən Mədinəyə hicrət edənlər mühacir, onları Mədinədə qarşılayanlar isə ənsar (yardımçı, kömkəçi) adlandırılmışlar.

## Ədəbiyyat

1. "Qurani-Kərim"-A. Mehdiyevin tərcüməsi Bakı 2009
2. Şeyx Əhməd Nəraqi "Meracus-Səadə" (sədət zirvəsində) Baki 2012
3. Ayətullah Seyyid Əbdülhüseyn Dəstğeyb "Böyük günahlar" 1-ci cild Dinin fəxri nəşriyyatı 2000
4. Ayətullah Cavad Amoli"İnsanın dindən intizarı" M.O.U
5. Əıiəkbər Babazadə "İslamda evlənmə və ailə hüququ"
6. Məhəmmədi Reyşəhri "Mizanul-hikmət"(xülasəsi) Bakı 2009
7. Əllamə Misbah Yəzdi "Quranda əxlaq" Bakı 2011
8. Əbdülhəkim Süleymani "İslamda insan haqlari" M.O.U

# Əxlaqi inhiraflardan bir-birini qorumaqda cütlərin rolu

*Məlahət Rəcəbova*

## Abstrakt

Yalnız fərdlərin həqiqətə malik olmasına inanan, cəmiyyəti sadəcə zehn və xəyalın uydurması kimi təsəvvür edən fəlsəfi ideologiyanın əksinə olaraq İslamda və onun hüquqi sistemində ailə cəmiyyəti özünəməxsus həqiqətə və xüsusi hökmlərə malikdir. İslamın müxtəlif hüquq kitablarına nəzər saldıqda bu həqiqətin müxtəlif yönləri aşkar surətdə görünür. Cəmiyyət müxtəlif ailələrin birləşməsindən yaranır və bu iki təşkilatın hər birinin səadəti digərindən asılıdır.

Əgər ailənin təməli möhkəm olarsa, cəmiyyətdə də birlik möhkəm olacaqdır. Amma əgər ailənin təməli qeyri-sabit və süst olarsa, habelə, əgər ailə münasibətləri yalnız cinsi istək və qərizələrin təmin olunması ilə məhdudlaşarsa, ictimaiyyətin quruluşu qısa müddətdə sarsılaraq dağılar və öz mahiyyətini itirər.

**Açar kəlmələr**: Quran, Hz. Peyğəmbər (s), ailə, səadət, cəmiyyət, cütlük

# Giriş

Hər bir gənc ailə həyatı qurmazdan öncə mühüm bir məsələyə diqqətli olmalıdır. Bu nöqtə bütün həyat boyu diqqət mərkəzində saxlanmalıdır:

Ailə təşkil etmək qərarına gəlmiş qadın və kişi üçün həyat yoldaşı vəzifələrini yerinə yetirmək, qarşı tərəfin razılığını qazanmaq, bir sözlə, ailə ocağına rövnəq vermək ən mühüm işlərdəndir.

İnsanın fərdi və ictimai həyatında ailə qurumunun xüsusi əhəmiyyət daşıması uyğun işləri zəruriləşdirir. Qadın və kişi diqqətli olmalıdırlar ki, izdivacdan sonra bütün mərhələlərdə özlərini ailə adlandırılan qurumun bir hissəsi saysınlar. Ailə təşkilindən sonra ər və arvadın hər birinin xoşbəxtliyi o birinin xoşbəxtliyindən asılıdır. Ona görə də insan ailənin ümumi xoşbəxtliyi xatirinə bə`zi istəklərindən daşınmalıdır. Ər və arvad öz istəklərini bir-birləri ilə bölüşməli, bütün mərhələlərdə həmdərd olmalıdırlar. Qadın və kişi ailə xoşbəxtliyinə zidd olan və ya ailə təməlini sarsıdan, eləcə də, qarşı tərəfin şər`i hüququnu pozan işlərdən çəkinməlidir. Hər iki tərəf tam sədaqətlə, ağıl və şəriət çərçivəsində bir-birinin razılığını qazanmalıdır. Onlar bilməlidirlər ki, söz-söhbətli bir ailədə kimsə xoşbəxtlik əldə edə bilmir.

Gənc ailə ilk gündən bir-birini tanımağa və qarşı tərəfin istəklərini öyrənib bu istəkləri tə`min etməyə sə`y göstərməlidir. Bu yolla insan öz həyat yoldaşı üçün müştərək həyatı şirinləşdirə bilər. Tərəflər bir-birlərinin zəif nöqtələrini də öyrənməlidir. Onlar həm bu zəifliyin aradan qaldırılası istiqamətində bir-birlərinə kömək etməli, həm də qarşı tərəfi incitməmək üçün bu zəif nöqtəyə toxunmamalıdırlar.

Eşq və məhəbbət tələb edir ki, hər bir zövcə qarşı tərəfin rahatlığı fikrində olsun, onu incitməkdən çəkinsin. Bu yolla qarşı tərəf üçün təkamül şəraiti yaranmış olar.

Ər və arvad yaxınlarla get-gəl, alış-veriş, səliqə kimi bə`zi qeyri-zəruri işlər qarşı tərəfdə narazılıq yaratdıqda bu işlərdən çəkinməlidirlər. Ailədə yekdillik yaratmaq üçün bir o qədər də mühüm olmayan məsələlərdə güzəşt zəruridir. Unutmamalıyıq ki, həyat yoldaşı ilə isti və səmimi münasibət bütün qeyri-zəruri işlərdən mühümdür. İsti münasibəti qeyri-zəruri məsələlərə qurban vermək olmaz.

Həmçinin izdivac tərəflərinin hər biri öz həyat yoldaşlarının hüquqlarına riayət etmək fikrində olmalıdır. Heç bir halda həyat yoldaşının haqqını ayaq altına atmaq olmaz. Ailə həyatının başlanğıcında ər və arvad tərəfindən qarşı tərəfin hüquqlarını qorumaq qərarı gələcəkdə bir çox problemlərin qarşısını alır. Belə bir qərar tərəfləri haqqa təcavüzdən, dünya və axirətdə pis aqibətindən hifz edir. İnsan hüquq və mənafe baxımından daha çox öz həyat yoldaşı ilə müştərək sərhəddə malik olduğundan bu qərar çox mühümdür. Ərlə arvad arasındakı yaxın, ardıcıl və geniş təmaslar səbəb olur ki, onların müxtəlif sahədəki hüquq və mənafeləri toqquşsun.

Maddi və mə`nəvi hüquqların pozulması ehtimalı başqalarına nisbətən ərlə arvad arasında daha böyükdür. Bu baxımdan təqva və insanlıq şərti odur ki, ər və arvad bir-birlərinin hüquqlarına, xüsusi ilə zərif və həssas mə`nəvi hüquqlara diqqətli olsunlar.

## Günahdan qorunan möhkəm ailənin səbəbləri

Cəmiyyətdə əxlaqi və mənəvi dəyərlərin istiqrarı və möhkəmlənməsinin əsas amillərindən biri də, ailə təməlinin düzgün və möhkəm şəkildə qoyulmasıdır. Bu dəyərli quruluşun sağlam təməllərlə möhkəmlənməsi üçün, ailə

bağlarının iki əsas ünsür; "məhəbbət" və "paklıq" üzərində köklənməsi zəruridir.

İslami hədislərə əsasən dostluq, özü-üzlüyündə bir növ ailə bağı kimidir. Necə ki, İmam Əli (ə) buyurur: "Dostluq (bir növ) qohumluqdur."

Başqa bir hədisdə isə buyurur: "Dostluq, qohumluğun ən yaxın növüdür."

Həzrət Əli (ə) qohumluq əlaqəsinin özünün də, dostluğa ehtiyacı olması haqda belə buyurur: "Hər qohumluğun dostluğa ehtiyacı var."

Əsl həqiqətdə ailə bağları, məhəbbət və dostluq olmadan həqiqi mənasını itirmişdir. Necə ki, Həzrət Əli (ə) buyurur: "Dostun sənin qardaşındır. Bir halda ki, qardaşın sənin dostun deyildir."

Həmçinin, dini inaclar və ailə həyatının müqəddəsliyinə olan inam, ailə qurmaqda əsas və yaradıcı rola malikdir. Çünki, mənəvi dəyərlərə saygısız və ailə müqəddəsliyinə inanmayan, yalnız maddiyyat fikrində olan şəxslərlə, birlikdə yaşayış və dostluq etmək, heç də, güvən və etibar vəd etmir. Həzrət Əli (ə) buyurur: "Dünya qullarının dostluğu süst olur. Çünki təməlləri (səbəbləri) özü də süstdür. (Amma) axirət qullarının dostluğu, möhkəm olur. Çünki onun təməlləri özü də möhkəmdir."

Başqa bir hədisdə buyurur: "(Həqiqi) dindarların dostluğu çox gec pozular, o, əbədidir."

Sonsuz hikmət sahibi olan aləmlərin Rəbbi, təbii olaraq iki insanın məhəbbətini bir-birilərinin qəlbində yerləşdirərək, ailə təməllərinin atılmasına şərait yaratmışdır: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!"

Bununla da, Allah-təala, evlilik həyatına mənəvi dəyər bağışlayaraq, ailə həyatının müqəddəs olmasına təkid etmişdir.

Deməli, ailədə məhəbbət və paklığa səbəb olan hər bir şey, bu müqəddəs quruluşu möhkəmləndirir. Ailədə məhəbbət və paklığın azalmasına səbəb olan hər bir şey, bu müqəddəs quruluşun süstlüyünə və dağılmasına bais olur.

Möhkəm ailə quruluşuna sahib olmaq üçün ilk addım, islam dinində ailə qurmaq üçün nəzərdə tutulmuş qayda-qanunlara riayət etməklə atılır.

Peyğəmbərimizin (s) və Əhli-beytin (ə) hədislərində, ailədə məhəbbət və paklığı möhkəmləndirmək üçün olduqca dəyərli göstərişlər mövcuddur. Bu göstərişlərin ən mühüm hissələri üç qismə ayrılır:

1- Qadın və kişinin müştərək vəzifələri

2- Kişiyə xas olan vəzifələr

3- Qadına xas olan vəzifələr

a) Kişi və qadının ən zəruri vəzifələri

1- Birbirinizə sevginizi aşkar edin

Qadın və kişinin qəlbinə qarşılıqlı məhəbbəti, eşqi Allah bəxş etmiş və onu öz varlığının nişanələrindən hesab etmişdir. Bu qadın və kişinin eşqinin, xüsusilə də kişinin qadına qarşı eşqinin əzəmətinin göstəricisidir.

Dinimizin davranış qaydaları haqda olan ən dəyərli tövsiyələrindən biri də, insanların bir-birilərinə qarşı öz məhəbbətlərini izhar etmələri və dilə gətirmələridir. Allahın elçisi (s) buyurur: "Məhəbbətini, sənə qarşı məhəbbət bəsləyən şəxsə, izhar et ki, aranızdakı sevgi daha da möhkəmlənsin."

Başqa bir rəvayətdə buyurulur: "Öz müsəlman qardaşının xətrini çox istəyirsənsə, onu bundan xəbərdar et. Çünki bu iş, insanları bir-birinə daha yaxın edir."

Sözsüz ki, hər kəs öz həyat yoldaşını sevdikdə, bu hissi ona aşıladıqda, onların sevgisi daha da möhkəm olcaq və ailə təməlləri süstləşməyəcək. Bu, ər və arvadın hər ikisinə aiddir. Amma qadın, həyat yoldaşının ona qarşı öz məhəbbətini izhar etməsinə daha çox ehtiyac duyduğu üçün, islami rəvayətlərdə kişinin qadına öz sevgisini bəyan etməsinə dəfələrlə təkid olunur. Allahın rəsulu (s) buyurur: "Kişi qadınına "Mən səni sevirəm"- desə, bu söz heç vaxt onun qəlbindən silinməz."

Başqa bir hədisdə buyurur: "Kişi qadının və qadın kişinin üzünə mehribanlıqla nəzər salsa, Allah-təala onların hər ikisinə mehribanlıq nəzəri salar. Onlar bir-birilərinin əllərini (məhəbbətlə) tutduqları zaman, günahları barmaqlarının arasından süzülüb-tökülər."

Həmçinin, övlada qarşı öz məhəbbətini izhar etmək də, ailə bağlarının möhkəmlənməsinə xidmət edir: "Mömin Allahın dostudur və övlad ona ilahi hədiyyəsidir. Hər kimə Allah-təala övlad nəsib etsə, onu çox öpsün."

Diqqət yetirmək lazımdır ki, ailəyə olan sevginin, qayğının həddini aşması və nəticədə Allah-təalaya, dini dəyərlərə və insani duyğulara qarşı etinasızlıq, sayğısızlıq yaratması, olduca tənqid edilmişdir. Allahın elçisinin (s), Abdullah ibn Məsuda belə buyurduğu rəvayət olunur: İbn Məsuda tövsiyəsində: Ey Məsudun oğlu! Ailənə üyək yandırmağın, (ailənin qayğılarını çəkməyin), sənin Allaha itaətsizliyinə səbəb olmasın. Çünki Allah-təala buyurur: "Ey insanlar! Rəbbinizdən qorxun. Atanın oğula, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi bir gündən həzər edin. "

Bu eşq və məhəbət izdivacın ilk günlərində, hətta nikah bağlanmazdan öncə meydana gəlir. Qadın və kişi bu daxili neməti, həyata şirinlik bəxş edən bu ülvi hissi qorumaq üçün əllərindən gələni əsirgəməməli, ona zərbə vuran, nəticədə isə ilahi əzaba səbəb olan ünsürlərdən qəti şəkildə çəkinməlidirlər.

Eşqi heç bir əqli və şəri səbəb olmadan nifrətə çevirmək Haqqın nəməti qarşılığında naşükürlük, onu qorumaq isə dünya və axirət sevincinin qarantıdır.

2- Birbirinizə qarşı xoşrəftar və xoşəxlaq olun

Möhkəm ailə quruluşuna sahib olmağın yollarından və əsas amillərindən biri də, xoşrəftarlı olmaqdır. Allahın elçisi (s) buyurur: "Xoşrəftarlı olmaq, sevgini möhkəmləndirir."

Qadın və kişi özlərinin və övladlarının səadəti naminə Quranın və rəvayətlərin təkid etdiyi bir çox əxlaqi məsələlərə riayət etməlidirlər. Gözəl əxlaq sahibi olub, əxlaqi çirkinliklərdən qorunmaq çətin iş deyil. Əxlaqi məsələlərə riayət etmək, az bir müddətdə əxlaqi çirkinliklərdən çəkinmək mümkün olan işdir. Bu, ilahi yolu asanlaşdırır, ailəni möhkəmləndirir və qarşılıqlı məhəbbəti gücləndirir. Bu, digərlərinə, xüsusilə də ailənin övladlarına nümunəvi əxlaq dərsi təsirini bağışlayır.

Əxlaqi xüsusiyyətlərin icrası ailə həyatına səmimiyyət, əmniyyət, eşq və məhəbbət bəxş edərək, həyatı baldan da şirin edir.

Bu da, həm kişinin və həm də, qadının üzərinə düşən bir vəzifədir. Anacaq kişi ailənin rəhbərliyini öhdəsinə aldığı üçün, dinimizdə, xoşrəftarlı olmaq daha çox ona tövsiyə edilmişdir. Ənəs ibn Malik rəvayət edir ki; Allahın elçisindən soruşdular: Hansı möminin imanı daha kamildir?

Buyurdu: "Ailəsi ilə yaxşı davranan şəxsin."

Başqa bir hədisdə buyurur: "Ən imanlı insanlar, xoş xasiyyətli olanlar və ailələrinə qarşı ən mehriban olanlardır. Mən sizlərin arasında, ailəsi ilə ən mehriban davranan şəxsəm."

Bununla belə ki, qadın və kişinin qarşılıqlı olaraq bir-birilərinə gözəl davranması, sağlam ailə quruluşunun yaranmasında zəruridir, Qurani-kərim kişilərə belə buyurur:

"Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun."

İmam Sadiq (ə) buyurur: "Kişiyə evini və ailəsini idarə etməkdə üç xislət lazımdır, hətta bu xüsusiyyətlər onda olmasa belə (onları özündə yaratmalıdır): Xoş rəftar, ifrat etmədən əliaçıq olmaq və namusunu qorumaq üçün qeyrət sahibi olmaq."

Ailədə bir-biri ilə mülayim, yumşaq davranmaq İslamın göstərişi olmaqla yanaşı, böyük bir savaba malikdir. Həzrət Peyğəmbər (s) buyurur: «Mülayimcəsinə keçinmək bərəkət, kobudluq isə bədbəxtlik və nəhslik gətirər».(Həmən mənbə) Rəsulullah buyurdu: «Sizə cəhənnəm odu haram olan kimsəni tanıtdırımmı?». Məclisdəkilər «Bəli»-deyə cavab verdilər. Həzrət (s) buyurdu: «O, mülayim, insaniyyətə yaxın, yumşaqxasiyyət və hər şeyi asanlaşdıran şəxsdir».(Həmən mənbə)

Musa (ə) Allah-təalaya ərz etdi: «Pərvərdigara! Heç kəsin pislik görmədiyi, hamıya yaxşılıq edən şəxsin mükafatı nədir?» Xitab olundu: «Qiyamət günü od həmin şəxsə deyəcək: «Sənin mənə tərəf yolun yoxdur».(Həmən mənbə, səh. 53-54.)

Həzrət Peyğəmbərdən (s) soruşdular: «İslamın ən gözəl tapşırığı hansıdır?» Rəsulullah (s) buyurdu: «Bütün müsəlmanların onun əlindən və dilindən amanda qalması».(Həmən mənbə.)

Peyğəmbəri-əkrəm (s) buyurur: «Allahın və Onun rəsulunun yanında iman, mülayimlik və bəndələrlə yaxşı davranmaqdan da gözəl bir əməl yoxdur və Allahın və Onun rəsulunun yanında şirkdən və Allah bəndələri ilə kobud rəftar etməkdən də pis bir əməl yoxdur».(Həmən mənbə, səh-65.)

Ailə üzvlərinin ilahi vəzifələri bir-birlərinə qarşı mülayim və səmimi davranmaqdır.

3- Birbirinizin hüquqlarına ehtiram qoyun

Möhkəm ailə quruluşunun yaranmasına xidmət edən ən əsas amillərdən və ər-arvadın qarşılıqlı vəzifələrindən biri də, bir-birilərinin hüquqlarına riayət etmələridir. Allahın elçisi (s) bu haqda belə buyurur: "Agah olun! Sizin qadınlarınızın boynunda haqqınız var və qadınlarınızın da sizin boynunuzda."

İmam Zeynül-abidin (ə) "Hüquq risaləsi"ndə buyurur: "Həyat yoldaşının haqqı budur ki; sən onun Allah-təala tərəfindən sənə təskinlik bəxş edən və ünsiyyət , bağlılıq yaratmaq üçün əta olunduğunu biləsən. Bil ki, o, Tanrı tərəfindən sənə bəxş olunmuş bir nemətdir. Deməli, ona hörmət etməli və onunla mehriban olmalısan."

Kişinin öz həyat yoldaşının, ailəsinin hüququnu qorumasına o qədər təkid olunub ki, Allahın rəsulu (s) bu barədə belə buyurur: "Ailəsinə əhəmmiyyət verməyən (məsuliyyətsiz davranan) şəxs, məlundur, məlundur!"

Başqa bir rəvayətdə buyurulur: "Kişinin ailəsinə laqeydlik göstərməsi, məsuliyyətsiz yanaşması günahı (onun cəhənnəmə getməsinə) kifayətdir."

Həmçinin, qadının öz ərinin hüququnu riayət etməsi o qədər mühümdür ki, hətta ona cihad savabı belə vəd edilir. Allahın elçisi (s) buyurur: "Qadının cihadı ərə layiqli xidmət göstərməkdir."

İbn Abbas rəvayət edir: Ey Allahın rəsulu! Mən qadınların nümayəndəsi kimi sının yanına gəlmişəm. Qiyamət gününə qədər mənim bu sözlərimi eşidən hər qadın seinər: Allah-təala həm kişilərin və həm də, qadınların Tanrısıdır. Adəm həm kişilərin və həm də, qadınların atasıdır. Həvva həm kişilərin və həm də, qadınların anasıdır. Allah-təala cihadı kişilərə vacib buyurub. Əgər onlar döyüşdə şəhid olsalar, Allahın yanında

diridirlər və ruzi yeyəcəklər. Əgər cihada gedərkən yolda vəfat etsələr, yenə Allah yanında mükafat qazanırlar. Cihaddan sağ qayıtsalar da, Tanrı dərgahında böyük əcr və mükafatlar onları gözləyir. Biz isə yaralılara yardım edir və xəstələrə xidmət göstəririk. Bizim Allah yanında mükafatımız nədir?

Allahın Rəsulu (s) buyurdu: "Ey qadınların nümayəndəsi! Səni nümayəndə kimi göndərən bütün qadınlara de ki; ərə itaət etmək, onun haqq və hüququnu yerinə yetirmək, kişinin qazqndığı bütün fəzilətlərə bərabərdir."

Ər-arvadın hüquqları haqda bəhs edən rəvayətləri dəyərləndirdikdə, bu nöqtəyə diqqət çəkmək lazımdır ki; islam dini, haqq-ədalət dinidir. Elə buna görə də, ailənin bütün üzvlərinin, istər qadın, istər kişi və istərsə də, övladın hüququ, sağlam ailənin ehtiyaclarını nəzərə alaraq, tənzimlənmişdir. Bununla da, diqqət yetirmək lazımdır ki, ailə üzvlərinin hər birinin hüququ; istər qadına, istər kişiyə və istərsə də, övlada xas olan hüquq nəzəriyyəsi, onların yaşadığı cəmiyyətdə mövcud olan şəraitə uyğun olaraq ortaya qoyulması mümkündür.

4- Birbirinizin cinsi istəklərinə cavab verin

Möhkəm ailə quruluşuna sahib olmağın yollarından və əsas amillərindən biri də, ər-arvadın qarşılıqlı olaraq bir-birilərinin cinsi istəklərini təmin etməsidir. Statistiklərin verdiyi məlumatlara görə, bəzi ölkələrdə, evli cütlərin müxtəlif bəhanələr gətirməsinə baxmayaraq, ər-arvadın boşanmaların əlli faizinin əsas və ən ümdə amili, məhz cinsi əlaqələrin qarşılıq görməməsindən qaynaqlanır.

İslam dininin ər-arvadın cinsi istəklərini təmin etməsi haqqında göstərişləri

İslam dininin ər-arvadın cinsi münasibətlərinin tənzimlənməsi haqda buyurduğu dəyərli göstərişlərə əməl olunsaydı, ailə quruluşu, bəzi cəmiyyətlərdə bu qədər

tənəzzülə uğramazdı. Bu göstərişlər müfəssəl olaraq altıncı fəsildə, dəyərli oxucularımıza təqdim edilmişdir. Amma burada qısa bir işarə etmək istərdik:

1- Qadına əri üçün bəzənməsi tövsiyə olunur

Ər-arvadın cinsi istəkləri tənzimləyən gəstərişlərdən ilk olaraq, qadının əri üçün bəzənməsi tövsiyə olunur. İslami rəvayətlərdə qadının ərindən başqası üçün bəzənməsi, şiddətli şəkildə tənqid olunur. Başqa cəhətdən isə qadının əri üçün bəzənməsinə dəfələrlə təkid olunur. Deməli, qadının bəzənməsi, ailəni dağıda və ya möhkəmləndirə də bilər. Bu rəvayətlərə diqqət edin:

- "Qadın əri üçün özünü bəzəməsəydi, şübhəsiz, onun qəlbində özünə yer ayıra bilməyəcəkdi."

- "Müsəlman qadın, özünü əri üçün xoş ətirlə bəzəməlidir."

Məqatil ibn Həyyan rəvayət edir: Peyğəmbər (s) qızlarını ərə verdikdə, onlara tapşırırdı ki, qüsül almamışdan öncə, ərlərinə yaxınlaşmasınlar. Onların ərlərinə də, bu göstərişi verərdi.

2- Kişiyə həyat yoldaşı üçün bəzənməsi məsləhət görülür

İslami rəvayətlərimizdə qadının kişi üçün bəzənməsinə nə qədər tövsiyə olunursa, kişinin də, qadını üçün bəzənməsinə bir o qədər tövsiyə olunub. Bu hədisə diqqət edin: "Qadın əri qarşısında (yerinə yetirilməsi lazım olan) vəzifəsi olduğu kimi, kişinin də, həyat yoldaşının qarşısında belə vəzifələri var. Yəni; özünü həyat yoldaşı üçün bəzəməlidir. Necə ki, qadın da, özünü onun üçün bəzəyir. Amma günah işlətməklə deyil."

Başqa bir hədisdə buyurulur: "Kişinin öz həyat yoldaşı üçün bəzənməsi, qadının iffətini artırar."

Diqqət yetirmək lazımdır ki, İmam Kazimdən (ə) rəvayət olunan bir hədisdə, kişilərin özlərinə fikir verməməsi və həyat yoldaşları üçün bəzənməməsi, ərli qadınların pis yola düşməsinin səbəblərindən biri kimi qeyd olunur. Rəvayətin

mətni belədir: "Bəli. Kişinin öz həyat yoldaşı üçün bəzənməsi, qadının iffətini artırar. Qadınlar, ərlərinin bəzənməyi tərk etdikləri üçün, əxlaqsızlığa düşürlər."

İzdivacın ilk mərhələsi sona yetdikdən sonra gənc ər və arvad son dərəcə eşq və məhəbbət sayəsində öz birgə yaşayışlarına başladıqda, həyatın təməlini təşkil edən bir neçə məsələyə diqqət yetirməlidirlər. Belə ki, bu məsələlərə qətiyyən etinasızlıq etmək olmaz.

Belə məsələlərdən biri, həyatın bütün sahələrində təmizliyi və sağlamlığı qorumaqdır.

Bədən, saç, ağız, diş, geyim, döşənəcək, ev əşyaları, xüsusilə mətbəx əşyaları, bir sözlə, gündəlik həyatla bağlı olan hər bir şeyə səhiyyə və təmizlik baxımından olduqca diqqət yetirilməlidir.

Bir çox gənc ailə başçıları ailə həyatının ilk günlərində təmizlik və sağlamlıqla bağlı məsələlərə əhəmiyyət verməyərək, yalnız yeyib-içmək və zahiri ləzzətlərlə kifayətlənirlər. Onların həyatında nizam-intizamdan, təmizlikdən əsər-əlamət yoxdur. Bu etinasızlığı sağlam fitrət, ağıl və ilahi din heç bir formada qəbul etmir. Əksinə, ona böyük nifrət bəsləyir. Bundan əlavə mümkündür ki, bu etinasızlıq uzun zaman onların həyatına hakim olsun və ailə üzvlərini sağlamlıq baxımından təhlükə ilə qarşılaşdırsın. Belə məsələlər, xüsusilə uşaqlara xoşagəlməz təsirlər göstərir və onları etinasız, xəstə, zəif və cəmiyyət üçün bir yükə çevirir. Bununla da, onlarda rəzalətə və müxtəlif günahlara yol açır.

Allah-təala Quranda təmizliyi, daxili və zahiri paklığı qoruyan şəxslərə eşq elan edərək buyurur:

«Allah (günahından) tövbə edənləri, təmiz və pak olanları sevir»("Bəqərə" 222).

İslam dini, başqa sözlə desək, Quranda, Peyğəmbərin (s) kəlamlarında və Əhli-beytin hədislərində öz əksini tapmış

vəhy dini, həyatın bütün sahələrində paklıq, təmizlik və sağlamlığa olduqca böyük əhəmiyyət verir. Onun bu sahəyə diqqəti digər dinlər arasında misilsizdir. Bu səmavi dinin səhiyyə mövzusundakı beş mindən çox göstərişinin bir hissəsi «Vəsailüş-şiə» kitabının birinci və ikinci cildlərində qeyd olunmuş, bütün tibbi qanunların fövqündə olduğunu sübuta yetirmişdir.

İslam dini təqribən on beş amili təmizlik və sağlamlıq amili kimi göstərmişdir. Belə bir səhiyyə sistemi heç bir dində mövcud deyildir.

İslam bir çox yerlərdə çirkinliyi, aludəçiliyi haram hesab etmiş, bu işi görən şəxsin isə qiyamət günü Allahın əzabına düçar olacağını bildirmişdir.

Axar su, quyu suyu, bulaq suyu, yağış suyu, hündürlükdən bir şeyin üstünə axan az su, torpaq, yer, günəşin maneəsiz şüası, od, nəcis şeyin digər bir hala düşməsi – bütün bunların hamısı öz növbəsində və müəyyən olunmuş şəraitdə pak edənlərdəndir (mütəhhərat).

Haqq elçisi (s) bir neçə rəvayətdə təmizlik və paklığın əhəmiyyətinə toxunaraq buyurmuşdur: «Təmizlik imanın yarısıdır».("Mizanül-hikmə" c.5, səh.558)

Çox maraqlıdır ki, imanın yarısını bütün əxlaqi, əməli məsələlər təşkil etdiyi halda, qalan yarısını təmizlik və təmizliyə verilən əhəmiyyət təşkil edir. Bu hər bir düşüncə sahibini heyran edir.

«Qiyamət günü ilk (hesabı) soruşulacaq şey təmizlikdir».(Həmin mənbə)

Rəsulullah (s) ağızın, saçın, üzün tükünün, geyimin, ev əşyalarının, küçələrin, şəhərin və kəndlərin, hətta ölülərin təmizliyinə belə olduqca əhəmiyyət verir və bu sahəyə bütün dünya xalqlarından daha çox riayət edirdi.

Onun ölülərin sidrli, kafurlu su ilə, sonra da xalis su ilə yuyulmasını, səcdə yerlərinin kafurlanmasını, qəbrin dərin qazılmasını, ləhədin düzülməsində və torpaqla doldurulmasında nizam-intizama riayət olunmasını tapşırmasının səbəbi qəbirdə meyitin bədəni çürüyüb parçalandıqda, torpaq və kafurla qarışdığı zaman şəhər və digər yaşayış məntəqələrində sağlamlığa riayət olunmasıdır. Həqiqətən bu, İslamın möcüzələrindəndir.

O həzrət daxili və zahiri təmizliyə riayət etməkdə o qədər dəqiq idi ki, Əli (ə) kimi bir məsum dünya xalqlarını o müqəddəs varlığın təmizliyindən dərs almağa səsləyir: «Ən pak və təmiz varlıq olan Peyğəmbərdən dərs al. Həqiqətən, o müqəddəs varlıqda ona tabe olmaq istəyənlər üçün (həyatın bütün sahələrində) böyük dərslər vardır».("Nəhcül-Bəlağə" xütbə:160)

Həzrət Peyğəmbər (s) buyurur: «Həqiqətən, Allah pakdır və pakları sevir. Pakizədir, pakizələri sevir. Paklığın, təmizliyin dəyəri Allaha aid ediləcək qədər böyükdür».("Mizanül-hikmə" c.40, səh. səh.92)

Əli (ə) buyurmuşdur: «Özünüzü su vasitəsilə digərlərini narahat edən pis iydən təmizləyin. Özünüzə qarşı məsuliyyət hiss edin. Allah-təala camaatın yanlarında oturmasından xoşları gəlməyən çirkli insana kin bəsləyir».(Həmən mənbə)

Rəsuli-əkrəm (s) buyurmuşdur: «Bədəninizi pak saxlayın ki, Allah da sizi paklasın. Həqiqətən, kecəni sübhə qədər pak və pakizə qalan şəxsi bir mələk müşayiət edir və gecənin hər bir saatında deyir: «Pərvərdigara! Bu bəndəni bağışla! Çünki o gecəni sübhə qədər pak olmuşdur»;(Həmən mənbə) «Çirkin insan çox pis insandır»;(Həmən mənbə)«Çirkin və aludə insanlar həlak oldular».(Həmən mənbə)

Cabir ibn Abdullahdan rəvayət olunur: «Allah elçisi (s) başı daranmamış bir şəxs gördükdə buyurdu: «Saçını darayacaq bir şey tapmadınmı?»

Çirkin paltar geyinmiş birini gördükdə buyurdu: «Çirkli paltarını yuyacaq su tapmadınmı?».(Həmən mənbə)

İmam Baqir (ə) buyurmuşdur: «Evi süpürmək yoxsulluğun aradan qalxmasına səbəb olur».(Həmən mənbə, səh.93)

İmam Sadiq (ə) buyurmuşdur: «Qabları yumaq, evin astanasını süpürmək ruzini artırır».(Həmən mənbə)

Əli (ə) buyurmuşdur: «Evin zibilini arxasına yığmayın. Həqiqətən, (zibil yığılan yer) şeytanların yığınacaq yeridir».(Həmən mənbə)

Şeytan, «şətən» sözündən götürülmüşdür və «çirkin», «incidən», «şər» mənalarını ifadə edir.

Bu, İslamın möcüzəsidir. Məsum şiə imamları mikrob kəşf olunmazdan əsrlər öncə şeytan ifadəsi ilə bu çirkin varlıq haqqında məlumat vermişlər.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: «Süfrədən artıq qalan, yeyilməsi, istifadə olunması mümkün olmayan şeyləri gecəyə qədər evdə saxlamayın. Onu gündüz evdən çıxarın. Həqiqətən, süfrənin istifadəsi mümkün olmayan qalıqları şeytanın oturacaq yeridir»;("Mizanül-hikmə" c.10, səh.95) «Bacardığınız qədər təmizliyi qoruyun. Həqiqətən, Allah İslamın təməlini təmizlik üzərində qurmuşdur. Behiştə yalnız pak və pakizə olanlar daxil olacaq».(Həmin mənbə)

İmam Rza (ə) buyurmuşdur: «Təmizlik peyğəmbərlərin xüsusiyyətlərindəndir».[(Həmən mənbə)

Haqq elçisi (s) Aişəyə buyurur: «Bu iki libası yu. Bilmirsənmi, libas Allahı təsbih edir?! Çirkli olduqda isə, bu təsbihin arası kəsilir».(Həmin mənbə, səh.94)

Ailə üzvləri təmizlik mövzusuna aid bir çox Quran ayələri və çox mühüm rəvayətlərə nəzər salaraq bədənlərinin,

geyimlərinin, ev əşyalarının və evin təmizliyinə əhəmiyyət verməli, bacardıqları qədər təmizliyə riayət etməlidirlər.

Evin kişisi, ailə başçısı Quran ayələrinə əsasən, təqva məsələsində qadınına kömək etməli olduğu kimi, təmizlik işlərində də ona yardım etməlidir. Qadının evi, ev əşyalarını təmiz saxlaması əxlaqi bir vəzifədir. O, bu hərəkəti ilə Haqqın razılığını cəlb edir və ailə üzvlərinin sağlamlığını qoruyur.

Evin xanımı bilməlidir ki, ev işləri onun üçün ibadətdir və o, Allahdan bunun mükafatını alacaqdır.

3-Qarşılıqlı olaraq cinsi istəkləri təmin etməyin mükafatlandırılacağına təkid olunur

Mühüm və diqqət olunması zəruri olan məsələlərdən biri də, islami rəvayətlərdə evli cütlərin bir-birilərinin cinsi istəklərini təmin etmələrini təşviq etmək məqsədilə, tam şəkildə maddi bir məsələ olan halan yolla cinsi istəkləri təmin etməyə mənəvi mükafatlar vəd olunmasıdır. Məhşur hədis alimi, Şeyx Koleyni (kitablarında) Peyğəmbərin (s) Əbuzərə bu haqda belə buyurduğunu zikr etmişdir: "Həyat yoldaşınla cinsi əlaqədə olduqda savab qazanırsan."

Əbuzər təəccüblə soruşdu: Qadınlarla yaxınlıq etdikdə mükafatlandırılırqmı?

Buyurdu: "Hər vaxt harama düçar olsan, günahkarsan. Halal yolla cinsi əlaqədə olsan isə savab qazanarsan."

Başqa bir rəvayətdə buyurur: "(Kişi) qadını ilə cinsi əlaqədə olduğu zaman günahları, ağacın yarpaqları kimi yerə tökülər. Qüsl etdiyi zaman isə günahları yuyulub, təmizlənər."

4-Qarşılıqlı olaraq cinsi istəkləri təmin etməmək tənqid olunur

Bir sıra rəvayətlərimizdə kişinin öz həyat yoldaşının cinsi istəklərini təmin etməməsi və həmçinin qadının öz ərinin cinsi istəklərinə cavab verməməsi, şiddətli formada tənqid olunur.

Mərhum Koleyninin yazdıqlarına əsasən İslam peyğəmbəri (s) qadınlara müraciətlə belə buyurur: "Ərinizi özünüzdən uzaqlaşdırmaq üçün namazlarınızı uzatmayın."

Peyğəmbər (s), ifrat şəklində ibadətə məşğul olan və həyat yoldaşının cinsi istəklərini təmin etməyən Osman ibn Məzun adlı səhabəsinə buyurur: " Həyat yoldaşının da sənin boynunda haqqı var.

Başqa bir hədisdə isə ona buyurur: "Ey Osman! Allah-təala məni rahib olaraq göndərmədi. Əsl həqiqədə, məni sadə və asan təkallahlıq dini ilə (sizə peyğəmbər) göndərdi. Mən həm oruc tuturam, həm namaz qılıram, həm də ki, həyat yoldaşımla cinsi əlaqədə oluram. Mənim gətirdiyim dini sevən şəxs, mənim sünnəmi (söylədiklərimi, davranış və rəftarlarımı) özünə nümunə götürməlidir. Məni sünnəmdən biri də, evlənməkdir!"

5- Qarşılıqlı olaraq cinsi ehtiyacları təmin etməyin vacib olması

Ər-arvadın qarşılıqlı olaraq bir-birilərinin cinsi istəklərini təmin etmələrinə təşviq etmək və bundan imtina etməyi pisləməkdən əlavə, dinimizin buyuruğuna əsasən, kişinin ən azı dörd ayda bir dəfə qadını ilə cinsi əlaqədə olmalıdır. Bu vacib edilmişdir.

Səfvan ibn Yəhya, İmam Rzadan (ə) soruşdu: Bir kişinin cavan xanımı var. Amma bir neçə ay, hətta bir il keçir ki, onunla yaxınlıq etmir. Onu incitmək məqsədilə deyil, bəlkə müsibət gördükləri üçün belə edir. O, bu barədə günahkardırmı?

İmam Rza (ə) buyurdu: "Dörd ay onunla cinsi əlaqədə olmasa günahkardır."

6- İntim əlaqəsi zamanı bəzi döstərişlərə riayət etmək lazımdır

İslami rəvayətlərdə cinsi əlaqənin ədəb-ərkanı ünvanında söylənmiş bir sıra göstərişlər: Şəhvətin coşduğu zaman cinsi əlaqədə olmaq, yaxınlıqdan öncə zarafat və isnişmək, gecikdirmək kimi tövsiyələr, qarşılıqlı olaraq intim ehtiyacları təmin etməkdə boyük rola malikdir.

Dinimizin rəhbərlərinin bu tösiyələri açıq-aşkar ortaya qoyması bunu göstərir ki; cinsi məsələləri öyrənmək mənəvi dəyərlərə zidd deyil. Əsl həqiqətdə, bu təbii ehtiyacı ödəmək üçün zəruri və lazımlı bir addımdır. Çünki sağlam ailə həyatının amillərində biridir.

Cinsi əlaqənin ədəb-ərkanı ünvanında söylənmiş; yaxınlıqdan öncə dua etmək, zikr oxumaq kimi digər göstərişlərə gəldikdə isə, doğrusu, belə tövsiyələr cinsi əlaqənin mənəvi müqəddəsliyinə yardım edir. Bununla da, asağlam ailə mühitinin formalaşmasında əsaslı rol oynayır.

5- Məişət işlərində bir-birinə yardım etmək

Ər-arvadın ailə həyatının möhkəm bünövrə üzərində qurulmasına xidmət edən və bu yöndə əsaslı təsirə malik olan əxlaqi vəzifələrindən biri də, məişət işlərində bir-birilərinə kömək etmələridir.

İslamı rəvayətlərdə bu haqda özünəməxsus möhtəşəm və yüksək məna çalarlarına malik ibarətlər işlədilməsi, sağlam ailə mühitinə səbəb olan bu amilə xüsusi müqəddəslik bağışlayır. Allahın elçisi (s) Həzrət Əliyə (ə) müraciətlə belə buyurur: "Ey Əli! Yalnız doğru danışan insan, şəhid və Allah-təalanın dünya və axirətdə xeyrini istədiyi şəxs, ailəsinə xidmət edər."

Başqa bir hədisdə oxuyururq: !Sənin (kişinin) qadına xidmət etməsi, sədəqədir!

Digər bir hədisdə isə buyurulur: "Kişi arvadına su içirdikdə savab qazanar."

Yenə oxuyuruq: "Möminə hər bir əməli üçün savab verilər, hətta həyat yoldaşının ağzına qoyduğun hər loğma üçün belə."

Qadının ərinə məişət işlərində yardım etməsi haqda belə buyurulur: "Allah-təala, ərinə yeddi gün kömək edən hər qadının üzünə, cəhənnəmin yeddi qapısını bağlayar və behiştin yeddi qapısını açar ki, istədiyi qapıdan oraya daxil olsun."

İmam Əlinin (ə) yaxın köməkçisi və dünya qadınlarının sərvəri Fatimə (ə) bu barədə islam cəmiyəti üçün ən dəyərli və gözəl nümunədir. İmam Baqir (ə) buyurur: "Əli (ə) və Fatimə (ə) işləri bölmək üçün Peyğəmbərin (s) yanına getdilər. Allahın elçisi (s) ev işlərinin Fatiməyə, evdən kənardakı işlərin isə Əliyə aid olduğunu bildirdi.

Fatimə dedi: Allahın rəsulunun (s) məni kişilərin əncam verdiyi işlərdən uzaq tutmasına görə, bir olan Tanrı şahiddir ki, mən necə də sevinirəm."

Həzrət Bqirin (ə) söylədiyi digər rəvayətdə oxuyururq: "Fatimə, ev işlərini, yemək-çörək hazırlamaq, otaqları süpürüb, təmizləmək kimi işləri öz öhdəsinə götürüb, Əliyə bu haqda zəmanət verdi. Əli də, evdən kənardakı işləri; odun daşımaq və evə azuqə (qazanıb) gətirmək kimi işləri öz öhdəsinə aldı."

Sözsüz ki, işlərin bu şəkildə bölünməsi, o dövrün ictimai şəraiti ilə sıx bağlıdır. Bu hədislərdən belə nəticə alırıq ki, hər dövrdə və hər bir şəraitdə qadın və kişi çəişət işlərində bir-birilərinə yardım etməlidirlər.

6- Qarşılıqlı hörmət

Sağlam ailə mühitinin yaranmasında mühüm rol oynayan altıncı amil isə ailə üzvlərinin bir-birilərinə qarşı hörmətlə davranmasıdır. Hörmətlə davranmaq, təkcə ailə üzvlərinə aid deyil, əsl həqiqətdə bütün müsəlmanlarla və hətta bütün insanlara aid olunur. Amma şübhəsiz, ər-arvadın, valideyn və

övladların qarşılıqlı ehtiram və hörmətlə davranması, sağlam və möhkəm ailə təməllərinin atılmasında müstəsna rol oynadığı üçün, buna daha çox təkid edilmişdir. Diqqət etmək lazımdır ki, kişi ailənin böyüyü olduğu üçün bu barədə daha çox məsuliyyət daşıyır. Elə buna görə də, çoxsaylı rəvayətlərimizdə kişiyə öz qadınına hörmət etməsi tövsiyə olunur. Allahın elçisi (s) buyurur: "Kim ailə qursa, (həyat yoldaşına) hörmət etməlidir."

Başqa bir hədisdə buyurulur: "Sizin aranızda ən dəyərli şəxs, ailəsi ilə ən yaxşı rəftar edəndir."

Həmçinin kişiyə tövsiyə olunur ki, evə daxil olduqda öz ailəsinə salam versin: "Ey Ənəs!... Evə daxil olduğun zaman, ailənə salam ver ki, evinin xeyir-bərəkəti çoxalsın."

Şübhəsiz, kişinin ailəsinə hörmət qoyması, evdə xeyir-bərəkətin və məhəbbətin artmasına xidmət edəcəkdir.

7- Səbir və mulayimlik

Möhkəm ailə təməllərinin və orada sağlam mühiti yaradan səbəblərdən biri də, səbir və mülayim davranışdır. Allahın elçisi (s) buyurur: "Mülayimlik bərəkətdir, qəzəb və köbud rəftar isə bədbəxtlikdir. Allah-təala bir ailəni sevsə, onlara mötədillik və mülayimliyi nəsib edər. Çünki mülayimlik, olduğu hər bir yeri zinətləndirər. Kobudluq və qəzəbli rəftar, olduğu hər bir yeri kirləndirər."

Həyatın eniş-yoxuşları, insanın müxtəlif əhval-ruhiyyələrə düşməsi, baxış aspektlərinin rəngarəngliyi təbii formada bədəxlaqlığa və təzadlar gətirib çıxarır. Elə buna görə də, ailədə səbir, mülayimlik, keçinmək və görməməzliyə vurmaq kimi xüsusiyyətlər olmasa, uzunömürlü olmayacaqdır. Kişi qadının azacıq tərsliyi ucbatından boşanmağa qərar verəcək və qadın da, kişinin bədəxlaqına görə ondan ayrılmaq istəyəcək. Elə islam dininin əsas tövsiyəsi bu zaman ortaya çıxır ki; hər iki tərəfi səbirli və mülayim olmağa çağırıb, onlara bunun

müqabilində çoxlu mükafatlar vəd edir. Qadına buyurur: "Ərinin bəd rəftarları qarşısında səbr edən qadına Allah-təala Fironun xanımı Asiyanın savabı qədər savab verər."

Kişiyə buyurur: "Allah-Təala, Tanrıya xatir arvadının pis xasiyyətinə dözən kişiyə, səbir etdiyi hər gecə-gündüzə görə Əyyub(ə) peyğəmbərin bəla qarşısında qazandığı savabı əta edər. Qadının hər gecə-gündüz günahı, səhradakı qumlar qədər sayılar."

Bu yolla da, ailənin dağılmasına mane olur.

Quranla yanaşı, rəvayətlər də bəşəriyyəti əsəbilik və qəzəbdən uzaq düşməyə çağırır və qəzəbi, insanı məhvə sürükləyən bir növ «dəlilik» adlandırırlar.

Əli (ə) dahiyanə kəlamlarında bu məsələyə toxunaraq buyurur: «Qəzəb təhlükədir. Onu cilovlamazsansa, (səni) məhv edər»;("Mizanül-hikmə" c.7, səh.231) «Qəzəb ağıldan yüngül olanların miniyidir»;(Həmin mənbəə) «Qəzəb gizli kinləri (düşmənçilikləri) alovlandırır».(Həmin mənbəə)

İmam Sadiq (ə) buyurur: «Qəzəb hər bir ziyanın açarıdır».

Bəli, qəzəblənən şəxs hər bir xətaya yol verir. Qarşı tərəfin şəxsiyyətini təhqir edir, öz orqanizminə istənilən ziyanı vurur.

Həzrət Peyğəmbər (s) buyurur: «Qəzəb şeytanın bir odudur».(Həmin mənbəə)

Əli (ə) buyurur: «Qəzəb bir növ dəlilikdir. Həqiqətən, bu xislətə malik olan şəxs peşman olur. Peşman olmadıqda isə, onun bu dəliliyi güclənir»;(Həmin mənbəə, səh.232-233) «Qəzəb ağılı məhv edir, insanı Haqdan uzaqlaşdırır»;(Həmin mənbəə)«Qəzəbini cilovlamayan şəxs bizdən deyil»;(Həmin mənbəə) «Şəhvəti və qəzəbinə məğlub olan şəxs heyvanlar sırasındadır».(Həmin mənbəə)

Həzrət Baqir (ə) qəzəbi boğmaq haqqında buyurur: «Allah qiyamət günü qəzəbini üzə çıxara biləcəyi halda boğan şəxsin qəlbini iman və təskinliklə doldurar».("Kafi" c.2, səh.110)

Əli (ə) buyurur: «Allah-təala öz qəzəbini cilovlayan şəxsin eybini örtər».("Mizanül-hikmə" c.7, səh.236)

O həzrət vəfalı dostu Haris Həmədaniyə yazır: «Hirsini boğ, qütrətin olsa belə, əfv et. Əsəbini cilovla, gücün yetsə belə, digərlərinin qüsurlarını ört (gizli saxla). Əgər belə edərsənsə, aqibətin xeyir olar».(Həmin mənbəə)

«Kafi», «Vəsail» və «Biharül-ənvar» kimi mötəbər kitablarda digərlərinə qarşı qəzəbi boğmağın mükafatının Haqqın qəzəbindən amanda qalaraq, rəhmətinə qovuşmaq olduğu qeyd olunmuşdur.

Həzrət Məsihdən (ə) qəzəbin səbəbini soruşduqda buyurdu: «Qəzəbi törədən üç səbəb var: qürur, eqoistlik və digərlərini səviyyəsiz hesab etmək».

Həzrət Peyğəmbərin (s) Əmirəl-möminin Əliyə (ə) ünvanladığı tövsiyələrdə oxuyuruq: «Qəzəblənmə, qəzəbləndikdə əyləş və Haqqın bəndələrini əhatə edən qüdrəti haqqında düşün. Qəzəbləndiyində sənə «Allahdan qorx!»-deyə söyləsələr, qəzəbi bir kənara qoyub, normal vəziyyətə qayıt».

8- Güzəşt

Başqalarının səhvlərinə göz yummaq və onların xətalarını bağışlamaq, sakit və asudə həyat sürməyin əsas amillərindən biridir. İmam Əli (ə) bu haqda buyurur: "Kim bəzi işlərdə güzəştə getməsə və göz yummasa, həyatı qaralar (zəhrimar olar)."

Ailə həyatında çox zaman elə məsələlər ortaya çıxır ki, ailə üzvləri bu barədə bir-birilərinə güzəştə getmir, adi məsələlər üçün problemlər yaradırlar. Belə olduğu halda, həyat acı və dözülməz olur. Diqqət yetirmək lazımdır ki, bəzi çox da əhəmmiyətli olmayan məsələlərə göz yummaq və güzəştə getmək, sağlam ailə mühitinin qarantıdır.

Qadın və kişinin qarşılıqlı qüsurlara yol vermələri mümkündür. Qadın həyat yoldaşına xidmət göstərərkən, övladlarına baxarkən, yemək hazırlayarkən, eləcə də kişi ailədəki davranışında, ailəni idarə etməsində müxtəlif qüsurlara yol verə bilər. Qüsur, xəta hər iki tərəfdən bağışlanıla biləcək bir məsələdir. Qadın və kişinin lazım olduqda güzəşt etmələri şəri və əxlaqi bir vəzifədir. Onlar bu məsələdə qətiyyən qürura yol verməməli və Haqq göstərişlərinə arxa çevirməməlidirlər.

Güzəşt Quran baxımından bir ehsan olaraq, Allahın sevgisini qazanır.

«(O müttəqilər ki,) İnsanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər»("Ali-İmran" 134).

«Hər kəs pislik edəni bağışlasa və onunla barışsa, onun mükafatı Allaha aiddir»("Şura" 40).

İmam Sadiq (ə) buyurur: «Üç şey dünya və axirət böyüklüyüdür: sənə zülm edən şəxsi əfv etmək, səninlə qohumluq əlaqəsini kəsən şəxslə gəl-get etmək, sənə qarşı nadanlıq edən şəxs qarşısında dözümlü olmaq».("Bihar" c.71, səh.400)

Rəsulullah buyurur: «Həqiqətən, Allah bağışlayandır və bağışlayanları sevir»;[("Mizanül-hikmə" c.6, səh.367)«Allah-təala müsəlmanın qüsurundan keçən şəxsi qiyamət günü əfv edəcək»;(Həmin mənbəə)«Camaatın qüsurlarından keçin. Bunun qarşılığında Allah da sizin qüsurunuzdan keçəcək».("Həmin mənbəə)

İmam Sadiq (ə) buyurur: «Biz Əhli-beytik. Bizim böyüklüyümüz, bizə qarşı zülm edən şəxsi əfv etməkdir».(Həmin mənbəə, səh.368-370)

Əmirəl-möminin Əli (ə) buyurur: «Az əfv etmək eyib, intiqam almağa tələsmək isə böyük günahdır»;[(Həmin mənbəə)«Camaatın ən pisi tərəf müqabilinin qüsurlarından

keçməyən və digərlərinin eyibini örtməyən şəxsdir».(Həmin mənbəə)

İmam Sadiq (ə) buyurur: «Əfv cərimısiz, danlaq və qəzəbsiz olmalıdır».(Həmin mənbəə)

Qurana və rəvayətlərə əsasən, əfv Allahın məhəbbət bəslədiyi bir xüsusiyyət, cəhənnəm əzabından nicat qapısıdır.

Nə üçün qadın və kişi bir-birlərinin qüsurlarından keçməklə, Allahın sevimli bəndəsi olmasınlar?! Nə üçün onlar məsum imamlarla, ilahi övliyalarla həmrəy olaraq dünya və axirət səadətinə nail olmasınlar?!

Qadın və kişilər bir neçə dəfə bu üsuldan istifadə edərlərsə, artıq əfv etmək onlarda bir adət halını alaraq, bütün varlıqlarını əhatə edəcəkdir.

9- Qənaətcil olmaq və sadə həyat

Uzun-uzadı arzularla, acgözlüklə və israfla yaşamaq, insan həyatını məşəqqətli edir. Amma (imkan olmadığı halda) aza kifayətlənmək (bunu böyük bir müsibətə çevirməmək) və qənaətcil olmaq, həyatın yükünü azaldaraq, onu daha da şirinləşdirir. Hədisdə buyurulur: "Ən xoş həyat tərzi, Allah-təalanın qənaət etməyi əta etdiyi və ləyaqətli qadın bəxş etdiyi şəxsə adiddir."

Xüsisilə də, ər-arvad ailə həyatına qədəm yeni qoyduqları zaman, qənaət və sadə həyat tərzini qarşıya məqsəd qoysalar, ən ehtiyaclı vaxtda belə öz birgə yaşayışlarını daha da möhkən və davamlı edə bilərlər.

İsraf Haqqın nəzərində şeytani, bəyənilməz, həvayi-nəfs və heyvani istəklərə müvafiq olan bir işdir. Çox yaxşı olar ki, insan həyatın bütün sahələrində normal həddə, xüsusilə qənaətə riayət etsin. Çünki qənaət rahatlığın açarı, azadlığın təməli, iztirab və pərişanlığın dərmanıdır.

İnsanın ehtiyacı özünə münasib olan minik, geyim və qida ilə ödənir.

Ailə həyatında bəhs, artıq xərc, dəb üçün alınan ləvazimat və bu kimi şeylərdən uzaq düşmək zəruridir.

Qərbin qiyafə və zahiri görünüşü bizim örnək və idealımıza çevrilməməlidir. Onlar saysız-hesabsız qüsurlara malikdirlər. Sənət və texnikanın inkişafı «bizdə nə deyirlər, nə yazırlar düzdür»-deyə, yanlış fikir yaratmasın.

Müqəddəs İslam dinində mühüm olan şey ruhun, cismin, şəhərin, kəndin və küçənin saflıq və təmizliyidir. Bu mədəniyyətdə daha çox diqqət olunan şey maddi, mənəvi və əxlaqi məsələlər, fərdi və ictimai imandır. Belə ki, iman həm dünyada və həm də axirətdə insanın xeyrinədir.

İsraf, ağır xərclərə düşmək, zahiri görkəmi bəzəmək – hətta müsəlmanların ibadət etdikləri məkan olan məscid tikintisində belə – bu pak mədəniyyət tərəfindən məzəmmət olunur.

Məscidlər və evlər batin baxımından son mənəvi həddə, zahiri baxımdan isə sadə və bəzək-düzəksiz olmalıdır ki, həva-həvəs qəlbləri aldatmasın və ruhlar Allah-təaladan uzaqlaşmasın.

İnsan sadə libas almalı, lakin geyim qaydalarına diqqət etməlidir. Ehtiyacı olduğu qədər qida hazırlamalı, lakin yemək qaydalarına riayət etməlidir. Özünə münasib minik almalı, lakin sürücülük qayda-qanunlarına tabe olmalıdır. Həyat sürmək üçün yaxşı evi olmalıdır, lakin bu ev onun ruhunu əsir etməməlidir. Bütün bunlar təqvanın və Haqqa diqqətin məhsuludur.

Bu həmin yəhudi və məsihilərin həyat tərzidir ki, ev və ev əşyaları, minik, geyim, yemək və zahiri bəzək baxımından israf uçurumuna yuvarlanıblar. Onlar kilsə və məbədləri milyonlarla qiymətə başa gələn zinət əşyaları, heykəllər və daş-qaşlarla bəzəmişlər. Məsihi və yəhudi ruhaniləri, hətta məsihilərin dini lideri olan papa o qədər israf və boş xərclərə

yol verir ki, insan təəccüb etməyə bilmir. Misal olaraq qeyd etmək lazımdır ki, papanın yalnız xüsusi papaq və geyimini satsalar, dünyada yaşayan milyonlarla acı doyurub, aclıqdan xilas etmək olar.

Sərvət toplamaq, sələmçilik, günün günortaçağı baş verən böyük miqyaslı oğruluqlar və digər bu kimi rüsvayçılıqlar Allah düşmənlərinə məxsusdur. Haqqın dostları özlərini onun istəkləri ilə uyğunlaşdırmalı, israf və lazımsız xərclərdən qorunmalıdırlar.

Bütün bunlar təqva sayəsində müyəssərdir. Təqva ilə zinətlənmiş ev, təqvalı qadın və kişi ilahi xəzinəyə malikdirlər. Onların həyatı başdan-başa səmimiyyət, əmniyyət, insaf, rifah və bu kimi insanın rahat yaşaması üçün zəruri olan səciyyəvi xüsusiyyətlərlə zəngindir.

Ev və məbəd insanın aramlıq, əmniyyət hiss etdiyi məkan və öz məşuqu olan Haqqın tərəfinə pərvazlanmaq üçün bir vasitə olmalıdır.

Bir sözlə, ailənin təməlini təqva, qənaət, Tanrıya və qiyamətə diqqət yetirmək əsasında qurmaq mümkündür. Belə ki, axirətin abadlığı və Haqqın razılığının cəlbi üçün bir vasitəyə çevrilsin.

Bu gün də təqva və qənaət yolu ilə az gəlirlə yaşamaq mümkündür. Əlbəttə, bu yolda hər hansısa bir problem meydana gələrsə və mömin şəxs az gəlirlə bu problemin qarşısını ala bilməzsə, digər möminlərin vaxtı itirmədən öz din qardaşlarının yardımına tələsmələri, onu bu problemin, çətinliyin çəngindən xilas etmələri vacibdir.

10- Razılıq (İlahi qəzavü-qədərə razı olmaq)

Kişinin ailəsinin rifahı üçün çalışması, ona xas olan vəzifələrdən biridir. Amma onun bu yolda sərf etdiyi zəhmətlər, bəzən gözlənilən nəticəni vermir. Bununla da, ailə həyatı maddi və qeyri-maddi problemlərlə üzləşir. Bax, elə bu

zaman insan özünü ilahi müqəddərata təslim etməli və hətta ilahi qəzavü-qədərlə razılaşmağı öyrənməlidir. Bununla da, həyat ona ağır gəlməz və rahat-asudə yaşayışın ləzzətini dada bilər: "Ən səfalı həyat, Allahın qismət etdiyinə razı olub, sevinən şəxsə nəsib olar."

Deməli, ailə üzvlərinin müştərək vəzifələrindən biri də, Allahın onlara nəsib etdiyi ruziyə və müqəddərata razı olmaqdır. Çünki insan Tanrının ona qismət etdiyi ruziyə razı olsa və bunu dözülməz bir hal kimi ortaya qoymasa, bütün problemlər, həyatın eniş-yoxuşları ona çətin gəlməyəcəkdir.

Bu hədislər ailəyə ehsan edilməsinin əhəmiyyətini göstərir. Ev sahibi–kişi gərək ailə üzvlərinin rifahını imkan daxilində yüksəltsin. Bu barədə səhlənkarlıq və ya etinasızlıq edərsə, şübhəsiz ki, sorğu-suala tutulacaqdır. Allah taala səxavətli kişilərə çoxlu savab mərhəmət edəcək, paxıl kişiləri isə cəza verəcəkdir.

Olduqca gözəl xüsusiyyətlərdən biri də xalq arasında çox az təsadüf olunan özünü untqanlığa vurmaqdır.

Digərlərinin təqsirini, eyibini müşahidə etdikdə özünü, qarşı tərəfin sənin müşahidə etmədiyindən arxayın olacağı şəkildə unutqanlığa vurmaq insani keyfiyyətlərdəndir.

İnsanın öz həyat yoldaşının hər hansısa bir qüsurunu gördükdə, özünü bilərəkdən unutqanlığa vurması onun əxlaqının, insanlıq və böyüklüyünün son həddidir.

Əli (ə) buyurur: «Aqilin vücudunun yarısı səbir və dözüm, yarısı isə özünü unutqanlığa (görməməzliyə) vurmasıdır»;("Mizanül-hikmə" c.7, səh.268) «İnsanın ən gözəl əxlaqı özünü bildiyi şey haqqında unutqanlığa (bilməməzliyə) vurmasıdır»;(Həmin mənbəə)«Özünü bilməməzliyə vurmaq kimi bir ağıllılıq, unutqanlığa vurmaq kimi bir dözümlülük yoxdur».(Həmin mənbəə)

Xırdaçılıq etmək, səhvi üzə vurmaq, qüsurlardan keçməmək, Əlinin (ə) buyruğuna görə, əxlaqa zidd olan, həyatın şirinliyini pozan xüsusiyyətlərdəndir.(Həmin mənbəə)

Əfv və keçəcək, bundan daha yüksək özünü unutqanlığa vurmaq qadın və kişi üçün zəruri olan əxlaqi keyfiyyətlərdəndir. İnsan yalnız bu növ əxlaqi və insani dəyərlər sayəsində tam aram, şirin bir həyat sürə bilər.

Əfv, özünü bilməməzliyə, unutqanlığa vurmaq qəzəbi udmağın şirin meyvəsi, qəzəbi udmaq isti kürədən can qurtarmaq kimi bir şeydir.

Qəzəb və ardı-arası kəsilməyən dedi-qodular qeyri-insani keyfiyyət olaraq Haqqın nifrətinə səbəb olur. Bu xüsusiyyətin çirkinliyi haqqında bir rəvayət qeyd olunmuşdur. Bir kişi acı bir tərzdə imam Hüseynə (ə) dedi: «Gəl, din mövzusunda mübahisə edək». İmam (ə) buyurdu: «Mən dinim haqqında kifayət qədər məlumata malikəm. Allahın məni hidayət etməsi mənə gün kimi aydındır. Əgər sənin bu mövzuda cahilsənsə, get, cəhlinə bir əlac et…Şeytanın insanı günaha salması üçün bir vəsvəsəsi olan mübahisə ilə mənim nə işim var?!».("Bihar" c.2, səh.135) Mübahisə haqqı sübuta yetirmək üçün olarsa, gözəl mübahisənin nümunələrindəndir. Bu növ mübahisənin heç bir eybi yoxdur. O, elmin inkişafı üçün də çox faydalıdır. Lakin mübahisə söz dava-dalaşı, ağıla müvafiq olmayan məqsədlər üçün həyata keçirilərsə, şübhəsiz ki, haram və günahdır.

Həzrət Rza (ə) Əbdül Əzim Həsəniyə buyurur: «Dostlarıma məndən salam de. Onlara de ki, şeytana sizə vəsvəsə etməyə yol verməyin. Onlara düz danışmağı, əmanətdarlığı, sakitliyi, yersiz və heç bir faydası olmayan mübahisədən uzaq durmağı tapşır».("Bihar" c.74, səh.230)

## Nəticə

İxlas bütün ibadətlərin ümumi şərtlərindəndir. Fəqihlər onu əməlin düzgünlüyü, həkimlər ruhun qidası, ariflər isə vüsala yetişməyin şərti hesab etmişlər. Əməl ilahi və səmavi rəngə boyanmayınca ucalmayıb məşuqun vüsalına yetişmək olmaz. Riyaya boyanmış əməllərin Allah və ülvi aləmlə heç bir əlaqəsi olmadığından bəndə və Yaradan arasında vasitə ola bilməz.

«Quran» və ixlas (saf niyyət)

«Qurani-Məcid»də bu barədə buyurulur:

“Allaha saf niyyətlə (riyasız, şirksiz) ibadət etməkdən başqa onlara heç nə buyurulmamışdır...” («Bəyyinə» - 5).

“...... Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın.” («Kəhf» - 110).

Ayənin son hissəsi saleh əməlin şirk və riya ilə qarışıq olmamasına işarədir. Deməк, Allaha ibadət edərkən başqalarını da ona şərik etsək, ixlas yox olaraq ibadətin yalnız zahiri görkəmi qalar. Əməl isə öz mahiyyətini itirdikdə, nəticədə, insana bir faydası olmaz. Necə ki bu ayənin nazilolma səbəbi haqda oxuyuruq:

Bir şəxs Peyğəmbər(s)-in hüzuruna gəlib dedi: «Ey Allahın Rəsulu! Mən Allah yolunda ehsan verib yaxın qohum-əqrabalarımı başa çıxıram, amma camaat mənim bu əməllərimi danışıb tərifləyəndə çox xoşhal oluram. Mənim bu əməllərimin dərəcəsi nədir?» Peyğəmbər(s) heç bir söz deməyib dinmədi. Nəhayət, bu ayə («Kəhf» - 110) nazil oldu.

Müxləs (saflaşmış) bəndələr

Allah-təala saleh bəndələri saf niyyətlərinə görə tərifləyir. Məsələn, Yusif peyğəmbəri(ə) tərifləyərkən onu “müxləs” (saflaşmış)- deyə yad edir:

“Doğrudan da, (qadın) ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini görməsəydi, (Yusif də) ona meyl edərdi. Biz pisliyi və biabırçılığı (zinanı) ondan sovuşdurmaq üçün belə etdik. Çünki o, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir.” («Yusif» - 24).

Həzrət Musa(ə) barədə buyurur:

“(Ya Mühəmməd!) Kitabda (Quranda) Musanı da yad et! Həqiqətən, o (öz ibadətində) çox səmimi idi. O bir elçi, bir peyğəmbər idi.” («Məryəm» - 51).

Diqqətəlayiq məsələ

Müxləs feli sifət olub “saflaşdırılmış” mənasını ifadə edir. Allah-təala bu iki peyğəmbəri (Musa və Yüsif) vəsf edərkən onları “müxləs” adlandırır. “Müxləs” sözü ilə “müxlis” sözü arasında böyük fərq vardır. «Müxlis» sözü ötəri sədaqəti olan adama da deyilir. Məsələn, dəniz tufanında hər şeydən əli üzülmüş adamlar Allahı ixlasla köməyə çağıraraq imdad diləyirlər:

“(Müşriklər) gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) dini (ibadəti) yalnız Ona məxsus edərək (ixlasla) Allaha dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi yenə də (Ona) şərik qoşarlar.” («Ənkəbut» - 65).

“(Kafirləri) ətrafına kölgə salan uca dağlar (yaxud qara buludlar) kimi dalğalar bürüdüyü zaman onlar dini (ibadəti) Allaha məxsus edərək yalnız Ona dua edərlər. Allah onları sağ-salamat quruya çıxartdıqda içərilərindən bəziləri (küfrlə iman arasında) orta mövqe tutar. (Bəziləri isə öz küfründə qalar). Ayələrimizi yalnız çox xain, nankor olanlar danarlar!” («Loğman» - 32).

“Sizi suda və quruda gəzdirən Odur. Siz gəmidə olduğunuz, gəmilər gözəl bir külək vasitəsilə içərisində olanları apardığı, onlar da sevindikləri vaxt birdən fırtına qopub dalğalar hər tərəfdən gəmilərin üzərinə hücum etdikdə və sərnişinlər dalğaların onları bürüdüyünü (həlak edəcəyini) başa düşdükdə sidqi-ürəkdən Allahın dininə sarılaraq ona belə dua edərlər: «Əgər bizi bu təhlükədən qurtarsan, Sənə şükr edənlərdən olarıq!» Onları xilas edincə yer üzündə haqsız yerə zülm etməyə, azğınlığa başlayarlar! Etdiyiniz zülm, haqsızlıq fani dünya malı kimi öz əleyhinizədir. Sonra hüzurumuza qayıdacaqsınız. Biz də nə etdiklərinizi sizə xəbər verəcəyik” («Yunus» - 22,23).

Bu ayələrdən "müxlis" sözünün mahiyyəti müəyyən olur. Bu söz sədaqət məktəbinin öncüllərini, hətta (dəryada tufana uğradıqları zaman ümidləri hər yerdən üzülüb Allahı saf niyyətlə, ixlasla çağıran) bütpərəst müşriklər və dünyapərəstləri də əhatə edir, halbuki onlar az keçməmiş, sahilə çatdıqdan sonra Allahı yaddan çıxarıb ikinci dəfə müşrik olurlar. Təbii ki, yolun ilkin mərhələsində olanlar şeytani vəsvəsə və nəfsani həvəslər qarşısında acizdirlər. Bu təhlükələr qarşısında möhkəm durub özlərini günahdan qoruyanlar isə çoxdurlar. Amma müxləslər (saflaşmışlar) ixlasın ilkin mərhələlərini uğurla başa vuranlardır. Onlar günahsızlıq məqamına nail olaraq şeytan və nəfsi əmmarənin (pisliklərə sövq edən nəfs) hökmranlığından qurtulmuş və Allah hökmranlığına daxil olmuşlar. Yusif peyğəmbər də belələrindən idi, çünki Yusif o çətin və çıxılmaz böhranlı hallarda dağ kimi dayanaraq çətinliklərə sinə gərdi. O qadın (Zuleyxa) Yusifdən kam almaq üçün nə qədər çalışdısa da, yenə Yusif ona: "Allaha pənah aparıram,"-deyə rədd cavabı verdi. Qətiyyətlə onun qanunsuz istəyini rədd edərək qadının şərindən özünü qurtarmaq üçün qapıya tərəf yüyürdü. Bağlı qapı Yusifin üzünə açıldı, Allah ondan öz qeybi yardımlarını əsirgəmədi.

Şübhəsiz, nəfsi saflaşdırmanın bu mərhələsinə çatmaq üçün ilahi yardımlardan əlavə ehtiras və şəhvətlə də (həvayi-nəfslə) möhkəm mübarizə lazımdır. Öz daxili istəklərinə göz yuma bilməyib istədiyini edən şəxs heç vaxt bu məqama yetişə bilməz.

Bir sözlə, yalnız Allah istəyini öz istəyindən üstün tutub başında başqa fikirlər dolandırmayan qəlb belə ali dərəcələrə yetişərək nurani ola bilər.

**Ədəbiyyat**

1. Əl-İhticac əla əhlil-lihac, Əhməd ibn Əli Təbərsi, tədqiq: İbrahim əl-Bəhadiri və Məhəmməd Hadi, Tehran, Darül-üsvə, 1413 hicri-qəməri, birinci çap.

2. İrşadül-qülub, Həsən ibn Məhəmməd Deyləmi, Beyrut, Ələmi müəssisəsi, 1398 hicri-qəməri, dördüncü çap.

3. Üsdül-ğabə fi mərifətis-səhabə, Əli ibn Əbul-Kərim Məhəmməd Şeybani(İbn Əsir Cəzəri), tədqiq: Əli Məhəmməd Müəvviz və Adil Əhməd Əbdül-mövcud, Beyrut, Darül-kütubil-elmiyyə, 1415 hicri-qəməri, birinci çap.

4. Əl-İsabə fi təmyizis-səhabə, Əhməd ibn Əli Əsqəlani (İbn Həcər), tədqiq: Əli Məhəmməd Müəvviz və Adil Əhməd Əbdül-mövcud, Beyrut, Darül-kütubil-elmiyyə, 1415 hicri-qəməri, birinci çap.

5. Əl-Əmali, Məhəmməd ibn Həsən Tusi (Şeyx Tusi), tədqiq: Besə müəssisəsi, Qum, Darüs-səqafə, 1407 hicri-qəməri, birinci çap.

6. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.

7. Təhzibül-əhkam fi şəhril- müqnəə, Məhəmməd ibn Həsən Tusi (Şeyx Tusi), Beyrut, Darüt-təaruf, 1401 hicri-qəməri, birinci çap.

8. Təhzibül-kəmal fi əsmair-rical, Yunis ibn Əbdür-rəhman əl-Mizzi, tədqiq: Bəşşar Əvvad Məruf, Beyrut, ır-Risalət müəssisəsi, 1409 hicri-qəməri, birinci çap.

9. Səvabül-əmal iqabül-əmal, Məhəmmməd ibn Əli ibn Babeveyh Qummi, tədqiq: Əli Əkbər əl-Qəffari, Tehran, Məktəbətüs-Səduq, 1402 hicri-qəməri, birinci çap.

10. Cameül-əhadis, Cəfər ibn Əhməd Qummi(İbn Zariq), tədqiq: Seyyid Məhəmməd Hüseyni Nişaburi, Məşhəd, Müəssisətüt-təb vən-nəşr ət-tabeə lil-həzrətil-rəzəviyyətil-müqəddəsə, 1423 hicri-qəməri, birinci çap.

11. Cameül-əxbar (Məaricül-yəqin fi üsulidddin), Məhəmməd ibn Məhəmməd Şəiri Səbzivari, tədqiq: Alül-beyt müəssisəsi, 1414 hicri-qəməri, birinci çap.

12. Cameü bəyanil-elmi və fəzlih, Yusif ibn Əbdülbirr Nəmiri Qortubi, (vəfat: 463 h. q.) Beyrut, Darül-kutübil-elmiyyə.

13. Xisal, Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, Qum, Nəşrül-islami müəssisəsi, 1414 hicri-qəməri, dördüncü çap.

14. Əz-zöhd, Hüsen ibn Səid Əhvazi, tədqiq: Qulamrza İrfaniyan, Qum, Hüseynioyan nəşriyyatı, 1402 hicri-qəməri, ikinci şap.

15. Sünəni-ibn Macə, Məhəmməd ibn Yezid əl-Qəzvini (İbn Macə), tədqiq: Məhəmməd Fuad Əbdül-baqi, Beyrut, Daru-ehyait-turasil-ərəbi, 1395 hicri-qəməri, birinci çap.

16. Sünəni-Əbi David, Sülüyman ibn Əşəs Səcistani əl-Əzdi, tədqiq: Məhəmməd Mühyiddin Əbdül-həmid, Beyrut, Daru-ehyaüs-sünnətin-nəbəviyyə.

17. Sünəni-Tirmizi (Əl-Camiüs-səhih), Məhəmməd ibn İsa Tirmizi (Əbu İsa), tədqiq: Əhməd Məhəmməd Şkir, Beyrut, Darü-ihyait-turas.

18. Sünəni-Darəmi, Abdullah ibn Əbdür-rəhman Darəmi, tədqiq: Mustafa Dib əl-Bəğa, Beyrut, Dari-Qələm, 1412 hicri-qəməri, birinci çap.

19. Əs-Sünənil-kübra,Əhməd ibn Şüeyb Nəsai, Əbdülqəffar Bundari, Beyrut, Darül-kutübil-elmiyyə, 1411 hicri-qəməri, birinci çap.

20. Sünəni-Nəsai bi şərhil-Hafiz Cəlaləddin Siyuti və haşiyətül-İmamis-Sindi, Əhməd ibn Şüeyb Nəsai, Beyrut, Dari-Ciyl, 1407 hicri-qəməri, birinci çap.

21. Şərhi nəhcül-bəlağə, Əbdülhəmid ibn Məhəmməd Mötəzili (İbn Əbil-Hədid), tədqiq: Məhəmməd Əbülfəzl İbrahim, Beyrut, Daru-ehyait-türas, 1387 hicri-qəməri, birinci çap.

22. Şöbül-iman, Əbu Bəkr Əhməd ibn Hüseyn Beyhəqi, tədqiq: Məhəmməd Səid Besyuni Zəğlul, Beyrut, Darül-kutübil-elmiyyə, 1410 hicri-qəməri, birinci çap.

23. Əs-Sihah: Tacül-lüğə və sehahül-ərəbiyyə, İsmayıl ibn Həmmad Cövhəri, (vəfat: 398 h. q.), tədqəq: Əhməd ibn Əbdül-qafur Əttar, Beyrut, Darül-elm lil-məlayin, 1410 hicri-qəməri, dördüncü çap.

24. Səhihi-Buxari, Məhəmməd ibn İsmayıl Buxari, tədqiq: Mustafa Dib əl-Bəğa, Beyrut, Dari-ibn Kəsir, 1410 hicri-qəməri, dördünçü çap.

25. Səhihi-Müslim, Müslim ibn Həccac əl-Qəşiri Nişaburi, tədqiq: Məhəmməd Fuad Əbdül-baqi, Qahirə, Darül-hədis, 1412 hicri-qəməri, birinci çap.

26. Səhifətüs-səccadiyyə,tədqiq: Əli Ənsariyan, Dəmeşq, intişarati-islami, 1405 hicri-qəməri.

27. Əs-Səvaiqül-mühriqə, Əhməd ibn Hicr, Qahirə, Məktəbətül-Qahirə, 1385 hicri-qəməri, ikinci çap.

28. İddətüd-dai və nicatüs-sai, Əhməd ibn Məhəmməd Hilli əl-Əsdi (İbn Fəhd), tədqiq: Əhməd əl-Müvəhhidi, Tehran, Vicdani intişaratı.

29. İləlüş-şəraye, Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, Beyrut, Darü-ihyait-turas, 1408 hicri-qəməri, birinci çap.

30. Əvalil-lai əl-əziziyyə fil-əhadisid-diniyyə, Məhəmməd ibn Əli Ehsani (İbn Əbi Cumhur), tədqiq: Müctəba Əraqi, Qum, Seyyidüş-şühəda intişaratı, 1403 hicri-qəməri, birinci çap.

31. Üyunül-əxbar, Abdullah ibn Mülim Dinəvəri (İbn Qüteybə), Qhirə, Darül-kutübil-Misriyyə, 1343 hicri-qəməri.

32. Üyunül-əxbari-Rza (ə), Şeyx Səduq, tədqiq: Seyyid Məhdi Lacurdi,, Tehran, Cahan nəşriyyatı.

33. Qürərül-hikəm və dürərül-kiləm, Əbdül-vahid Amidi Təmimi, çərh və tərcüməsi.

343. Fəthül-bari, Əhməd ibn Əli Əsqəlani (İbn Həcər), tədqiq: Əbdül-əziz Abdullah, Beyrut, Darül-fikir, 1379 hicri-qəməri, birinci çap.

35. Əl-firdovsi bi-məsuril-xitab, Şiruyə ibn Şəhrdar Deyləmi, (vəfat: 509 h. q.) Məhəmməd Səid Besyuni Zəğlul, Beyrut, Darül-kutübil-elmiyyə, 1406 hicri-qəməri, birinci çap.

36. Əl-Fəzail, Şazan ibn Cərayıl Qummi, Nəcəf, Heydəriyyə mətbəəsi, 1338 hicri-qəməri.

37. Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.

38. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.

39. Əl-Kamilü fit-tarix, Əli ibn Məhəmməd Şeybani (İbn Əsir), tədqiq: Əli Şiri, Beyrut, Darüt-türasül-ərəbi, 1408 hicri-qəməri, birinci çap.

40. Əz-zöhd, Hənnad ibn Səri Kufi, Kuveyt, Darül-xüləfa lil-kitabil islami, 1406 hicri-qəməri.

41. Kitabü mən la yəhzüruhül-fəqih, Məhəmməd ibn Əli ibn Babəvəveyh, tədqiq: Əli Əkbər Qəffari, Qum, Nəşrül-islami müəssisəsi.

42. Kənzül-ümmal fi sünnətil-əqval vəl-əfaal, Əli Müttəqi ibn Hisamuddin Hindi, təshih: Səfvətüs-Səqqa, Beyrut, Məktəbətüt-türasil-islami, 1397 hicri-qəməri, birinci çap.

# Vəhyin mahiyyəti

*Meysam Javadnia*


## Abstarkt

Peyğəmbərlər öz dediklərinə o qədər inanırlar ki, hətta bir addım da geri çəkilməyə razı deyillər. Peyğəmbərlərin həyat tarixi və onların cəmiyyətlərlə davranış tərzi bu həqiqəti tam şəkildə aydınlaşdırır. Onlar adətən öz göstərişlərini və hədəflərini çatdırmaqda ən aydın sözlərdən istifadə etmişlər. Həmişə elə danışmışlar ki, sanki dedikləri həqiqətləri gözləri ilə görürlər. Buna görə ömürlərinin sonunadək o həqiqətlərin yolunda müqavimət göstərmiş və fədakarlıq etmişlər. İslam peyğəmbərinin dedikləri, xüsusilə mübahilə məsələsi peyğəmbərlərin öz fikirlərinə və göstərişlərinə inamının ən bariz nümunəsidir.

Digər tərəfdən isə, onların göstərişləri adətən doğumdan ölümə qədər ictimai həyatın bütün sahələrinə aid olan aydın praktiki bir proqram olmuşdur. Bu məsələ onların çağırışının keyfiyyətini araşdırmaqla aydın olur. Vəhy yolu ilə asketizm yolunun fərqli olması və nübuvvətin qazanılan bir məqam olmaması haqqındakı bu bəhsdən peyğəmbərlərin hər cür səhvdən məsum olması məsələsi də tam aydın olur.


**Açar kəlmələr:** İslam, vəhy, Quran, mələk

## Giriş

Allah-taalanın insanları yaratmaqdan məqsədi onların kamilliyə çatması və ilahi-əxlaqi dəyərlərə yetişmələri olmuşdur. Və buna görə də Allah-taala bəndələrilə öz arasında müxtəlif vasitələrlə əlaqə saxlamışdır. Bu mənəvi əlaqə və rabitələrin hamısının kökü «vəhy» deyilən ilham qüvvəsinə qayıdır. Başqa dillə desək, tanrının insanların haqqa yönəlmələri və vicdanlarının oyanması üçün onlara mənəvi qüvvələr ilə ilham etməsinə «vəhy» deyilir.[1] Başqa ibarətlə desək, İslam dinində İlahi xəbərlərin peyğəmbərlərin vasitəsilə dərk olunmasına «vəhy» deyilir. Buna əsasən «vəhy» üç qismə bölünür:

1. Allahın heç bir vasitə olmadan, yəni birbaşa peyğəmbər ilə söhbəti. (Allah-taalanın «merac»da heç bir vasitə olmadan Məhəmməd peyğəmbərlə (s) söhbətini buna misal çəkmək olar).

2. Allahın hansısa bir vasitə ilə peyğəmbərlərlə söhbəti (Allahın «Tur» ağacına vəhy etmək yolu ilə Musa peyğəmbərlə (ə) danışığı kimi).

3. Allahın peyğəmbərlərə mələk nazil edərək xəbər göndərməsi

İslam alimlərinin nəzəri budur ki, Qurani-kərimin Məhəmməd peyğəmbərə (s) nazil olması vəhyin üçüncü qisminə aid olunur. Qurani-kərim bu məsələyə belə işarə edir:

**«Ruhul-Əmin (Cəbrayıl adlı mələk) sənin qəlbinə vəhy edir»** *(Şüəra, 194)*

Burada belə bir sual meydana çıxır ki, İslam baxımında Həzrət Məhəmməd (s) vəhy aldığı üçün nə sayılır? Məsihiyyətdə olduğu kimi Allah, yoxsa sadəcə olaraq bəndə?

Cavab: İslamda xristianlıqdan fərqli olaraq dinin banisi başqaları kimi Allahın bəndəsi və qulu sayılır. Onun başqa

---

«Vəhy» lüğətdə «işarə», «ilham», «sirr» və «yazmaq» mənasınadır[1]

bəndələrlə fərqi Allah tərəfindən xəbər gətirməsi və peyğəmbər olmasındadır. Qurani-kərim bu barədə belə buyurur:

«Məhəmməd yalnız Allahın peyğəmbəridir, necə ki, ondan qabaq bir sıra peyğəmbərlər gəlib-getdilər.» (Ali-İmran, 141)

Başqa bir ayədə deyilir ki, peyğəmbərlərin məmuriyyətinin əsası insanları Allah bəndəçiliyinə dəvət etməkdir. Necə ki, buyurur: «Biz hər bir ümmətə peyğəmbər göndərdik ki, onları Tanrıya itaət və ibadətə dəvət etsinlər.» (Nəhl, 36) Həmçinin buyurur: «Biz insanları və cinləri ona görə yaratdıq ki, yalnız Allaha bəndəçilik etsinlər.» (Zariyat, 56) Qurani-kərim peyğəmbərlərin də bəndə olmalarına bir neçə yerdə israr etməklə müsəlmanları məsihilərin getdiyi yoldan çəkindirir: «Allah öz bəndəsinə (Məhəmmədə aydın şəkildə ayələr vəhy etdi ki, sizi qaranlıqdan çıxarıb işıqlığa yönəltsin.» (Hədid, 9) «Allah öz bəndəsinə lazım olan ayələri vəhy etdi.» (Nəcm, 10)

Deməli, İslam dinində «vəhy» yalnız Allahın bəndəsinə gəlir. Bu dində bütün insanlar Allaha bəndə və qul olmağa çağırılır. İslam dini Yaradanın vahid olmasına təkid etməklə, onun heç vaxt övladı olmamasını da möhkəm şəkildə bəyan edir. Qurani-kərimin buyurduğuna əsasən, hətta Həzrət İsanın (ə) özü, Məsihilərin ona səbəb dedikləri üçün Allahın yanında xəcalət çəkirdi. Uca Tanrı Qurani-kərimdə buyurur:

«Ey Məryəm (ə) oğlu İsa, sən camaata dedin ki, Allahın kənarında məni və anamı özünüzə Tanrı qərar verin?! (İsa) dedi: İlahi sən bu sözlərdən paksan, mənimsə elmim olmadığı şey barəsində söz deməyə haqqım yoxdur. Və əgər mən belə bir söz desəydim, sən mütləq onu bilərdin. Sən mənim zatımdan xəbərdarsan, mən isə zatından agah deyiləm, yalnız sən bütün qeyblərə agahsan.» (Maidə, 116)

## Vəhy İlahi Bir Lütf

Vəhy və nübuvvət ilahi nemətdir, qazanılan bir məqam deyil. Bəlkə də güman oluna bilər ki, insanların, başlanğıcı elə də aydın olmayan çox qədim zamandan fiziki və ruhi məşqlərin, xüsusi çalışmaların nəticəsində qeybə doğru yol açdıqlarını, yəni adi təlim-tərbiyə yolu ilə əldə olunmayan bir sıra işlərin onlara aydınlaşdığını nəzərə alarkən görürük ki, vəhy və nübuvvət məsələsini də bu yolla izah etmək mümkündür. Qədim əsərlərdə və səyyahların səyahətnamələrində asketizm mövzusuna aid çoxlu nümunələr tapılır, hətta bu günkü qəzet və jurnallarda müntəzəm surətdə hindistanlı, afrikalı, avropalı və başqa asketlər barəsində hadisələr oxuyuruq. Halbuki qədim və müasir psixoloqlar da bu reallığı təsdiq ediblər. Məlum olduğu kimi asketlər qeybi məlumatları kəşf edərkən onlara üz verən ruhi hallar peyğəmbərlərdəki vəhy adlandırılan ruhi halla eynidir. Buna görə də peyğəmbərlərin vəhyini də bu yolda izah etmək mümkündür. İslam peyğəmbərinin peyğəmbərlikdən öncə tənhalığa çəkilmə hadisəsi, həmçinin buna bənzər işlərin Məsihdən nəql edilməsi bu fikri təsdiq edir. Deməli peyğəmbərlik bir sıra asketik məşqlər nəticəsində yaranan qeyblə bağlılıq vəziyyətidir.

Lakin vəhyin varlığı sübut edib daha sonra peyğəmbərlərin öz sözləri ilə təsdiq etdiyimiz keçən izahatlardan bu təsəvvürün batilliyi aydın olur.

Asketlərin ruhi hallarında səhv və yanlışlıq da ola bilər. Halbuki, peyğəmbərlərin hallarında heç bir səhv ola bilməz. Asketlər ilə az-çox əlaqəsi olan şəxslər bilirlər və hətta asketlərin özləri belə etiraf edirlər ki, ruhi məşqlər nəticəsində onlara gələn qəlbi ilhamlar bəzən səhv də ola bilər, həmçinin bu yoldan əldə edilən nəticələr həmişə bəşəriyyətin və insan cəmiyyətinin xeyrinə olmur. Hətta çox vaxt insan yaşayışının

ehtiyac duymadığı faydasız və əyləncəli şeylərlə bağlı olur. Bunlar asketlərin ilhamlarının aşkar xüsusiyyətləri və nəticələridir. Peyğəmbərliyin xüsusiyyətləri və nəticələri isə yüz faiz onların əksinə olur. Peyğəmbər qavradığı vəhydə heç vaxt şübhə və səhv etmir. Peyğəmbərlik insan yaşamı üçün birinci dərəcəli əhəmiyyətə malik olan bir sıra hədəflərlə bağlıdır. Çünki, deyildiyi kimi insanın özünün dəyişilməz məqsədinə çatması üçün "nübuvvət" yolunu ona açan, təkvin və yaradılış sistemidir. Heç zaman yaradılış sistemi və obyektiv gerçəklik səhvə yol vermir. Heç zaman obyektiv varlıqlar "yanlışlıq" xüsusiyyətilə xarakterizə olunmur. Əksinə yanlışlıq nisbi bir şeydir, yəni zehnlə obyektiv aləmi, fikirlə əməli və işlə hədəfi müqayisə edərkən ortalığa çıxır.

Heç vaxt demək olmaz ki, yaradılış sistemi insanı yeməyə, evliliyə, gözlə görməyə, qulaqla eşitməyə yaxud düşünməyə yönəltməkdə səhvə yol vermişdir, əksinə məsələn, fikri obyektiv aləmə tətbiq edərkən bəzən səhv yaranır (doğru düşünülsün).

Yaradılış sistemi insanları öz son hədəflərinə istiqamətləndirmək üçün onları fitri ictimai ixtilafların aradan götürülməsinə doğru yönəldəcəkdir. Necə ki, onu yemək və nəsil artımı ehtiyacı kimi bioloji ehtiyacların təmin edilməsinə, zərər və ziyanların aradan götürülməsinə doğru istiqamətləndirir və bu istiqamətləndirmədə səhv etmir.

Bu izahla aydın olur ki, peyğəmbərlik və vəhy yolu təfəkkür yolu deyildir. Çünki, adətən fikirdə səhv olması mümkündür, digər tərəfdən isə bəşərin bütün qazanıla bilən kamillikləri təfəkkür yolu ilə olur. Bu müqəddimələrdən açıq-aydın nəticə alınır ki:

Nübuvvət ilahi nemətdir, qazanılası deyil.

## Peyğəmbərlər məsumdurlar

Keçən fəslin məzmunu bu nəzəriyyənin isbatı üçün kifayətdir. Çünki vəhy, onun məzmunu bəşərin ixtilaflarını zamana uyğun olaraq həll edən və insan cəmiyyətinin xoşbəxtliyini təmin edən bir sıra qanunlar olduğu üçün yaradılış sisteminin öhdədarlığı ilə həmin cəmiyyətə çatdırılmalıdır. Bu vasitəçidə səhvin olmayacağı aydındır. Vasitəçi isə vəhyi qavrayıb xalqa çatdıran Allahın peyğəmbəridir.

Deməli peyğəmbər 1) vəhyi qavramaqda; 2) dini qorunmaqda; 3) xalqa çatdırılmaqda səhvdən qorunmalıdır. Həmçinin aydındır ki, peyğəmbərin sözü təbliğ olduğu kimi onun iş və rəftarı da təbliğ xarakteri daşıyır.

Başqa sözlə, peyğəmbərin batini idrakı vəhyi qavrayıb qorumaqda, dili isə vəhyi xalqa çatdırmaqda səhv etməməlidir. Onun əməlləri ilə sözləri uyğun olmalıdır. Eyni zamanda, o, həyatın digər sahələrində adi bir insandır.

## Bir neçə nəzəriyyə

1-Nübuvvət qeyri-adi hadisə və fenomendir və onun səbəbi də özü kimi qeyri-adi şəkildə baş verir.

2- Vəhy adlı idrakı və nübuvvət hadisəsini sübut edən dəlil xariqüladə hadisələrin olmasını da sübuta yetirir. Bununla da, alimlər arasında səbəbiyyət qanunundan istisna hesab edilərək böyük əks-səda doğuran möcüzə problemi həll olur və aydın olur ki, peyğəmbərlərin möcüzələri də nübuvvətin özü kimi xariqüladə hadisədir. Xariqüladə hadisələrin yoxluğuna heç bir dəlil yoxdur. Əksinə, deyildiyi kimi onu varlığına sübutumuz var.

3- Nübuvvət meydana gələrkən bəşərin ixtilaflarının aradan götürülməsi üçün üzə çıxmış və həmişə həmin hədəflə də bağlı olacaqdır.

4- İnsan növünün təkamülü tədrici olduğu üçün nübuvvət də tədricən kamilləşir və hər yeni dini çağırış əvvəlkindən daha kamil olur. Əldə olan məlumatlar əsasında bu nəzəriyyəni Musa, İsa və Muhəmmədin (onlara salam olsun) dini çağırışlarına tətbiq etmək olar.

5- İnsanın vücudi təkamülü onun məhdud ehtiyacları ilə uyğun olmalı olduğu və bu ehtiyacların məhdud olduğu üçün onun təkamülü də məhduddur və nəticə etibarilə insanın xoşbəxtliyini hərtərəfli təmin edən bilən bir nübuvvət, artıq nübuvvət sisteminin tamamlayıcısı olacaq və bu qapı artıq bəşəriyyətin üzünə bağlanacaqdır.

“Belə bir nübuvvət bu vaxta qədər yaranıbmı? İslam peyğəmbərinin nübuvvəti həmin nübuvvətdəndir, yoxsa yox?” və s. kimi suallara gəlincə, bunlar “İslamın dini çağırışı” adlı ayrıca bir bəhsdə cavablandırılmalıdır. Bu suallara bizim cavabımızın müsbət olması da aydındır.

**Etiraz**

Sizin keçən bəhslərin formal nəticəsi bu idi ki, vəhy müəmmalı və qeyri-fikri bir idrakdır və insanlığı səadətə doğru yönəldən yeganə hidayətçi və ixtilafların həll olunmasının yeganə amilidir, halbuki biz faktiki olaraq görürük ki, bəşərə yaradılış sistemi tərəfindən belə hidayətçi lazım deyildir.

Çünki, bəşər şübhəsiz daimi olaraq bu növün səadətini təmin edən kamil bir cəmiyyət susuzudur və bütün bu çalışmalar və kollektiv yaşayışın müxtəlif sistemlərində və üsullarında aparılan islahatlar nəhayət bir gün insan cəmiyyətini öz hədəfinə çatdıracaqdır. Gördüyümüz kimi onun nişanələri də aşkardır.

Bu günkü sivilizasiyalı xalqlar arasında İsveçrə xalqı kimi mədəniyyət ocağı və səadət içərisində qərq olan bir xalq vardır və digər böyük dövlətlər də gündən günə real xoşbəxtliyə

yaxınlaşmaqdadırlar. Deməli bir gün bəşəriyyət öz çoxdankı arzusuna çatacaqdır.

**Cavab**

Böyük dövlətlərin xoşbəxtliyə tərəf inkişaf etməsi barəsində deyilən sözə gəldikdə, zənnimcə öncə deyilən sözlər bunun cavabında kifayətdir. Biz bu sivilizasiyalı xalqların mədəni inkişafını, gündən günə artan dəhşətli güclərini görüb əsrimizi işıq əsri adlandırmaqla və keçmişə nəzər salaraq ibtidai insanların vəhşiliyinə və orta əsrlərin zülmətinə gülməklə yanaşı və bu qrup[1] arasında sədaqət, saflıq, birlik, qayğı və insanpərvərlik görməklə bərabər, məsələyə diqqətlə yanaşdıqda əyani surətdə görürük ki, keçmiş qaranlıq dövrlərdə bir şəxslə başqa bir şəxs, yaxud zalım güclü bir şəxs ilə bir cəmiyyət arasında olan bütün əxlaqi çirkinliklər bu gün güclü cəmiyyətlərlə zəif cəmiyyətlər, bəşəriyyətin "tərbiyəçiləri" ilə bəşər, qərbli ilə şərqli, avropoid ilə neqroid, ziyalılarla geridə qalmışlır arasında həyata keçirilir.

Zülmün, hiylənin, saxtakarlığın, fəsadın və minlərlə digər sağalmaz xəstəliklərin müxtəlif növləri keçmişdə nizamsız və cahili şəkildə icra olunurdusa, bu gün tam incəliklə, yüzillik, minillik planlar əsasında ən dəqiq nizamla təsirli şəkildə icra olunur və insanlığı gündən günə yoxluq uçurumuna yaxınlaşdırır. Belə olduğu halda, bəşərin xoşbəxtliyə və səadətə, xüsusilə "bu anadan da mehriban dayələrin" əli ilə çatacağına ümid bəsləmək olmaz.

İsveçrə barəsində deyilən sözə gəldikdə isə, hər şeydən əvvəl xatırlatmaq lazımdır ki, insanın səadəti təkcə bir neçə günlük fiziki rahatlıq və maddi rifahda deyildir. İnsanın səadəti maddi və mənəvi, dünya və axirət səadəti adlı iki cəhətdən təşkil olunmuşdur. Bu ölkə isə yalnız maddi səadəti müəyyən

---

Mütərəqqi sayılan xalqlar (tərcüməçi)[1]

qədər əldə etmiş, insanın səadətinin ən üstün cəhətinin zəmanətçisi olan təkallahlılıq dinindən üz çeirmişdir. Təkallahlılıq dinini nəzərə almadan əxlaqi səadətə zəmanət vermək mümkün deyildir, nəticə etibarilə, cəmiyyəti islah edəcək qanunların da zəmanəti əsassız olacaq, dini və əxlaqi azadlıq insan cəmiyyətini bir sürü heyvana çevirəcəkdir.

Bütün bunlardan əlavə, bu ölkənin coğrafi şəraitini, onun iqtisadi cəhətlərini və dünyanın siyasi prosesləri nəzərə almaqla demək olar ki, bu ölkənin səadətinin onun öz ictimai axarından qaynaqlandığını söyləmək olmaz. Bu barədə bundan artıq danışmaq bizim bəhsin üslubundan kənardır. İsveçrədə olan şərait dünyanın hər yerində olmamış və olmayacaqdır. Bir gül ilə isə bahar olmaz.

**Vəhylə əqli idrak bir-biri ilə nə qədər uyğun ola bilər?**

Bu suala cavab vermək üçün peyğəmbərlərin ümumi xalq kütləsi ilə necə əlaqə yaratmasını və dini çağırışın onların fikirləri tərəfindən necə qəbul olunmasını araşdırmaq lazımdır .

Dini çağırış əvvəlcə aləmin yaranışı, sonu və insanların ülvi aləmlə bağlılığı məsələlərini, yəni tovhid və məad məsələlərini ortalığa atmış, sonra isə xalqı bu dünyagörüşünə əsaslanan əxlaqi xüsusiyyətlərə və cəmiyyətin mənafeyinə olan bir sıra qanunlara doğru hidayət edərək xeyrxahlığın üstünlüklərini onlara başa salmış və öz qanunlarının xeyrlərini ümumi şəkildə xatırlatmışdır ki, insanlar bu qanunlara əməl edərkən onların xeyrlərini təfərrüatı ilə dərk etsinlər.

Bu təhlilin nəticəsinə əsasən deyə bilərik olar ki, vəhyin hədəflərinin bizimlə bağlı olan tərəfini ağılla dərk etmək mümkündür: bir hissəsini birbaşa və müstəqil şəkildə, şəriətdən ibarət olan digər hissəsini isə vəhyi çatdıran peyğəmbərin sözü ilə. Necə ki, adi ictimai qanunlar da belədir. Hər hansı bir qanunverici özünün bütün hədəflərini təfərrüatı

ilə nəzərdə tutmadan qanunun bütün xeyirlərini dərk edə bilməz.

Burada diqqətəlayiq məsələ budur ki, bizim üçün sirli olan vəhyin necəliyindən xəbərimiz olmadığı kimi onun bu həqiqətlərə necə çatması bizim üçün da qaranlıqdır. Yəni dinin ehtiva etdiyi etiqadlar, əxlaqi məsələlər və qanunlar arasında bizim üçün qaranlıq olan həqiqi bir əlaqə vardır. Çünki əgər onlar arasındakı əlaqə eynilə bizim başa düşdüyümüz əlaqədən ibarət olsaydı, onları qavrayan vəhy adlı idrak bizim əqli idrakımızla eyni olardı. Halbuki belə deyildir.*

Buna görə də deməliyik ki, peyğəmbər vəhylə onların sirli əlaqəsini dərk etmiş, onu bizə çatdıran zaman isə adi dillə danışmış və bizim zehnimizin məntiqi əlaqələrindən istifadə etmişdir .

## Nübuvvət qurumunun əhatə dairəsi

Bütün bu deyilənlərdən aydın olur ki, nübuvvət insanın cismi və ruhi səadətinə zəmanət verən ilahi bir qurumdur və təkcə maddi toplumu hidayət edən bir qurum deyildir. Eləcə də, peyğəmbər ictimai bir mütəfəkkir və dahi yox, Allah tərəfindən seçilən bir şəxsdir. Haqq dinlərdəki bir sıra ibadətlər, həmçinin peyğəmbərlərin yaşayışdakı rəftarları və onların uzun-uzadı ibadətləri bu sözə ən yaxşı dəlildir .

## Ecazkarlıq və möcüzə

1 .Hər bir möcüzə növündən və formasından asılı olmayaraq xariqüladə bir işdir və gündəlik olaraq rastlaşdığımız adi səbəblər yolu ilə yaranmır.

Deməli əgər hər hansı bir hadisə bizim tanıdığımız və həqiqətinə vara biləcəyimiz adi səbəblər yolu ilə baş verərsə, yaxud məsələnin həqiqətinə vara bilməsək belə bir sıra nişanələrə əsasən həmin hadisənin adi səbəblərdən yarandığını

bilsək, bu cür hadisələrə möcüzə deyilmir. Möcüzə elə hadisələrə deyilir ki, onun baş verməsini adi səbəblərlə izah etmək mümkün deyildir və adi səbəblərin həmin hadisənin baş verməsində heç bir rolu ola bilməz.

Lakin bununla belə bütün xariqüladə işlərə möcüzə deyilmir. Çünki kəramət, duanın müstəcab olması, sehr və s. bu kimi işlər də xariqüladə işlərdir və bu cəhətdən möcüzə ilə birdir, lakin möcüzə ilə fərqli cəhətləri də vardır.

Adından məlum olduğu  və Qurani-kərimin Saleh, Musa, İsa (s) və digər peyğəmbərlərdən nəql etdiyi kimi möcüzə elə xariqüladə işlərə deyilir ki, haqqı sübut etmək üçün baş verir və insanları mübarizəyə çağırır. Bildiyimiz kimi Qurani-kərim də özünün haqq və Allah kəlamı olduğunu sübut üçün etmək insanları mübarizəyə çağırır. Peyğəmbərlər möcüzə gətirdikləri zaman bildirirdilər ki, “Allahdan başqa heç kəs ona qadir deyildir və möcüzə bizim Allah tərəfindən göndərilməyimiz barəsindəki iddiamızın doğruluğunun dəlilidir”.

Kəramət: Elə xariqüladə işdir ki, ruhi paklıq, batini saflıq və Allaha yaxınlıq sayəsində baş verir. Kəramət bəzi hallarda haqqın sübut olunması üçün də baş verə bilər, lakin bununla belə haqqı sübut etmək və insanları mübarizəyə çağırmaq kəramətdə şərt deyildir.

Duların müstəcab olması aydın bir məsələdir.

Sehr: Elə xariqüladə işlərə deyilir ki, sehr olunan insanların idrak duyğularında təsir qoymaq vasitəsilə yaranır. Odur ki, sehr yalnız ruha aid olan bir işdir və obyektiv aləmdə heç bir təsiri yoxdur. Buna misal olaraq gözbağlayıcılığın müxtəlif növlərini, insanların ruhuna təsir göstərərək bir-birinə qarşı məhəbbət və ya nifrət yaratmaq, ərlə arvad arasında ayrılıq salmaq və s. göstərmək olar ki, bütün bunlar idrak hisslərində təsir göstərməklə baş verir. Buna görə də bütün növ

kahinliklər, ruh çağırmaq və digər ruhi təsirlər sehrdən fərqli şeylərdir, lakin bütün bunlar xariqülada işlər olmaq və batil işlərdə istifadə olunmaq cəhətindən birdir .

2 .Möcüzə haqqındakı araşdırmaların çox qədim olmasına və nə zamandan başlaması barədə əlimizdə dəqiq məlumat olmamasına baxmayaraq, bu araşdırmaların başlanğıc nöqtəsinin aşağıdakı suallarndan yaranmasına şübhə yoxdur:

## İrad və cavab

Möcüzəni inkar edənlər istehza ilə bizə deyirlər: "Görəsən bizim əsrimizin çatışmazlığı nədir ki, artıq bu cür "bərəkətli" hadisələr baş vermir. Bu zamanın insanları nə günah etmişlər ki, artıq qeybi qüvvələr çalışmır ki, bütün bu sonsuz zehni istedadlar və heyrətləndirici elmi tərəqqi ilə əsanı əjdahaya çevirsin, yaxud qayanın içərisindən dəvə çıxarsın, bununla da dinin əleyhinə olan təmayüllərə son qoysun. Odur ki, dindarlar bu elm əsrində öz əqidələrini sübut etmək üçün keçmiş əsrlərin əfsanələrinə istinad edərək elmi yolla sübut olunası mümkün olmayan dörd-beş min il bundan öncəki Nəmrudun atəşindən və Musanın əjdahasından söz açırlar."

Onlara, milyon illərlə gedən təkamül nəticəsində insanın yaranması, yaxud yer kürəsinin birinci və ikinci dövrləri haqqındakı kimi bu günkü elmi fərziyyələrdə daha uzaq tarixə istinad edildiyini dedikdə "Bizdə bu barədə elmi faktlar vardır"- deyirlər. Əslində bu alimlər həqiqəti qəbul etmək istəmirlər. Halbuki onlar bilməlidirlər ki, bizim də möcüzəyə əbədi və bariz nümunə olan Quranımız vardır və bu kitab 14 əsrdir ki, aydın şəkildə bütün insanları mübarizəyə çağırırdığı halda indiyədək heç kəs onunla mübarizə apara bilməmiş, bundan sonra da apara bilməyəcəkdir. Bundan əlavə, İslam peyğəmbəri tərəfindən qoyulmuş və hər bir imanlı müsəlman üçün mümkün ola bilən "mübahilə" adlı başqa bir xariqüladə

iş də vardır ki, İslam dininin rəhbəri olan həzrət Məhəmmədin (S) əbədi möcüzəsi və onun ümmətinin kəramətidir. Mübahilə odur ki, hər bir imanlı müsəlman Peyğəmbəri örnək götürərək Islam dininin təlimlərinin haqq olduğunu sübut etmək üçün düşmənlə mübarizəyə girişib Qadir Allahdan onun məhv olmasını istəyə bilər. Bu alimlər istədikləri zaman imanlı bir müsəlmanla mübahilə edib bu pak dinin və onun təlimlərinin haqq olduğunu, eləcə də möcüzənin həqiqətini öz gözləri ilə görə bilərlər. (Bu meydan, bu şeytan)

## İrad və cavab

Onlar deyirlər: "Əgər möcüzə heç bir səbəb olmadan və səbəbiyyət qanunundan müstəsna şəkildə baş verirsə, belə bir şey mümkün deyil. Əgər digər adi hadisələr kimi səbəblər vasitələ həyata keçirsə, bu halda artıq onun təbii səbəblərindən xəbərdar olan şəxs üçün yox, bu səbəblər barəsində məlumatı olmayan şəxs üçün möcüzə sayıla bilər. Deməli əgər bir gün bütün təbii səbəbləri elmi yolla kəşf edə bilsək, artıq möcüzə deyilən şey qalmayacaq. Nəticə etibarı ilə demək olar ki, möcüzə həqiqi yox, nisbi bir dəlildir. Bu iradın cavabında demək lazımdır ki, öncə qeyd olunduğu kimi ümumi səbəbiyyət qanunu istisnasız bir qanundur və möcüzənin də hətta bizim üçün məchul olsa belə başqa hadisələr kimi təbii səbəbləri vardır. Şübhəsiz ki, insanların bütün səbəbləri heç zaman kəşf edə bilməyəcəyini qəti şəkildə iddia etmək çətindir. Lakin diqqət etmək lazımdır ki, möcüzə təkcə bu deyil ki, qeyri-adi maddi səbəblərdən yaransın, əksinə möcüzənin əsl həqiqəti onun məğlubedilməz bir qüdrətə söykənməsidir. Odur ki, möcüzənin məchul səbəbini tanımağın insana heç bir xeyri yoxdur, çünki sonsuz bir qüdrətdən qaynaqlanan belə bir hadisəni yaratmaq heç zaman ona müyəssər olmayacaq.

Buradan aydın olur ki, bəzi alimlərin bu iradın cavabında dedikləri: “Hər əsrin möcüzəsi sonrakı əsrlərdə başqaları üçün də mümkün ola bilər. Lakin öz baş verdiyi əsrdə peyğəmbərlərdən başqaları üçün həmin işi görməyin qeyri-mümkün olması onun möcüzə olması üçün kifayətdir” sözü doğru deyildir. Çünki qeyd olunduğu kimi möcüzənin əsasını təşkil edən onun sonsuz və məğlubedilməz bir qüvvə ilə əlaqədə olub haqqı sübut etmək üçün insanları mübarizəyə çağırmasıdır. Bu isə həmişə peyğəmbərlərdən başqaları üçün qeyri-mümkündür.

## Nəticə

Allah hər şey üçün bir ölçü və miqdar təyin etmişdir. Aydındır ki, hər bir hadisənin ölçüsü onun səbəblər və şərait vasitəsilə müəyyənləşən vücudi miqdarıdır. Necə ki, insan görmə, eşitmə, hərəkət, iş, çalışma, qidalanma, həzm və s. kimi işlərində bir sıra hüdud və miqdarlarla məhdudlanmışdır və onlardan kənara çıxa bilmir. Məsələn, əşyaları yalnız gözü ilə, o da işığın olması, cismin müəyyən bir məsafədə yerləşməsi və s. kimi xüsusi bir münasib şəraitdə görə bilir. Eləcə də qidalanma prosesi qidanın və sağlam qida mexanizminin olması və s. kimi münasib şəraitdə baş verir. Bütün bu şərait insanın işinin səbəbləridir və qəlib öz içərisinə salınan cismə xüsusi forma verdiyi kimi bu şərait də həmin işə xüsusi bir hədd və ölçü verir.

Bizim aləmdəki bütün varlıqlara bu qanun hakimdir, odur ki, hər bir varlıq öz fiziki fəaliyyətində xüsusi bir ölçü ilə məhdudlanmışdır, onun məhdudlanması isə daxili və xarici məhdudiyyətlər nəticəsində, başqa sözlə onun təsirlərinin yaranmasında rolu olan səbəblər nəticəsində əmələ gəlir. Varlıqların miqdarı və ölçüsü haqqındakı bütün ayələr bu həqiqəti aydın şəkildə sübut edir. Bu ayələrdən biri “Hicr” surəsinin 21-ci ayəsidir:

“Elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən miqdarda endiririk.”

Həmçinin buyurur:

“Elə bir canlı yoxdur ki, onun ixtiyarı Allahın əlində olmasın. Çünki Rəbbimin işləri yeknəsəqdir.”

Ayə bildirir ki, səbəbin təsiri olan miqdar adi və ya qeyri-adi olmasından asılı olmayaraq bütün hadisələrə yeknəsəq şəkildə hakimdir.

Bu ayə başqa yolla da bizim fikrimizi ifadə edə bilər. Çünki Quran başqa bir yerdə buyurur: “Hər bir şeyi yaradan,

Allahdır.” Yuxarıdakı ayəyə əsasən isə Allahın bütün işləri yeknəsəqdir. Deməli maddi aləmdə baş verən hadisələrdən bəzilərin səbəblər vasitəsi ilə, bəzilərin isə heç bir vasitəçi səbəb olmadan birbaşa Allahdan vücuda gəlməsi mümkün deyildir.

Peyğəmbərlərin iradəsənin möcüzədə təsirinə gəldikdə isə, uca Allah başqa bir yerdə buyurur: “Heç bir peyğəmbər Allahın izni olmadan möcüzə gətirə bilməz.” Peyğəmbərlərin iradəsənin möcüzədə təsiri ayədən aşkar şəkildə məlum olur. Çünki ayə bildirir ki, möcüzənin gətirilməsi Allahın izninə bağlıdır. Izn isə o yerdədir ki, işin görülməsi üçün şərait hazırdır və sadəcə olaraq bütün şəraitin tamamlanması üçün sonda icazəyə ehtiyac vardır. Əgər peyğəmbərlərin iradələrinin möcüzənin baş verməsində təsiri olmasaydı, Allahın onlara icazə verməsi də mənasız olardı. Vəhy, möcüzə gətirən şəxslərin iradələrinin uca Allahın məğlubedilməz iradəsinə arxalandığına gəldikdə isə, möcüzə haqqında keçən ayə və eləcə də başqa bir çox ayələr bütün hadisələrin və varlıqların yaranmasında hər bir şeyin ixtiyarını bütün cəhətlərdən Allahın əlində bilir və onun tam mülkü adlandırır. Lakin eyni zamanda möcüzənin məğlubedilməzliyini bildirən bir çox ayələr də vardır. Onlardan bir neçəsinə burada işarə edirik:

Allah (lövhi-məhfuzda): "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır.

“And olsun ki, peyğəmbər bəndələrimiz haqqında əvvəlcədən bu sözü demişdik: "Onlar mütləq qalib gələcəklər. Bizim əsgərlərimiz labüd olaraq zəfər çalacaqlar!"

“51. Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi qiyamət günündə yardım edəcəyik!”

“Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!”

Möcüzənin sehri məğlub etməsi barədə buyurur:

“Sizin etdiyiniz şey sehrdir. Allah, sözsüz ki, onu batil edəcəkdir.”

Bütün bu deyilənlərdən aydın olur ki, möcüzə haqqında Quranın nəzəri əqlin nəzəri ilə üst-üstə düşür. Daha yaxşısını bilən Allahdır.

## Ədəbiyyat

1- Qurani-kərim
2- Nəhcül-bəlağə
3- Amoli, Cavadi, Təsnim, Qum, 1396
4- Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389
5- Məkrim Şirazi, Təfsire-Nümunə, Qum, 1390

# Quran elmləri

*Azər Quliyev*

**Abstrakt**

Bəşər tərəqqiyə çatmasına, müxtəlif elm və texnikalara yiyələnməsinə rəğmən, insanın fitrətindən doğan şəxsiyyətə təzim meylinin daimiliyi danılmaz bir həqiqətdir. Bəşərin təzim və ehtirama layiq bildiyi varlıq və şəxsiyyət, fərqli formalarda pərəstiş olunan həmin Allahdır. Biz müsəlmanların Quranı diqqətdə saxlaması, əslində düzgün Allahı tanıma yollarına yönəlmək, digər tərəfdən şirk və nadanlıqdan uzaqlaşmaqdır. Qurana əhəmiyyət vermək və onu öyrənmək fironsayağı, allahvari yaşamı inkar etməkdir. Şübhəsiz, Quranda dəfələrlə işarə olunan ən önəmli mövzulardan biri tövhiddir. Tövhidi bilmək, əslində Allah yolunda olmaqdır. Quranla ünsiyyət və onu öyrənməyimiz, həqiqətdə özümüzü ilahi yolda qərarlaşdırmaqdır. Quranı öyrənməyin ən mühüm hədəfi, şübhəsiz elə budur. Quranın təfəkkür və idraka hədsiz diqqəti və idrak vasitəsilə insanın təkamülü nazil olmanın başlıca məqsədlərindəndir. Ona görə də biz hər keçən gün Qurandan möhkəm yapışmalı və allahçı olmağın yollarını zikr əhlindən – "Zikir əhlindən soruşun!" – soruşmalıyıq. Bəlkə bununla hər keçən gün Quranın göstərişlərinə, tərbiyə prinsiplərinə əməl etməkdə səy göstərək.

**Açar kəlmələr:** Quran elmləri, vəhy, qiraət, təhrif

## Giriş

İnsan, mənəvi və maddi ünsürdən təşkil olunmuş bir varlıqdır. O, maddi olaraq yaradılsa da, – "Şübhəsiz, insanı xalis gildən yaratdıq!" – özündə ilahi xislət və əxlaqı ehtiva edir – "Ona Öz ruhumdan üfürdüm" .

Maddi ləzzətlərin qısa müddətdə və asanlıqla qazanılması, habelə bu ləzzətin əldə edilməsindən razı qalmaq kimi amillər insanın maddiyyata daha çox önəm verməsinə və nəticədə Allahı unutmasına şərait yaradır. Bu təhlükəni aradan qaldırmaq və insanı sırf maddiyyata diqqətdən ayırıb, nəzərini ali üfüqlərə yönəltməsi üçün Allah-taala bəşərin hidayətindən ötrü bir sıra həqiqəti əks etdirən müxtəlif dəlillər göndərmişdir. O cümlədən, peyğəmbərlər, ilahi övliyalar, məsum imamlar, səmavi kitablar, təbiətin yaradılışı və s. Səmavi kitablar, heyvansayağı və ötəri mühitdən əbədi aləmə yönəlmələri üçün insanlara göndərilən "həyat üçün təlimat kitabçası" ünvanındadır.

## Quran elmlərinin tərifi

Quranın tanışlığı ilə bağlı bir-birilə rabitədə olan və onun müxtəlif mövzu və xüsusiyyətlərini əhatə edən məsələlər toplusu "Quran elmləri" adlanır. Yəni "Quran elmləri" Quranın zahiri elmləri barədə bəhs edir. Quran elmləri təfsir elminin müqəddiməsi sayılır.

Bu bəhslərin "Quran elmləri" adı ilə və cəm şəkildə (elmlər) işlədilməsinin səbəbi nədir?

Cavab: Quran elmlərində bəyan edilən hər bir məsələ öz çərçivəsi daxilində müstəqilliyə malikdir və adətən, həmin elmin digər məsələləri ilə o qədər də yaxın rabitəsi yoxdur. Misal olaraq "Təcvid", "Quranın tarixi", "Qiraət" və s. elmlərin adını çəkə bilərik.

**Mövzusu**: Qurani-kərim

**Əhəmiyyəti:**

a) İnsanda Quranın tədqiq və araşdırılması ilə bağlı maraq yaranır. Eyni zamanda, onun mövzuları ilə daha yaxından tanış olmağa səbəb olur.

b) Quranın düzgün şəkildə başa düşülməsi Quran ayələrinin “məkki-mədəni”, “möhkəm-mütəşabih” olmasını bilmək, Quranın düzgün şəkildə oxunuşu və s. bir sıra müqəddimə məsələlərə əsaslanır.

c) İnsan Quranı təfsir etmək üçün özündə hazırlıq və güc tapır.

**Zəruriliyi:** İlahi məqsədləri düzgün və dərin anlamaq üçün Quran elmlərini bilmək lazımdır.

İlahi kitabın hüdudlarını qorumaq üçün onu daha çox tanımalıyıq.

**Quran elmləri tarixçəsi**

Quran əbədi möcüzə, ilahi vəhy və sonuncu dinin – İslamın yazılı salnaməsi olduğundan daima müsəlmanların diqqət mərkəzində olmuş və ona xüsusi önəm verilmişdir. Hicrətin birinci yüzilliyində Peyğəmbərin (s) səhabələri, tabeinlər, ardınca isə din alimləri Quran və onunla əlaqədar mövzulara, elmlərə xüsusu diqqət sərgiləmişlər. Bu da, “Quran elmləri” adlı yeni bir ixtisasın meydana gəlməsi ilə nəticələnmişditr. Sözügedən elm, Qurandaxili və Quranxarici mövzuları araşdıraraq, vəhyin bizə məlum olmayan tərəflərini, ilk baxışda nəzərə çarpmayan incəliklərini, habelə hər ağlın və qəlbin vara bilmədiyi məna dərinliklərini kəşf edib ortaya çıxarmağa, nəticədə kəşf edilən gövhərləri Quran oxucularına töhfə verməyə çalışır.

Peyğəmbər (s) əsrində digər elmlər, o cümlədən kəlam, fiqh, əxlaq, təfsir, qiraət elmi kimi Quran elmləri adlı rəsmi bir elm formalaşmasa da, səhabələr arasında bu elmin qığılcımlarına rast gəlmək olur. Bu istiqamətdə həzrət Əlinin (ə) rolu əvəzsiz və danılmazdır. Nümunə olaraq qeyd edək ki, alimlərin fikrincə, Rəsulullahın (s) səhabələri arasında Quranı təfsir edən və Quran elmlərini bilən ilk şəxs Əli ibn Əbu Talib (ə) olmuşdur. İbn Abbas kimi dahi şəxsiyyət də təfsir elmini o həzrətdən mənimsəyib öyrənmişdir.

Həmçinin, xəlifələr arasında Quran elmləri mövzusunda ən çox hədis nəql edən şəxs Əli ibn Əbu Talib (ə) olub.

Bundan əlavə, Abdullah ibn Abbas, Abdullah ibn Məsud və Ubəyy ibn Kəb ibn Qeys Quranın təfsiri və qiraətində özlərinə görə xüsusi yerləri olub və digərləri Quranı onlardan əxz ediblər.

Quran elmləri haqqında kitab yazmaq hicri tarixlə birinci əsrdən başlayıb. O dövrdən etibarən bir çox alim Quranla bağlı müxtəlif mövzular haqqında kitablar yazıblar. Onlardan bəzilərinin adlarını qeyd edirik:

**Birinci əsrə aid:**

1. Həzrəti Əli (ə)
2. Əbul-Əsvəd Duəli həzərt Əlinin (ə) göstərişi ilə "Nəhv" elmi (ərəb dili qrammatikası) haqqında ilk əsəri yazmışdır.
3. Əbul-Əsvəd Duəlinin şagirdlərindən olan Yəhya ibn Yəmur "Qiraət" elmi haqqında kitab yazmışdır.

**İkinci əsrə aid:**

1. Həsən ibn Həsən Yəsar Bəsri "Nuzulul-Quran və ədədu ayil-Quran" kitabını yazmışdır.

2. İmam Səccadın (ə) tələbələrindən olan Əban ibn Təğlib Quranın qiraəti, mənaları və ğəribul Quran haqda kitablar yazmışdır.
3. Məqatil ibn Süleyman, "Əl-Ayətul-mutəşabihat" kitabını yazmışdır.
4. Əbu-Əmr Təmimi, "Əl-Vəqfu vəl-ibtida" və "Əl-Qiraat" adlı kitabları yazmışdır.
5. Xəlil ibn Əhməd Fərahidi, Quranın xətti haqda ilk kitabı yazmışdır.

**Üçüncü əsrə aid:**

1. Yəhya ibn Ziyad, Quranın mənaları haqqında kitab yazmışdır.
2. Əbu-Ubeyd ibn Səlam, "Fəzailul-Quran", "Ğəribul-Quran" və "Ecazul-Quran" kitablarını yazmışdır.
3. Şeyx Məhəmməd ibn Cərir Təbəri, "Camiul-bəyan ən-təvili ayil-Quran" təfsirini yazmışdır.
4. Məhəmməd ibn Məsud Səmərqəndi, "Təfsirul-Əyyaşi" kitabını tərtib etmişdir.
5. Əli ibn İbrahim Qumi, "Təfsirul-Qumi" əsərini yazmışdır.

**Quran elmlərinin əhatə etdiyi bir sıra mövzular**

1. Vəhy
2. Quranın nazil olması
3. Quranın ad və sifətləri
4. Qurani-kərimin hissələri
5. Müqəttəə hərflər
6. Məkki və mədəni surə və ayələr
7. Quranın qiraət növləri
8. Quranın toplanıb kitab halına salınması
9. Quranın təhrif olunmaması
10. Möhkəm və mütəşabih ayələr

**“Quran elmləri” barədə yazılan kitablardan bir neçə nümunə**

1. “ət-Təmhid fi ulumil-Quran”, Ayətullah Şeyx Məhəmməd Hadi Mərifət, (vəfatı 1427 h.q) 10 cild, ərəb dilində.
2. “Quran elmləri ensiklopediyası”, Hacı İlqar İsmayılzadə, 1 cild, Azərbaycan dilində.
3. “əl-İtqan fi ulumil-Quran”, Cəlaləddin Süyuti, (vəfatı 911 h.q) 7 cild, ərəb dilində.
4. “əl-Burhan fi ulumil-Quran”, Bədrəddin Məhəmməd ibn Abdullah Zərkeşi, (vəfatı 794 h.q), 4 cild, ərəb dilində.
5. “Ulumi-Quran”, Ayətullah Mərifət, (Doktor Cavad İrəvani tərcümə etmişdir), 3 cild, fars dilində.
6. “Tarixi-Quran”, Məhəmməd Hüseyn Məhəmmədi, 1 cild, fars dilində.

**“Quran” sözü lüğətdə**

Bu barədə Quran və lüğət alimləri tərəfindən müxtəlif fikirlər irəli sürülmüşdür:

1. “Quran” sözü, əslində “qərəə” (قَرَءَ) kökündən olub, “tilavət” (oxumaq) mənası daşıyır. Şeyx Təbərsi bu barədə yazır: “Quran sözü əslində oxumaq mənasını bildirən və oxumaq sözünün məsdəri sayılan “qiraət” kökündəndir.”
2. “Quran” sözü əslində “qərən” (قَرى) kökündən olub “cəm” və “toplamaq” mənasına malikdir.

Belə ki, Qurani-kərim öncə nazil olmuş bütün səmavi kitablardakı bütün həqiqətləri və maarifi özündə toplamışdır.

3. Yəhudilərin kitabı “Tövrat” və məsihilərin kitabı “İncil” adlandığı kimi, müsəlmanların kitabı da “Quran” adlandırılmışdır və bu ad hansısa sözdən alınmamışdır.
4. “Quran” sözü əslində “qərain” (قَرائن) kökündən olub, “oxşar əlamətlər və nişanələr” mənasına malikdir. Çünki bu

müqəddəs kitabın ayələri bir-birini təsdiq edir və bir-birinə bənzəyirlər.

5. “Quran” sözü əslində “qərənə” (قرن) kökündən olub, “dəlalət” və “işarə” mənasını daşıyır. Çünki bu müqəddəs kitab bütün insanların səadət və hidayəti üçün dəlil və işarə sayılır.

**Qeyd:** Yuxarıdakı mənalardan daha çox birinci məna məqsədə uyğundur. Deməli, “Quran” sözü müqəddəs kitabımız çox oxunduğu üçün əslində “qərəə” kökündən olmuş və “tilavət” (oxunmuş) mənasını daşıyır.

**Qurani-kərim**

–İslam dinində Quran peyğəmbərlərin sonuncusu həzrət Məhəmməd (s) vasitəsilə Allah tərəfindən bəşərin hidayətindən ötrü müsəlmanlara göndərilən səmavi və müqəddəs kitabın adıdır.

–Quran müsəlmanlar, hətta qeyri-müsəlmanlar arasında Allah tərəfindən İslam peyğəmbəri həzrət Məhəmmədə (s) nazil olmuş səmavi və müqəddəs kitabın adıdır.

–Quran İslam dininin ən mötəbər mənbəyi, İslam maarifinin ilk qaynağı, fərqli – fəsahət (fikri səlislik), bəlağət (fikri incəlik), ritorika, qədim tarix, tərbiyə və əxlaqa dair mövzularla bağlı göstərişlər – cəhətlərdən misilsiz bir kitabdır.

–Quran həzrət Məhəmmədin (s) ən böyük möcüzəsi və İslamın canlı və əbədiyaşar sənədidir. Endiyi gündən etibarən öz əsalətini (orijinallığını) qoruyub saxlamış və qiyamətədək toxunulmaz olan tək səmavi kitabdır.

## Dünya alimlərinin Quran barəsində söylədikləri

1. Doctor Henry Corbin, tanınmış fransalı islamşünasın Quran barəsində çox maraqlı bir sözü vardır. O deyir:

“Əgər Quran xürafat olsaydı, Allah tərəfindən göndərilmiş olmaz və heç vaxt bəşəriyyəti elmə və düşüncəyə dəvət etməyə cürət edə bilməzdi. Heç bir düşüncə Məhəmmədin Quranı qədər insanı elmə dəvət etməmişdir, Quranda 950-yə yaxın ayədə yalnız elm, ağıl və fikir barələrində söz açılmışdır.”

2. Ernest Renan, tanınmış fransalı filosof yazır:

“Mənim kitabxanamda siyasi, ictimai, ədəbi və.s. müxtəlif mövzularda minlərlə kitab var və onların hər birini bir dəfədən artıq oxumamışam. Amma bir kitab vardır ki, həmişə mənim munisimdir, hər dəfə nədənsə sıxıldıqda və ya mənəviyyat, kamal qapılarının üzümə açılmasını istədikdə, o kitabı oxuyuram və o kitab Quran – müsəlmanların səmavi kitabıdır.”

3. Mahatma Gandhi, Hindistanın mərhum liderı yazırdı:

“Quran elmlərini öyrənməklə, ictimai mövqeyindən asılı olmayaraq hər bir şəxs vəhyin sirlərini, dinin hikmət və fəlsəfəsini dərk edə bilər. Quranda insanların din və məzhəblərini dəyişmələrinə dair heç bir məcburiyyət görülməmişdir, əksinə olaraq Quran aşkarcasına elan edir:

لاَ إِكْرَاهَ فِي الدِّينِ...

“Dində (İslamda) hər hansı bir zorakılıq və icbar yoxdur.”

4. Vil Dyurant, amerikalı şərqşünas alim yazır:

“Quranda qanunla əxlaq ayrılmazdır. Quran baxımından dini davranışlar dünyəvi davranışları da əhatə edir. Bütün bunlar Allah tərəfindən vəhy vasitəsi ilə göndərilmişdir. Quran, hər hansı bir adət-ənənəyə tabe olmayan azad və ən sadə insanların belə asanlıqla dərk edə biləcəkləri ideologiyanı vücuda gətirir.”

## Vəhy, Quran və hədis baxımından

Söhbət Quranın fəzilətindən düşsə, yaxşı olar ki, bu barədə danışmaq istəyən özünü onun əzəməti qarşısında kiçik saysın, onun dərin mənalarını dərk etməkdə aciz olduğunu etiraf etsin. Bəlkə də bu, səmimi bir etiraf Quran barəsində nə isə deməkdən daha münasib olardı?!

İnsan müvəqqəti, (əql və qüdrət baxımından) məhdud və naqis varlıq olduğu bir halda, özünün elm və qüdrəti hər şeyi əhatə edən mütləqiyyəti, hər şeyi yoxdan yaradan kamil bir varlığı dərk edə bilərmi?

Hər hansı bir yazıçının qələmi və ya çıxış edən natiqin bəyan tərzi nə qədər güclü olsa da, Qurandan üstün və ya ona bərabər bir şey ifadə edə bilərmi? Məhdud bir varlıq özü kimi məhdud varlıqdan başqa bir vücudu vəsf və ya tərif etməyi bacararmı?

Quranın əzəmətini layiqincə bəyan etməyə qadir olan yalnız onun öz ayələri və bəşəriyyətin (həzrət Peyğəmbər (s)) vasitəsilə haqqa hidayət, habelə xoşbəxt həyatlarının təmin olunmalarının möcüzəsi ola bilər.

Bu asimani kitab əsrlər boyu bəşəriyyətin xoşbəxt həyat təminatçılığını və eyni zamanda onların üzərində olan rəhbərliyi öz öhdəsinə götürmüşdür.

Quranın bir çox ayələrində bu haqda deyilir:

«Həqiqətən, bu Quran [bütün bəşəriyyəti] ən doğru yola [islama] yönəldir». (9/17).

«Bu Quran elə bir kitabdır ki, onu sənə, insanların öz Rəbbinin izni ilə zülmətlərdən nura [küfrdən imana], həm də yenilməz qüvvət sahibi və hər cür tərifə, şükrə layiq olan Allahın yoluna [islam dininə] çıxartmaq üçün nazil etmişdir». (1/14).

«Bu, [belə əhvalatlar] insanlardan [xalqdan] ötrü [olub keçənlərə dair] bir xəbər, müttəqilərdən ötrü isə doğru yola göstəriş və nəsihətdir». (138/9).

Peyğəmbər (s)-dan bu haqda nəql olunmuş hədisdə deyilir:

«Allah-taala bütün varlıqlardan üstün olduğu kimi, Onun buyurduqları da bütün söylənilənlərdən üstün və fəzilətlidir.»

Demək, Quranın fəziləti haqda nəyi isə söyləmək insanların bacarıq və qüdrətindən xaricdir. Və belə olduğu bir halda, bu işi Quranın özündə yaşayan, onunla hidayət olub başqalarını da hidayət edən Əhli-beytin (ə) və Quran həqiqi mütəxəssislərinin öhdəsinə qoymaq lazımdır.

Quranın əzəmət və fəzilətini dərk edən həqiqi şəxslər məhz onlardır.

Belə ki, Quranı bəşəriyyətə çatdıran və onları şəri hökmlərlə tanış edən şəxs, onların (Əhli-beytin) cəddi həzrət Məhəmməd (s) olmuşdur. Onun, Quranın fəziləti haqqında buyurduğu hədislərdən birində deyilir:

«Mən özümdən sonra sizin üçün iki ədəd çox qiymətli və ağır əmanət qoyub gedirəm. Quran və Əhli-beytimi. Bu iki əmanət qiyamət gününədək bir-birindən ayrılmayacaqdır və o gün Kovsər hovuzunun kənarında mənə qovuşacaqlar.»

Buradan belə məlum olur ki, Peyğəmbər (s) və onun Əhli-beyti Quranı hamıdan daha çox dərk etmiş, özlərində yaşadaraq ona iman gətirmiş və bundan sonra xalqı haqqa doğru hidayət etmişlər. Belə isə, Quranı yaxından dərk etmək üçün onlar tərəfindən nəql olunmuş hədisləri nəzərdən keçirib, onların haqq yoluna qoşulmalıyıq.

Quranın fəziləti haqqında Əhli-beyt (ə) tərəfindən onlarlca hədis və rəvayət nəql olunmuşdur. Əllamə Məclisi bu hədisləri «Biharul-ənvar»ın 19-cu cildində bir yerə toplayaraq ayrıca bir fəsil tərtib etmişdir. Burada həmin hədislərdən bir neçəsini təqdim edirik:

**Birinci hədis:**

Haris Həmdani deyir: «Günlərin bir günündə məscidə daxil olub orada bir dəstə şəxsin faydasız mübahisələrə məşğul olduğunu gördüm. Əli (ə)-ın yanına gedib gördüklərimi ona danışdım. Buyurdu: Doğrudanmı sən bunları özün müşahidə etdin? Dedim: Bəli. Sonra buyurdu: Haris! Bir gün Peyğəmbər (s) mənə bu sözləri dedi: «Çox keçməz (müsəlmanlar arasında) fitnə və qarşıdurmalar yaranar.» Dedim: Ya Rəsuləllah! Bunlardan necə yaxa qurtara bilərik? Buyurdu: «Siz Allahın nazil etdiyi Quranla bütün ixtilaf və qarşıdurmalarınızı aradan qaldıra bilərsiniz. Onun vasitəsilə haqq ilə batil bir-birindən asanlıqla ayrılar. Quran elə bir kitabdır ki, orada nə bir kəlmə zarafat, nə də bir mənasız ifadələrə rast gəlmək olar. O elə bir kitabdır ki, zalım və sitəmkarlar onu özlərindən uzaq etmək istəyirlər. Allah-taala da onları xar edərək fəlakətə düçar edər. Hər kim hidayət yolunu Qurandan ayrı bir vasitələrlə axtararsa, şübhəsiz, yolunu azacaq və zəlalətə düçar olacaqdır. Quran Allahla insanlar arasında olan qırılmaz rabitədir. Bəşəriyyəti haqqa hidayət edən Quran, nəfsani istəklər və əhrimənlər tərəfindən dəyişilməsi mümkün olmayan hikmətlə dolu bir kitabdır. Quran keçmişdə və gələcəkdə baş verən əhvalatları əhatə edir.

Quran vasitəsilə dillər təhrif və dəyişikliklərdən qorunar və heç bir faydası olmayan mübahisələrə birdəfəlik son qoyular. Alim və mütəfəkkirlər Quran ayələri ətrafında araşdırmalar aparar və heç vaxt yoruldum deməzlər. İllər, əsrlər keçdikcə, Quran öz möcüzəsini saxlayar və aşiqlərinin qəlbində daha dərin izlər qoyar.

Quran hətta cinləri belə, heyrətə gətirmiş və onlar Quran haqqında bu sözləri demişlər:

«Biz çox qəribə, təsəvvüredilməz dərəcədə gözəl olan bir Quran eşitdik. O, [xalqa] haqq yolu göstərir. Biz ona iman gətirdik».

Quranla danışanların sözü kəsərli və məntiqli olacaqdır. Onunla qəzavət edən şəxsin çıxardığı hökm ədalətli, öz əməllərini onunla tətbiq edən şəxslərin aqibəti isə xeyirlə nəticələnəcəkdir. Hər kim insanları Qurana doğru çağırarsa, onları haqqa hidayət etmiş olar.

Nəsihətlərin sonunda Əli (ə), Harisə bu sözləri buyurdu: «Ey Əvər, bu hədisi məndən yadigar saxla.» (Sünən Darəmi, 2/435, Səhih Termizi, 11/30).

Hədisin izahı:

Hədisdə bir neçə maraqlı mətləbə toxunulur:

«Quran keçmişdə və gələcəkdə baş verən əhvalatları əhatə edir.» Burada bir neçə mətləb nəzərə çarpır:

a) Bəlkə də «gələcəkdə baş verən əhvalatlar» deyildikdə, qiyamət günü nəzərdə tutulur. Çünki, Quranın bir çox ayələrində insanın qiyamət gününə, məhşərdə aparılacaq sorğu-suallara, onların gördükləri işlərə müvafiq olaraq mükafatlandırılıb-cəzalandırılacaqlarına əhəmiyyət verməlerinə xüsusi diqqət yetirilmişdir. Və eyni zamanda Əli (ə)-ın buyurduğu «Quranla siz bütün ixtilaf və qarşıdurmalarınızı aradan qaldıra bilərsiniz. Quran sizin axirət dünyanızı və öldükdən sonra bir daha diriləcəyinizi belə bəyan edir» sözləri bir daha bunları sübuta yetirir.

b) Bəlkə də «gələcək» deyildikdə məqsəd, Quranın gələcək hadisələr barəsində əvvəlcədən xəbər verməsidir. Belə ki, bir çox hadisələr Quran ayələri nazil olduqdan sonra baş vermişdir.

v) Bu barədə verilən üçüncü nəzəriyyə Quranın keçmiş qövm və millətlər barəsində xəbər verməsidir. Quran onların keçmiş tarixinə nəzər salaraq gələcək millət və nəsillərin bu

yolu keçəcəklərinə işarə etmişdir. Bu ehtimala əsasən deyə bilərik ki, yuxarıdakı hədislərdə İnşiqaq surəsinin 19-cu ayəsi nəzərdə tutulur. Orada deyilir:

«Siz [ey kafirlər, qiyamət günü] haldan-hala düşəcəksiniz».

Yəni, siz də özünüzdən əvvəlki qövmlərin getdikləri batil yolu gedəcək və özünüzü ağır həlakətə düçar edəcəksiniz.

Eyni zamanda bu hədis Peyğəmbər (s)-dan nəql olunmuş hədisə də dəlalət edə bilər. Hədisdə deyilir: «Siz də özünüzdən əvvəlkilərin puç və batil həyat tərzini dirildəcək və onların adət-ənənələrini davam etdirəcəksiniz.» (Kənzul ummal, 6/40).

2. «Quran elə bir kitabdır ki, zalım və sitəmkarlar onu özlərindən uzaq etmək istərlər. Allah-taala da onları xar və böyük fəlakətə düçar edər» deməklə, Peyğəmbər (s) Quranın zalım və bidətçilər tərəfindən təhrif olunmayacağını və əbədi olaraq öz əzəmətini saxlayacağını bəyan etmək istəmişdir.

Onlar əvvəlki səmavi kitabları təhrif etdikləri kimi, heç vaxt Quranı əyləncə vasitəsinə çevirməyə və onun hökümlərini dəyişməyə nail olmayacaqlar. («Əlhuda ila dinul Mustəfa», 1/34).

«Şəxsi meyl və istəklər orada dəyişikliklər apararaq onun həqqaniyyətinə xələl gətirə bilməzlər.»

Biz bilirik ki, bəşər Quran ayələrini öz şəxsi rəy və nəzərləri ilə təfsir etmiş və oradan müxtəlif mənalar əldə etmişlər. Amma bütün bunlara baxmayaraq, onun həqiqi mənası öz dəyişilməzliyini saxlamış və qiyamət gününə qədər də toxunulmaz olaraq qalacaqdır.

3. Hədisdən əldə etdiyimiz üçüncü mühüm mətləb Quranın bütün ixtilaf və keşməkeşləri həll etməsidir. Belə ki, hədisdə deyilir «Allahın nazil etdiyi Quranla siz bütün ixtilaf və qarşıdurmalarınızı aradan qaldıra bilərsiniz.» Bu bir daha

Quranın qəzavət və ictimai ədalətin bərqərar olunması üçün ən gözəl vasitə olduğunu sübuta yetirir.

Bəli, əgər müsəlmanlar öz maddi və mənəvi həyatlarında Qurana sığınaraq onun hökmlərindən lazımı qaydada istifadə etsəydilər, həqiqəti tamamilə dərk edər və Peyğəmbər (s)-ın Əhli-beytinin (ə) məqamından agah olardılar. O Əhli-beyt ki, Peyğəmbər (s) onların əhəmiyyətini Quranla eyni səviyyədə tutmuş və özündən sonra məhz onları canişin təyin etmişdir.

Həqiqətən, əgər müsəlmanlar Quranı özləri üçün haqq və ədalət şüarı bilsəydilər, bu gün belə bir çıxılmaz vəziyyətə düşməzdilər. Əgər onlar Quran nuru altında hərəkət etsəydilər, hər bir ali hədəflərinə çatar və bir daha haqq yoldan azmazdılar.

Amma təəssüflər olsun ki, müsəlmanlar Qurana arxa çevirib cahiliyyət dövrünün adət-ənənələrinə üz tutmuşlar. Onlar zəlalət bayrağı altına pənah aparmış və nəticədə din, əqidə, təriqət və s. bu kimi ixtilaflara düçar olmuşlar. Bu ixtilaflar günbəgün böyüyərək müxtəlif cərəyanların yaranmasına səbəb olmuşdur. Biri digərini küfr və itaətsizlikdə təqsirləndirir, nahaq qanını tökür və var-dövlətini haqsız olaraq qarət edir. Onlar müxalif təriqətləri təhqir və tənqid etməyi, hətta lənət oxumağı belə özləri üçün ibadət sanır və bununla Allaha yaxınlaşmaq istəyirlər. Bütün bunların səbəbi isə bizə məlumdur. Qurandan uzaq düşmək, onu şəxsi rəy, yaxud müəyyən nəzərə əsaslanaraq təfsir etmək bütün fəsadların mənşəyidir.

**İkinci hədis:**

Əli (ə)-dan nəql olunmuş ikinci hədisdə Quran belə vəsf edilir: «Quran sönməz əbədi nur və dərinliyi bilinməyən böyük bir dənizdir. Quran haqq yolu və ümid mənbəyidir. Bu yolun yolçuları qət etdikləri mərhələdə zülmət və qarnlıqlarla

qarşılaşmaz və haqq yoluna hidayət olunarlar. Quranın gətirdiyi dəlil və sübutlar dəyişilməz və əbədidir. Quran bütün dərdlərin dərmanı və şəfa mənbəyidir. Quranı özündə yaşadan şəxslər daim alnıaçıq və vüqarlı olarlar. Quranın tərəfdarları bir an olsun belə, himayəsiz qalmaz və onu özlərinə ən böyük hami və dayaq hesab edərlər. Quran iman xəzinəsi, tükənməz elm mənbəyi, ədalət və qəzavət gülüstanıdır.

Quran islamın təməli və geniş həqiqət düzənliyidir. Quran suyu tükənmək bilməyən dəniz və bulanmayan bir çeşmədir. Quran öz yolçularının yoluna nur saçan hidayət carçısıdır. Onun yolçuları qəflət və cəhalətdən uzaq olar və haqq yoldan bir an olsun belə, sapınmazlar. Allah-taala Quranla elm susuzlarının susuzluğunu yatırar, fiqh alimlərinin qəlblərinə təravət bəxş edər və əməli-saleh insanları öz məqsədlərinə çatdırar. Qurana iman gətirənlər ömürlərini izzət və əmin-amanlıqla başa vurarlar. Quran ona pənah gətirmiş şəxsləri ümidsiz qoymaz və onları özünün səadət və xoşbəxtlik yoluna hidayət edər. Quran dəlil axtaranlar üçün ən tutarlı sübut və istidlal mənbəyidir. Quran mütəfəkkirlər üçün əlamət və nişanələr, silaha ehtiyacları olanlar üçün ən gözəl sığınacaq, alimlər üçün tükənməz elm mənbəyi, onu nəql edən kəslər üçün ən böyük hədis, hökm çıxaran qazilər üçün isə ən gözəl ədalət nümunəsidir. (Nəhcül-bəlağə, 198-ci səh.)

Bu xütbədə də bir neçə mühüm məsələyə işarə olunmuşdur və biz onlardan bəzilərini şərh edirik.

«Quran nuru sönməyən əbədi hidayət çırağıdır». Hədisdə buna oxşar ifadələrlə dəfələrlə qarşılaşırıq. Buradan məqsəd, Quranın həqqaniyyətinin müvəqqəti olmamasıdır. Onun ayələrinin əbədi verdiyi hökmlər isə, həmişəlik qüvvə və icra məqamında qalacaqdır. Məsələn, Quranın bəzi ayələri müəyyən şəxs və ya hadisələr barəsində nazil olmuşdur, amma buna baxmayaraq, onun ümumi məfhum və mənası qiyamət

gününədək müəyyən şəxs və ya hadisələrə deyil, ümumi şeylərə aid olacaqdır.

Əyaş, İmam Baqir (ə)-ın «Hər tayfanın [doğru yol göstərən] bir rəhbəri vardır» (Rəd-7) ayəsinə verdiyi təfsir haqda nəql etdiyi rəvyətlərdən birində bu mətləbə işarə edərək deyir: «Ayədə rəhbər [yol göstərən] deyildikdə, Əli ibni Əbu Talib (ə) nəzərdə tutulur. Və rəhbər hər zaman bizim Əhli-beytimizdən olacaqdır.»

Ravi deyir: Demək bu ayə sizə də şamil olunur. Və siz də ayədə işarə olunan rəhbərlərdənsiniz.

Buyurdu: Bəli, ayə mənə də şamil olunur. Quran ayələri hər zaman qüvvədə olduğu üçün mən də ayənin aid olduğu nümunələrdən biriyəm. Fəna və məhdudiyyət Quran üçün heç bir əhəmiyyət kəsb etməyir. Əgər hər hansı bir ayə yalnız müəyyən qövm və ya millət barəsində nazil olsaydı, bu günə kimi Qurandan heç bir əsər-əlamət qalmazdı. Halbuki belə deyildir. Quran ayələri əbədi olaraq keçmiş qövm və millətlərə şamil olduğu kimi, gələcək nəsillərə də şamil olunur və bu məlumatlar onlar üçün də etibarlı sayılır.

İmam Sadiq (ə)-dan bu məzmunda nəql olunmuş hədislərdən birində deyilir:

«Quran, diri və əbədi bir kitabdır. O, heç vaxt məhv olub aradan getməyəcəkdir. Gecə və gündüz əsrlər boyu eyni cərəyanda olduğu kimi və günəş əsrlər boyu aləmi işıqlandırdığı kimi, Quran da həm keçmişdə, həm də gələcəkdə müsəlmanlar üçün əbədi mənəviyyat nuru olmuş və olacaqdır.»

Üsuli-kafidə Ömər ibni Yəziddən nəql olunmuş hədisdə deyilir:

«O kəslər ki, Allahın, birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir [qohumluq əlaqələrini qoruyub saxlayır, möminlərə hörmət edir]» (Rəd-21) ayəsinin mənasını imam Sadiq (ə)-dan

soruşduqda buyurdu: «Bu ayə Peyğəmbər (s)-ın Əhli-beyti haqda nazil olmuşdur. Möminlər onları sevməli və onlarla əlaqələrini kəsməməlidirlər. Sonra sözünə davam edərək buyurdu: Ayə Peyğəmbər (s)-ın Əhli-beyti barəsində nazil olsa da, sənə yaxın olan qohum-əqrəbaya da şamil ola bilər. Sənə tövsiyə edəcəyim şey budur ki, müəyyən şəxslər barəsində nazil olmuş ayələri yalnız onların özlərinə aid etməyəsən».

Fərat Kufinin təfsirində deyilir: «Əgər hər hansı bir ayə yalnız müəyyən qövm və ya millət barəsində nazil olsaydı, indi Qurandan heç bir əsər-əlamət qalmazdı. Amma bu bir həqiqətdir ki, yer və göylər durduqca, Quran da duracaq və dünyanın ömrü qədər bəşəriyyətin həyatında aparıcı rol oynayacaqdır. Belə ki, Quran bütün qövm və millətlərin istər müsbət və istərsə də mənfi xüsusiyyətlərini açıq-aşkar tərzdə bəyan etmişdir.» «Miratul-ənvar, 3-4-cü səh».

Bu məzmunda istənilən qədər hədis və rəvayət nəql olunmuşdur, amma bu bir neçə hədislə kifayətlənib xütbənin izahını davam etdiririk.

2. «Bu yolun davamçıları qət etdikləri mərhələlərdə zülmət və qaranlıqlarla qarşılaşmaz və haqq yoluna hidayət olunarlar:» Buradan məqsəd Quranın insanları haqq yola hidayət etməsidir. Hər kəs bu yolun yolçusu olsa, bir daha cəhalət və nadanlığa üz tutmaz. Çünki, Allah-taala Quranı bəşəriyyətin haqq yola hidayəti və xoşbəxt həyatının təmin olunması üçün nazil etmişdir. Beləliklə, haqq və ədalətsevər insanlar zəlalətdən üz çevirib əbədi xoşbəxt həyata qovuşarlar.

3. «Quranın ayələri açıq-aşkar, verdiyi hökmlər isə dəyişilməzdir.»

Burada iki ehtimal vermək olar:

a). Quranın maarif və təlim prinsiplərinin əsasını bəşəri fitrət və təbii qanunlar təşkil edir. Belə ki, bu prinsiplər sabit və dəyişilməz qanunlar üzərində qurulmuşdur.

b). Quranın həqiqi formasını təşkil edən kəlmə və ifadələr öz orjinallığını itirmədən qorunub saxlanmış, hətta cüzi əlavə və ya ixtisara yol verilməmişdir.

4. «Quran haqq-ədalət gülüstanıdır» deyildikdə, əqidə və təfəkkür, əməl və əxlaq, qəzavət və mühakimə, ictimai ədalət və s. sahələrdə ədalətə ayırdığı xüsusi diqqət nəzərdə tutulur. Bu səbəbdən də Quran ədalət ağaclarının becərildiyi «gülüstan» adlanır.

5. «Quran imanın təməlidir». Buradan məqsəd islam dininin istər əxlaqi, istərsə də əməli hökmlərinin Quran ayələrinə əsasən vahid formada qorunub saxlanılmasıdır.

6. «Quran geniş həqiqət düzənliyidir.» Düzənlikdə hər şey maneə olmadan necə varsa elə də göründüyü kimi, Quran da bütün həqiqətləri açıq-aşkar bəyan edir. Bu səbəbdən də Quran burada geniş səhra və düzənliyə və orada maniəsiz görünən şeylər isə həqiqətə oxşadılmışdır. Burada başqa bir mətləbə də işarə olunmuşdur. O da insanların haqq-ədalətə nail olmaq üçün yalnız Qurana üz tutmalarıdır. Hər kim həqiqəti Quranda deyil, ayrı yerlərdə axtararsa, istəyinə nail ola bilməyəcəyini yəqin etməlidir.

7. «Quran suyu tükənmyən bir dənizdir.» Yəni, hər kim Quranın bütün sirlərinə yiyələnmək istəsə, buna tam şəkildə nail ola bilməyəcəkdir. Çünki, onun kəşf olunan sirləri nə tükənmək bilir, nə də öz etibarını itirir. Yerin dərin qatlarından qaynayan bulaqların suyu tükənmədiyi kimi, Quranın da əsrarəngiz sirləri tükənmək bilmir.

Quranın əhatə dairəsi o qədər genişdir ki, onun hər hansı bir mövzusu haqqında araşdırma aparan tədqiqatçılar, ondan yalnız öz şüur və düşüncələri qəbul etdiyi səviyyədə bəhrələnə bilərlər.

Elm şahinləri nə qədər çalışsalar da, onun yüksəkliyinin qülləsinə çatmazdan əvvəl özlərində yorğunluq hiss edir,

çatdıqları mərhələyə qənaət etməli olurlar. Onlar bu mərhələyə çatmaqla öz məqsədlərinə nail olduqlarını zənn edir, amma bir addım irəli getdikdə qarşılarında yeni-yeni mətləblərin açıldığının şahidi olurlar.

**Nəticə**

Allah-taalanın insanları yaratmaqdan məqsədi onların kamilliyə çatması və ilahi-əxlaqi dəyərlərə yetişmələri olmuşdur. Və buna görə də Allah-taala bəndələrilə öz arasında müxtəlif vasitələrlə əlaqə saxlamışdır. Bu mənəvi əlaqə və rabitələrin hamısının kökü «vəhy» deyilən ilham qüvvəsinə qayıdır. Başqa dillə desək, tanrının insanların haqqa yönəlmələri və vicdanlarının oyanması üçün onlara mənəvi qüvvələr ilə ilham etməsinə «vəhy» deyilir.[1] Başqa ibarətlə desək, İslam dinində İlahi xəbərlərin peyğəmbərlərin vasitəsilə dərk olunmasına «vəhy» deyilir. Buna əsasən «vəhy» üç qismə bölünür:

1. Allahın heç bir vasitə olmadan, yəni birbaşa peyğəmbər ilə söhbəti. (Allah-taalanın «merac»da heç bir vasitə olmadan Məhəmməd peyğəmbərlə (s) söhbətini buna misal çəkmək olar).

2. Allahın hansısa bir vasitə ilə peyğəmbərlərlə söhbəti (Allahın «Tur» ağacına vəhy etmək yolu ilə Musa peyğəmbərlə (ə) danışığı kimi).

3. Allahın peyğəmbərlərə mələk nazil edərək xəbər göndərməsi

İslam alimlərinin nəzəri budur ki, Qurani-kərimin Məhəmməd peyğəmbərə (s) nazil olması vəhyin üçüncü qisminə aid olunur. Qurani-kərim bu məsələyə belə işarə edir:

**«Ruhul-Əmin (Cəbrayıl adlı mələk) sənin qəlbinə vəhy edir»** *(Şüəra, 194)*

---

- «Vəhy» lüğətdə «işarə», «ilham», «sirr» və «yazmaq» mənasınadır[1]

Burada belə bir sual meydana çıxır ki, İslam baxımında Həzrət Məhəmməd (s) vəhy aldığı üçün nə sayılır? Məsihiyyətdə olduğu kimi Allah, yoxsa sadəcə olaraq bəndə?

Cavab: İslamda xristianlıqdan fərqli olaraq dinin banisi başqaları kimi Allahın bəndəsi və qulu sayılır. Onun başqa bəndələrlə fərqi Allah tərəfindən xəbər gətirməsi və peyğəmbər olmasındadır. Qurani-kərim bu barədə belə buyurur:

«Məhəmməd yalnız Allahın peyğəmbəridir, necə ki, ondan qabaq bir sıra peyğəmbərlər gəlib-getdilər.» (Ali-İmran, 141)

Başqa bir ayədə deyilir ki, peyğəmbərlərin məmuriyyətinin əsası insanları Allah bəndəçiliyinə dəvət etməkdir. Necə ki, buyurur: «Biz hər bir ümmətə peyğəmbər göndərdik ki, onları Tanrıya itaət və ibadətə dəvət etsinlər.» (Nəhl, 36) Həmçinin buyurur: «Biz insanları və cinləri ona görə yaratdıq ki, yalnız Allaha bəndəçilik etsinlər.» (Zariyat, 56) Qurani-kərim peyğəmbərlərin də bəndə olmalarına bir neçə yerdə israr etməklə müsəlmanları məsihilərin getdiyi yoldan çəkindirir: «Allah öz bəndəsinə (Məhəmmədə aydın şəkildə ayələr vəhy etdi ki, sizi qaranlıqdan çıxarıb işıqlığa yönəltsin.» (Hədid, 9) «Allah öz bəndəsinə lazım olan ayələri vəhy etdi.» (Nəcm, 10)

Deməli, İslam dinində «vəhy» yalnız Allahın bəndəsinə gəlir. Bu dində bütün insanlar Allaha bəndə və qul olmağa çağırılır. İslam dini Yaradanın vahid olmasına təkid etməklə, onun heç vaxt övladı olmamasını da möhkəm şəkildə bəyan edir. Qurani-kərimin buyurduğuna əsasən, hətta Həzrət İsanın (ə) özü, Məsihilərin ona səbəb dedikləri üçün Allahın yanında xəcalət çəkirdi. Uca Tanrı Qurani-kərimdə buyurur:

«Ey Məryəm (ə) oğlu İsa, sən camaata dedin ki, Allahın kənarında məni və anamı özünüzə Tanrı qərar verin?! (İsa) dedi: İlahi sən bu sözlərdən paksan, mənimsə elmim olmadığı şey barəsində söz deməyə haqqım yoxdur. Və əgər mən belə

bir söz desəydim, sən mütləq onu bilərdin. Sən mənim zatımdan xəbərdarsan, mən isə zatından agah deyiləm, yalnız sən bütün qeyblərə agahsan.» *(Maidə, 116)*

**Ədəbiyyat**


1. Qurani-kərim
2. Nəhcül-bəlağə
3. Amoli, Cavadi, Təsnim, Qum, 1396
4. Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389
5. Məkrim Şirazi, Təfsire-Nümunə, Qum, 1390
6. Əl-Fəzail, Şazan ibn Cərayıl Qummi, Nəcəf, Heydəriyyə mətbəəsi, 1338 hicri-qəməri.
7. Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.
8. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
9. “Əl-Burhan fi-ulumil-Quran”, Beyrut, 1998

# Fəlsəfə ilə ümumi tanışlıq

*Şamil Qarayev*


## Abstrakt

İslam dininin zühur etdiyi gündən müsəlmanlar arasında fəlsəfi fikirlər mövcud olmuşdur. Belə ki, «Qur'ani-Kərim» öz İlahi də'vətində insanları əqli nəticələr vasitəsilə metafizikaya, Allaha, mələklərə və Axirət gününə inam bəsləməyə səsləyirdi. Lakin fəlsəfə müsəlmanlar arasında xüsusi bir elm şəklində VIII əsrdən e'tibarən geniş yayılmağa başladı. Bu bir tərəfdən müsəlmanların sıralarında ilahiyyat məsələləri ilə bağlı ciddi ixtilafların baş qaldırdığı, digər tərəfdən isə Abbasi xəlifələrinin yunan, hind və iran fəlsəfə kitablarını ərəb dilinə tərcümə etdirib, geniş yaydıqları zamana təsadüf edir. Hələ ilkin mərhələlərdən başlayaraq, İslam alimləri bütün əqli elmləri fəlsəfə kimi tanıyırdılar. Onlar tarix, ədəbiyyat, dilçilik, təfsir, hədis, üsul və fiqh kimi nəqli elmləri çıxmaq şərti ilə ilahiyyat, cəbr, həndəsə, astronomiya və musiqi kimi bütün əqli elmləri fəlsəfənin tərkib hissəsi hesab etmişlər.


**Açar kəlmələr:** İslam, fəlsəfə, Məşşa, İşraq

## Giriş

Fəlsəfə –sözü yunan mənşəlidir. O, «phileo»–sevirəm və «sophia» – elm, müdriklik kəlmələrinin birləşməsindən əmələ gəlmiş mürəkkəb bir sözdür. Bütövlükdə bu sözün mə'nası elmi, «müdrikliyi sevirəm», yaxud «sevmək» kimi başa düşülür. Bu elmin nə zaman və nə üçün belə adlandırılması ilə bağlı ehtimallar çox olmasa da, bir deyil. Fəlsəfənin mahiyyəti və onun ehtiva etdiyi məsələlər barədə konkret tarix müəyyənləşdirmək olmaz. Bu mə'nada ki, bəşəriyyətin ilk filosofu elə onun babası Adəmdir (ə).

Fəlsəfə tarixi sahəsində yazılmış kitablarda rast gəldiyimiz ehtimallardan biri həmin terminin ilk dəfə Samoslu Pifaqor1 tərəfindən işlədildiyini vurğulayır. Lakin daha münasib ehtimal fəlsəfə terminini məhşur yunan filosofu Sokratla2 əlaqələndirən nəzəriyyədir. Bu ehtimala görə Sokrat özünü filosof adlandıran ilk şəxs olmuşdur. Sokrat bu adı öz üzərinə götürdüyü zaman –Sofizm (Sophisma) adı ilə geniş yayılmış bir məktəblə elmi mübahisələr aparmaqda idi. Bu məktəbin nümayəndələri, yə'ni Sofistlər özlərini alim, müdrik (sofizm sözünün mə'nası belədir) adlandırsalar da elm və idrakın əsl düşmənləri idilər. Onlar heç bir şeyin həqiqət olmadığını iddia edir, həqiqət varsa da onu dərk etməyin qeyri-mümkünlüyünü söyləyirdilər. Sofizm əsasən materialist yönümlü bir anlayışdır, lakin bu anlayışla heç materiyanı da dərk etmək mümkün deyildir. Sofistlər öz müddəalarını isbat etmək üçün bütün məntiqi qanunlara zidd olan yalançı bir üslubdan istifadə edirdilər. Bu üsluba Sofistika1 deyilir. Sofistlər vahid məktəbdə birləşmirlər. Lakin Cənubi İtaliyada meydana gəlmiş «Eleya məktəbi» bu sahədə daha çox fərqlənir.

Belə bir zamanda dahi mütəfəkkir olan Sokrat bu batil məktəblə üz-üzə dayandı. Məhz buna görə də, o, özünü Sofist –alim, müdrik deyil, filosof, yə'ni elmi, müdrikliyi sevən adlandırdı. Başqa bir ehtimala görə, Sokrat hədsiz təvazökarlığı səbəbi ilə alim adlanmasından imtina etdi. Bir sözlə Sokrat insan təfəkkürünün əvəzsiz fədaisi, fəlsəfənin «Tacsız kralı» sayılır. Bu «Fəlsəfə kralı» öz zamanında, xüsusilə ilahiyyatın, humanizmin və əxlaqi məsələlərin inkişafında müstəsna rol oynamışdır. Şərq filosoflarının bir qismi Sokratın peyğəmbər olması ehtimalını da irəli sürmüşlər. Bu ehtimalla ziddiyyət təşkil edən yeganə məsələ Sokratın nəzəriyyələrində bə'zi çatışmazlıqların olması faktıdır. Lakin bu ziddiyyəti aradan qaldırmaq o qədər də çətin deyil. Belə ki, biz Sokratın nəzəriyyələrini yalnız onun tələbələrinin əsərlərində müşahidə edə bilirik. Onun nəzəriyyələrinin yalnız bu əsərlərdə əks olunması onların təhrif olunması ehtimalını artırır. Qədim yunan qövmü içərisində İlahi elçilərin mövcudluğu zərurəti, heç də həqiqətdən uzaq deyil. Bu zəruriyyətin təsdiqini «Qur'ani-Kərim»də də görə bilərik:

«Elə bir ümmət, qövm yoxdur ki, onun içərisindən bir peyğəmbər olmasın».2

Biz bu ehtimalın düzgün olması haqda deyil, mümkünlüyü barədə danışırıq. Təsdiqləyəcəyimiz yeganə məsələ odur ki, Sokrat sözün həqiqi mə'nasında bir ilahiyyatçı filosof olmuşdur.

## Fəlsəfə Avropada

Fəlsəfi məsələlər çox qədimdən araşdırılsa da, müstəqil şəkildə olmamışdır. Fəlsəfi fikirləri bütün elmlərdən ayrı və müstəqil şəkildə öyrənməyi lazım bilən ilk şəxs tanınmış yunan filosofu Aristotel1 oldu. O, bu sahadə öz nəzəriyyələrini

məqalə şəklində yazmağa başlamış, lakin bu elmə heç bir ad qoymamışdı. Sonralar Aristoteldən qalan əsərləri cəm edib ensiklopediya halına gətirdilər. Yuxarıda qeyd etdiyimiz elmi sahə, yə'ni Aristotelin fəlsəfi fikirləri bu kitabda fiziki elmlərdən sonra yer tutdu. Bu elmin xüsusi bir adı olmadığı üçün onu «Metafizika», yə'ni «fiziki elmlərdən sonrakı elm» adlandırdılar. Bu ad həmin elmə ensiklopediyanın tərtibinə əsasən qoyulmuşdu. Tədricən bu məsələ unuduldu və alimlər belə bir qənaətə gəldilər ki, metafizika bu elmin mahiyyətinə əsasən meydana gəlmişdir. Belə ki, Aristotelin fəlsəfi fikirləri ilahiyyata və ümumi əqli məsələlərə aid olduğu üçün belə adlandırılmışdır. Beləliklə, metafizika öz həqiqi mə'nasını itirib, «Transfizika –fizikadan başqası» anlamını kəsb etdi. Bu məsələ ilk növbədə Avropa filosoflarının arasında meydana gəlmiş və yayılmışdır.

İsa Məsihin (ə) peyğəmbərliyindən sonra xristianlıq dininin geniş yayılması fəlsəfi fikirlər üçün yeni bir mərhələ oldu. Bu mərhələni antik fəlsəfə (Sokrat, Platon, Aristotel fəlsəfəsi) ilə xristian dini tə'limlərinin qarşılıqlı əlaqələri təşkil edirdi. Bu qarşılıqlı əlaqələr Avropa kilsələrində tədris olunan «Sxolastik fəlsəfəni» (Scholasticos) meydana gətirdi. Sxolastik fəlsəfə təhrif olunmuş Bibliya2 tə'limlərini əsas götürərək özünəməxsus bir fəlsəfi sistem yaratdı. Sxolastika nümayəndələri bu sistemi yaratmaqla Avropada yeganə fəlsəfə təmsilçisinə çevrildilər. Avropa fəlsəfəsinin ən böyük «bədbəxtliyi» də, məhz bu olmuşdur.

Sxolastika tə'limində metafizika kor-koranə şəkildə qəbul olunur, dünyanın fiziki mənzərəsi yalnız Ptolomeyin1 baxışları ilə izah edilirdi. Onlar öz tə'limləri ilə ziddiyyət daşıyan hər hansı bir nəzəriyyəni rədd edir, həmin nəzəriyyə sahiblərinə divan tuturdular. Fizika alimlərinin hələ 13-14-cü əsrlərdəki cəhd və kəşfləri sxolastikanın, xüsusilə də bu fəlsəfi cərəyan

nümayəndələrinin dünyanın fiziki mənzərəsi yönündəki tə'limlərinin yanlış olduğunu aydınlaşdırırdı. Sxolastika dünyanın geosentrik sistemə tabe olduğuna inanırdı. Geosentrik sistem Ptolomey tərəfindən əsaslandırılmış antik fiziki nəzəriyyədir. Bu nəzəriyyəyə görə Yer hərəkətsiz olub kainatın mərkəzi sayılır və Günəş daxil olmaqla bütün səmavi cisimlər Yerin ətrafında dövr edirlər. Geosentrik dünya sisteminə qarşı duran nəzəriyyə Heliosentrik sistemidir. Heliosentrik sistem isə Kainatın mərkəzini Yer deyil, Günəş haseb edir. Hələ qədimdən nəzəri şəkildə söylənilmiş bu fərziyyə, nəhayət, 16-cı əsrdə polyak astronomu Nikolay Kopernik (1473-1543) tərəfindən isbat olundu. Sxolastika tə'limlərinin elmi şəkildə özünü doğrultmaması Avropada fəlsəfi fikirlərə tamamilə kölgə saldı. Bütünlükdə Avropa Sofizmə, eləcə də hər şeyə şübhə ilə yanaşmağa meyl etdi. Onlar –əgər bu gün Geosentrik tamamilə səhv bir nəzəriyyə olması isbat olundusa, digər fəlsəfi fikirlərin də yalan olmadığına zəmanət varmı? –deyə düşünürdülər.

Belə bir zamanda yeni bir təfəkkür formalaşdı. Bu təfəkkür «Empirizm fəlsəfəsindən» ibarət idi. Empirizm fəlsəfəsi hər şeyin təcrübəyə bağlı olduğunu iddia edir və insan idrakının təcrübədən kənarda olan hər hansı bir şeyi isbat etməyə qadir olmadığını söyləyirdi. Bu təfəkkür tərzinə hələ 14-cü əsrdə ingiltərəli filosof Uilyam Okkamda (1285-1349) təsadüf etmək olar (Nominalizm). Sonralar isə Empirizm fəlsəfəsi Frensis Bekon (1561-1626), Tomas Hobbs (1568-1679), Con Lokk (1632-1704) və Devid Yum (1711-1778) tərəfindən müxtəlif şəkillərdə inkişaf etdirilmişdi. Empirizm dalğası bütün Avropanı «Təcrübəyə bağlılıq» ruhuna qərq etdi.

Avropalıların fəlsəfədən şübhəyə düşdükləri bir dövrdə digər tərəfdən görkəmli fransız filosofu Rene Dekart1 yeni bir fikirlə çıxış etməyə başladı. Dekart avropalıların «şübhəsini»

öz fikirlərinin əsası qərar verdi. O şübhənin mövcudluğunu həqiqətin mövcudluğuna dəlalət edən başlıca amil hesab edirdi. Sonralar Dekart öz fəlsəfəsini «Goqito erqo sum – düşünürəmsə, deməli mövcudam» prinsipi üzərində sistemləşdirdi. Dekartın bu prinsipində yanlış məqamların olduğunu ikinci fəsildə açıqlayacağıq. Lakin qeyd etmək lazımdır ki, bu filosofun Sofizm cərəyanından olan müasirləri ilə mübarizəsindəki nailiyyətləri inkarolunmazdır. Dekart riyaziyyatda analitik həndəsənin, kosmoqoniyada Günəş sisteminin təbii inkişafının, fiziologiyada reaksiyaların reflektor hadisəsinin ilk elmi təsvirlərinin banisi sayılır. Onun məhz bu elmi nüfuzu öz fəlsəfəsinin vüs’ət tapmasında mühüm rol oynamışdır.

Müasir Avropa fəlsəfəsinin formalaşması haqda danışarkən İmmanuil Kantın1 da rolunu qeyd etmək lazımdır. Onun klassik alman idealizminin yaranmasında da xüsusi xidmətləri olmuşdur. Kant fəlsəfəsi özünün tənqidi çıxışları ilə fərqlənmişdir. Bu fəlsəfəyə tənqidi fəlsəfə (critical philosophgy), yaxud transsendental idealizm deyilir. Kant empirizm dalğasından, başqa sözlə desək «Təcrübəyə bağlılıq» ruhundan tam xilas ola bilməmişdi. Bununla belə o, metafizikaya, xüsusilə də Allaha inanmağın zəruri olduğunu deyirdi. Yalnız, Kant təcrübədən kənarda qalan bu varlıqların dərkolunmazlığını iddia edirdi. Bu filosofa görə bizim hiss üzvləri ilə dərk edə bilmədiyimiz şeylər «özündə şey» sayılmalıdır. «Özündə şey» isə dərkolunmazlıqdır.

Bir müddət sonra Kant idealizmi məşhur filosof Georq Vilhem Fridrix Hegel2 tərəfindən inkişaf etdirildi. Hegel alman idealizminin əsas nümayəndələrindən sayılır. O, materiyanın deyil, ruhun əsas və birinci olduğuna inanırdı. Lakin Hegelin varlıq barədə sistemləşdirdiyi tə’lim, həqiqəti bir növ inkar etmək idi. Bu tə’lim thesis-antithesis-synthesis

kimi formalaşan «inkarı inkar qanunu» idi. Bu qanun iki əks şeyin vəhdətini tərənnüm edir. Bu vəhdət, həm də mübarizədir. İki əks şey bir-biri ilə mübarizə edir və nəticədə şey öz əksini «inkar» edərək məhvə mə’ruz qoyur. Lakin bu elə məhvdir ki, ondan inkarı inkar edən üçüncü bir şey törəyir. Deməli, birinci şey – thesis, ikinci onu inkar edən əkslik – antithesis və nəhayət yaranmış üçüncü şey, inkarı inkar edən – synthesis - dir. Hegelin bu təfəkkürü 19-cu əsrdə «Sol hegelçilər»in meydana gəlməsinə səbəb oldu. Onların lideri Karl Marks1 idi. Marks, Hegelin idealizmini darmadağın edərək radikal bir materializmin bünövrəsini qurdu. Qeyd etmək lazımdır ki, Hegelçiliyin materialistcəsinə təhlil olunmasında, Marks, bilavasitə alman ateisti Lüdviq Feyerbaxın2 müstəsna tə’siri altında olmuşdur. Marks Hegelin «inkarı inkar qanunundan» daha kəskin və ateist nəticələr çıxarmışdı. O, bu qanunu ümumiləşdirərək dialektika və tarixi materializmin əsasını qoydu. Dialektika və tarixi materializmə görə iqtisadi amillər hər hansı bir cəmiyyətdə onu inkar edən əkslik rolunu oynayır. Bu əksliyin həmin cəmiyyəti inkar etməsindən yeni bir cəmiyyət meydana gəlir. Marks bu qanuna əsasən, inkişaf etmiş bütün kapitalist cəmiyyətlərinin sosializmə keçəcəyini düşünürdü. Biz Marksizmin nə qədər gülünc bir nəzəriyyə olduğunu «Sosializm, Kapitalizm və İslam iqtisadiyyatı» kitabında bəyan edəcəyik.

Kantdan başlayaraq Almaniyada idealizmin formalaşdığı bir dövrdə Fransa filosofları «təcrübəyə doğru geriyə» şüarını irəli sürdülər. Bu, yaranmaqda olan yeni bir təfəkkürün, «Pozitevizm fəlsəfəsi»nin şüarı idi. Pozitevizm fəlsəfə və metafizikaya qarşı daha «qəddar» mövqe tutmuşdu. Bu məktəbə görə, ümumi əqli məsələlərdən bəhs edən fəlsəfə və metafizika adlı heç bir şey yoxdur. Pozitevizmin banisi Ogüst Kont3 sayılır. İngiltərədə isə bu fikri inkişaf etdirən və vüs’ət

almasına kömək edən Herbert Spenser1 olmuşdur. Pozitevizmin metafizikaya qarşı radikal mövqeyi Avropa fəlsəfəsində daha dərin böhran yaratmışdır.

## Məşşai fəlsəfəsi

XI-XII yüzilliklərdən başlayaraq İslam filosofları iki əsas fəlsəfi cərəyana ayrılmağa başladılar. Bunlardan biri «Məşşai fəlsəfəsi» idi. «Məşşai» sözü yeriyən deməkdir. Bu söz Aristotelin davamçılarını özündə cəm etmiş «Peripatetik» (yunanca: perepateo - gəzişirəm, yeriyirəm) məktəbdən götürülmüşdür. Bunu Aristotelin Likey xiyabanlarında gəzişərək fəlsəfi mühazirələr söyləməsi ilə izah edirlər. Məşşai fəlsəfi cərəyanının önündə şərqin görkəmli filosofu İbn Sina1 durur. İbn Sina Farabidən sonra Aristotel nəzəriyyələrinə varis çıxan ən böyük filosof sayılır. Onun sistemləşdirdiyi Məşşai fəlsəfəsinin əsas xüsusiyyəti həqiqətin kəşf olunmasında yalnız əqli yollara istinad etməsindən ibarətdir. Məşşai filosofları hesab edirlər ki, həqiqətin kəşf olunması üçün əqli sübutlar kifayət edir. Bunun üçün həqiqət axtaranın əməli mərhələlər keçməsi, ruhunu paklaşdırması zəruri deyildir.

Məşşai fəlsəfəsi İslam dünyası üçün mütləq bir fəlsəfə sistemləşdirə bilməsə də, müsəlmanlar arasında uzun əsrlər boyu hakim fəlsəfi nəzəriyyə olmuş və geniş yayılmışdır. Bu fəlsəfənin Bəhmənyar ibn Mərzban2, Nəsirəddin Tusi1, İbn Bacə2 kimi görkəmli nümayəndələri olmuşdur.

## İşraq fəlsəfəsi

İbn Sinadan başlayaraq Məşşai fəlsəfəsinin sistemləşərək genişləndiyi bir dövrdə yeni bir fəlsəfi cərəyan zühur etdi. Bu fəlsəfi cərəyana görkəmli Azərbaycan filosofu Şihabəddin Sührəvərdi1 başçılıq edirdi. Sührəvərdi həm Platonun2, həm

də Aristotelin fəlsəfi fikirləri ilə tanış idi. O, yaratdığı fəlsəfəyə «İşraq fəlsəfəsi» (intuitiv fəlsəfə) adını vermişdi. Sührəvərdiyə görə həqiqətin kəşf olunması üçün iki yolun mövcudluğu zəruridir:

1.Aşkar əqli dəlillər, isbat və istidlallar (deduksiyalar3).

2. Əməli mərhələlər keçərək ruhun paklanması ilə İlahi nurdan kömək almaq.

İşraq sözünün mə’nası «Nur saçmaq» deməkdir. Cərəyanın «İşraq» adlandırılması həqiqətin kəşf olunmasında Sührəvərdinin zəruri bildiyi İlahi nurla əlaqədardır. O, bütün mövcudatı nur və zülmətdən ibarət bilirdi. Sührəvərdiyə görə nur ilə zülməti seyr etmək və nəhayət, nurlar-nuru Allahı tapmaq lazımdır. İşraqilər özlərini Platonun varisləri hesab edirlər. Məşşai və İşraq fəlsəfi cərəyanları arasında ən əsaslı ixtilaf işraqilərin həqiqəti kəşf etməkdə zəruri bildikləri ikinci şərtdir (ruhun paklanması). Lakin Aristotel ilə Platon arasında, məhz bu məsələdə, fikir ayrılığı olduğunu heç kəs sübut edə bilməmişdir.

XX əsrin görkəmli filosofu şəhid Mürtəza Mütəhhəriyə1 görə bu iki filosof arasında qeyd etdiyimiz məsələ barəsində ixtilaf olmamışdır. İşraqilərin lideri Şihabəddin Sührəverdi zəmanəsinin sufiləri ilə sıx əlaqədə olduğu üçün ruhun paklanması şərtini öz cərəyanına daxil etmişdir. Tarixdə bu iki filosof arasında mübahisə mövzusunda sübuta yetmiş yalnız bir məsələ vardır ki, bu da Platonun «İdeyalar» nəzəriyyəsinin Aristotel tərəfindən qəbul olunmamasıdır. «İdeyalar» nəzəriyyəsində bizim müşahidə etdiyimiz aləmdən başqa digər bir aləmin də olduğundan söhbət açılır. Platon gördüyümüz hər bir şeyin əsl həqiqətinin həmin aləmdə yerləşdiyinə inanırdı. Bu aləm «İdeyalar» aləmi adlanır. Filosof hər bir mövcudun kökünü o aləmdə axtarır, insanın, əvvəlcə orada olub sonra isə bu aləmə gəldiyini və hər mə’lumatı orada öyrənib, sadəcə bu

aləmdə hər şeyin təkrar olduğunu bildirirdi. Aristotel isə bütün bunları inkar edir və aləmin kökünü nous– nus deyilən vahid qüvvə və imkanda görürdü.

## Nəticə

Fəlsəfə ümumi bir elm olduğundan onun üçün xüsusi bir tə'rif və mövzu göstərilməmişdir. Bu mərhələdə İslam mütəfəkkirləri fəlsəfəni aşağıdakı hissələrə bölmüşlər:

1.Nəzəri fəlsəfə; Bu növ fəlsəfə əşyanın olduğu kimi tədqiqinə varır, onun malik olduğu kəmiyyət və keyfiyyətləri araşdırır. Nəzəri fəlsəfə də öz növbəsində üç hissədən ibarətdir:

a) İlahiyyat; ali təbəqəli fəlsəfə. Bu fəlsəfənin mövzusu ümumi şəkildə varlıqdır. Başqa sözlə desək, bu fəlsəfə var olan hər bir şeyin kim və ya nə olduğundan asılı olmayaraq, ümumilikdən söhbət açır. Deməк, bizim düşündüyümüzün əksinə olaraq «İlahiyyat» fəlsəfəsi, təkcə «Allahın» varlığından danışmır. Lakin «Allah» məfhumu bu elmin ən ali mövzusu olduğu üçün «İlahiyyat» adı ilə tanınmışdır.

b) Riyaziyyat; orta təbəqəli fəlsəfə. Bu fəlsəfə isə əşyaya hakim olan riyazi qanunlardan bəhs edir. Cəbr, Həndəsə və Musiqi1 elmləri bu hissənin əsas bölümləridir. Cəbr ədədlərə, Həndəsə xətlərə, Musiqi isə səs və notlara hakim olan riyazi qanunları təsdiq edir. Bu elmlərin əsas və ortaq olmaq şərti ilə iki xüsusiyyəti var. Əvvəla, burada qanunların şamil olduğu mövzular yalnız xarici aləmdə müəyyən maddi predmetə bağlanır. Zehni təsəvvürdə isə onları müəyyən maddi predmetə bağlamaq zəruri deyil; məsələn: 3, 5, 10 rəqəmləri xarici aləmdə, yalnız maddi predmetlərin (ağac, ev, daş və s.) əsasında özlərini göstərirlər. Zehni təsəvvürdə isə bu zərurət aradan gedir. İkinci xüsusiyyət isə bu elmlərdə qanunların riyazi və dəyişməz olmasıdır.

v) Təbii və fiziki elmlər; aşağı təbəqəli fəlsəfə. Bu hissəyə aid olan fəlsəfə əşyanın təbii və fiziki fəlsəfələrini araşdırır.

Fizika, kimya, fiziologiya, biologiya və s. kimi elmlər buraya daxildir.

2.Əməli fəlsəfə, yaxud əxlaq və hüquq fəlsəfəsi; bu fəlsəfə insanın əməl və hərəkətləri haqda söhbət açır, rəftarının yaxşı və ya pis olduğunu açıqlayır. Bu növə Əxlaq, Ailə hüquqları, Hüquq və Siyasət daxildir.

Müsəlman alimləri fəlsəfənin növləri arasında nəzəri fəlsəfənin birinci hissəsinə, yə'ni «İlahiyyat»a tədricən daha çox üstünlük verməyə başladılar. İslam filosofları bu elmlə daha ətraflı maraqlanır, nəzəriyyələr irəli sürürdülər. Beləliklə, əvvəllər ümumi ad olaraq bütün əqli elmləri şamil edən fəlsəfə müsəlmanlar arasında «İlahiyyat» kimi qəbul olundu.

Qeyd etdiyimiz kimi, «İlahiyyat» varlıq aləmini qeydsiz-şərtsiz araşdırır. Bu elmin mövzusu konkret şəkildə nə maddə, nə də metafizikadır. Varlığın, yaxud «vücudun» ümumi qanunları, xüsusiyyətləri və s. bu elm vasitəsilə açıqlanır. Yə'ni, misal üçün hər hansı bir maddəni götürsək, onunla bağlı olan «səbəbiyyət» qanunu bizim üçün aşkarlanar. Burada söhbət maddənin bir nəticə kimi hansı səbəbdən vücuda gəlməsi, yaxud da bir səbəb kimi hansı nəticələr doğurmasından gedir. Bu qanunun (Səbəbiyyət) həmin maddəyə hakim olması onun maddə olduğundan irəli gəlmir. Sadəcə, maddənin «mövcud olması» onun bu qanunla əlaqəli olduğunu açıqlayır. Lakin bu maddənin qeyri-üzvi, elastik və radioaktiv olub-olmaması, bilavasitə onun maddə olması ilə bağlıdır. Beləliklə, birinci qanun (Səbəbiyyət) fəlsəfənin, sonrakılar (qeyri-üzvilik, elastiklik, radioaktivlik) isə fizikanın mövzularıdır.

## Ədəbiyyat

10. Səidi Mehr, İslam kəlam elmi (1), 2001
11. Səidi Mehr, İslam kəlam elmi (2), 2001
12. Misbah Yəzdi, İsalm Əqidə prinsipləri (1) 2003
13. Misbah Yəzdi, İsalm Əqidə prinsipləri (2) 2003
14. Muutəhhəri, Murtəza, İslam elmlərilə tanışlıq, 2001

# İslamda məhəbbət mexanizmi

*Vəfadar İsmayılov*

## Abstarkt

İslam nöqteyi-nəzərindən insan cəmiyyətinin formalaşmasında əsas rolu məhəbbət, sevgi, dostluq oynayır. Hədisləri də gözdən keçirdikdə, camaatın bir-birinə məhəbbəti sayəsində yaranan toplumun İslamda arzuolunan insan cəmiyyəti olduğu məlum olur.İslam dini elə bir cəmiyyət qurmaq istəyir ki, orada bütün insanlar bir-birini qardaş sayır və fədakarlıq həddində qarşılıqlı məhəbbət bəsləyirlər. Səbəbi isə bəsitdir; istənilən insan cəmiyyətinin formalaşdırılmasında məhəbbət kimi effektiv mexanizm yoxdur.

**Açar kəlmələr:** İslam, Quran, insan, əxlaq, irfan, məhəbbət

## Giriş

İslam insanın təkamül proqramıdır və bu proqramın əsas ünsürünü məhəbbət təşkil edir. İnsan rəftarında ən təsirli amillərdən biri də məhəbbətdir. Belə ki, insan sevdiyinə tabe olur. Məhəbbət bilmək və tanımaq sayəsində qazanılır. Ona görə də, tanımaq məhəbbət, məhəbbət isə itaət gətirir. İnsan cəmiyyətinin tərəqqisi üçün İslamın nəzərdə tutduğu bu proqramın gerçəkləşməsində məhəbbət ünsürü o qədər təsirlidir ki, İmam Baqir (ə) İslam dinini məhəbbətlə eyniləşdirir və buyurur: “Din məhəbbətdən başqa bir şeydirmi?”1 Quranın insanlara tanıtdırdığı Allah insanlara qarşı olduqca mehribandır, onları sevir. “Hud” surəsinin 90-cı ayəsində Allah-taala buyurur:

“Rəbbinizdən bağışlanmaq diləyin, sonra (saleh əməllərlə) Ona tərəf qayıdın. Həqiqətən mənim Rəbbim mehriban və (tövbəkar bəndələrini) sevəndir”. İnsan, yaradılışdan camal və kamal aşiqidir. O, gözəllik və yaxşılıqları sevir, pislik və çirkinliklərə nifrət edir. Allah-taalanın müqəddəs zatı kamal, camal, elm, həyat, qüdrət, rəhmət, bir sözlə bütün kamil sifətlərin özü – eyni olduğu üçün bütün sevgilərin başlanğıcı Allah sevgisidir. Hər kim gözəllik və kamal aşiqidir, onu sevir.

Allah, peyğəmbərlər, imamlar, övliyalar, möminlər, ata-anaya məhəbbət bəsləmək mərifətdən qaynaqlanır. İnsanın mərifəti artdıqca, onun məhəbbət və sevgisi də artmağa başlayır. Bundan əlavə, insan dünyada nəyə məhəbbət göstərsə, axirətdə onunla məşhur olacaq. Əgər insanın məhəbbəti Allaha xatir olmasa, Allahın rəhmətindən uzaqlaşacaq, hətta Allahın insanla düşmənçiliyi ilə nəticələnəcək. Allah hansısa bir bəndəsini sevmiş olsa, onu övliya və mələklərinə, yer və göy əhlinə tanıtdırar ki, onlar da həmin bəndəyə məhəbbət bəsləsinlər. Məhəbbət əsən küləyə

bənzəyir və o, nəyin üstündən əssə, ona həyat bəxş edər. Əgər məhəbbət Allaha qarşı olarsa, bəndəni Allahın razılığı və istəyinə qul edir, bəndəlik çərçivəsinə salır və bu halda heç bir şey insanı Allaha itaətdən saxlaya bilməz. Mövzumuz daha da aydınlaşsın deyə ilk öncə məhəbbət termininin lüğət və terminologiyadakı mənası ilə tanış olacaq, sonra isə ariflərin baxışını nəzərinizə çatdıracayıq. Məhəbbətin lüğətdə mənası "Məhəbbət", "hübb" sözündən götürülmüşdür, mənası isə dostluq, mehribanlıq və qəlbi bağlılıqdır. 2 Məhəbbətin terminoloji tərifi "İnsanın ləzzət apardığı bir şeyə meyil etməsi məhəbbət adlanır".3 İzah: Məhəbbət insanın ləzzət, mənfəət və ya kamal güman etdiyi bir şeyə meyl etməsidir. Həqiqi məhəbbət təslim olmaqdır. İrfan məktəbində məhəbbət və eşqin mənası Ariflər insanda olan məhəbbət və eşq hissinə böyük əhəmiyyət verirlər. Onların nəzərincə, eşq bütün varlıqlarda mövcuddur. O cümlədən, hava, torpaq, od, külək və atom zərrəciklərində belə, eşq cərəyanı mövcuddur. "Səhifeyi-Səccadiyyə" bu mövzunu belə izah edir: "Allah-taala aləmi heçdən (heç bir nümunəsi olmadan) yaratdı. Sonra isə onu özünün eşq və məhəbbət yoluna yönəldərək həyat bəxş etdi." Ariflərin açıqlaması: "Dərdli olmaq insan xüsusiyyətlərindəndir. Onu mələklərdən üstün edən məhz bu xüsusiyyətdir. Çünki bu xislət mələklərdə yoxdur. Onların nəzərincə, bu, həmin "Allahaxtarma" dərdidir. İnsan Allah tərəfindən göndərilmiş və dünyada qərar tuta bilməyən bir varlıqdır. Bu da onu dünyada qürbət hissi keçirməyə məcbur edir. Onun gözündə dünya və onun üzərindəki bütün varlıqlar fani görünür. Ona görə də heç bir şeyə ürək bağlaya bilmir. Amma bununla belə, o, əbədiyyətə qovuşmaq düşüncəsi ilə yaşayır. Bu da onun dərd əhli olmasına səbəb olur." Hindistan meşələrindən gətirilib qəfəsə salınmış tutuquşu misalı bunun bariz nümunələrindəndir. Quş hər an qəfəsdən canını qurtarıb

öz vətəninə qayıtmaq fikri ilə yaşayır. Bəli, o, narahatdır, öz doğma yurduna qayıtmaq istəyir. Buna onun haqqı da var!... İnsanın dərdi ancaq və ancaq Allah dərdidir. O, bunu düzgün başa düşsə, ibadətləri Əmirəl-möminin Əlinin (ə) aşiqcəsinə etdiyi ibadətlər kimi olacaqdır. Qurani-kərim bu barədə "Rəd" surəsi 28-ci ayədə buyurur:

"...Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aramlıq tapar!" Məhəbbət Quranda Quran ayələri, hədis və əqli dəlillərə əsasən, İslam mədəniyyətində ali dəyərlərdən biri və Allah-taalaya yaxınlaşmaqda ən başlıca amil ona məhəbbətdir.

Allah-taala Quranda insanları dəfələrlə müxtəlif sifətlərlə öz diqqət və məhəbbəti mərkəzində yerləşdirmiş və aşkarcasına öz məhəbbət və sevgisini nişan verən sözlərlə onu bəyan etmişdir. 1. Səbir edənlər: "...Allah səbirliləri sevir". ("Ali-İmran" surəsi, ayə 146) 2. Təqvalılar: "...Allah təqvalıları sevir". ("Ali-İmran" surəsi, ayə 76) 3. Təvəkkül edənlər: "...Allah təvəkkül edənləri sevir". ("Ali-İmran" surəsi, ayə 159) 4. Tövbəkarlar: "...Allah tövbəkarları sevir və pakları (da) sevir". ("Bəqərə" surəsi, ayə 222) 5. Yaxşılar: "...Allah yaxşı iş görənləri sevir". ("Bəqərə" surəsi, ayə 195) 6. Mücahidlər: "Allah o kəsləri sevir ki, onun yolunda vuruşurlar...". ("Səff" surəsi, ayə 4) 7. Ədalət icraçıları: "...Allah ədalətliləri sevir". ("Maidə" surəsi, ayə 42) Bunlar Allahın məhəbbətini qazanan və Allahın sevdiyi insan dəstələridir. Allahın bəndəsinə məhəbbətinin həqiqi mənası belədir: Allah-taala onun qəlbi üzərindən pərdələri, hicabları qaldırar ki, qəlb və bəsirət gözü ilə onu görsün və ali məqama – Allaha yaxınlıq məqamına çatması üçün ona qüvvət verər. Allahın bəndəsinə olan bu iradəsi ona məhəbbətinin göstəricisidir.

## Məhəbbətin mənası

Mövzumuz daha da aydınlaşsın deyə ilk öncə məhəbbət termininin lüğət və terminologiyadakı mənası ilə tanış olacaq, sonra isə ariflərin baxışını nəzərinizə çatdıracayıq.

## Məhəbbətin lüğətdə mənası

Məhəbbət", "hübb" sözündən götürülmüşdür, mənası isə dostluq, mehribanlıq və qəlbi bağlılıqdır.

## Məhəbbətin terminoloji tərifi

"İnsanın ləzzət apardığı bir şeyə meyil etməsi məhəbbət adlanır".

İzah: Məhəbbət insanın ləzzət, mənfəət və ya kamal güman etdiyi bir şeyə meyl etməsidir. Həqiqi məhəbbət təslim olmaqdır.

## İrfan məktəbində məhəbbət və eşqin mənası

Ariflər insanda olan məhəbbət və eşq hissinə böyük əhəmiyyət verirlər. Onların nəzərincə, eşq bütün varlıqlarda mövcuddur. O cümlədən, hava, torpaq, od, külək və atom zərrəciklərində belə, eşq cərəyanı mövcuddur.

"Səhifeyi-Səccadiyyə" bu mövzunu belə izah edir:

"Allah-taala aləmi heçdən (heç bir nümunəsi olmadan) yaratdı. Sonra isə onu özünün eşq və məhəbbət yoluna yönəldərək həyat bəxş etdi."

Ariflərin açıqlaması: "Dərdli olmaq insan xüsusiyyətlərindəndir. Onu mələklərdən üstün edən məhz bu xüsusiyyətdir. Çünki bu xislət mələklərdə yoxdur. Onların nəzərincə, bu, həmin "Allahaxtarma" dərdidir. İnsan Allah tərəfindən göndərilmiş və dünyada qərar tuta bilməyən bir varlıqdır. Bu da onu dünyada qürbət hissi keçirməyə məcbur edir. Onun gözündə dünya və onun üzərindəki bütün varlıqlar

fani görünür. Ona görə də heç bir şeyə ürək bağlaya bilmir. Amma bununla belə, o, əbədiyyətə qovuşmaq düşüncəsi ilə yaşayır. Bu da onun dərd əhli olmasına səbəb olur."

Hindistan meşələrindən gətirilib qəfəsə salınmış tutuquşu misalı bunun bariz nümunələrindəndir. Quş hər an qəfəsdən canını qurtarıb öz vətəninə qayıtmaq fikri ilə yaşayır. Bəli, o, narahatdır, öz doğma yurduna qayıtmaq istəyir. Buna onun haqqı da var!...

İnsanın dərdi ancaq və ancaq Allah dərdidir. O, bunu düzgün başa düşsə, ibadətləri Əmirəl-möminin Əlinin (ə) aşiqcəsinə etdiyi ibadətlər kimi olacaqdır.

Qurani-kərim bu barədə "Rəd" surəsi 28-ci ayədə buyurur:

"...Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aramlıq tapar!"

## Allaha məhəbbət

Allah-təala Həzrət İbrahimi(ə) bir neçə xüsusiyyətinə görə Özünə dost, xəlil seçmişdir. O səbəblərdən biri də həzrət İbrahim(ə)-ın Allaha məhəbbəti olması idi. Həzrət İbrahim(ə) qəlbində Allaha olan məhəbbəti hər şeydən artıq idi. Həzrət İbrahim(ə) çox işgüzar və çoxlu mal-dövlət sahibi idi. Allah-təala ona həddən artıq mal-dövlət əta etmişdir. Mələklər Allaha dedilər: İlahi, Sən İbrahimə(ə) çox mal dövlət verdiyinə görə o sənə ibadət və zikr edir. Allah-təala mələklərə sübut etmək istədi ki, əgər bir insanın Allaha həqiqi məhəbbəti varsa o məhəbbət heç vaxt onun qəlbindən çıxmaz.

Həzrət İbrahimin(ə) qəlbi Allah məhəbbəti ilə dolu idi və Allaha da ona görə zikr və ibadət edirdi. O Allahı verdiyi mal-dövlətə görə yox, bəlkə Ona olan məhəbbətinə görə zikr edirdi. Bu məhəbbətin əlaməti də belədir ki, əgər insan mal-dövlətini

Allah yolunda verməyi bacararsa deməli qəlbində Allaha həqiqi məhəbbət vardır.

Allah təala mələklərə həzrət İbrahimi(ə) imtahan etməyi əmr etdi. Bir gün həzrət İbrahim(ə) çöldə qoyun otararkən həzrət Cəbrail(ə) insan cildinə girib onun yolu üstə əyləşdi və Allaha zikr etməyə başladı. Həzrət İbrahim(ə) ona yaxınlaşdıqda Cəbrail(ə) dedi: "Sübbuhun Quddus" "Allah pak və münəzzəhdir." Həzrət İbrahim(ə) ona yaxınlaşıb soruşdu: Sən kimsən? Cəbrail(ə) dedi: Allah bəndəsi. Həzrət İbrahim(ə) dedi: Sənə o sözləri kim öyrədib? Cəbrail(ə) dedi: Öyrənmişəm. Həzrət İbrahim(ə) dedi: O sözlər mənim məşuqumun adlarıdır. Olarmı onları bir də təkrar edəsən? Cəbrail(ə) dedi: Qoyunlarının üçdə bir hissəsini mənə ver deyim. Həzrət İbrahim(ə) dedi: Qoyunların üçdə birini götür. Lakin o sözləri bir də təkrar et. Cəbrail(ə) Qoyunların üçdə birini alıb bir dəfə də "Sübbuhun Quddus" dedi: Həzrət İbrahim(ə) dedi: O sözləri bir də təkrar edə bilərsənmi? Cəbrail(ə) dedi: Qoyunlarının yarsını mənə ver deyim. Həzrət İbrahim(ə) qoyunların yarsını ona verdi. Cəbrail(ə) O sözləri bir də təkrar etdi. Həzrət İbrahim(ə) dedi: Olarmı bir də təkrar edəsən? Cəbrail(ə) dedi: Yox. Qoyunların hamısını mənə versən deyərəm. Həzrət İbrahim(ə): Qoyunların hamısı sənin olsun lakin o sözləri bir də təkrar et.

Həzrət Cəbrail dedi: İbrahim, həqiqətən sən Allahın dostu olmağa layiqsən. Ona görə də Allah səni özünə xəlil etdi. Çünki mən insanlar arasında çox gəzmişəm və Allah onların hamısını bizə tanıtdırıb. Lakin insanlar içində sənin kimi Allahın zikrinə bütün mal-dövlətini qurban verən ikinci bir şəxs görməmişəm.

Hədislərdən belə məlum olur ki, həzrət İbrahim(ə) Allaha olan məhəbbətinə görə bütün mal-dövlətindən keçməyə hazır

idi. Onun Allaha olan məhəbbəti öz həyati işlərinin ən önəmlisi idi.

Mələklər Allah tərəfindən həzrət İbrahim(ə)-a İsmayıl və İshaqın dünyaya gəlməsi müjdəsilə onun evinə qonaq gəldilər. Onlar əvvəl həzrət İbrahim(ə)-ı imtahan etmək istədilər. İnsan cildində onun evinə qonaq gəldilər. Həzrət İbrahim(ə) onları tanımadı. Onlar üçün heyvan kəsərək yaxşı bir süfrə hazırladı və qonaqları süfrəyə dəvət etdi. Lakin mələklər dedilər: Biz bu qonaqlığın qiymətini bilməsək bu yeməklərdən yeməyəcəyik. Gərək əvvəl bu qonaqlığın qiymətini bizə deyəsən. Həzrət İbrahim(ə) dedi: Bu qonaqlığın qiyməti odur ki, yeməyə başlarkən bismillah, qurtardıqda isə əlhəmdulillah deməlisiz. Həzrət Cəbrail orada da yenə həmin sözləri təkrar edərək buyurdu: İbrahim, həqiqətən sən Allahın dostu olmağa layiqsən. Ona görə də Allah səni özünə xəlil etdi.

Buna əsasən də Allaha iman gətirib Onun yolanda öz mallarından və canlarından keçən şəxsləri "Bəqərə" surəsinin 165-ci ayəsində tərif edərək belə buyurur:

...وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِّلّهِ...

"Halbu ki, iman gətirənlərin Allaha məhəbbəti daha da qüvvətlidir."

Yəni iman gətirənlərin ən yüksəyi qəlblərində Allaha məhəbbəti olan kəslərdir. Belə insanlar Allahın məhəbbətinə görə haram yeməkdən çəkinər və həyatda qayda-qanunla yaşayar.

قال الصادق(ع): لا يمحض رجل الإيمان باالله حتى يكون الله احب اليه من نفسه و ابيه و امه و ولده و اهله و ماله و من الناس كلهم

İmam Sadiq(ə) buyurur: Bir insanın imanı Allah ona canından, ata anasından, övladlarından, ailəsindən və bütün insanlardanyaxın olmasa, xalis (kamil) olmaz.1

Ümumiyyətlə qəlbində Allaha məhəbbət olan şəxs həmişə mallarını, canlarını Allah yolunda qurban verməyə hazırdılar.

Onlar Allaha xatir bir iş gördükdə onlara ziyan yetəcəyindən qorxmurlar. Çünki onlar təmiz qəlblə eşq meydanına girmişlər və hər şeyi Allaha qurban verməyə hazırdılar.

Lakin bəzi insanlar isə Allahı, Quranı və dinin məsləhətlərini kənara qoyaraq başqalarının və ya öz məsləhətləri ilə hərəkət edirlər. Belə insanların qəlbində heç vaxt Allaha məhəbbət olmaz. Çünki onlar Allahın na qayda-qanununa nə də dinin məsləhətlərinə əməl etmirlər.

قال رسول الله(ص): احبوالله من كل قلوبكم

Həzrət Peyğəmbər(s) buyurur: “Allahı bütün qəlbinizlə sevin!” 1

Yəni ürəyinizdə Allahdan başqasının məhəbbəti olmasın.

Zəkəriyya həmişə həzrət Məryəmin otağına daxil olarkən onun yanında cür-bəcür meyvələrin olmasını müşahidlə edərdi. Dəfələrlə onun otağına daxil olarkən yay vaxtı qış meyvələri, qış vaxtı yay meyvələri olduğunu görmüşdü. O həzrət Məryəmdən onun üçün meyvələrin haradan gəldiyini soruşduqda Məryəm belə cavab verərdi: bunları Allah mənim üçün göndərmişdir.

Həzrət Məryəmin Allaha məhəbbəti çox olduğundan Allah onun üçün cənnətdən cür-bəcür meyvələr göndərirdi. Allah təala bu mətləbi “Ali-İmran” surəsinin 37-ci ayəsində vurğulamışdır.

فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقاً قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَـذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللّهِ إنَّ اللّهَ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ

“Belə olduqda, Rəbbi (Məryəmi) yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyya:) “Ya Məryəm, bunlar sənin üçün haradandır?” dedikdə, o:

"Allah tərəfindəndir!" deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!

Həzrət Məryəm İsa(ə)-ı dünyaya gətirdikdən sonra, zəifləyib, haldan düşdü. Allah-təala onun üçün cənnətdən bir xurma ağacı nazil etdi və buyurdu: "Ya Məryəm! Dur ağacdan meyvələrdən dər ye! Məryəm dedi: İlahi, İsa(ə) dünyaya gəlməzdən əvvəl Sən meyvələri mənim qarşıma göndərərdin. Lakin İsa(ə) dünyaya gəldikdən sonra mənə bu zəhməti verməyin səbəbi nədir?

Allah-təala buyurdu: "Ey Məryəm! Nə qədər ki, İsa(ə) dünyaya gəlməmişdi sənin qəlbində tamamilə Mənim məhəbbətim var idi. Lakin İsa(ə) dünyaya gəldikdən sonra sənin Mənə olan məhəbbətin azaldı və qəlbində İsa(ə)-ın məhəbbəti yer tutdu. Ona görə də Mən sənə bu kimi zəhmətləri verirəm.

İnsan gərək Allaha qarşı məhəbbətini çoxaltsın. Hədislərdə vardır ki, hər kəs bilmək istəsə ki, Allah onu nə qədər istəyir və Allah yanında nə qədər qiyməti olduğunu bilmək istəsə, baxıb görsün ki, özü Allahı nə qədər istəyir və Allaha nə qədər qiymət qoyur.

Həzrət Musa(ə) Allaha xitab etdi: İlahi, mən sənə qarşı öz məhəbbətimi xalis etmişəm və səndən başqa heç kəsin məhəbbətini qəlbimə girməyə icazə verməmişəm. Allah-təala buyurdu: "Ey Musa! Çarıqlarını çıxart! Sən müqəddəs bir məkandasan!"

Bu ayədə "çarıqlarını çıxart" sözünün mənası hədislərdə belə gəlmişdir. "Ey Musa! Qəlbindən övladının, dünyanın və s. məhəbbətlərini çıxart"

İnsan əgər Allahın məhəbbətini qazanmaq naminə dünyanın, övladın, mal-dövlətin və s. məhəbbətini qəlbindən çıxara bilərsə, demək Allahın məhəbbətini qazanmış olar.

Ümumiyyətlə qəlb elə bir yerdir ki, insan gərək ora Allahdan başqasına girməyə qoymasın.

İmam Sadiq(ə) buyurur: Qəlb Allahın evidir. Ora Allahdan başqasına yol verməyin.

Qeyd etmək lazımdır ki, bu o demək deyil ki, insan mal-dövlətə, övlada, ata anaya məhəbbət bəsləməməlidir. İnsan əgər mal-dövlətini qoruyursa, ata anasını sevirsə, övladına məhəbbət bəsləyirsə, bunların hamısı Allaha xatir olmalıdır.

## İman və elm

Bu bəhsdə imanla elmin bir-birindən fərqləndiyini bilmək lazımdır. Elm təcrübə və isbatın nəticəsidir. Bu iki amil təsəvvür və təfəkkürdən irəli gəlir, lakin iman və inam ürfani vicdan, ilahi fitrət qarşısında özünü ayıltmaqdır. Başqa ifadə ilə desək, elm kəsb olunan və dərk edilən bir məfhumdur. İman isə ülvi parıltı, vicdan harayına cavabdır.

Elmlər adətən təsəvvür, təfəkkür və müəyyən bir reaksiyadan doğur. İman isə vicdana inam və tapınmaqdır. Başqa sözlə desək, elm təcrübə, təhqiqat, məfhum, bilik toplusudur, lakin iman müqəddəs varlığa qarşı bağlılıq, təzim və sitayiş hissidir. Elmə aid olan şeylər insan qəzəbinə və nifrətinə səbəb ola bilər, amma iman həmişə qəlblərdə məhəbbət, sevgi yaradır. O yerdə ki iman mövcuddur, orada təvazökarlıq, təzim, sitayiş də olur. Məsələn, Allaha iman fitri ehtiyac və heç nəyə təmənnası olmayan Tanrıya bağlılıq, böyük əzəmət, rəhmət, sonsuz qüdrət qarşısında acizlik və kiçiklik hissidir.

Quran təbiri ilə desək, iman fitrət harayına cavab və əhd-peymanın yenidən təzələnməsidir: "Allahın fitri olaraq insanlara verdiyi din" («Rum», 30)

"Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onları özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?"-soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!"-deyə cavab vermişdilər." («Əraf», 172)

Sonra ayənin ardında buyurur ki, bu bildiriş və şəhadət onun üçündür ki, «Qiyamət günü "Biz bu məsələdən xəbərdar deyildik,"-deyə bəhanə gətirməyəsiniz».

Deməli, iman fitrətin ehtiyacına qarşı əhdin təzələnməsi və təkididir. Burada əhd-peyman dedikdə imanın nəzərdə tutulması ehtimal olunur, amma elm alim və məlum (öyrənilən şey) arasında bir növ zehni və fikri əlaqədir. İman kəlməsində isə Allah qarşısında sitayiş, təzim və təvazökarlıq hissi ehtiva olunur, lakin elmdə bu, tələb edilmir, çünki elm alimin nəzərində xoşagəlməyən məchulların kəşfi və ixtirası üçün bir vasitədir. Elm imanla həmişə birgə deyildir. Ona görə də Qurani-Kərimdə buyurulur: "(Möcüzələrimizin) həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər." («Nəml», 14)

Buna görə də Allah Təala Quranda insanlara "Ey bilənlər" kimi yox, "Ey iman gətirənlər" kimi xitab edir, yəni bilib iman gətirməyənlər yox, iman gətirən şəxslər.

Başqa bir tərəfdən də iman həmişə arxayınlıq və xətircəmliklə birgədir, ancaq elmin bəzən iztirab və nigarançılığa səbəb olması da mümkündür. Allah Təala möminlər barədə buyurur: "O kəslər ki, Allahı zikr etməklə ürəkləri rahat olduğu halda iman gətirmişlər. Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar!" («Rəd», 28)

## Elm imanın tamamlayıcısı kimi

Elm bir çox hallarda imanın müqəddiməsi və tamamlayıcısıdır. Buna görə də Qurani-Kərimdə elm təriflənmiş və adı imanla yanaşı çəkilmişdir: "Allah da sizdən iman gətirənlərin və (xüsusilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın" («Mücadələ», 11)

Bu mərhələləri tamamlamaqla məlum olur ki, elm və iman iki ifadədən əmələ gəlmişdir. Əgər iman eşq və ürfan ifadəsindəndir desək, doğru söyləmiş olarıq. Buna görə də «Kümeyl» duasında oxuyuruq: "İlahi! Məni əfv et. Ey mənim Mövlam, ey mənim Rəbbim, Sənin əzabına səbir edərəm, amma fəraqına necə səbir edim?"

Bu aşiqin məşuqu ilə münacatıdır. Buna görə də harada imandan söz açılırsa, məhəbbət və eşq məsələsi də ortaya çıxır.

Allah Təala iman əhlini vəsf edərək buyurur: "Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən. Onlar deyirlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi (haqqa) şahid olanlarla bir yerdə yaz." («Maidə», 83)

İman mayasız və özülsüz olsa da, məhəbbət və eşqlə doludur. Hətta bütpərəstlər öz bütlərinə məhəbbət bəsləyərək onlara təzim, sitayiş və ibadət edirdilər. Qurani-Kərimdə bu barədə buyurulur: "İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır, halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər (özlərinə) zülm edənlərin vaxtında görəcəkləri əzabdan xəbərləri olsaydı, onlar bütün (qüvvət) qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər." («Bəqərə»-165)

## İkitərəfli əlaqə

Dinsiz və qafil şəxslərdən bəzisi belə hesab edirlər ki, Allaha olan iman və sitayiş bir növ insanların Allahla birtərəfli əlaqəsidir. Bu səhv düşüncə vasitəsilə imandan uzaqlaşmaq üçün bəhanə gətirirlər, lakin bu, cahilanə və qərəzli bir düşüncədir, çünki iman Yaradanla yaradılmış arasında qarşılıqlı sıx əlaqədir. Bu əlaqə təbii həqiqət əsasındadır. Bu əlaqədə hər iki tərəfin cazibə və marağı vardır, yəni Allah Təala bəndələrini sevdiyindən bütün bu nemətləri onların ixtiyarına vermişdir. Əlbəttə, Tanrı təqvalı, əməlisaleh və qəlbi pak möminləri daha çox sevərək buyurur: "Həqiqətən, Allah təqvalıları sevir." («Ali-İmran», 76)

"Yaxşılıq edin, həqiqətən, Allah yaxşılıq edənləri sevir." («Bəqərə», 195)

"Allah pak olanları sevir." («Tövbə», 108)

«Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki,) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür. Onu istədiyinə verər. Allah (lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir». («Maidə», 54)

Bu ayədə söhbət ikitərəfli, qarşılıqlı dostluqdan gedir. Bu dostluq Allah və onun bəndələri tərəfindən təzahür olunur. Bu özü ona sübutdur ki, həqiqi iman qarşılıqlı əlaqə və birləşmədir. Başqa sözlə, həqiqi iman Xaliq və məxluq arasındakı qarşılıqlı sevgidir. Qurani-Kərimdə Allahı "mömin" sifəti ilə vəsf edərkən bu qarşılıqlı əlaqəyə işarə edilərək buyurulur: "O, özündən başqa heç bir Tanrı (Məbud) olmayan, (bütün məxluqatın) ixtiyar sahibi, müqəddəs (pak) olan, mömin, (hər şeydən) göz-qulaq olub (bəndələrini) qoruyan, yenilməz qüdrət (qüvvət) sahibi, (hamını istədiyi hər

hansı bir şeyə) məcbur etməyə qadir olan, (hər şeydən) böyük, (hər şeyin fövqündə) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır." («Həşr», 23)

Təfsirçilər "mömin" kəlməsini təfsir edərkən bir neçə fikir irəli sürmüşlər: [7]

1.O kəs ki, bəndələrinə əmin-amanlıq bəxş edir.

2.Bəndələri onun zülmündən və əzabından amandadırlar. (Heç kimə zülm etmir.)

3.Hamıdan qabaq öz yeganəliyinə imanı vardır, hamıdan qabaq öz tövhid və təkliyinə şəhadət verir:

«Allah özündən başqa heç bir Tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa, ədalətə boyun əyərək (haqqa tapınaraq) o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər». («Ali İmran», 18)

## Təvəlla və Təbərra

Təvəlla və təbərra İslam dininin füruidin [8] bölməsinə aid olan hissələrdir. Elə buna görə də insan yaxşılıqlar və yaxşıları sevib, pislər və pisliklərlə mübarizə aparmalıdır. Odur ki, Allah Təala Peyğəmbərin (s) həqiqi ardıcıllarını vəsf edərək buyurur: "Mühəmməd (s) Allahın peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər." («Fəth», 29)

"(Ey peyğəmbər!) Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun peyğəmbərinə qarşı çıxanlarla – öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə, dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Tanrı onların qəlblərinə iman yazmış və öz dərgahında onlara ruh (güc) vermişdir (iman, hidayət nuru əta etmişdir.)"(«Mücadələ», 22)

«Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost tutun! Onlar (kafirlər) sizə gələn haqqı (Quranı, Həzrət Mühəmmədi(s)) inkar etdikləri halda, siz onlarla dostluq edirsiniz (mehribanlıq göstərirsiniz)». («Mümtəhinə», 1)

Buna görə də bu məsuliyyəti öhdəsinə götürmüş möminlərdə həm ehtiram göstərmək, həm də etiraz etmək xüsusiyyəti olmalıdır. Hamının yanında hörmətli və mehriban olmaq istəyənlər isə münafiqdirlər. Bu barədə rəvayətlərdə də təkid olunur. Rəvayətə görə Peyğəmbər(s) səhabələrdən birinə buyurur: «Ey Allahın bəndəsi! Öz dostluq və düşmənçiliyini Allah üçün, onun yolunda et! Dostluq və düşmənçiliyin bu yolda olmalıdır, çünki başqa bir yolla Allah dərgahına yetişmək və imanın şirinliyini dadmaq olmaz. Bu gün nəzərlərin çoxu dünyəvi məqsədlər üzərində yaranmış dostluq və düşmənçiliklərə yönəlmişdir. Bu xırdalıqların Allah yanında heç bir dəyəri yoxdur». Həmin səhabə soruşdu: «Necə başa düşək ki, dostluğumuz və düşmənçiliyimiz Allah üçündür? Haradan bilək ki, Allahın dostu kim, düşməni kimdir? Əgər biz də bunu bilsək, onun dostu ilə dost, düşməni ilə düşmən olarıq?». Peyğəmbər(s) Həzrət Əliyə(ə) işarə edərək buyurdu: "Bunun dostu Allahın dostu, düşməni isə Allahın düşmənidir. Ona görə də atanın və övladının qatili olsa da, onun dostu ilə dost, atan və övladın olsa da, onun düşməni ilə düşmən ol." [9]

Təvəlla və təbərra o qədər əhəmiyyətlidir ki, bəzi hədislərdə imanın ən əsas hissəsi hesab olunmuşdur. [10]

Mədinə müsəlmanlarının Qurani-Kərimdə həmişə təriflənən xüsusiyyətlərindən biri də budur ki, onlar mühacirləri imanlarına görə sevib, bu yolda onlardan heç bir şey əsirgəməyərək öz evlərini açıq ürəklə, səmimiyyətlə mühacirlər üçün hazırlayıb, gülərüzlə qarşıladılar. Bu barədə

Qurani-Kərimdə deyilir: "Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Peyğəmbərə(s) qəlbən) iman gətirmiş kimsələr (ənsarlar) öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar."(«Həşr», 9)

Əgər dostluq və düşmənçilik Allaha xatir olmazsa, davamlı olmayıb əksinə çevriləcəkdir. Başa düşmək lazımdır ki, belə dostluqlar həmişəlik ziyana səbəb olur. Allah Təala bu haqda buyurur ki, onlar Qiyamət günü bir-birini lənətləyib düşmənçilik edərək təəssüflə deyərlər ki, kaş bu kəslə dost olmayaydıq: "Müttəqilər müstəsna olmaqla o gün dostlar bir-birinə düşmən kəsiləcəklər". («Zuxruf», 67)

"Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim." («Furqan», 28)

Ona görə də ey mömin bacı-qardaşım, çalış dostluq və düşmənçiliyin Allaha xatir olsun! Həmişə yaxşılar və yaxşılıqlarla dost ol, pislər və pisliklərlə mübarizə apar və Allahdan belə istə: "İlahi, məni bu dünyadan müsəlman aparıb, salehlərə qovuşdur".

## Nəticə

İslam nöqteyi-nəzərindən insan cəmiyyətinin formalaşmasında əsas rolu məhəbbət, sevgi, dostluq oynayır. Hədisləri də gözdən keçirdikdə, camaatın bir-birinə məhəbbəti sayəsində yaranan toplumun İslamda arzuolunan insan cəmiyyəti olduğu məlum olur.

İslam dini elə bir cəmiyyət qurmaq istəyir ki, orada bütün insanlar bir-birini qardaş sayır və fədakarlıq həddində qarşılıqlı məhəbbət bəsləyirlər. Səbəbi isə bəsitdir; istənilən insan cəmiyyətinin formalaşdırılmasında məhəbbət kimi effektiv mexanizm yoxdur.

Digər tərəfdən İslam insanın təkamül proqramıdır və bu proqramın əsas ünsürünü məhəbbət təşkil edir.

İnsan rəftarında ən təsirli amillərdən biri də məhəbbətdir. Belə ki, insan sevdiyinə tabe olur. Məhəbbət bilmək və tanımaq sayəsində qazanılır. Ona görə də, tanımaq məhəbbət, məhəbbət isə itaət gətirir.

## Ədəbiyyat

1. «Elamüd-din», Deyləmi, Beyrut, Darü-ehyaüt-türasil-ərəbi, 1399 hicri-qəməri, ikinci çap.

2. Əl-Müğni ən həmlil-əsfar, Əbül-fəzl Zeynuddin Əbdür-rəhim ibn Hüseyn Əraqi, tədqiq: Əbu Məhəmməd Əşrəf ibn Əbdül-məqsud, Riyaz, Məktəbtü-dari-Təbəriyyə, 1415 hicri-qəməri, birinci çap.

3. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.

4. «Nurus-səqəleyn» təfsiri, Beyrut, Darül-fikr.

5. Misbahüş-şəriə və miftahül-həqiqə, İmam Sadiqə(əleyhis-səlam) nisbət verilib, şərh:Əbdür-rəzzaq Gilani, təshih: Cəlaləddin Mühəddis Ürməvi, Tehran, Nəşri Səduq, 1407 hicri-qəməri, üçüncü çap.

6. Məcməül-bəyan fi təfsiril-Quran, Fəzl ibn Həsən Təbrisi (Əminül-islam), (vəfat: 584 h. q.), Seyid Haşim Rəsuli Məhəllati və Seyid Fəzlülah Yəzdi Təbatəbayi, Beyrut, Darül-mərifə, 1408 hicri-qəməri, ikinci çap.

7. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi(Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap..

# Nəhcül-bəlağədə vəhdət prinsipi

*Xədicə Babayeva*

**Abstrakt**

Vəhdət və birlik hər bir cəmiyyətin dayağı, sütunu sayılır. Əgər bir toplumun fərdləri təfriqəyə, ayrılığıa düçar olarsa, onun fundamenti bir-birinə dəyər və hərc-mərcliyə düşər. Bir parça olan və nizamlı bir cəmiyyət hər bir saleh və azad düşüncəli insanın arzusudur. Əgər millətlərin tarixinə ötəri bir nəzər salsaq, görəcəyik ki, fərdləri bir olan, bir yerdə iş görən toplum izzətli və iftixarlı olmuşdur. Həzrət Əli (ə) keçən ümmətlərin izzətinin, iftixarının, xoşbəxtliyinin ən böyük amilinin birlik və ittifaq, məğlubiyyətlərinin, zillətlərinin, süqutlarının ən üstün amilinin isə təfriqə və ayrılıq olduğunu deyir.

**Açar sözlər:** Nəhcül-bəlağə, vəhdət, birlik, qardaşlıq

## İmam Əli (ə) və Vəhdət

Həzrət Əli (ə) Nəhcül-Bəlağədə cəmiyyətin imam və rəhbər kimi mərkəzi ox ətrafına yığılmasına təkid etmişdir. Əsas etibarilə, müsəlmanların Həzrət Rəsulallah (s) zamanında izzətə, şərəfə çatmalarının səbəbi həmin mərkəzi oxa diqqət etmələri idi. Həzrət Əli (ə) Nəhcül-Bəlağədə İslamın böyük Peyğəmbərini (ə) camaatın vəhdətinin və fitnələrin, ixtilafların yatırılmasının əsas amili kimi tanıtdırmışdır.

Həzrət Əli (ə) bu barədə buyurur: "Allah-taala keçib gedənlərdən heç kimə ayrılıqlarına, təfriqəyə görə xeyir verməmişdir."

Mövhumat əsasında öz qardaşları, həmməzhəbləri ilə küsülü olan qövm həyatın səfa və səmimiyyətini, gözəlliyini kin-küdurətə çevirər. Onlar öz xam xəyallarına əsasən bu yolla bəhrələnmək, fayda götürmək istəyirlər.

Həzrət Əli (ə) tam səmimiyyət və sadiqliklə onlara xatırladır ki, sizin gümanınız batildir, yanlışdır, getdiyiniz yolun sonu yoxdur. Axırda istəmədiyiniz və gözlədiyinizin ziddi olacaq bir nəticəyə çatacaqsınız, elə isə oyaq olun, özünüzə gəlin.

İmam (ə) xalqların inkişafının və süqutun, məğlubiyyətinin və qələbəsinin səbəblərini xütbələrinin birində vurğulamışdır. Ucalmaq və qələbənin ən mühüm amillərindən birinin vəhdət, süqut və məğlubiyyətin ən mühüm səbəblərindən birinin isə təfriqə olduğunu demişdir.

Həzrət Əli (ə) Nəhcül-Bəlağədə 25-ci xütbədə buyurur: "Mənə xəbər çatmışdır ki, Bisr ibn Ərtat Yəməndə hakimiyyəti ələ keçirib. Allaha and olsun ki, Şam camaatı

tezliklə sizə qələbə çalacaq. Çünki onların öz batil yollarına kömək etməkdə vəhdətləri var, siz isə haqqı müdafiə etməkdə pərakəndəsiniz. Siz öz rəhbərinizə haqq yolunda itaətsizlik, onlar isə batil yolunda öz başçılarına itaət edirlər. Onlar öz rəhbərlərinə qarşı əmanətdar, siz isə xəyanətkarsınız. Onlar öz şəhərlərində islahatla, abadlaşdırmaqla məşğuldurlar, siz isə dağıtmaqda o qədər batmısınız ki, əgər birinizə taxta su kasası əmanət versəm, qorxuram onun ipini oğurlayasınız.”

İmam Əli (ə) bu yerdə millətlərin qələbə və süqutun ən mühüm 4 amilini saymşdır:

**Qələbənin, inkişafın 4 amili:**

1. Vəhdət
2. Rəhbərə itaət
3. Əmanəti qorumaq, rəhbər ilə əhdə vəfa etmək
4. İslahat və abadlaşdrmaq

**Məğlubiyyətin, süqutun 4 amili:**

1. Təfriqə, ayrılıq, pərakəndəlik
2. Rəhbərin göstərişlərinə itaətsizlik
3. Əmanətə xəyanət və rəhbərlə əhd-peymanı sındırmaq
4. Cəmiyyətdə fəsad

Bu amillər bütün dövlətlət və xalqlar haqqında doğrudur, yalnızca İslam dövlətçiliyinə və millətinə aid deyil.

**Vəhdət və imamət**

Həzrət Əli (ə) imaməti birliyin və vəhdətin amili sayır; istər rəhbər cəmiyyəti irəli aparsın, problemləri həll etsin və

onları düşmən müqabilində birləşdirsin, istərsə də əksinə olsun.

Əlbəttə, əgər rəhbər qətiyyətli olsa, amma camaat ona itaət etməsə, müvəffəq olmayacaq, necə ki, həzrət Əlinin (ə) zamanında belə oldu.

Həzrət Əli (ə) dövlətin və millətin hüququna riəyət etməyi onlar arasındakı bağlılığın əsası bilir. Yəni, xalqla rəhbərin bağlılığı qarşılıqlı hüquqlara riəyət olunma sayəsində gerçəkləşir.

İmam Əli (ə) Nəhcül-Bəlağədə bu həqiqətə gözəl təmsil və misalla işarə etmişdir: "Din rəhbərinin və məmləkət hakimliyinin məqamı, təsbeh ipinin onun dənələrinə olan nisbəti kimidir. Təsbeh ipi onun dənələrini bir yerə yığır, bir-birinin yanında saxlayır. Elə isə, təsbehin ipi qırılarsa, dənələr ayrılar, hər biri bir guşəyə düşər və heç vaxt onları bir yerə yığmaq olmaz."

Bir cəmiyyətin nizamı və ayaq üstə dayanmasının onunla rəhbər arasındakı birliyə bağlı olması şübhəolunmaz bir həqiqətdir.

Hər bir dövrdə, xüsusilə də fitnə və ixtilaf odunun şöləlendiyi zaman xalqın rəhbərə itaəti və həm də rəhbərlik tərəfindən vəziyyətin düzgün işıqlandırılması rəhbərlə ümmətin arasında vəhdətin gerçəkləşməsi üçün bir qaynaq – hansı ki, İslam ümmətinin və dövlətinin ayaq üstə dayanmasının ən mühüm amili və düşmən müqabilində ən böyük səddidir – ola bilər.

## Quran və milli vəhdət

Quranda ictimai mövzuları icmali şəkildə nəzərdən keçirməklə, görürük ki, Quran hər bir cəmiyyətin səadət və işkişafının ən əsas amillərindən birinin vəhdət və onun süqutunun ən mühüm səbəblərindən birinin də təfriqə, ayrılıq olduğunu deyir. Mühəqqiqlərdən biri yazır: "Qurandan hər hansı bir səhifə açılarsa, hər hansı bir surə oxunarsa, birbaşa, yaxud da bir işarə ilə göstərilir ki, birlik inkişafın, yüksəlişin, qələbənin və ixtilaf isə süqutun, uğursuzluğun amilidir".

Quran İlahi ipdən yapışmağı İslam ümmətinin vəhdətinin ən mühüm amili sayır: "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən, O sizi oradan xilas etdi..."

Qurtubi bu ayənin təfsirində yazmışdır: "Allah-taala dostluğa, birliyə əmr və təfriqəni qadağan etmişdir; hansı ki, vəhdət və cəm nicatın, təfriqə və ayrılıq isə həlakın amilidir".

Həmçinin, Təntavi yazır: "Haqq məhvərindən ayrılmayın, çünki o aranızda ixtilafların gerçəkləşməsinə səbəb olar".

Məhəmməd Abduh yazır: "Bəşər arasında ixtilafdan daha zərərverici şey yoxdur".

Əllamə Təbatəbai bu rabitə haqqında bu əqidədədir: "Ayədəki "nemət"də məqsəd vəhdət və bu vəhdətin səmərəsi qardaşlıq, qəlblərin bağlılığı və ayənin sonunda gəlmiş

"nər"də (od) məqsəd isə İslamdan öncəki dava-dalaşlar, müharibələrdir".

## Millətlərin səadətinin maneəsi ixtilaf və təfriqədir

Aşkardır ki, cəmiyyətin inkişafı milli vəhdət və fərdlərin bir-biri ilə uyğunluğu sayəsində ələ gəlir. Şəhid Mütəhərrinin təbiri ilə desək: Şübhə etmək olmaz ki, bir cəmiyyətin inkişafı nəinki münaqişələrin, dava-dalaşların, ixtilafların, ziddiyyətlərin, əksinə, həmfikirliyin, uyğunluğun, bərabərliyin, qarşılıqlı köməyin vasitəsilə gerçəkləşir. Həqiqətdə cəmiyyətdə çoxluqlar, ayrılıqlar, ixtilaflar vəhdətə hər nə qədər yaxın olarsa və mübahisələr, ziddiyyətlər öz yerini hər nə qədər köməyə, həmrəyliyə daha çox verərsə, o cəmiyyət daha kamil olar."

Buna görə də, həzrət Əli (ə) hamını təfriqədən çəkindirir və buyurur: "Təfriqə və parçalanmadan çəkinin."

Necə ki, xeyir və səadəti təfriqəni, parçalanmanı tərk etməkdə bilir, buyurur:

"Allah-taala heç kimi təfriqə ilə xeyirə və səadətə çatdırmaz."

## Vəhdətin gücü

Fundamenti ixtilaf, parçalanma və pərakəndəliyə meyl ilə qoyulmuş bir cəmiyyətdə həmişə müharibə və dövlət münaqişələri olar və belə bir cəmiyyətin üzünə yoxluq, məhv olmaq açıqdır.

İmam Əli (ə) təfriqəni cəmiyyətin zillətinin amili sayır və bu zəminində buyurur: "Keçmiş ümmətlərin aqibətinə yaxşı

baxın. Təfriqəyə, pərakəndəliyə üz tutduqları zaman aralarındakı ülfət və dostluq aradan getdi. Sözləri və baxışları müxtəlif, qəlbləri bir-birindən ayrı idi, cürbəcür qruplara bölündülər və təfriqə ilə bir-birinin müqabilində dayandılar. Allah da kəramət, böyüklür, ağalıq libasını və əllərindəki nemətləri onlardan aldı, problemləri ilə üzbəüz qoydu.”

Daha sonra, təfriqənin ümmətin fundamentini sındırdığına işarə edərək, tövsiyə edir: “Ümmətin fundamental sütununu sındıran, onun qüdrət və bünövrəsini bir-birinə vuran kin-küdurət, düşmənçilik, fərdlərinin bir-birindən qaçması, uzaq durması kimi şeylərdən çəkinin.”

Quran, ümmətlərə gələn İlahi əzabların növlərini qeyd edərkən qruplaşma və təfriqəni onlardan biri sayır və buyurur: “Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmağa və birinizə digərinizin zorunu daddırmağa qadirdir.”

Başqa bir yerdə buyurur: “(Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılıan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar.”

Diqqət etmək lazımdır ki, təfriqədən, ixtilafdan çəkinməyə bu qədər təkid olunmasının sirri budur ki, ixtilaf fəsadın əsas mənşəyidir. Aralarında ixtilaf olan xalq uğursuzluğa tərəf sövq olunar, Quranın təbiri ilə desək: onlar ağrılı əzaba düçar olarlar və xoşbəxt həyatın uğursuz həyata, zillətə çevrilməsi bunun ən kiçik nümunəsidir.

Quram müşriklərin xüsusiyyətlərindən birinin dinə müxtəlif baxışlar əsasındakı dini ixtilaf və qruplaşma olduğunu

deyir və müsəlmanları bundan çəkindirmişdir: “(Ya Rəsulum! Sən və ümmətin) tövbə edərək Ona tərəf dönün. Ondan (Allahın əzabından) qorxun, namaz qılın və müşriklərdən olmayın! O kəslərdən ki, öz dinini parçalayıb firqə-firqə oldular (bəzisi bütlərə, bəzisi günəşə və aya, bəzisi ulduzlara səcdə etməyə başladılar). Hər bir firqə öz dininə (öz dininin haqq olduğuna) sevinər.”

Quran bu ayədə, müşrikləri onların ən xüsusi sifətləri ilə tanıtdırmışdır və o da budur ki, onlar dində pərakəndə, dəstə-dəstə və qrup-qrup olarlar.

Həzrət Əli (ə) təfriqənin, ixtilafın zərəri, ziyanı və müsəlmanların vəhdətini bir-birinə vurmaq, onlar arasında pərakəndəlik salmaq istəyən şəxs ilə mübarizə haqqında son sözü buyurur; fitnəkar və ixtilaf salan adamın qətlinin vacib olduğunu qətiyyətlə deyir. Nəinki yalnız praktiki şəkildə fitnə salanın bu əzaba layiq olduğunu, əksinə, hətta təfriqə şüarı verən, müsəlmanlar arasında fitnə toxumu səpən şəxsin də qətlə yetirilməsini deyir: “İslam böyüklərinin əksəriyyətinin rəyini seçin, ona tabe olun ki, Allahın əli camaatladır. Tənya hərəkət etməkdən, kənara çəkilməkdən uzaq durun ki, camaatdan kənar olan insan şeytanın şikarı olar. Necə ki, sürüdən və çobandan ayrı düşən qoyun canavara nəsib olar. Bilin və agah olun ki, təfriqə şüarı verən hər bir kəs qətlə layiqdir, onu öldürün. Hətta bu şüar əmmamə altından və mənim dilimdən çıxarsa belə.”

Aşkardır ki, təfriqə şüarı fitnəyə səbəb olar. Allah-taala Quranda buyurmuşdur: “Fitnə qətldən daha şiddətlidir.”

Çünki fitnə həyatı məhv edir.

Əlbəttə, fitnəni aydınlaşdırma rəhbərlikdən asılıdır. Necə ki, həzrət Əli (ə) təfriqə şüarı yayan, icad edən “Xəvaric”i məhv etdi.

Cəmiyyətin rəhbərinin vəzifəsidir ki, təfriqə və fitnə salanlardan həmişə ehtiyatlı olsun, camaata İlahi bəsirətlə fitnənin və təfriqənin şərindən nicat versin.

## Nəticə

Həzrət Əli (ə) keçən ümmətlərin izzətinin, iftixarının, səadətinin ən böyük amilinin birlik, ittifaq və məğlubiyyətlərinin, zillətlərinin, süqutlarının ən üstün amilinin isə təfriqə və ayrılıq olduğunu deyir.

Həzrət Əli (ə) Nəhcül-Bəlağədə cəmiyyətin imam və rəhbər kimi mərkəzi ox ətrafına yığılmasına təkid etmişdir. Əsas etibarilə, müsəlmanların Həzrət Rəsulallah (s) zamanında izzətə, şərəfə çatmalarının səbəbi həmin mərkəzi oxa diqqət etmələri idi.

İmamət vəhdətin amilidir. Çünki rəhbərin gördüyü işlərdən biri ümmətin təşkilidir və ümmət, hədəfi vəhdət olan millət mənasınadır. İmamın vəzifəsi ümmətin təşkili və ümmətin vəzifəsi isə imama itaət etməkdir. Ümmət və imamın vəhdəti, birliyi İslam hökumətinin təşkil olunmasının bünövrəsidir və şiə məktəbi də bu bünövrə əsasında möhkəmlənmişdir.

Fundamenti ixtilaf, parçalanma və pərakəndəliyə meyl ilə qoyulmuş bir cəmiyyətdə həmişə müharibə və dövlət münaqişələri olar və belə bir cəmiyyətin üzünə yoxluq, məhv olmaq açıqdır.

İmam Əli (ə) təfriqəni cəmiyyətin zillətinin amili sayır və bu zəminində buyurur: “Keçmiş ümmətlərin aqibətinə yaxşı baxın. Təfriqəyə, pərakəndəliyə üz tutduqları zaman aralarındakı ülfət və dostluq aradan getdi. Sözləri və baxışları müxtəlif, qəlbləri bir-birindən ayrı idi, müxtəlif qruplara bölündülər və təfriqə ilə bir-birinin müqabilində dayandılar. Allah da kəramət, böyüklür, ağalıq libasını və əllərindəki nemətləri onlardan aldı, problemləri ilə üzbəüz qoydu.”

## Mənbələr

8. Qurani-Kərim
9. Nəhcül-bəlağə
10. Məhəmməd Bair, Məclisi, Biharül-ənvar, 1388 q.
11. Məhəmməd ibn Həsən, Hürr Amoli Vəsailüş-şiə, Beyrut, 1995
12. Müstədrəküs-Səhiheyn, Məhəmməd ibn Abdullah, Hakim Nişapuri
13. Mühəddis Qummi Kəhlül-bəsər,
14. Süleyman İbn Əhməd, Təbrani əl-Möcəmul-kəbir
15. Cəlaləddin Süyuti Kənzül-ümmal, 1388 ş.
16. Feyz Kaşani Məhəccətül-beyza,
17. Əbu Cəfər, Kuleyni, Qum, Üsuli-kafi, 1392

# İslamda xoşbəxt ailə strukturu

*Könül İmanova*

**Abstrakt**

İzdivac, ailə qurmaq, nəsil artırmaq heyvan, bitki və cansızlarda təkvini qanunlar, qərizələrin düzgün yönəldilməsi ilə baş verir. Lakin insanlar bu həyati məsələni dini qanunlarda, Quranda, peyğəmbər və imamların buyruqlarında göstərilən qayda-qanunlar əsasında həyata keçirilməlidirlər. Bu həqiqətin ilk mayası qərizə, meyl, dostluq, eşq və mehribanlıq şəklində, Allah-təalanın iradəsi ilə bərpa edilmişdir. Eyni zamanda uşaq dünyaya gətirmək və onun tərbiyəsi olduqca mühüm və məsuliyyətli vəzifədir. Çünki, uşaqlarımızın düzgün tərbiyəsi, sağlam gələcəyimizin təzminatıdır. Məhz böyüklərin verdiyi tərbiyə, uşağın şəxsiyyətinin formalaşmasında və cəmiyyətə yararlı, faydalı, istedadlı, savadlı, gözəl əxlaqlı insan kimi təqdim olunmasında əsaslı rol oynayır.

**Açar kəlmələr**: İslam, ailə, izdivac, uşaq, tərbiyə

## Giriş

«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət nişanələrindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən qövm üçün ibrətlər vardır!» .

Pak İslam mədəniyyətində özünə həyat yoldaşı seçmək öz-özlüyündə müstəhəb və çox bəyənilən bir işdir. Lakin ailə qurmamaq, subay qalmaq insanı günaha sürükləyərsə, bu zaman ailə qurmaq vacib və zəruri hesab olunur.

Bu halda Allahın göstərişlərinə boyun əymək, maddiyyatdan qorxmadan canla-başla ailə qurmaq lazımdır. Çünki gələcəkdən qorxmaq şeytan işidir, Tanrıya etimadsızlıqdır.

«İnsanları sudan (nütfədən) yaradan, onları bir-birinə əsil-qohum (qan qohumu) və sonradan (izdivac vasitəsi ilə) qohum edən Odur. Rəbbin (hər şeyə) qadirdir!» .

İndi isə Allahın izdivacla bağlı buyruğunu, Onun gələcək ailə xərclərinə zəmanət olmasını bəyan edən «Nur» surəsinin bir ayəsini diqqətinizə çatdırırıq:

«Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü, mərhəməti) geniş olan və (hər şeyi) biləndir» .

Ayədə istifadə olunan «وانكحوا» (evləndirin) kəlməsi ərəb dili qrammatikası baxımından felin əmr formasıdır. Bu əmr cəmiyyətin hər bir fərdinə – bütün qadın və kişilərə aiddir.

Bu ayədən ailə həyatı qurmağa ehtiyacı olanların izdivaclarının zəruriliyi anlaşılır. Belə ki, onların paklıq və sağlamlığı yalnız bu yolla təmin oluna bilər. Digər bir cəhətdən isə ayədə ailələrin, xüsusilə də maddi imkanı olan ata-ananın öz övladlarını  oğul və qızlarını evləndirmələri zəruri hesab olunur.

## Nikah mərasiminin həyata keçirilməsindəki çətinliklər

Kişinin qadına, qadının da kişiyə olan meyli, xüsusilə qərizə qönçələrinin çiçəkləndiyi, şəhvət gülünün açıldığı bir vaxtda, izdivaca ehtiyac olduğu zaman onun qüvvətlənməsi təbii, insani və həyati bir məsələdir. Belə ki, bunu heç bir şəxs inkar edə bilməz.

Ailə həyatının ilk günlərində oğlan və qızın gələcək həyat mövzusundakı arzu, amal və məramı hər bir şəxs üçün, xüsusilə cavan qızı və ya oğlu olan valideynlər üçün gün kimi aydın bir həqiqətdir.

Cəmiyyəti günahdan, pozğunluqdan qorumaq üçün, izdivaca ehtiyac duyan qız və oğlanları vaxtında evləndirmək ən mühüm üslublardandır. Bu elə bir həqiqətdir ki, onu danmaq yalnız ağılsız, şüursuz və məntiqsiz insanlar tərəfindən baş verə bilər.

Bu səbəbdən ilk öncə valideynlərə, qohumlara, qız və oğlanların izdivac məsələsinə aidiyyəti olan hər bir şəxsə bu ilahi istəyi asanlaşdırıb, ən asan şəkildə həyata keçirmək vacibdir. Sonrakı mərhələdə isə bir-biri ilə ailə qurmaq istəyən qız və oğlanın şəhvət, meyl və istəklərinin öz təbii yolu ilə cərəyan etməsi, gələcək xoşbəxt ailənin təməl daşının

qoyulması, dünya və axirət səadətinin bərpası üçün bir-birlərinə qarşı yersiz tələblərdən, pis şəraitin meydana gətirilməsindən qəti surətdə çəkinmələri zəruridir.

Şübhəsiz ki, Quran ayələrində, rəvayətlərdə, hədislərdə Allah-təalanın bu kimi işləri, xüsusilə öz qız və oğlanlarının ailə qurmasını asanlaşdıran insanların dünya və axirətdə, məhşər hesabında işlərini asanlaşdıracağı buyurulur. Bunun əksinə olaraq, hər bir işi çətinləşdirən, xalq dili ilə desək, hər bir sahədə tükü tükdən seçən və bununla da, öz övladlarının şəhvət və qərizələrin qələbəsi nəticəsində müxtəlif psixoloji, əsəbi xəstəliklərə tutulmalarına, onların pak çöhrələrinin günaha aludə olmalarına, arzu və amallarının puça çıxmasına bais olanları dünya və axirətdə, xüsusilə də məhşərdə Haqqın qəzəbi və əzabı gözləyir.

İzdivac və nikah məsələsində çox diqqət və xırdaçılıq etmək insanı, özü də bilmədən, problemlərlə qarşılaşdırır.

Təbiətdə iki ünsürün tərkibi olduqca asan olmasaydı, təbii ki, bu gün gördüyünüz varlıq aləmi də olmazdı.

Analar və atalar, qız və oğlanlar! Bu ilahi və insani təşəbbüsün həyata keçirilməsini, mehriyyənin təyin olunmasında şəraitin yaradılmasını, nikah və toy mərasimlərinin, öz məhəlli adət-ənənələrinizin həyata keçirilməsini çətinləşdirməyin. Hər iki ailənin imkanı xaricində olan tələblər irəli sürməyin. Qoyun izdivac məsələsi olduqca asan başa gəlsin ki, Allah da dünya və axirətdə sizinlə asan davransın.

Təqva əhlinin getdiyi yolla gedin və onlardan dərs alın. Öz həyatınızı o övliyaların xüsusiyyətləri əsasında qurun. Çünki

xoşbəxtlik və səadət, dünya və axirət xeyrinin təmin olunması, əzəli və əbədi camal aşiqlərinin həmkarlığı ilə əldə olunur.

Əli (ə) təqva əhlini belə vəsf edir: «Özlərini hər bir aludəçilikdən qoruyurlar. Onların ehtiyacları olduqca azdır. Hər hansı bir xeyir iş onlardan gözlənilir və hamı onların şərrindən amandadır».

Hər halda, izdivacın həyata keçirilməsi ilə əlaqəli olan şəxslər yersiz və imkan xaricində olan tələblər irəli sürməkdən, həva-həvəsin tabeçiliyində yanlış adət-ənənələrə uymaqdan, digərləri ilə bəhs etməkdən, bir sözlə, nikahın bütün məsələlərini çətinləşdirməkdən çəkinməli və izdivacın təməlini ilk günlərdən asanlıqla, xeyirli məsləhətlər və Allah-Təalanın razılığı əsasında qurmalıdırlar.

Kişi ailə qurduqdan sonra öncədən izdivac məqsədi ilə görüb-bəyəndiyi, ailə qurduğu qadınla ailə həyatını davam etdirməli və ilahi rəhmətin davamının qarantı olmalıdır. Qadın da ərliyə qəbul etdiyi şəxs üçün problem yaratmamalı və bütün sahələrdə onun hüquqlarına riayət etməlidir.

Bir-birinin hüquqlarına riayət etmək mehriyyənin çoxluğu, çox xərc aparan məclislər qurulması, həddən artıq qonaq dəvət olunması və yersiz, qeyri-məntiqi adət-ənənələrin keçirilməsi ilə müyəssər olmur. Bir-birinin hüquqlarını tapdalamamaq münasib həyat yoldaşı seçmək, sadə proqramlar icra etmək, hər iki ailə tərəfindən İslam əxlaqına, ilahi və insani haqlara riayət etmək, aradakı məhəbbət və səmimiyyəti davam etdirmək, müxtəlif ruhi və əsəbi xəstəliklərə yol açan ixtilaf və dava-dalaşa yol verməməklə müyəssər olur.

Əli (ə) və Fatimənin (s.ə) birgə yaşadıqları ailə həyatı hər bir kişi və qadın üçün ideal həyat dərsidir.

Fatimə (s) ailə üzvlərinin, xüsusilə də öz həyat yoldaşının aramlığına bais olur və ailədə yaşam zəminələrini yaradırdı. Əli (ə) də ən nümunəvi ailə başçısı, mehriban ata və övlad tərbiyəçisi, ev işlərində ən yaxşı həmkar idi. O, evin gündəlik ailə işlərindən belə çəkinmirdi. Təmizlik işləri ilə məşğul olur, xəmir yoğurur və uşaq saxlayırdı. Ev işlərinin idarəsinin öz həyat yoldaşı üçün asan olmasını və bütün işlərin Fatimənin (s.ə) üzərinə düşməməsini təmin edirdi.

Qadın və kişi bir-birinin hüquqlarını tam qorumalıdırlar. Güman etməməlidirlər ki, zülm yalnız Firon, Nəmrud kimi zalımların etdiklərinə deyilir. Qətiyyən belə deyil! Nahaqdan digər bir şəxsin qəlbinin inciməyi belə, zülm adlanır. Allah zülmü və zalımı sevmir. Kimin tərəfindən olursa olsun, azacıq zülmdən belə xoşu gəlmir.

Gələcək söhbətlərimizdə, tədricən, ailə həyatı ilə bağlı bütün məsələlərə toxunacağıq. Söhbətimizin bu yerində izdivacın əhəmiyyət və dəyəri, nikahın xeyirləri və bir çox digər məsələlər haqqında bir neçə etibarlı qaynağa əsaslanan hədisi diqqətinizə çatdırmaqla kifayətlənir və sizi bu hədislərə diqqət yetirməyə dəvət edirik. Çox güman ki, bu yolla İslam mədəniyyətinə heç bir mədəniyyətin tay ola bilməyəcəyi məlum olacaqdır.

## Rəvayətlər baxımından izdivacın əhəmiyyət və dəyəri

Peyğəmbər (s) buyurur: «Haqqın rəhməti dörd yerdə insana tərəf üz tutur: yağış yağarkən, övlad məhəbbətlə atanın üzünə baxarkən, Kəbə evinin qapısı açılarkən və iki nəfərin bir-biri ilə ailə qurub yeni həyata qədəm qoyduqları zaman»; «Ailə qurun, (subay) gənc qız və oğlanlarınızı evləndirin.

Müsəlmanın xoşbəxtlik nişanələrindən biri budur ki, bir qadının ailə qurmasının xərcini öz öhdəsinə götürsün. İslamda Allah yanında nikah vasitəsi ilə abadlaşan ev qədər sevimli bir şey yoxdur»; «Subay kişilərinizi evləndirin ki, Allah əxlaqlarını gözəlləşdirsin, ruzilərini çoxaltsın və igidliklərini artırsın»; «İzdivac mənim sünnəmdir. Mənim sünnəmdən üz döndərən şəxs məndən deyil»; «İzdivac edən hər bir şəxs dinin yarısını qazanmışdır. Qalan digər hissəsi üçün də təqvaya riayət etsin».

İmam Sadiq (ə) buyurmuşdur: «Atam həzrət Baqir (ə) yanına gələn bir kişidən soruşdu: «Ailəlisənmi?». Kişi «yox»- deyə cavab verdi. Atam dedi: «İstəmirəm dünya və onda olanlar mənim olsun, amma bircə gecə həyat yoldaşımsız sübh edim». Sonra atam sözünü davam etdirərək buyurdu: «Ailəli adamın iki rəkət namazı, subay adamın gecə ibadət edib, gündüz oruc tutmasından yaxşıdır».

Sonra atam həmin şəxsə 7 dinar verib buyurdu: «Bu pulla ailə qurmaq üçün bütün imkanları yarat. Çünki Peyğəmbər (s) buyurmuşdur: «Ailə qurmaq ruzinin artmasına bais olur».

Rəsuli-Əkrəm (s) buyurur: «Ey cavanlar! Hansınızın imkanı varsa, evlənsin. Bu işlə gözləriniz qadınlara baxmaz və günahdan qorunarsınız»; «İslamda Allah yanında heç bir iş izdivac qədər sevimli deyil»; «İzdivac edən hər bir şəxs səadətin yarısını əldə etmişdir»; «Şeytan cavanlığının əvvəllərində evlənən şəxsi görüb, «dininin üçdə iki hissəsini mənim əlimdən qurtardı» - deyə fəryad edir. Ona görə də, Allah bəndəsi dininin üçdə birini qorumaq üçün təqvaya riayət etsin».

Görün, ailə qurmaqda necə də ülvi dəyərlər var. Ailə quran qadın və kişiyə nə qədər mənfəət nəsib olur və İslam ailə qurmağa necə böyük əhəmiyyət verir.

Kaş, ailələr bu ilahi və insani işin asanlaşması yolunu açaydılar. Çətinləşdirmələri, imkan xaricində olan işlərin həyata keçirilməsi cəhdlərini aradan qaldıraydılar. Bu mərasimi özlərinə münasib şəkildə həyata keçirəydilər. Qənaətlə, mümkün olan yolu keçəydilər. Nəticədə, qızlar və oğlanlar öz təbii meyllərinə çatar, arzularını həyata keçirər, haqqın neməti olan şəhvət və qərizələri nemətin küfrünə çevrilməz və onların pak qəlbləri günah və harama aludə olmazdı.

Arzu və amalların ürəkdə qalması, şəhvət və qərizələrin öz yolunu azması, günah və aludəçiliyin artması, öz cinsi tələbini müxtəlif yollarla doyurma, zina, gözlərin başqalarına dikilməsi və günaha meyllilik, digərlərinin namusuna təcavüz, ibadətdə tənbəllik və təhsildə süstlük, əsəb və psixoloji xəstəliklərin meydana gəlməsi və digər bu kimi ictimai və fərdi bəlaların kökü haradandır?

Bütün bu sualların cavabını ilk növbədə izdivac məsələsini çətinləşdirən, yanlış adət-ənənələrin əsirinə çevrilən, digərləri ilə bəhsə girən valideynlərdən, ikinci növbədə təqvadan kənar olan oğlan və qızlardan, üçüncü növbədə isə cavanların izdivac yolunu açmaq imkanı olub, lakin Allah yolunda pul xərcləməyə ürəyi gəlməyənlərdən soruşmaq lazımdır. Əgər bu dünyada hər hansısa bir qəbul olunan məntiqi və əqli cavab varsa, yəqin bilsinlər ki, o dünyada, qiyamətdə ilahi ədalət məhkəməsində də həmin cavabı verməli olacaqlar«Özünüzü və əhli-əyalınızı oddan qoruyun» .

Valideynlər uşağın yanan təndirə, manqala, qaza düşməsinə mane olduqları, onu hər hansısa bir təhlükəyə yuvarlanmaqdan qoruduqları kimi, ilk növbədə, qiyamətdə təqvasızlığın, pis əxlaqın, imansızlıq və qeyri-saleh əməllərin nəticəsi olan atəşdən də qorumalıdırlar. Övladı sabahın əzabından qorumağın yolu ilk növbədə valideynlərin təqvalı olması, sonrakı mərhələdə isə bu təqvanın tərbiyə vasitəsi ilə uşaqlara ötürülməsidir. Valideynlər öz uşaqlarının tərbiyəsində çox səy göstərməli və onlara ən çox can yandıran şəxs olmalıdırlar. Onlar öz vücudlarını təqva, iman və saleh əməllə zinətləndirməli, sonra isə uşağın tərbiyəsinə, saflaşdırılmasına çalışmalıdırlar. Əxlaqi sifətləri övladlarına təlim edərək, onu pis dostlardan və pis müəllimdən qorumağa cəhd etməlidirlər.

Valideynlər övladının həyat amalının həddən artıq zinətlənməsinə, israf, bəzək-düzək və var-dövlətə çevrilməməsinə səy göstərməlidirlər. Əks təqdirdə, həmin uşaq sabahın tamahkar, həris, qarətçi və özbaşına bir ünsürünə çevriləcək. Başqa sözlə desək, cəmiyyət binası təqvasız insanla, puç ideyalar üzərində qurularsa, bu bina öz başına uçulacaq və o cəmiyyətin həyatı hamı üçün dözülməz bir şəkil alacaq.

Lakin hər bir ailənin təməli təqva olar, qadın və kişi pərhizkarlıqla zinətlənər və valideynlər təqvalı uşaq tərbiyə edərlərsə, bu zaman cəmiyyətin islah əməl müəssisələrinə, məmur çoxluğuna, bir çox məhkəmə və mühakimə orqanlarına ehtiyacı olmayacaqdır. Belə bir şəraitdə dövlətin oğurluğa, pozğunluğa, qarətçiliyə qarşı xərclədiyi ağır vəsait, millətin və əhalinin rifahı yolunda istifadə olunacaqdır.

# TƏQVA ƏHLİNİN ƏLAMƏTLƏRİ

Dinin elmi şəxsiyyətləri Qurandan və rəvayətlərdən istifadə edərək, aşağıdakı xüsusiyyətləri təqva əhlinin nişanələrindən hesab etmişlər: İnsanın fərdi davranışı, əxlaqı, ticarət, ailə və cəmiyyətlə qurduğu əlaqələri tənzimləyəcək qədərincə şəri elmlərlə tanış olmaq; Səhiyyə, qidalanma qaydalarına riayət etməklə öz sağlamlığını qorumaq; Həyati məsələlərdə fərasətli və diqqətli, həyatın bütün sahələrində sədaqətli olmaq; Nəfsin saflığını qorumaq, danışıqda sədaqət, əxlaqi keyfiyyətlərlə zinətlənmək, rəzil sifətlərdən pak olmaq, riya və ikiüzlülükdən çəkinmək, yaşayışda lazımsız maddi ləvazimata nifrət bəsləmək, hiylə və xəyanətdən uzaq olmaq, elm və fəzilət əhlinə qiymət vermək, şəri vəzifələri – vacibat və müstəhəbbatı həyata keçirmək, insanı Allahın dini, halal və haramı ilə tanış edən elm adamlarına ki, insanın inkişaf və tərəqqisinin qarantıdırlar, üz tutmaq və s.

İmam Sadiq (ə) bu həqiqətə, yəni din aliminə üz tutmağa toxunaraq buyurur: «Çox yalan danışan insanın xüsusiyyəti budur ki, göydən və yerdən xəbər verir, lakin Allahın halal və haramı haqqında bir şey soruşsan, cavab verə bilmir».

Sadalananlardan əlavə, müxtəlif hadisələr üz verdikdə səbir etmək, bütün sahələrdə İslamın qoyduğu yolla getmək, daim təfəkkür və zikrlə məşğul olmaq, niyyətdə ixlaslı olmaq, nəfsi saf saxlamaq və bu yolu keçməklə «yəqin elmi»nə, yəqin elmindən də «eynül-yəqin»ə nail olmaq kimi xüsusiyyətlər də təqva əhlinin nişanələrindəndir.

## TƏQVALI QADIN VƏ KİŞİ

Ailə başçısı olan təqvalı kişi ailəsinin xərcini yalnız halal yolla təmin edir, halal maldan qeyrisini qəbul etmir. O, halal yolla pul qazanmaqla, onunla əlaqəli olan şəxslərin hüququnu qoruyur. Başqa sözlə desək, onun evdən xaricdə də heç bir Allah bəndəsinə ziyanı toxunmur. O, ilahi təqva sayəsində haram ətrafına dolanmır, nəfs saflığı və qənaət xəzinəsini əldən vermir.

Təqvalı ailə başçısı iş vaxtını sona yetirdikdən sonra evə gəldikdə, bütün yorğunluq və əzginliyini evə daxil olmazdan öncə kənara qoyub, tam şən və gülər üzlə evə daxil olur. Xanımına baxaraq, aşiqanə təbəssüm edir. Onun gün ərzində evin təmizliyində, biş-düş etdikdə, uşaqlarını saxladıqda çəkdiyi zəhmətləri dəyərləndirir. Onunla və uşaqları ilə olduqca səmimi və mehriban davranır. Hər birinə lazımi hörməti göstərir.

Təqvalı ailə başçısı ailə üzvlərinin dindən və dindarlıqdan qafil olmamaları üçün daim onlara Allahın halal və haramını, pislik və yaxşılıqları xatırladır. Bütün ömrünü və vaxtını evdən xaricdəkilərə sərf etmir, öz gülüş və təbəssümlərini yalnız dostları üçün saxlamır, məscidə getməkdə, məzhəbi məclislərdə iştirak etməkdə ifrat etmir. O, başa düşür ki, İslam bütün işlərdə, hətta ibadətdə belə normal, orta səviyyəyə riayət etməyi lazım bilmişdir. Dostlarla görüşmək, məclislərdə iştirak etmək bəhanəsi ilə ailə üzvlərinin  həyat yoldaşının və uşaqlarının hüquqlarını tapdamır.

Söhbətimizin bu yerində İslam göstərişləri əsasında məscid və digər bu kimi ictimai yerlərdə çalışan şəxslərə tövsiyə edirəm: məscid və digər məkanlarda təşkil olunan iclaslarda camaat namazı qılıb bir neçə dəqiqə İslam maarifi, əhkamı,

Əhli-beyt (ə) müsibəti zikr etməklə kifayətlənin. Bu, Peyğəmbər (s) və imamların (ə) üslubudur. Onlar az vaxtla, nitqlə böyük insanlar tərbiyə etmişlər.

İbadətdə, xüsusilə də müstəhəb ibadətlərdə ifrata varmaq, məclisləri uzatmaq dinləyicini yorur və tədricən onun psixologiyasında məzhəbi proqramlara qarşı nifrət oyadır. Bəzən müşahidə olunan belə hallar məscid və heyətlərə, xalqa, xüsusilə də tutumu az olan insanlara ziyandan başqa bir şey bəxş etmir.

Hər halda, təqvalı ailə başçısı həyatın bütün sahələrində lazımi ədəb qaydalarına riayət edir və bu yolla öz ailəsinin təməlini möhkəmlədərək, həyat yoldaşının və övladlarının məhəbbətini, sevgisini qazanır.

Təqvalı qadın da öz növbəsində iffət, ismət və paklığını hifz edir. Ev işlərini böyük maraqla görür. Öz həyat yoldaşının iş nəticəsində yaranmış yorğunluğunu aradan qaldırmaq üçün bütün mümkün vasitələrdən istifadə edir. Övladlarına yaxşı baxır. Həyat yoldaşı və övladları ilə İslamın əxlaqi dəyərləri əsasında davranır. İbadətini unutmur. Evini eşq, məhəbbət, səmimiyyət yuvasına çevirir.

Təqvalı qadın ilahi prinsiplər əsasında həyat yoldaşına tabe olur. Onun bütün haqlı tələblərinə müsbət cavab verir. Həyat yoldaşının qohumları ilə mehriban, səmimi davranır. Yoldaşı işdən qayıdarkən ona xoş üz göstərir, işə gedərkən xoş üzlə yola salır və ondan halal ruzi qazanmasını xahiş edib, az olsa belə halal ruzi ilə kifayətlənəcəyini ona çatdırır. O, öz ərinə daim xatırladır: «Heç zaman ailə-uşağının var-dövləti bəhanəsi ilə Allah qanunları çərçivəsindən çıxıb, həyatımızı harama aludə etmə».

Təqvalı qadın digərləri ilə bəhs etməkdən çəkinir. Həyat yoldaşını, «qohumlarla eyni səviyyədə yaşamalıyıq» - deyə, çətinliyə salmır.

Isra suresi, aye 23

Belə qadın və kişi Allahın razılığını cəlb etmiş, xeyir mənbəyi və ilahi insanın bariz nümunəsidir. Onların sayəsində Allahın istədiyi ailə təşkil tapır və belə bir ailədə Allah bəyənən uşaqlar tərbiyə olunur.

Bir sözlə, qadın və kişi ailə həyatının bütün sahələrində İslam maarifi, ilahi göstərişlər əsasında övliyalar kimi bir-birlərini başa düşməlidirlər.

## EV VƏ AİLƏ ÜÇÜN ÇALIŞMAQ İBADƏTDİR

İzdivac, ailəli olmaq, övlad tərbiyəsi müsbət dünyəvi nəticələrdən başqa, bir çox mənəvi mənfəətlərə də yol açır.

Həyat yoldaşının və övladlarının ehtiyacını təmin etmək üçün işləyib çalışmaq pak İslam mədəniyyətində böyük ibadət, hətta Allah yolunda cihad etməyə bərabər bir ibadət sayılır. Belə ki, məsumlardan bizə gəlib çatmış bir rəvayətdə buyurulur: «Allah halalı ilə ailəsinin ehtiyaclarını ödəməyə çalışanlar Onun yolunda cihad edənlərə bərabərdirlər».

Həyat yoldaşının və övladların hüquqlarını qorumaq, onların mənəvi həyatına diqqət yetirmək, həmçinin qadının da ərinin və uşaqlarının hüquqlarına riayət etməsi çox çətin bir iş və Allah əmrinin icrası olduğundan, onların maddi ehtiyaclarını təmin etmək kimi böyük savab və əcrə malikdir.

Sağlam nəsil, layiqli övladlar tərbiyə edib cəmiyyətə təhvil vermək, Allah razılığı olan ailəni və ailə üzvlərini günah və fəsaddan uzaq saxlamaq, onların təkamül və tərəqqisi üçün zəmin yaratmaq isə çox mühüm bir iş və Allaha ibadətdir.

Dördüncü imam (ə) öz həkimanə bir kəlamında buyurmuşdur: «Maddiyyat və mənəviyyat süfrəsini öz qadını və övladlarının üzünə açan hər bir şəxs Haqqın razılığına digərlərindən daha yaxındır».

# Nəticə

Cəmiyyət ailənin məhsuludur. Hər hansı bir millətin prezidenti, naziri və digər məsul işçiləri ailədə formalaşmışlar. Onların tərbiyəsi və şəxsiyyətlərinin formalaşmasının əsas mənbəyi ailə və ailə başçıları olmuşdur.

Ailə bir torpağa bənzəyir. Əgər torpaq lazımi qayğıdan uzaq olsa, duzlu bir çöl olaraq qalacaq. Nə gül bitirəcək, nə də sünbül. Lakin ona lazımi qayğı göstərilərsə, bu zaman ondan gül, sünbül və ya hər hansısa bir məhsul gözləmək məntiqə uyğun olar.

Xoşbəxtlik və bədbəxtlik insana ilk növbədə valideynlərindən keçir. Əgər valideynlər öz övladlarının səadəti yolunda çalışsalar, böyük ibadət etmiş və izdivacın əbədi mənfəətlərindən bəhrələnmiş olarlar. Lakin onların bədbəxtlik amilinə çevrilsələr, müqəddəs izdivac prosesindən faydalanmamış və öz əlləri ilə özləri üçün ziyan süfrəsi açmış olarlar. Bu səbəbdən İslamın yüksək maarif dolu rəvayətlərindən birində həzrət Peyğəmbərdən (s) nəql olunur: «Hər bir bədbəxtin bədbəxtliyinin amili anasının bətnində, hər bir xoşbəxtin də xoşbəxtliyinin amili anasının bətnindədir».

Böyük şair Kəlim Kaşaninin dili ilə desək:

- Əz kuze həman brun təravəd ke dər ust.

- Mənası:

- Bir səhəngdən yalnız onun içindəkilər bayıra tökülə bilər.

- Deməli, valideynlər övladlarının varlıq səhənginə nə töksələr, onun beynini, qəlbini hansı şəkildə formalaşdırsalar,

onu hansı proqramlara qarşı sövq etdirsələr, gələcəkdə övladları cəmiyyət üçün həmin miqdarda da faydalı olacaqlar.

Deməli, birinci növbədə əsas vəzifə valideynin öhdəsinə düşür. Valideyn həm uşaqla davranışında, həm də, bir-birilərilə, digər ailə üzləri ilə rəftarında gözəl əxlaq nümayiş etdirməlidir ki, bu uşağın beyinaltı qavramına həkk olunsun.

## Mənbələr


1. Qurani-Kərim
2. Nəhcül-bəlağə
3. Məhəmməd Bair, Məclisi, Biharül-ənvar, 1388 q.
4. Məhəmməd ibn Həsən, Hürr Amoli Vəsailüş-şiə, Beyrut, 1995
5. Mühəddis Qummi Kəhlül-bəsər,
6. Süleyman İbn Əhməd, Təbrani əl-Möcəmul-kəbir
7. Cəlaləddin Süyuti Kənzül-ümmal, 1388 ş.
8. Feyz Kaşani, Məhəccətül-beyza, 1959
9. Kuleyni, Üsule-Kafi, Qum, 1390